# AZƏRBAYCAN

**1'2023**

**1923-cü ildən çıxır**

## AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI

**Baş redaktor:** İntiqam QASIMZADƏ

**Baş redaktor müavini:** Südabə AĞABALAYEVA

**Məsul katib:** Vüsal NURU

**Şöbə müdirləri:** Məmməd ORUC,
Qəşəm NƏCƏFZADƏ,
Mübariz CƏFƏRLİ

**Redaksiyanın ünvanı:**
Bakı - Az1000
Xaqani küçəsi, 25

**Telefonlar:**
*Redaksiya* –
498-78-10
493-28-32
493-2834
*Mühasibat* –
493-29-41

**Çapa imzalanıb:**
10.01.2023
**Sifariş 60**
Tiraj 500
**Kağız formatı**
70x108 1/16 - 6,5
kağız vərəqi
13 çap vərəqi
18,2 şərti çap vərəqi

**E-mail:**
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru
**www.azyb.az**

**Qiyməti**
**2 manat**

**Bakı şəhəri, "Azərbaycan" nəşriyyatının mətbəəsində ofset üsulu ilə çap olunur**

**Dərc olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir və qaytarılmır.**
**Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.**

## BU SAYIMIZDA:

### “Azərbaycan” – 100

İNTİQAM QASIMZADƏ – Baş redaktordan ........ 3
ANAR – Yüz yaşın mübarək, “Azərbaycan”! ........ 5
ELÇİN – 100 ilin mühüm ədəbi salnaməsi ........ 7
İSA HƏBİBBƏYLİ – Davamlı ədəbi ənənələrin və yeniləşmələrin jurnalı ........ 10
ZÜMRÜD DADAŞZADƏ – Ruhumuzun mücəssəməsi – “Azərbaycan” ........ 24
ƏLİ ƏMİRLİ – Ədəbiyyatın yolu “Azərbaycan”dan keçir ........ 112
HÜSEYNBALA MİRƏLƏMOV – “Azərbaycan” jurnalı: sözə sədaqətin ədəbi ünvanı ...... 122
FİRUZƏ MƏMMƏDLİ – Teleqram ........ 123
RÜSTƏM KAMAL – Azərbaycanın “Azərbaycan”ı ........ 135
SÜDABƏ AĞABALAYEVA – Yüz ilin birinciləri ........ 168

### POEZİYA

SÜLEYMAN ABDULLA – Şeirlər ........ 15
FUAD NOVRUZLU – Şeirlər ........ 33
SEVİL GÜL NUR – Şeirlər ........ 116
AVDI QOŞQAR – Şeirlər ........ 124
ƏTRAF SƏRRAF – Şeirlər ........ 150
RAMİZ ORSƏR – Şeirlər ........ 163

### NƏSR

MÜBARİZ CƏFƏRLİ – Möhlət (roman) ........ 39

### YENİ TƏRCÜMƏLƏR

MARİO VARQAS LYOSA – Əlbəyaxa döyüş (hekayə) ........ 137

### DÜNYA, SƏNDƏN KİMLƏR KEÇDİ...

LEYLA KAMRANQIZI – Bir ömrün akkordları ........ 156

### RETRO “AZƏRBAYCAN”

CƏLİL MƏMMƏDQULUZADƏ – Zırrama ........ 174

### AXTARIŞLAR, TAPINTILAR

HACI FİRUDİN QURBANSOY – Həkim ata Süleyman Bağırğaani ........ 177
PAŞA ƏLİOĞLU – Nəş`ə Təbrizi ........ 187

### ƏDƏBİ PORTRETLƏR

VAQİF YUSİFLİ – Orxan Paşa, nə dilərsən? ........ 196

### TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

ELNARƏ QARAGÖZOVA – Ərafda bir yazıçı – Etimad Başkeçid:
dünya ilə vətən arasında ........ 200

### KİTABLAR, RƏYLƏR

ZEMFİRA MƏHƏRRƏMLİ – “ Qaraqaşlı”: dirçələn qürurumuzun romanı ........ 203

### KİTAB RƏFİ ........ 207

# "Azərbaycan" – 100

*"1923-cü ilin yanvarında "Maarif və mədəniyyət" adı ilə fəaliyyətə başlayan, sonralar isə müxtəlif adlar altında belə bir mətbu orqanın nəşri o vaxt təkcə respublikamızda deyil, eləcə də bütün bölgədə bənzəri olmayan mədəniyyət hadisəsi idi."*



* * *

*"Azərbaycanın mütərəqqi mətbuatının ənənələrini davam etdirən jurnal ötən səksən il ərzində söz sənətimizin daha da zənginləşməsi işinə xidmət etmiş, oxucuların bədii-estetik zövqünün inkişaf etdirilməsi vəzifəsini şərəflə yerinə yetirmişdir..."*

**Heydər ƏLİYEV**

Bu sözlər düz 20 il öncə – "Azərbaycan" jurnalının 80 illik yubileyi günlərində ümummilli liderimiz, unudulmaz Heydər Əliyevin jurnalın kollektivinə ünvanladığı təbrik məktubundandır. Keçən 20 il ərzində də jurnal, ulu öndərin dediyi kimi, "söz sənətimizin daha da zənginləşməsi işinə xidmət etmiş, oxucuların bədii-estetik zövqünün inkişaf etdirilməsi vəzifəsini" şərəflə yerinə yetirməyə çalışmışdır.

Ümumiyyətlə, yarandığı gündən bu günə kimi "Azərbaycan" jurnalı qarşısına qoyduğu məqsəd və vəzifələrə – ədəbiyyatın, incəsənətin, elm və maarifin inkişaf etdirilməsinə, oxucuların, xalqın mənəvi ehtiyaclarının ödənilməsi işinə hər zaman sadiq qalmışdır. Bu 100 il ərzində jurnalın ən müqəddəs vəzifələrindən biri, bəlkə də birincisi, dilimizin saflığını qorumaq olmuşdur.

“Azərbaycan” jurnalının ədəbi-bədii dərgi olaraq özünün bir obrazı var; bu obraz illərlə redaksiyada çalışan görkəmli ziyalılarımızın, o cümlədən tanınmış yazıçılarımızın bilik və təcrübə peşəkarlığı hesabına onların ədəbiyyata münasibətdə milli-mədəni və ümuminsani əxlaq prinsipləri sayəsində formalaşmışdır. Biz XXI əsrdə, müstəqillik dövründə, yeni siyasi-iqtisadi münasibətlər şəraitində də bizə miras qalmış bu dəyərləri qorumağa çalışırıq.

“Azərbaycan” jurnalının obrazı dedikdə, bunu daşlaşmış cansız bir abidə kimi başa düşmək lazım deyil. Jurnal ədəbiyyatımızın salnaməsidir, güzgüsüdür; zaman-zaman ədəbiyyatımızda: istər, nəsrimizdə, istər, poeziyamızda, istərsə də, tənqid və ədəbiyyatşünaslığımızda gedən yeniləşmə, müasirləşmə prosesi burda da öz yerini, əksini tapır və jurnal ədəbiyyatımızla paralel olaraq yeniləşir, müasirləşir; əlbəttə, öz genetik kodunu saxlamaq şərtilə...

Ədəbiyyatda müasirlik deyiriksə, buna əsasən axtarışlar yolu ilə, eksperimentlər etməklə nail olunur. Sənətdə, o cümlədən ədəbiyyatda eksperimentlərə, heç şübhəsiz, həmişə yer var. Aydındır ki, bu zaman söhbət forma və bədii təsvir vasitələri istiqamətində axtarışlardan gedir; “Azərbaycan” jurnalı belə axtarışları və bu axtarışlar zamanı labüd olan yenilikləri – əlbəttə, sağlam, ağıllı, dərrakəyə sığışacaq həddə – alqışlayır. Səhifələrimiz hər zaman müasir düşüncə, müasir zövq sahibi istedadlı qələm sahiblərinin oxucunu düşündürən, insan qəlbinə, ruhuna qida verə bilən əsərlərini səbrsizliklə gözləyir.

Bir il öncə mən jurnalımızın 99 yaşının tamamında “100-ə nə qaldı...” yazmışdım. Bəli, bircə addım qalmışdı. İl keçdi; uğurlu oldu – ölkəmizçün də, “Azərbaycan” jurnalı üçün də... Jurnal ilin sonuncu addımını atdı və 100 yaşını tamam edib, 2-ci 100 illiyinə qədəm qoydu.



Qədəmlərin mübarək!

***İntiqam QASIMZADƏ***

***ANAR***



# YÜZ YAŞIN MÜBARƏK, «AZƏRBAYCAN»!

Ədəbi mətbuatımızın flaqmanı «Azərbaycan» jurnalının yüz yaşı tamam olur. Tək Azərbaycan mətbuat tarixində deyil, dünya təcrübəsində də yüz il ərzində ardıcıl davamiyyətlə nəşr olunan ədəbiyyat toplusunun varlığı nadir hadisədir. Müxtəlif dövrlərdə müxtəlif adlarla çap edilən Baş ədəbi jurnalımız, istər sovet sisteminin, istərsə də, müstəqillik illərinin çətin sınaqlarından çıxmalı oldu. Sovet dövrünün müəyyən illərində sərt senzura yasaqları, dar ideoloji çərçivələr şəraitində fəaliyyət göstərməyə məcbur olan jurnalda hər halda, çağdaş ədəbiyyatımızın ən mühüm, yadda qalan əsərləri işıq üzü görüb, oxuculara çatdırılıb. İllər boyu jurnal səhifələrində yer almış yazıların bir qismi tarixin arxivində qaldısa, önəmli bir qismi ədəbiyyatımızın qızıl fonduna daxil olub. Sovet sisteminin ən ağır illərində belə, bu jurnal, ən azı, dilimizin keşikçisi oldu, onu çeşidli yad təsirlərdən qorudu, doğma dilimizi öz səhifələrində yaşatdı.

Müstəqillik illərində «Azərbaycan» jurnalı başqa cür çətinliklərlə üzləşdi. Müstəqil dövlətimizin ilk illərini yönəldənlərin ədəbi mətbuata, deməli, ədəbiyyata soyuq münasibəti, başqa mətbuat orqanlarımız kimi, «Azərbaycan» jurnalının da bağlanmasına səbəb ola bilərdi.

Çoxları dərk etmirdilər, bəziləri indi də dərk edə bilmirlər ki, ədəbiyyat əsasən ədəbi jurnallarn ətrafında yaranır. Bazar iqtisadiyyatı şəraitində hər bir şəxs müəyyən məbləğ ödəyib, yazdığı mətni hansısa nəşriyyatda çap etdirə bilər. Bəs belə maddi imkanları

olmayan yazıçılar neyləsin, yazdıqlarını oxuculara necə çatdırsın? Tutalım, kiçik bir hekayə, yaxud şeir qəzet səhifələrində də çap oluna bilər, bəs böyük romanlar, povestlər, poemalar, iri həcmli tənqid və tərcümə örnəkləri harda işıq üzü görə bilər?

Yalnız ədəbi orqanlarımız təqdim olunan yazıları nəinki pulu ödənilmədən çap edir, hətta müəlliflərə müəyyən qonorar da verir.

Əsərlərin bədii dəyərlərini əsas tutaraq çap edən mətbuat olmasa, həqiqi ədəbiyyat da yarana bilməz. Maddiyyat ucbatından əsl ədəbiyyatın solub-soluxması, surroqatlarla əvəz olunması isə ədəbi dilimizin varlığına da təhlükə yarada bilər.

Bütün bunları yaxşı dərk etdiyimiz üçün bazar iqtisadiyyatının çətin şərtləri şəraitində Yazıçılar Birliyi, başqa ədəbi orqanlarımız kimi «Azərbaycan» jurnalını da saxlaya bildi. Bir müddət əvvəlki ardıcıllıqla çıxa bilməsələr də, hər halda, «Ədəbiyyat qəzeti» də, «Azərbaycan», «Ulduz», «Literaturnı Azərbaycan» jurnalları da, «Qobustan» toplusu da fəaliyyətlərini dayandırmadı. Yalnız Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıdandan sonra Yazıçılar Birliyinin özü kimi, onun ədəbi orqanları da büdcəyə qəbul edildi və əvvəlki ardıcıllığıyla çıxmağa başladılar.

İstər, sovet dövrünün siyasi basqılarına, istərsə də, müstəqillik illərində iqtisadi əngəllərə baxmayaraq, jurnalın bədii səviyyəsinin saxlanmasında «Azərbaycan» jurnalına müxtəlif illərdə rəhbərlik etmiş Baş redaktorların və redaksiya əməkdaşlarının nəcib fəaliyyətlərini xüsusi dəyərləndirməyə dəyər. Bu cəhətdən «Azərbaycan» jurnalına son iyirmi beş ildə əsl cəfakeşliklə rəhbərlik edən ədəbiyyat fədaisi İntiqam Qasımzadənin xidmətini xüsusi minnətdarlıqla qeyd edirəm, jurnalın yüksək səviyyədə çıxmasını təmin edən bütün redaksiya işçilərinə dərin təşəkkürlərimi bir daha bildirmək istəyirəm.

Yüz yaşlı həmişəcavan «Azərbaycan» jurnalına eşq olsun!

Arzu edirəm ki, ən mötəbər ədəbi jurnalımız bundan sonra da uzun illər boyu yaşlı və gənc qələm sahiblərinin istedadlı əsərləriylə oxucusunu sevindirsin.

*ELÇİN*

# 100 İLİN MÜHÜM ƏDƏBİ SALNAMƏSİ



***– 1. –***

Mən bu qısa qeydləri 2022-ci ilin son günlərində yazıram, üzümüzə gələn 23-cü ilin ədəbi hadisələrindən biri də «Azərbaycan» jurnalının 100 illiyi olacaq.

Bu 100 ildə «Azərbaycan» jurnalı ədəbiyyatımızın əsas jurnalı olmuşdur.

«Azərbaycan» jurnalının 100 illiyi, əslində, Azərbaycan ədəbiyyatının son 100 illik tarixinin salnaməsidir.

Bu – adi 100 illik salnamə deyil, çünki söhbət Azərbaycan tarixinin siyasi-ictimai sarsıntılar keçirdiyi, epoxaların dəyişdiyi, inqilabi romantikaya uyduğu, ictimai fikirdə də, şəxsi həyatda da kataklizmlər, uğurlarla bərabər, faciələr də yaşadığı bir dövrdür və bütün bunları həmin dövrün ədəbiyyatı, olsun ki, tarixi tədqiqatlardan daha təfsilatlı, daha müfəssəl və canlı ifadə edir, daha dərin mənəvi-psixoloji qatlara sirayət edir, həm fərdi hiss-həyəcanları, həm də siyasi-ictimai panoramanı bədii əyaniliklə göstərir.

Ədəbiyyatımızın son yüzillikdəki mənzərəsi – yəni Azərbaycan bədii (və ədəbi!) dilinin bu 100 ilə sığışmayacaq qədər inkişafı, zənginləşməsi və təmizlənməsi, yaxud misal üçün, nəsrdə yeni janrların yaranması, formalaşması və onların ədəbiyyatımızın milli faktoruna çevrilməsi, yaxud poeziyamızda hecanın bədii-estetik miqyasının artması və ən yüksək faizli aparıcı vəznə çevrilməsi, yaxud da ədəbi tənqidimizin formalaşması və onun ictimai fikrin zənginləşməsindəki mühüm rolu və ədəbiyyatşünaslığımızda klassikamızın tədqiqində elmi-nəzəri səviyyənin müqayisəedilməz dərəcədə artması və sağlam (obyektiv!) milli təəssübkeşliyin ifadəsi – bütün bunlar «Azərbaycan» jurnalının yaratdığı həmin salnamənin səhifələridir.

***– 2. –***

«Azərbaycan»ın salnaməsi yalnız uğurlar salnaməsi deyil və bu salnamənin səhifələrində dövrün konyukturası da, Dali sürrealizmini xatırladan «ədəbi» hadisələr də (məs., «Dədə Qorqud»un faktiki olaraq «düşmən» elan edilməsi,

yaxud faciəvi 1937-39-cu illər repressiyasının ədəbiyyata soxulması və «ifşa»lar) həmin səhifələrdə qeyd olunub. Bu çox mühüm bir cəhətdir – söhbət, dediyim kimi, obyektiv salnamədən, özü konyukturaya uymadan dövrün ədəbiyyatını və ədəbi hadisələrini, təmayüllərini, mühitini olduğu kimi təcəssüm etdirən bir salnamədən gedir.

«Azərbaycan» jurnalının 100 ilin müxtəlif dövrlərində nəşr olunduğu adlara fikir verin: «İnqilab və mədəniyyət», «Maarif və mədəniyyət», «Revolyusiya və qultura», «Vətən uğrunda», «Revolyusiya və kultura», nəhayət, «Azərbaycan» və bura onu da əlavə etsək ki, bu adlar həmin 100 il boyunca ərəb-latın-kiril, yenidən latın qrafikaları ilə nəşr edilib – elə bunun özü də həmin 100 ilin nə qədər mürəkkəb və ziddiyyətli olduğundan, siyasi-ictimai və sosioloji mühitindən xəbər verir.

«Azərbaycan»ın nəşr olunduğu bu 100 ilin az qala yetmiş ili dediyim o mürəkkəb və ziddiyyətli Sovet dönəminin payına düşür və bu həmin dönəmdir ki, ədəbiyyata verilən siyasi qiymət bədii-estetik qiyməti üstələyib, bir sıra hallarda isə hakim ideologiya ilə inzibati tədbirlər (nikbin şişirtmələr və rəzil alçaltmalar) eynilik yaradıb, bədii cəhətdən sönük olsa da, «partiyalı» yazılar mükafatlandırılıb və təbliğ edilib, dərsliklərə salınıb və Sistem bu yazıların müəlliflərini, vaxtıyla yazdığım kimi, «istedadlı yazıçı», «böyük şair» vəzifələrinə (!) təyin edib, onlar yüksək tribunalara, xitabət kürsülərinə qaldırılaraq, ədəbiyyat generalları olublar. Ədəbiyyata vulqar-sosioloji münasibət bəzən mahiyyət etibarilə anti-ədəbiyyatı klassika elan edib və bu eybəcər (!) ədəbi vəziyyət yalnız Azərbaycan ədəbiyyatının yox, bütün sovet ədəbiyyatının ümumi mənzərəsində özünü biruzə verən cəhət olub. (Bir də ki, «sovet ədəbiyyatı» anlayışının özü süni bir şeydir, heç olmasa ona görə ki, bədii ədəbiyyatın əsas faktoru dilidir, «sovet dili» isə mövcud deyil.)

Ancaq eyni zamanda, həmin dövr ədəbiyyatımızda istedadın sosrealizm doqmalarına qarşı mübarizə apardığı bir zamandır və deyə bilmərəm ki, bu mübarizə həmişə şüurlu surətdə aparılıb, olsun ki, daha artıq dərəcədə təhtəlşüur olaraq mücadilə gedib, çünki sosrealizm doqmaları istedadın təbiətinə zidd idi və istedad, bu doqmaları heç vəchlə qəbul edə bilmirdi. O yerdə ki, istedad yol tapıb, sosrealizm çərçivələrindən çıxa bilirdi – bu, həmin əsərlərdir ki, bu gün də heç bir düzəliş olmadan nəşr olunur, bu gün də tamaşaya qoyulur, artıq sosrealizm etapını arxada qoymuş müstəqil Azərbaycanın oxucularına, tamaşaçılarına təqdim edilir.

Mən bu cəhətlərin üzərində ona görə dayanıram ki, bütün bu nəhəng ədəbi təsərrüfatı məhz «Azərbaycan» jurnalı çap edib və «Azərbaycan» jurnalının mühüm və ciddi bədii-estetik mənbə kimi qiyməti də ondadır ki, Sistemin tələb etdiyi konyukturanı da dərc edərək, dövrün tam ədəbi xarakteristikasını verib, ədəbi mühitin siyasi-ictimai koloritini olduğu kimi göstərməyi bacarıb.

Eyni zamanda, müstəqilliyimiz ərəfəsində və sonrakı ilk illərdə də – 1980-ci illərin sonu, 90-ların əvvəli – «Azərbaycan» jurnalı ağır, hətta məşəqqətli günlər

keçirib və hər vasitə ilə ağır durumdan çıxmaq üçün yollar axtarıb və maliyyə qıtlığına, nəşrin aybaay ardıcıllığının pozulmasına, həcmin azalmasına – bütün bu çətinliklərə baxmayaraq, «Azərbaycan» öz salnaməsini yazmağa davam edib.

«Azərbaycan» öz səhifələrində 30 il Qarabağ əzab-əziyyətini də çəkib və Zəfərlə bitən 44 günlük savaşdan sonra salnamənin tarixi Qələbə səhifəsini yazıb.

***– 3. –***

Mənim ilk hekayəm 16 yaşımda ikən, 1959-cu il 5 iyul tarixində, «Azərbaycan gəncləri» qəzetində dərc edilib, «Azərbaycan» jurnalında isə mənim ilk hekayəm – «Birinci və axırıncı dəfə, yaxud Mirzə Qənbərin əhvalatı» – 1960-cı ilin iyul nömrəsində çap olunub.

Bu gün mən həmin tarixləri «Biblioqrafiya»da axtarıb, dəqiqləşdirirəm, ancaq ötən illər ərzində o ilk çapların sevinci, fərəhi, ruh coşqunluğu tez-tez yadıma düşüb, yəqin həmişə mənimlə olduğu üçün belədir və «Azərbaycan gəncləri» gənclərin qəzetiydisə, «Azərbaycan» jurnalı nüfuzlu, sanballı bir ədəbi tribuna idi, buna görə də onun dərci hadisə olurdu, sevinci, fərəhi, ruh yüksəkliyi, yaratdığı coşqunluq hissi də eləcə sanballı idi.

Bu 100 ildə «Azərbaycan» jurnalı nə qədər ilk yazılar çap edib?

Çox və onların arasında ədəbiyyatımızın klassikləri, böyük nümayəndələri də az olmayıb.

İndi çox uzaqlarda qalmış o illərdə, o yeniyetməlik, ilk gənclik çağlarında İntiqam Qasımzadə ilə aramızda bu günə qədər də davam edən dostluq var idi (iş elə gətirdi ki, Universitetdə də eyni kursda oxuduq, aspiranturanı da bir yerdə başa vurduq) və mənim hələ əlyazmasında olan hekayələrimin ilk oxucularından biri, çox zaman da elə birincisi İntiqam olurdu və o vaxtlar «Azərbaycan» bizim üçün hündür mərtəbədə dayanmış ağır çəkili bir dərgi, redaktoru da yazı-pozusundan asılı olmayaraq, eləcə ağır çəkili bir söz sahibi idi.

İntiqamın atası, görkəmli şair və tərcüməçi, həyatdan çox tez getmiş Böyükağa Qasımzadə orada poeziya şöbəsinin müdiri işləmişdi.

Bu gün İntiqam Qasımzadə «Azərbaycan» jurnalının Baş redaktorudur.

Mən bunları yalnız ona görə yazmıram ki, oğul atanın yolunu şərəflə davam etdirir – bu, öz yerində, – həm də ona görə ki, «Azərbaycan» uzun yolun yolçuluğunu davam edir, artıq ikinci 100 ilin salnaməsini yazmağa başlayır.

*İsa HƏBİBBƏYLİ*



# Davamlı ədəbi ənənələrin və yeniləşmələrin jurnalı

Azərbaycanda milli mətbuat həm də ədəbi mətbuat kimi yaranmışdır. Azərbaycan mətbuatı bütün digər əsas fəaliyyət sahələri ilə yanaşı ədəbi mətbuatın da funksiyalarını həyata keçirmişdir. Milli mətbuatımızın ilk nümunəsi olan Həsən bəy Zərdabinin məşhur «Əkinçi» qəzetində dövrün bütün sahələri ilə bərabər, ədəbi-mədəni mühit və ədəbi nümunələr də öz əksini tapmışdır. Həsən bəy Zərdabi tərəfindən müəyyən olunmuş bu ənənə XIX əsrin axırlarında meydana çıxmış digər mətbuat orqanlarında da yaşadılmış və inkişaf etdirilmişdir. «Əkinçi» modeli XX əsrin əvvəlləri Azərbaycan mətbuatı üçün də bələdçi funksiyasını yerinə yetirmişdir. Milli mətbuatın böyük sürətlə inkişaf etdirildiyi və şəbəkəsinin genişləndiyi bu tarixi mərhələdə də mətbuat ədəbi mühitin güzgüsü olmuş, yazıçı və şairlərin əsərlərini oxuculara çatdırmışdır. XX əsrin əvvəlləri Azərbaycan mətbuatının yaradıcıları əsasən yazıçı və şairlər olduğu üçün mətbuatda ədəbiyyatın təqdim olunması və təbliği işi daha da genişləndirilmişdir. Dövrün yazıçı və şairləri mətbuat ətrafında cəmləşdirilmişdir. Bu cəhətdən Cəlil Məmmədquluzadənin «Molla Nəsrəddin» və Əli bəy Hüseynzadənin «Füyuzat» jurnalları daha çox irəli getmiş və ədəbi məktəb yaratmağa nail olmuşlar.

Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin Baş redaktorluğu ilə nəşr olunmuş məşhur «Molla Nəsrəddin» jurnalı Azərbaycan ədəbiyyatının inkişafında inqilabi dönüş yaratmışdır. Məhz «Molla Nəsrəddin» jurnalı Azərbaycançılıq ideyasını ədəbiyyatda və mətbuatda genişləndirmiş və möhkəmləndirmişdir. Azərbaycan ədəbiyyatında tənqidi realizm ədəbi cərəyanı «Molla Nəsrəddin» jurnalının əsasında formalaşmışdır. Realist-satirik ədəbiyyat və publisistika «Molla Nəsrəddin» jurnalının fəaliyyəti nəticəsində dərin ictimai məzmun, əsl vətəndaşlıq mövqeyi və siyasi kəsər qazanmışdır.

Görkəmli maarifçi ziyalı və böyük ədib Əlibəy Hüseynzadənin XX əsrin əvvəllərində nəşr etdirdiyi «Füyuzat» jurnalı Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas cəbbəxanası funksiyasını yerinə yetirmişdir.

«Molla Nəsrəddin» və «Füyuzat» jurnalları əsasən çoxprofilli ictimai-siyasi və ədəbi jurnallar olsalar da, ədəbiyyat ağırlıqlı mətbuat orqanları kimi fəaliyyət göstərmişdir. XX əsrin əvvəllərində bu jurnallar ədəbiyyata xüsusi önəm vermək və geniş yer ayırmaqla sanki həm də ədəbi mətbuat kimi çıxış etmişlər.

Bütün bunlarla bərabər, Azərbaycanda ədəbi mətbuat sovet dövründə yaradılmışdır. Azərbaycan Yazıçılar Birliyinin orqanı olan «Azərbaycan» jurnalı ölkəmizdə ədəbi mətbuatın başlanğıcıdır. 1923-cü ildən nəşr edilməyə başlayan «Azərbaycan» jurnalı ədəbi mətbuatın möhkəm bünövrəsi, etibarlı təməlidir. Bu jurnal 1923-1953-cü illərdə «Maarif və mədəniyyət», «İnqilab və mədəniyyət», hətta «Revolyusiya və kultura», «Vətən uğrunda» adları ilə nəşr olunsa da, bütün dövrlərdə Azərbaycan ədəbiyyatının inkişaf etdirilməsi, geniş oxucu auditoriyasına və elmi-ədəbi ictimaiyyətə çatdırılması vəzifələrini yerinə yetirmişdir. Müxtəlif adlarla çıxan həmin jurnallarda gedən ədəbi materiallar dövrün ədəbi gedişatı ilə yanaşı, o mərhələnin ideologiyasını da əks etdirmişdir. İdeologiya cəhətdən çox çətin və hətta gərgin dövrlərdə çap olunmalarına baxmayaraq, bu jurnalların səhifələrində yaddaqalan ədəbiyyat nümunələri də özünə yer tapmışdır. Yeni ədəbi nəsillərin formalaşması və inkişafında da «İnqilab və mədəniyyət» jurnalının və onun ardıcıllarının böyük rolu olmuşdur.

Nəhayət, 1955-ci ildə Yazıçılar İttifaqının «Azərbaycan» adlandırılan jurnalı sözün həqiqi mənasında geniş həcmə malik olan ədəbi mətbuat orqanı kimi fəaliyyətə başlamışdır. «Azərbaycan» jurnalı ölkə miqyasında yazıçı və şairlərin yaradıcılıq platformasını müəyyən edən əsas ədəbi mətbuat nümunəsinə çevrilmişdir. Bu jurnal müxtəlif tarixi mərhələdə mühüm ədəbiyyat vəzifələrini həyata keçirmişdir. Bu mənada «Azərbaycan» jurnalı ədəbiyyatımızın bir neçə mərhələsinin inkişafını əks etdirən mükəmməl mətbuat orqanıdır. «Azərbaycan» jurnalı ilk növbədə ölkə ədəbiyyatının çoxcildlik mətbu külliyyatıdır. Müxtəlif janrlarda "Azərbaycan" jurnalına çap olunmuş bədii əsərlərdən mükəmməl bir kitabxana yaratmaq mümkündür. Xüsusən, XX əsrdə Azərbaycan poeziyası və bədii nəsrinin əsas təkamül proseslərini «Azərbaycan» jurnalı vasitəsi ilə əyani şəkildə görmək və göstərmək olar. «Azərbaycan» jurnalında çap olunmaq həmişə yazıçı və şairlər üçün brend əldə etmək mənasını daşımış, özünü yazıçı və şair kimi təqdim və təsdiq etməyin barometri olmuşdur. Bütün dövrlərdə dünya ədəbiyyatından tərcümələrə də geniş yer ayırmış «Azərbaycan» jurnalı möhtəşəm bir tərcümə almanaxı seriyası yaratmaq vəzifəsini də uğurla həyata keçirmişdir.

Azərbaycanda tənqid və ədəbiyyatşünaslıq elminin inkişaf etdirilməsində də «Azərbaycan» jurnalı müstəsna rol oynamışdır. «Azərbaycan» jurnalı milli ədəbiyyatşünaslığın ən yaxşı nümunələrini daim geniş həcmdə ədəbi-elmi ictimaiyyətə təqdim etmişdir. Bu jurnal bir neçə nəsil tənqidçi və ədəbiyyatşünaslar üçün əsl məktəb olmuşdur. «Azərbaycan» jurnalı sözün həqiqi mənasında böyük ədəbiyyatşünaslıq məktəbidir. Jurnal ölkədə söz

sahibi olan tənqidçi və ədəbiyyatşünasların əsərlərini çap etməklə həm də ədəbi prosesi istiqamətləndirmək vəzifəsini həyata keçirmişdir. Bu yolla ədəbiyyatşünaslıq ədəbi prosesə daxil olmuş, qarşılıqlı surətdə zənginləşərək inkişaf etmişdir. «Azərbaycan» jurnalının təşkil etdiyi ədəbi müzakirələrdə, dəyirmi stol söhbətlərində də tənqidçi və ədəbiyyatşünaslar fəal iştirak etməklə həm də yaradıcılıq proseslərinə yaxından müdaxilə etmək missiyasını yerinə yetirmişlər. Bu mənada «Azərbaycan» jurnalı milli ədəbi tənqidin və ədəbiyyatşünaslığın ən aktiv tribunası funksiyasını həyata keçirmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının elmi jurnalları və ədəbi topluları və digər ədəbi jurnallar, məsələn «Ulduz» jurnalı təsis olunanadək uzun dövr ərzində «Azərbaycan» jurnalı yazıçı və şairlərlə yanaşı, tənqidçi və ədəbiyyatşünaslar üçün də əsas elmi mətbuat orqanı olmaq vəzifəsini də həyata keçirmişdir. «Azərbaycan» jurnalında çap olunmaq yazıçı və şairlər üçün olduğu kimi, tənqidçi və ədəbiyyatşünaslardan ötrü də elmi-ədəbi mühitdə etibar qazanmaq və özünü isbat etmək meyarına çevrilmişdir. «Azərbaycan» jurnalında üç-dörd dəfə çap olunmaq yaradıcı qüvvələr üçün yazıçılar mühitində də, alimlər arasında da qəbul olunmaq hesab edilmişdir.

Yazıçı və şairlərin əsas xitabət kürsüsü olan «Azərbaycan» jurnalı öz səhifələrində tənqidçi və ədəbiyyatşünaslara da geniş yer verməklə həmişə qoşa qanad ampluasında hər iki qanadın, yəni ədəbiyyatın və ədəbi tənqidin inkişafına xidmət etmişdir. Bununla belə, söz yox ki, Azərbaycan Yazıçılar Birliyinin orqanı olduğu üçün jurnalda bədii ədəbiyyat, xüsusən də şeir və nəsr həmişə əsas yer tutmuşdur. Dramaturgiya yalnız son illərdə «Azərbaycan» jurnalında çap olunmaq hüququ qazana bilmişdir. Tənqid və ədəbiyyatşünaslıq həcm etibarilə jurnalın üçdə-dörddə biri qədər iştirakçı olmaq imkanı əldə etmişdir. Lakin «Azərbaycan» jurnalına tənqidçi və ədəbiyyatşünasların – Mustafa Quliyevin, Məmməd Kazım Ələkbərlinin, Məmməd Arif Dadaşzadə kimi tanınmış ədəbiyyatşünasların rəhbərlik etdiyi illərdə jurnalda bu istiqamətin fəallığı, iştirak və təsir dairəsi daha da artmışdır. Xalq yazıçısı Mehdi Hüseyn də 1946-1950-ci illərdə və 1954-cü ildə «Azərbaycan» jurnalının Baş redaktoru olaraq nəinki jurnalda tənqid və ədəbiyyatşünaslığın xüsusi çəkisini artırmış, özü də fəal surətdə bu tribunadan həm də tənqidçi kimi bacarıqla istifadə etmişdir. Tənqid və ədəbiyyatşünaslığın ağır gəldiyi illər «Azərbaycan» jurnalının sanbalının və nüfuzunun daha yüksək olduğu dövrlər olmuşdur. Fikrimcə, «Azərbaycan» jurnalında tənqid və ədəbiyyatşünaslıq məsələlərindən bir neçə elmlər doktorluğu və fəlsəfə doktorluğu dissertasiyaları yazıb müdafiə etmək, cild-cild monoqrafiyalar nəşr etmək mümkündür. Yaxud da «Azərbaycan» jurnalında ədəbiyyat nəzəriyyəsi məsələləri», «Tənqid və ədəbiyyatşünaslığın inkişafında «Azərbaycan» jurnalının rolu», «Azərbaycan» jurnalı və ədəbiyyat tarixçiliyi məsələləri», «Ədəbi əlaqələrin əsas tribunası «Azərbaycan» jurnalı», «Azərbaycan folkloru «Azərbaycan»da» və sair kimi mövzular özünün tədqiqatçısını, monoqrafik həllini gözləyir. Və ya ayrı-ayrı yazıçı və şairlər kimi, jurnalda çox aktiv surətdə iştirak edən ədəbiyyatşünasların da

«Azərbaycan» jurnalı ilə əlaqələri və jurnaldakı elmi əsərləri haqqında sanballı, oxunaqlı və elmi cəhətdən əhəmiyyətli tədqiqatlar apararaq kitablar hazırlayıb nəşr etmək olar. Məsələn, Məmməd Arif Dadaşzadə, Məmməd Cəfər Cəfərov, Həmid Araslı, Kamal Talıbzadə, Bəkir Nəbiyev, Əkbər Ağayev, Qulu Xəlilov, Yaşar Qarayev və «Azərbaycan» jurnalı mövzuları cild-cild kitablar üçün zəngin material verə bilər. Yüzlərlə elm adamlarının doktorluq və namizədlik dissertasiyasına aid ən yaxşı məqalələri «Azərbaycan» jurnalında çap edilmişdir. Elmi jurnallar tədqiqatçılar üçün elmi dərəcə almaq üçün zəruri nəşr, «Azərbaycan» jurnalı isə elmi-ədəbi mühitdə elmi ad qazanmaq üçün əvəzsiz nəşrdir. «Azərbaycan» jurnalı elmdə ada, qəbul edilmiş imzaya sahib olmaq mənasında mötəbər platformadır. Bu sətirlərin müəllifinin də elmi taleyindəki «Azərbaycan» jurnalının rolunu minnətdarlıqla qeyd edirəm.

«Azərbaycan» jurnalının inkişafında ölkəmizin dövlət müstəqilliyi dövrü xüsusi yer tutur. Daha doğrusu, müstəqillik dövründəki səmərəli fəaliyyəti «Azərbaycan» jurnalının bir əsrlik inkişafı yolunda müstəqil bir mərhələ təşkil edir. «Azərbaycan» jurnalında bu dövrdə verilmiş ədəbi materiallar əsasında ədəbiyyatımızın müstəqilliyə doğru keçid proseslərini, yeniləşmə meyillərini, inkişaf xüsusiyyətlərini müəyyənləşdirmək olar. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının tam mənzərəsi «Azərbaycan» ədəbiyyatında bütün inkişaf tendensiyaları ilə birlikdə əks etdirilmişdir. Yeni tarixi epoxada «Azərbaycan» jurnalı ədəbiyyatda gedən cərəyanların hər biri üzrə ən yaxşı əsərləri üzə çıxarıb çap etməklə ədəbi mühitdə yaradıcılıq sərbəstliyinə geniş yol açmışdır. Hazırda Azərbaycan ədəbiyyatında aparıcı mövqeyə malik olan yeni realizm, postmodernizm, dekadentizm, magik realizm, akademizm kimi ədəbi axınların formalaşması və inkişafında «Azərbaycan» jurnalının müstəsna dərəcədə böyük rolu və mühüm xidmətləri vardır. «Azərbaycan» jurnalı özü də Azərbaycan ədəbi mətbuatı sahəsində məktəb yaratmaq istiqamətində inkişaf etməkdədir.

Bu gün 100 yaşlı «Azərbaycan» jurnalı ölkə ədəbiyyatında bütün istiqamətlər üzrə ən yaxşı ədəbi və elmi əsərləri böyük oxucu auditoriyasına geniş ürəklə təqdim edir. Jurnal tanınmış yazıçı və tənqidçi İntiqam Qasımzadənin rəhbərliyi, məsuliyyətli işi sayəsində həm müasir Azərbaycan ədəbiyyatının zəngin salnaməsi və həm də obyektiv mənzərəsinin güzgüsü olmaq vəzifələrini böyük uğurla həyata keçirir. Ən yeni dövrün «Azərbaycan» şeirini, müasir mərhələnin yaxşı hekayəsi və povestini, romanlar silsiləsini ardıcıl olaraq «Azərbaycan» jurnalı elmi-ədəbi dövriyyəyə gətirir. Bu mənada «Azərbaycan» jurnalı müasirimiz olan hər bir yazıçı və şairin yaradıcılıq təkamülünü güzgüdə olduğu kimi real şəkildə görməyə tam imkan yaradır. Azərbaycan ədəbiyyatının ümumi mənzərəsindəki yaradıcılıq prosesləri də «Azərbaycan» jurnalında bütün genişliyi və imkanları ilə əks etdirilir.

Bütün bunlarla bərabər, «Azərbaycan» jurnalının özünəməxsus dayanıqlı bir siması vardır. «Azərbaycan» jurnalı eksperimentlər jurnalı deyildir.

«Azərbaycan» jurnalı sabit və davamlı ədəbi ənənələrin və ədəbiyyatın daxili təkamülündən doğan yeniləşmələrin, əsl müasir ədəbiyyat nümunələrinin jurnalıdır. «Azərbaycan» jurnalı taleyini həmişəlik olaraq ədəbiyyata həsr etmək üçün gəlmiş yeni nəsillərin jurnalıdır. Bu mənada «Ən yaxşı ədəbi əsər «Azərbaycan»da» devizi indiki azərbaycançıların iş prinsipi, əsas yanaşma meyarıdır.

Bütün bunlara görə «Azərbaycan» jurnalının müstəqillik dövründəki fəaliyyəti bu ədəbi orqanın çoxillik ömür yolunun ən şərəfli səhifələridir. Sözün həqiqi mənasında «Azərbaycan» jurnalı bütün janrlar üzrə yeni tarixi epoxanın ən yaxşı əsərlərinə geniş yer verməklə müstəqillik dövrü ədəbiyyatımızın formalaşması və inkişafına məsuliyyətlə xidmət edir. Tərəddüd etmədən demək olar ki, «Azərbaycan» jurnalı müstəqillik dövrü Azərbaycan ədəbiyyatının güzgüsü və əsas hərəkətverici qüvvələrindən biridir.

«Azərbaycan» jurnalı müasir Azərbaycan ədəbiyyatının obyektiv mənzərəsini çox dolğun şəkildə əks etdirir. Bu mənada «Azərbaycan» jurnalı müstəqillik dövrü Azərbaycan ədəbiyyatının simasıdır. «Azərbaycan» jurnalını davamlı olaraq mütaliə etməklə Azərbaycan ədəbiyyatını dərindən öyrənmək mümkündür. Ona görə də «Azərbaycan» jurnalını ən yaxşı Azərbaycan ədəbiyyatı dərsliyi adlandırmaq olar.

«Azərbaycan» jurnalında ölkəmizdə müasir ədəbi prosesin bütün inkişaf meyillərini və istiqamətlərini görmək mümkündür. Bununla belə, qeyd etdiyimiz kimi, «Azərbaycan» jurnalı keçici, formal eksperimentlərin yox, artıq yaşamaq haqqı qazanmış böyük ədəbiyyatın möhtəşəm toplusudur. «Azərbaycan» jurnalı – böyük ədəbiyyat uğrunda mübarizənin ağır artilleriyası və uzaq vuran topudur. Ölkəmizdə əsl milli və dünyəvi ədəbiyyatın yaranması və inkişaf etdirilməsinə yazıçı və şairlər qədər, bəlkə də bir qədər də çox «Azərbaycan» jurnalı cavabdehlik daşıyır. «Azərbaycan» jurnalı bu gün ölkəmizdə böyük nüfuza malik olan yaradıcılıq ocağıdır. «Azərbaycan» jurnalı ölkəmizdə azərbaycançı ədəbiyyatın böyük beşiyidir. «Azərbaycan» jurnalından Azərbaycan ədəbiyyatının sabahı da bütün aydınlığı ilə görünür. Bu mənada «Azərbaycan» jurnalı ədəbiyyatımızın sabahına da işıq salaraq bələdçilik edir.

«Azərbaycan» jurnalının Baş redaktoru İntiqam Qasımzadə böyük ədəbiyyat qarşısında məsuliyyət hissini dərindən başa düşüb dəyərləndirən və prosesi irəli aparmağın yollarını aydın görmək istedadına malik olan mükəmməl Azərbaycan ziyalısıdır. «Azərbaycan» jurnalının yaradıcı kollektivi ölkəmizdə yeni tarixi epoxanın əsl ədəbiyyatının yaranmasına və inkişafına yorulmadan xidmət edən ədəbiyyat fədailəridir.

Doğma «Azərbaycan» jurnalının 100 illik yubileyi münasibətilə Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyini və jurnalın yaradıcı kollektivini ürəkdən təbrik edir və daha böyük uğurlar arzulayıram!

## ♦ Poeziya



*Süleyman ABDULLA*

## *Qələbə sözündən böyük söz olmaz*

### QARABAĞ ŞİKƏSTƏSİ

Daha ağaclar üşüməz yad nəfəsdən,
xəzəl-xəzəl ölməz arzuları.
İzlər doğmalaşdıqca
canlanar yarpaq dolu yarğanlar,
Cığırlar sevinər ləpirlərin şehdə islanmasına,
qalxar ən ulu sevginin zirvəsinə
torpaq ətri buxar-buxar...
Gözləri yaşarar məxməri payızın sevincdən.
Quşların səsi dəyişər ötdükcə durna qatarı
"Xarı bülbül,
sarı bülbül,
könlümün yarı bülbül,
qurtuldu mərdlər diyarı, bülbül!...

Bulaqlar nazlanar qumru səsinə
çaylar şaqraq çəkər "hop-hop" harayına.
"İsaq-Musaq" quşu qovuşar həsrətinə
bir xəzan öynəsi...

Ucu şiş qayaların xınası papaq-papaq
uzanar incəbel qızların əllərinə sarı,
Od çıxar günəş rəngdə
məğrur gənclərin çapdığı atların nallarından.
Bir həzin nəğmə oxuyar sübh yelləri,
qızarar utandığından dan yeri üfüq-üfüq.
Bir səs ucalar Şuşanın dumanlı başından–
"Əzizinəm, Qa-raaa-bağ"!...

## AÇIQ SƏMA ALTINDA...

***(səngər dostlarıma)***

Döyüş səhnələri bir başqadır, dostum,
burda nə yalandan ölmək olur,
nə də gerçəkdən dirilmək...
Atəş səslərinin bir başqadır ahəngi,
dünyanın ən mükəmməl orkestri də
ifa edə bilməz odsaçan marşları olduğu kimi...
Dirijor çubuğu deyil tankların qüllələri,–
hər mərmi uçuşundan sonra tüstülənər
qocaman döyüşçünün müştüyü kimi...
Bir sütül əsgər çiyninə almışsa qumbaraatanı,
toy tutmağı var qarşı tərəfdəkilərə...
Günəş hardan doğur-doğsun, fərqi yoxdur,
səngər rütubəti qoxuyar üfüqlərin palitrası
cəbhə xəttinin qızmarlığında...
Əsgər buşlatının qatını nəm kəsmişsə,
dörd fəslin nigarançılığıdır havadakı həzinlik.
Çiçəklər açılanda hansı rəngdə olur-olsun,
sonu qan qırmızısıdır, – məhəbbət rəngi torpağın,–
adına vətən deyir poetik dildə şairlər...
Dünyaya arpacıqdan baxmaq bir ayrı seyr,
bir ənginlik boyda sevgi göndərər
məhvinə düşmənin axşam çağı...
Ağır olur çimiri sığınacaqların,
mürgü qaramatı var gözlüyündə dzotların.
Yeraltı blindajların pərdiləri
diksinirsə mərmi ulartısına, demək,
yuxusuna haram qatmış uzaqvuran toplar.

"Qrad"larla yoxlanılır doluluğu buludların,
raket qanadlarında faciə göndərilir uzaqlara.
Üstünə uçmuş torpağın altından
gülüş atəşləri açılırsa köksünə səngərin...
Qorxma, kontuziya almış kölgəsi xan çinarın.
O qədər təbiidir ki, məhəbbət ssenarisi torpağa,
mütləq ağlayacaqsan son serenadasına
sal qayaların...
Heykəl oğullar
qəhrəmanlaşar proloqunda əsərin,
Vətən sağ olsun, – deyilirsə pərdə qapananda,
baş əyməli tamaşaçı əsərin möhtəşəmliyinə...
Oynamaq yox,
yaşamaq lazımdır sevgi dolu savaşları...
Bir başqa olur döyüş səhnələri eşq libasında!
Torpaq rəngli komuflyaj pərdələr enəndə
don vurar göz yaşlarını tamaşaçıların...

## BÖYÜK ŞEİR

Bir az özümüzdən çıxaq qırağa,
Bir az yaşımızdan kənara çıxaq.
Çoxdu başağrısı böyük olmağın,
Bir az başımızdan kənara çıxaq.

Ağrısız yekələn anlamaz bizi,
Ürək çatımızla böyüyək gərək.
Adam adı ilə böyüyər, balam,
Bir az adımızla böyüyək gərək.

Biz söz adamıyıq təqaüd vaxtı,
Bir az sözümüzdən böyük görünək.
Boy atmaq deyildir böyümək hələ,
Bir az özümüzdən böyük görünək.

Bütün döyüşlərin birdir məramı:
"Böyüklər yanında özünütəsdiq"!...
Elə ki, göründün boyundan uca,
Hamı eyləyəcək sözünü təsdiq!

İndi Şuşadadır dünyanın gözü,
Bizi görməyəcək gözdən göz olmaz.
Bir söz gözləyirdim, ilahi bir söz,
Qələbə sözündən böyük söz olmaz!

## UNUTMAQ VƏ UNUDULMAQ

Ömrümün unutmaq mərhələsindəyəm...
nücumdan başladı yaddaşsızlığım,
göy üzü qapanandan üzümə...
Əvvəl fəlsəfəni unutdum,
sonra tarixi,
fiziki proseslər biz görən deyil artıq...
İndi cəbri unutmaqdayam cəfa qismində,
dünən həndəsə vardı bir küncündə ağlımın.
Nə idi dağdan-dərədən danışan elm?
Heyvanların səsi gəlmir səhifələrin arasından,
bitkilərin xışıltısı...
Qatmaqarışıqdır ruhumun kimyası,
hələ ki, şükür oxuyuram ədəbiyyata...
qafamda çızmaqaralıq nəsə var hələ.
Bir azdan şeirlərimi unudacam,
daha sonralar varlığımı.
Bir sabah unudulmaq var növbədə,
əllərimi xatırlamıram artıq yaxasında dünyanın.
Əslində,
özünü xatirələrdən asmaqdı ölüm,
son nəfəsin xırıltısıdır ən qəmli akustika...
Sən bilirsən,
həyatın ən ağır dərsidir unutmaq...
...və bir də unudulmaq...

## ÇİLLƏ GECƏSİ

Ən uzun tənhalığın bir başqadır sabahı,
Çox gödək ötdü gündüz…
gecə, – ömrü uzundan.
Təkcə çəkmək asandır bir sinə zülmət ahı,
Bir pıçıltı da keçmir küçənin yuxusundan.

Boşluğa dikilməkdən yağar gözünə ağ qar,
Buza dönən ağrını oxşayıb köksünə çək.
Çöysüdüyün sükutu qovmağın bir çəmi var,
Divar-divar ağlamaq, tavan-tavan üşümək.

Su kimi donub qalar gözlərinə axan lil,
Əvvəl qəlbin sızıldar, sonra küləyin səsi.
Gedənin dönməməsi yolun günahı deyil,
Çıxsa qaytarmaq olmur pəncərədən nəfəsi.

Əllərin çatmayırsa yarana basmağa duz,
Canını atəşə yax, qoyub adını eşq sən.
Şəb-i-yelda* gecəsi qalmaq günahdı odsuz,
Dünyanı yandırmağa ah istə Füzulidən.

## ÇƏP YAZILAN BƏXT

Daha çatmaz əllərin tanrının ətəyinə,
Boş ovucdan bezməyin nə əyrisi, nə düzü?!
Unutdu nə umurdun, – işıqmı, təsəllimi,–
Gözlərinin içinə baxmaz bir də göy üzü.

Hamıdan narazıdır hər kəs özündən başqa,
Bir qarın yemək olmuş həyatın fəlsəfəsi.
Çoxdu adı ədalət ədalətsiz savaşda,
Yaldan, yaltaqdan keçir adamların haqq səsi.

Dünyanın nizamı da pozulub yol varmağa,
Bir tərəfdə gün çıxıb, bir tərəfdə qar yağır.
Küləyin caynağından yaxanı qurtarmağa,
Dağ boyda atəşinə narın yağışlar yağır.

Hər qarış yasaqlıdır, tabuludur sağ-solun,
Bir dənlik ümid yoxdur nə torpağa, nə tuma.
Hamısı minalanmış uğura gedən yolun,
Bütün yol nişanları aparır uçuruma.

Haraya qaçasısan, kündənə çoxdur hürən,
Əzrayılla şərikdir it canını alanlar.

---

** – şəb-i-yelda – çillə gecəsi*

Nə cadugər gərəkdir, nə oxuyub üfürən,
Bəxtinə çəp yazılıb cindüyünü yalanlar.

## ELƏ YAXŞI OLDU

Dayanıb üz-üzə tərpətməyir tük,
Biri zülmət adam, biri nur adam.
Elə yaxşı oldu pis vaxta düşdük,
Rahat yaşayanda porsuyur adam.

Çıxmaz ah çəkəndə canının hovu,
Yeyin talelərin baxtı şütükdü.
Bəsdir, ciyərinə sıxdın alovu,
Tanrının əlləri ütük-ütükdü.

Nə zaman çıxmışdı solmuş gül düzə,
Hər açan yaşılda bir az sarı var.
Olmur ey… dirəşmək yolla üz-üzə,
Hərdən boş dönməyin xoş yararı var.

Heç baxma dağların pasına şəklə,
Hər kəsin canından paxırı çıxar.
Ömür əbədidir, – olmur deməklə,
Zaman tükəndikcə axırı çıxar.

Olubmu gərdişin təbii vaxtı,
Bu süni dünyada biz saxta düşdük.
Guya yaxşı olsa nə olacaqdı,
Elə yaxşı oldu pis vaxta düşdük.

## İRONİYALARIN ŞEİRİ

Biz adı dəftərdən silinmişlərik, dostum,
bütün siyahılar bizsiz tutulur,
bizsiz buraxılır sözün başı ayağınacan
qarşısında diz çökəndə hikmətin.
Haraya fırlatsan da
Tanrının qələmini şeir-şeir
başqasının adı çıxır möhürbənddən.
Sən bəxt yazmağa yaramadın, mirzə,
hərçənd ki, ağlamaqdan gün doğmaz özünə,

gülməkdən, – başqalarına.
Ağ günə çıxmağın bircə yolu var,–
gecələrdə boğulmaq!
Siqaret tüstüsü sanırsan başının dumanını,
düşüncənə dar gəlirsə göy üzü
cəzan Haqdan gələcək.
...Gələcək çox uzaqlardadır, çox,
gedəcək olmayan yerlərdə lap...
Gəlməyəcək, gözləmə,–
desə küsərsən yarpaq xışıltılarından.
Adam kölgəsindən qaça bilmir,
oysa ki,
tükənmiş ürəkdə həvəs, ayaqda hey,
alqışlamaq olmur çəpəki oturub saxtalıqları.
Hər şeyin dərinində batır adam,–
suyun da, fikirin də, söhbətin də, qüllabın da...
Xatırlanmağa səbəb tapmamaqdandır unudulmaq...
Elə bir əlifba yoxdur ki,
uyğun gəlsin qələmin rənginə
tutqun göyün altında, açıq yerin üstündə.
Nə damaya sığışır, nə düz xəttə
heç bir format uyğun gəlmir özünə ünvanın...
Silgilər fasiləsiz işləyir, pozanlar aramsız...
"Aram"lardan törəyənlər qısqanır yazı lövhəsinə
baş hərfini ayaq dırnaqları bilənin.
Baş-ayaq iyi gəlir işlərin mabədindən...
Biz adı hər yerdən silinmişlərik, dostum.
təkcə dəftərdən deyil!

## BİR SUNAMİLİK YUXU

Fırtına gəzdirir qoca canında,
Çoxdu bu dünyada liman adamlar.
Xəzri yırğalandı iynəyarpağı,
Əyildi dənizə yanpörtü şamlar.

Uzaqlar ağarır boz xəyal kimi,
Hava öz-özündən oldu bədgüman.
Qaralan nəfəsdi səmada bulud,
Siqar tüstüsütək qalxdı boz duman.

Uçdu havalara səs siluetlər,
Nəğmələrdi batan küyün pəsində.
Şaşqın qaraltılar aşdı sulara,
Süst şəhər qərq oldu öz kölgəsində.

Gəmi ləngərindən asıldı kal fit,
Axşam duasını susdu ağ cami.
Dəniz sütun-sütun dikəldi birdən,
Sonra dalğa-dalğa gəldi sunami.

Nəydi nərildəyən əjdaha kimi,
Udub nəfəsini almamışdı göy.
Hələ torpaq vardı diz çökmək üçün,
Amma, əl açmağa qalmamışdı göy.

Qəfil yanı üstə əyildi liman,
Sanki oynatdılar dayağı altdan.
Dənizin boğazı qurumuşdu lap,
Titrək yer qaçırdı ayağı altdan.

Tutqun üfüq boyu dalğalandı yol,
Çətin ağ qağayı baxıb uğuna.
Saatın səsindən asdılar vaxtı,
Susmuş divarların soyuqluğuna.

Məhşər ayağına çəkildi yuxum,
Kimsə əllərini suya salırdı.
Mənmi qan-tər idim...
pəncərəmmi su?
Külək ağır-ağır nəfəs alırdı.

...Eh, liman adamlar, sahil adamlar...

## ADI YAD, ÖZÜ DOĞMA

Mən adamdan çox, daşları sevərəm,
ağacları sevərəm,
çəpərlərə dırmaşan sarmaşıqları...
qoşayarpaq cücərtilərin yaşamaq eşqini...
Daş dəyişməz heç nəyə əzəmətini,
heykəl olar əllərinin sığalına.

Ağac kölgəsini əsirgəməz bir ovuc su versən.
Sarmaşıq dolanar boynuna işığın,
pöhrələr can atar günəşi salamlamağa...
Adamlar kimi nankor deyil torpaq,
bir dən verərsən, onunu qaytarar əvəzində.
Çiçəklər bircə xoş baxışa pardaxlanar,
gözlərinin işığı olar şüa-şüa təbəssümü.
Şaqraq nəğmə kimi axar
dodaqlarındakı gülüşə coşan dağ şəlaləsi.
Ciyərlərinə çəkdikcə məlhəm olar bal ətirli hava,
saçlarına qonan şeh ruhuna hopar durnagözü.
İlahi bir saflıq var zirvələrin bəyazlığında,
torpağın qaralığı üzağlığıdır onu özü bilənlərin...
...və qəlbimin ən duyğulu yerində bir kənd,
ürəyim quş kimi pırlayıb
çıxar ağzımdan köhnə adı gələndə...
Təzəsinə heç cür alışa bilmədim,
içimdə bir qəribçilik gedirəm ünvanına..
Mən adamlarına görə sevmədim o kəndi,
torpağına,
daşına,
dağına,
ağaclarına,
çiçəklərinə,
suyuna,
havasına görə sevdim...
Saxta gəlir təzə adı mən qəribin qəribinin...
Yad olmaq ağrılı bir duyğudur doğma olana!

*Zümrüd DADAŞZADƏ*

# Ruhumuzun mücəssəməsi – "Azərbaycan"



"Azərbaycan" jurnalı yüzillik yubileyini qeyd edir. Üçrəqəmli bir tarix hamımızı – hansı sənət sahəsində çalışmağımızdan asılı olmayaraq, – fərəhləndirir. Çünki bu jurnal, başqa adlarla çap olunduğu dönəmlərdə belə, Azərbaycanın sözdə, bədii obrazlarda təcəssümünü tapmış aynası olub, sonra da bu adı məğrurcasına daşıyıb, sizinlə bizim Azərbaycanımızı təmsil edib və bu yolda şərəflə addımlamaqda davam edir. Jurnal ədəbi-bədii həyatımızın salnaməsidir: burada hələ mürəkkəbi kağızda qurumamış romanlar, poemalar işıq üzü görüb, burada ədəbi tənqid gündəmin əsas, taleyüklü məsələlərini müzakirə edib. Jurnal böyük və əbədi mətləblərdən bəhs edən böyük ədəbiyyatı qoruyub, dilimizin keşiyində durub, ədəbiyyatlar, xalqlar, insanlar arasında körpülər ucaldıb.

Bu günlər jurnalın müxtəlif illərə aid nüsxələrini vərəqləyərkən yaradıcılıq prosesinin bir növ ürək döyüntülərini – kardioqramını duyub göz önünə gətirdim. Yeni nəsr və poeziya nümunələri sonra ayrıca kitab şəklində də ərsəyə gəlirdi. Amma axı "burada və indi" – müxtəlif hadisələrin fonunda, məxsusi polifonik toxuma məcrasında – müəyyən ilin müəyyən sayında əsərlərin çap olunması bir başqa məna kəsb edir! Konteksti əyani təsəvvür etmək, dövrün ab-havasını sezmək, aparıcı təmayüllərini anlamaq baxımdan bu necə də maraqlı və önəmlidir! Hansı mövzular gündəmdə idi? Hansı problemlər təhlil obyekti idi? Həmin suallara dərgidə dəqiq cavab tapırıq.

Qalın jurnalların tarixdə xüsusi rolu olub. Onlar vahid bir mədəni məkan yaratmaq funksiyasını icra ediblər, maarifləndirici missiyanın daşıyıcısı olublar. "Azərbaycan" nəinki Bakıda, ucqar bölgələrdə də yayımlanıb və həvəslə oxunub, yəni ədiblər və ədəbiyyatsevərlər arasında əlaqələndirici halqa olub, milli kimliyimizin formalaşmasına əsaslı təsir göstərib. "Azərbaycan", əgər belə demək caizdirsə, heç zaman Azərbaycanın hüdudları ilə məhdudlaşmayıb, daha geniş məkanı – ucsuz-bucaqsız türk yurdunu əhatə edib. İranda soydaşlarımızın intizarla gözlədiyi bir nəşr olub: sovet dönəmində

gizlin yollarla, min bir məşəqqətlə gətirtdirilib, ən qiymətli, ən bahalı bir hədiyyə kimi böyük məbləğə əldə olunub, yayımlanıb, əldən-ələ ötürülüb, bir-birindən ayrı düşmüş könüllərə məlhəm olub. Deməli, o taylı-bu taylı xalqımızın ünsiyyətini – sərhədləri aşaraq, məsafələri qət edərək – təmin edib. Bu da jurnalı tək mədəniyyət, ədəbiyyat hadisəsi kimi deyil, daha geniş – siyasi-ideoloji səpkidə səciyyələndirmək imkanı verir.

Bu sətirləri qələmə alarkən, Ümid Niayeş adlı təbrizli jurnalistin maraqlı bir məlumatı ilə tanış oldum. O, uşaqlıq, gənclik xatirələrinə dönərək, Bakıdan İrana ötürülən ədəbiyyatın nəslinin təfəkkürünün formalaşmasına təsirindən söz açır. Niayeş, suallarımı cavablandırarkən, "Azərbaycan" jurnalının hələ 1979-cu il İran islam inqilabına qədər İranda böyük çətinliklər dəf edərək yayımlandığını nəzər-diqqətə çatdırdı. Təbrizdə bu jurnal "Nobel" nəşriyyatı tərəfindən gizli olaraq satılırdı. Azərbaycan Respublikasından gələn kitab və jurnalları evdə saxlamaq təhlükəli idi. Siyasi iqlimin gərginləşdiyi dönəmdə o nəşrləri ləğv etmək və ya gizlətmək məcburiyyəti yaranırdı. Niayeşin təbirincə, onun böyük dayısı Pişəvəri hərəkatının süqutundan sonra Firqə bileti ilə bahəm "Vətən uğrunda" jurnallarının bəzi nüsxələrini yandırmalı, bəzilərini isə həyətdə basdırmalı olub, özü də elə dərin ki, sonra çoxunu, təəssüf, tapa da bilməyiblər. Bakıdan gətirilən ədəbiyyatı oxumaq üçün təbrizlilər kiril əlifbasını mənimsəyiblər. Son zamanlaradək özü də, dost-tanışı da kiril qrafikası ilə yazılanları latınla müqayisədə daha sürətlə oxuyurmuş. Fikirlərini yekunlaşdıraraq Ümid bəy deyir: "O kitablar, jurnallar bizim nəsli yetişdirdi, biz isə gələn nəsli". Bax, budur "Azərbaycan" jurnalının qüvvəsi və qüdrəti!

İllər "Azərbaycan" yeganə ədəbi-bədii qalın jurnal olduğu üçün məhz onun səhifələrində ədəbiyyatla yanaşı, teatr, kino, musiqiyə, hətta tarixə dair də önəmli materiallar dərc olunub. "Ateistin gündəliyi" rubrikası isə sovet döneminin ideoloji atmosferinə məni qaytardı, "elmi ateizm" kimi mənfur fənnin tədris olunduğu dönəmin mənəvi iztirablarını xatırlatdı.

Diqqətimi Lətif Kərimovun Səfiəddin Urməvi haqqında məqaləsi (1965, №7), Firidun Şuşinskinin muğam ifaçılıq sənətinin ən görkəmli nümayəndələri (Məşədi Cəmil Əmirov, Seyid Şuşinski və b.) barədə yazıları, habelə rəssamlarımızın (S.Bəhlulzadə, T.Salahov, S.Salamzadə, K.Nəcəfzadə, A.Cəfərov...) portretləri, onların sərgilərinə həsr olunmuş icmallar da cəlb etdi. Teatra, dramaturgiyaya – ədəbiyyatla daha sıx bağlı olan bu sahələrə – jurnalda xüsusi yer ayrılıb. Və burada Cəfər Cəfərovun sərrast, iti müşahidələr dolu yazılarını oxumaq ayrı bir ləzzət!

Haşiyə çıxıb deməliyəm ki, yaxınlarda Şəfiqə Məmmədova ilə görüşdüm və o, mənə 60-70-ci illərin məxsusi sənət ab-havası haqqında xiffət hissi ilə danışdı. Siz demə, C.Cəfərov yeni tamaşaya tam baxdıqdan sonra onun ayrı-ayrı səhnələri ilə daha yaxından tanış olmaq, qənaətlərini dəqiqləşdirmək üçün xəlvətcə teatra gələrmiş, aktyorlar isə onun zalda olduğunu duyub, dərhal səfərbər olunarmış. Məmməd Arifin də teatrda öz xüsusi yeri varmış – truppanın ən çox sevdiyi tələbkar və incə zövqlü tamaşaçılarından və

tənqidçilərindən idi. Və qarşılıqlı ehtirama, etibarlı münasibətlərə söykənən belə bir yaradıcılıq atmosferində mütəmadi təmas nəticəsində neçə-neçə gözəl resenziya ərsəyə gətirilib!

İndi isə hər il jurnalın xüsusi buraxılışı məhz dramaturqlara, onların yeni pyeslərinə ayrılır. Nə gözəl!

"Azərbaycan"ın əlvan palitrasında arxiv materialları da, aşıq ədəbiyyatı da layiqli yer tuturdu. Amma əsas hədəf həmişə, hər zaman – müasirlikdir, canlı yaradıcılıq prosesinin izlənilməsi, başlıca trendlərin müəyyənləşdirilməsidir. İqor Stravinskinin geniş intişar tapmış "Müasir musiqi nə vaxtsa yazılmış musiqinin ən maraqlısı, tarixin indiki anı isə musiqi tarixinin ən həyəcanlandırıcı məqamıdır" deyimini ədəbiyyata da şamil etmək olar. Həmin həyəcanlandırıcı məqamlar jurnalda nə qədərdir! Anarın da, Elçinin də əsərləri, Yusif Səmədoğlunun "Qətl günü" romanı, neçə-neçə başqa yaratmalarla məhz bu jurnal vasitəsilə tanış olmuşam. Bilmirəm sizə necə, amma təzəcə ərsəyə gəlmiş yazıları məhz jurnaldan mütaliə etmək şəxsən mənə xüsusi bir zövq verib.

Yeri gəlmişkən, ötən 100 il ərzində "Azərbaycan"da çıxan ədəbiyyatdan seçmələr – onların arasında isə həqiqətən görkəmli, parlaq nümunələr var – bir araya gətirilib çap etdirilərsə, nəhəng çoxcildlik alınar. Bir əsr ərzində ədəbiyyatımızın əzəmətli – çoxsəsli, coxrəngli, çoxvektorlu panoramı!

Mənim "Azərbaycan" jurnalı ilə bağlı olduqca kövrək xatirələrim var. Doktor döngəsindəki mənzilimizin bir otağını tutan kitabxanamızda oymaları və ornamentləri ilə valeh edən qədim bir dolabın rəflərinə səliqə və nəvazişlə düzülmüş jurnal nüsxələri məndə, balaca bir qızcığazda ən müxtəlif hisslər oyadırdı, naməlum – sehirli və müəmmalı dünyadan danışırdı, amiranə cəlb edirdi, bir az da həyəcanlandırırdı. Bir xatirəyə dönüm. Günlərin bir günü – vur-tut 3-4 yaşım var idi – məni qəşəng geyindirib, səhər tezdən bulvara gərtirdilər: Anam: "Zümrüd, fotoqraf şəkillərini çəkəcək", – dedi. Fotoqraf əmi məni yenicə çiçək açmış çobanyastığı çəmənliyinə buraxdı və özümü tam sərbəst hiss etməyə səslədi. O güllərə xəfifcə sığal çəkirdim, onları qoxulayırdım, fotoqraf da öz işində. Sessiya uzun çəkdi və məni, açığı, hövsələdən çıxartdı və yordu. Amma aylar sonra şəkillərdən birinin sorağı gəldi. "Azərbaycan" jurnalının 1966-cı il üçüncü – Novruz sayında mənim fotoşəklim müəllifi Mikayıl Əliyev olan "Bahar gəldi" adlı fotoetüd kimi dərc olunmuşdu. Mən də sevinirdim, valideynlərim isə məndən daha çox: "Zarafat deyil, şəklin "Azərbaycan"da çıxıb!" Haşiyə çıxaraq, deməliyəm ki, çox-



***"Bahar gəldi". 1966-cı il***

çox sonra, Məmməd Arifin 110 illiyi geniş qeyd edildiyi dönəmdə – jurnalın 2015-ci il birinci sayında babam, ailəmiz haqqında əziz, qəlbimi çalxalayan xatirələr dolu "Nəhəng olan uzaqdan daha aydın görünər..." məqaləm çap olundu...

"Azərbaycan" jurnalında dərc olunmaq həmişə məsuliyyət idi, şərəf idi. Jurnaldakı publikasiya cavanlara böyük ədəbiyyata vəsiqə verirdi. Atam Arazın ilk yazıları məhz "Azərbaycan"da işıq üzü gördü. 1962-ci ilin birinci sayında onun bəlkə də bir qədər sadəlövh, amma necə səmimi, "uçuş imkanı yaradan" 60-cı illərin nəfəsi ilə aşılanmış "Birinci və axırıncı dəfə", "İnsan bir dəfə yaşayır" hekayələri dərc olunmuşdu. Bu və başqa əsərləri oxuyur və atamın bir fikrini xatırlayırdım: "Əvvəlcədən quraşdırılan sxem üzrə hərəkət edən, məlum həqiqətləri bəyan edən maneken qəhrəmanlar keçmişdə qalmış, tələm-tələsik yapılan və nəyin bahasına olursa-olsun xeyrin qələbəsi ilə nəticələnən vəziyyətlər aradan çıxmışdır". Bəli, bu 60-cı illər idi: musiqidə də, ədəbiyyatda da, təsviri sənətdə də yeni bədii paradiqma bərqərar olurdu.

Jurnal həmişə yeni adlar sorağında olub. Sözügedən ilin jurnallarında "Ədəbi gənclik" bölməsindəki isimlər məni maraqlandırdı. Heç də o adlardan hamısı böyük ədəbiyyatda qalmadı, amma müəyyən bir hissəsi bü gün ədəbiyyatımızın simasını müəyyən edənlərdir. Jurnal mətnləri xəlbirdən keçirib, ən dəyərli olanları üzə çıxarmaq vəzifəsini də uğurla yerinə yetirir.

Atam Arazın sonrakı publikasiyaları isə artıq ədəbi tənqidlə bağlı oldu. Ailə arxivimizdə, məsələn, "Tənqid və ədəbi proses" rubrikası altında çap olunan "Tənqidin vəziyyəti: İmkan və perspektivlər" adlı bir materialın (1981, №10) makina yazısı qorunur. Müxbirin verdiyi sualları Yaşar Qarayev və Araz Dadaşzadə cavablandırırlar. O saralmış kağızlarda nə qədər düzəliş, nə qədər əlavələr var – nə qədər sözə qayğı, hər cümləyə görə cavabdehlik, sonucda isə doğma ədəbiyyata məhəbbət!

Babam Məmməd Arif 1942-1945-ci illərdə qanlı-qadalı İkinci Dünya müharibəsi illərində "Vətən uğrunda" adı ilə çıxan jurnalın baş redaktoru olmuşdu. Bu yaxınlarda Milli Kitabxanamızda o zaman kəsiminin nüsxələrini vərəqləyə bildim və heyrətə gəldim: müharibə gedir, ədəbi proses isə səngimək bilmir. Həmin dərgilərdə bədii ədəbiyyatla yanaşı, Heydər Hüseynovun geniş oçerklərinə, habelə, görünür, müəyyən direktivlərə uyğun – qubalı Fətəli xan, qarabağlı Pənah xan, "böyük dövlət xadimi Şirvanşah İbrahim" haqqında da materiallara yer ayrılıb. Maraqlıdır ki, jurnalı hazırlayanlar haqqında məlumat müharibə dönəmində çıxan dərgilərdə yoxdur – onlar "Redaksiya heyəti" kimi təqdim olunub. Yalnız 1945-ci ilin nəşrlərindən Məmməd Arifin məsul redaktor kimi çalışması bəlli olur. Səməd Vurğunun adı isə xudmani redaksiya heyətinin başındadır: çox ehtimal, o, jurnalın fəxri redaktoru idi. Onu da deyim ki, məhz həmin ildən jurnal qalınlaşmağa başlayır, onun həcmi get-gedə böyüyür.

Arxivimizdə 30-cu illərə aid nüsxələr də var, o cümlədən "Revolyusija və Qultura"nın 1937-ci il qoşalaşmış 10-11-ci sayı – Stalin və Leninin damarda

qan donduran profil portretləri ilə. Burada bəzi vərəqlərin "ləğv"i, bəzi fotolar və adların yüngülvarı cizgilənməsi vahimə içində yaşayan insanların durumundan, atmosferin boğanaqlığından xəbər verir. Jurnal zamanın qəddarlığını da, totalitar rejimin ideologiyasını da güzgütək əks etdirirdi. Amma axı mədəniyyət, ədəbiyyat – söhbət əsl sənət nümunələrindən gedir – bu və ya digər sistem çərçivəsində nə qədər mühüm rol oynasa da, syasi sistemdən daha uzunömürlüdür.

Ən önəmli fikirlərini Məmməd Arif müxtəlif dönəmlərdə müxtəlif başlıqlar altında çıxan bu dövri nəşrdə bildirib. Həmin məqalələrin sayı onlarladır və poeziyamıza, dramaturgiyamıza dair problemli yazıları da, ədəbi əlaqələri də, ayrı-ayrı ədiblərin portretlərini də ehtiva edir. Elə kitabxanada sifariş edib ilk əlimə aldığım dərginin1966-cı il ikinci sayında Məmməd Arifin Azərbaycan yazıçılarının IV qurultayındakı (1965, dekabr) poeziyaya dair məruzəsinin mətni yer alıb. Alim müasir poetik yaradıcılıq haqqında düşüncələrini bölüşərək yazır ki, bugünkü Azərbaycan şeiri "...cəmiyyətimizin, dövrümüzün mənəvi, estetik nəbzini yoxlayan, onun düzgün kardioqramını çıxaran həssas estetik bir cihaza çevrilmişdir". Mənə elə gəlir ki, bu fikri sözün tam mənasında "Azərbaycan"a da aid etmək olar.

Məmməd Arifin Seçilmiş Əsərləri üçcildliyinə daxil olan məqalələrin əksəriyyəti də elə "Azərbaycan"da aprobasiyasını keçib. Deməli, yaxşıların yaxşısıdır, deməli, alimin ən çox bəyəndiyi və ən çox önəm verdiyi yazılardır.

25 ildir ki, jurnala İntiqam Qasımzadə rəhbərlik edir. 100 ilin bir rübünü. 25 – sanballı rəqəmdir, tariximizin 25 ili önəmli dönəm! Müstəqilliyimizin bərpa olunması, ağlasığmaz sınaqlar, sarsıntılar, çətinliklər, o cümlədən torpaqlarımızın işğalından doğan mənəvi iztirablar, eyni zamanda, gənc dövlətimizin durmadan müxtəlif istiqamətlərdə – siyasətdə, iqtisadiyyatda, mədəniyyətdə uğurları və bu uğurların tacı – Qarabağ zəfərimiz! 25 il özündə nə qədər taleyüklü hadisəni ehtiva edir!

Digər tərəfdən, qloballaşma, yeni texnologiyalar, interşəbəkənin "tüğyan etdiyi" bir dövr. Qələmsiz yazılan ədəbiyyatın, heç bir redaktəyə məruz qalmadan, müzakirədən keçmədən asanlıqla çap oluna, yayımlana biləcək yazılar dövrü. Virtual məkanın qapıları hamı üçün açıq – istedadlı adam üçün də, səriştəsizlər üçün də, naşı və qrafomanlar, həm də iddialı və aqressiv qrafomanlar üçün də. Bu məkanda nə istəsən tapa bilərsən – bulanıq su axınına bənzəyir: həmin axında isə həqiqi dəyərə malik olan əsərlər, təəssüf, itib batır. Amma o axına müqavimət göstərənlər də var: illərdir "Azərbaycan" öz səviyyəsini qorumağa, ali bədii meyarlara uyğun işləməyə çalışır. Redaktə mədəniyyəti deyilən və bu gün, demək olar ki, itirilmiş bir anlam var – onu jurnalda əyani görürük. Burda baş redaktorun müavini Südabə xanım Ağabalayevanın yerinə yetirdiyi işləri yad etməsəm, qəbahət olar. Söz adamıdır, sözə dəyər verəndir, ən əsası da – mövqeyi möhkəm şərəfli insandır. "Azərbaycan"ı Südabə xanımsız heç təsəvvür edə bilmərəm. Məqalələrindən birində milli mədəniyyətin taleyini virtual məkanın ümidinə buraxmağın yolverilməz bir səhv olduğunu deyən və mümkün qədər,

bacardığı qədər bu səhvlərin qabağını almağa səy göstərən mətin, özünəxas düşüncə tərzinə malik bir xanımdır.

Dərginin siması, şübhəsiz, baş redaktordan çox asılıdır: bunun isbata ehtiyacı yox! O, “repertuarı” seçir, nəşrin siyasətini müəyyənləşdirir. Mən bu sətirləri qələmə alarkən İntiqam müəllimin son iki ildə jurnal səhifələrində yer almış müsahibələrini diqqətlə oxudum. “Redaktor kimdir?” sualına cavab verərkən, İ.Qasımzadə sevgidən danışır. Bəli, müəllifə sevgini, onun mətninə doğma münasibəti – “sanki özününküdür” – ön plana çəkir. Redaktor, İntiqam müəllimin təbirincə, müəllifin uğuruna sevinən, onun yazısını təkmilləşdirməyə can atan bir kəsdir. O, haqlı olaraq qeyd edir ki, bu, musiqidə də, sənətdə də belə olmalı. Həmən bir tanınmış musiqişünas – V. Rojnovskinin dedikləri xatirimdə canlanır: “Elə bilirsiniz biz, tənqidçilər, əsərin qüsurlarını aşkarlayanda həzz alırıq? Əslində musiqişünas qədər yaxşı bir əsərin intizarında olan ikinci adam yoxdur”. Məncə, İntiqam müəllim də bax belə bir insandır – gözəl əsərə görə bir redaktor, bir ədəbiyyat adamı, söz sərrafı kimi hamıdan çox şad olur.

Məni 2020-ci ilin sonunda işıq üzü görən buraxılışlar xüsusən maraqlandırırdı. Şuşada dünyaya göz açmış, illər Qarabağ həsrəti ilə yaşamış İntiqam Qasımzadənin tarixi qələbəmizə reaksiyası necə olub? “Yazılsın tarixə bir qızıl xətlə...” essesini (2020/11) oxuya-oxuya mən də həmin payız günlərinə dönürəm – o zaman sərt Baltik dənizinin sahilində yaşadığım üçün daha çox rütubətli və soyuq, Vətəndən uzaqda olduğum üçün daha əziyyətli və iztirablarla dolu – yad insanlar, qərəzli yanaşmalar, nəzakətli, amma olduqca soyuq simalar, süni təbəssümlər arasında tam mənəvi tənhalıq durumunda! İ.Qasımzadənin bu kiçik yazısında o qədər dəqiq müşahidə, o qədər ağrı, emosiya – göz yaşları içində sevinc var. Hiss olunur ki, hər söz, hər cümlə ürəyin dərinliklərindən hasil olunub. Yazılması oktyabrın 25-də başlanan və noyabrın 10-da bitən bu qeydlər sanki yaşadığım hisslərə məni yenidən kökləyir. Bu sətirləri də elə 2020-ci ilin o tarixi olaylarından düz iki il sonra – bəstəkar Rəhilə Həsənovanın “Payızın palitrası – Qələbənin rəngləri” piano silsiləsini möhtəşəm Rəna Rzayevanın ifasında dinləyə-dinləyə qələmə alıram.

2022-ci ilin bütün buraxılışları isə “Şuşa-270” devizi altında çıxır – üz qabığının qırmızı qələbə rəngi, bu təntənəli al fonda Şuşanı səciyyələndirən obrazlar, sənətkarlar, sənət əsərləri, memarlıq abidələri, musiqi alətlərinin təsvirləri adamın ürəyini riqqətə gətirir, fərəhlə doldurur! “Şuşaya sevgi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır”, – Azərbaycan Prezidenti cənab İlham Əliyevin ən dəruni duyğuları ifadə edən bu sözlərindən təkan alaraq, həmin sevgini hər nömrədə jurnal və onun dostları, məsləkdaşları sərgiləyir – Qarabağ sənətinə, bu torpağın görkəmli adamlarına, hətta Qarabağın iqliminin ədəbiyyatda təzahürünə dair dərc olunmuş neçə-neçə maraqlı materialda, Şuşa eşqindən doğan poetik misralarda, oçerklərdə. Və necə də sevindiricidir ki, Şuşa İlinin dərgilərində “genius loci” – Şuşa məkanın dahisi, ucsuz-bucaqsız Türk dünyasının ilk

bəstəkarı Üzeyir Hacıbəyli də araşdırılır, onun publisistikasına da yer ayrılır. Üzeyir bəyin də, Nəvvabın da ötən əsrin əvvəlində ürək ağrısı ilə yazdıqları necə də bu günümüzlə səsləşir!

Burada mən İntiqam müəllimin şəxsiyyəti barədə də söz açmaq istərdim. Onu çox gənc ikən tanıdım – atam Araz Dadaşzadənin çevrəsindən idi, ona mənən yaxın insan. 1968-ci ildə Azərbaycan alimləri və ədiblərini bir araya gətirən Volqaboyu səyahət əsnasında anası Sona xanımla da tanış oldum: onun alicənablığı, kübarlığı, insanlarla, biz, uşaqlarla mehriban davranışı unudulmazdır! İntiqam müəllim olduqca canlı, reaksiyası iti, yumor hissi güclü olan, son dərəcə ünsiyyətcil bir gənc kimi dərhal yadımda qaldı. Atama həsr olunmuş "Yadigarlar" verilişində iştirak edən İntiqam müəllim dostunun gülüşünü dünyanın haqsızlıqlarından müdafiə olunmaq üçün bir silah adlandırdı. İntiqam müəllimdə də bu cəhəti müşahidə etmişəm. Onun iti baxışları, məxsusi intonasiyası, həmin təkrarsız intonasiya ilə söylədiyi ayrı-ayrı fikirlər çox şey deyir. Qəfil, orijinal, bəzən paradoksal paralellər məsələnin mahiyyətini anlamağa kömək edir. Məsələn, pyesin mətnini musiqi partirurası – dirijor intizarında olan notlarla müqayisə edən İntiqam müəllim məni yaxşı mənada təəccübləndirdi. A.Dadaşzadə haqqında məqaləsində isə o, Araz müəllimin Molla Pənah Vaqifin "Görmədim" müxəmməsini "...bütün dünya lirikasında ictimai məna daşıyan şeirin ən gözəl və ölməz nümunələrindən" adlandırdığını qeyd edib, ədəbiyyatşünasın portretinə mühüm əlavələr gətirən sərrast bir müşahidəsi ilə bölüşür: *"O Araz ki, bəziləri kimi milli ədəbiyyatımızdan, ümumiyyətlə, bizə məxsus bir şeydən danışanda yerli-yersiz mübaliğələrdən, şit təriflərdən qətiyyən xoşu gəlməzdi: o, məhdud, məhəlli qiymətləndirmə hissindən uzaq alim idi* (kursiv mənimdir – Z.D.)". İ.Qasımzadənin bu və ya digər şeir misrası – sitatla önəmli bir fikri qabartmaq bacarığı da xüsusi. "Saflıqda polada bərabər...", "Yazılsın tarixə bir qızıl xətlə..."... Və ya məqalələrinə sızan yumor hissi də bir başqa!

"Bayatı" verilişinin aparıcılarından biri kimi İntiqam müəllimi daha yaxından tanıdım. Efirimizə, həyatımıza yeni bir nəfəs gətirən, ruh yüksəkliyi yaradan o silsilə verilişlər televiziya tariximizin şərəfli səhifəsidir. Düşünürəm ki, çox gənc ikən, 80-ci illərin ortalarında özüm də televiziyada verilişlər aparmağa başlayanda məhz "Bayatı" mənim üçün gözəl örnək olmuşdu.

Yadımdadır, "Bayatı"nın buraxılışlarından birində Ukrayna Elmlər Akademiyasının müxbir üzvü Yevgeni Şabliovskinin babam Məmməd Arifə yazdığı çox əlamətdar bir məktubun mətni oxundu. 1962-ci ildə M.F.Axundovun 150 illik yubileyinə dəvət almış ukraynalı alim Solovki düşərgəsində əsir olduğu zaman səhhətinə vurulan zərbə – onurğasının zədələnməsi ucbatından Bakıya gələ bilməyəcəyini təəssüflə bildirib yazırdı ki, "faşist mahiyyətli Stalinə pərəstiş rejimi Solovkiyə Azərbaycan xalqının ən yaxşı oğullarını sürgün etmişdi. Solovki siyasi təcridxanasının dəhşətli işgəncələri və zorakılığı şəraitində onlar öz qürurunu və ləyaqət hissini itirmədilər (kursiv mənimdir – Z.D.). Onların mətanətini, cəsarətini, qəlblərinin ali nəcibliyini unuda bilmirəm".

İlk dəfə bu sətirlər "Bayatı"da ictimailəşdirildi. Onu da deyim ki, İntiqam müəllim maraqlı materialları heç zaman gözdən qoymazdı. Məsələn, Anarın 1960-cı illərin əvvəllərində atama ünvanladığı məktubları barədə xəbər tutan kimi onları həmən məndən alıb "Azərbaycan"da dərc etdirdi.

Bir məsələyə də diqqət yetirmək istərdim. Təzə-təzə nəşr olunmağa başlamışdım: "Qobustan" jurnalında vaxtaşırı çağdaş Azərbaycan musiqisinə dair materiallarım çıxırdı. Çox güman ki, İntiqam müəllim həmin materiallardan xəbərsiz deyildi. Amma bizim Yazıçılar İttifaqının binasında görüşlərimiz "ümumi hərəkət formaları" – hal-əhval tutmaqla məhdudlaşırdı. Bir dəfə İntiqam müəllim o nəzakətli təmasdan kənara çıxdı. Fərəc Qarayevin "Xütbə, muğam və surə" əsəri barədə "Etiraf anı" məqaləm yenicə dərc olunmuşdu. Bu əsərin finalında F.Qarayev Quranın 75-ci "Əl-Qiyamə" surəsini – bəşəriyyətə bir xəbərdarlıq, mənəviyyata çağırış kimi – tam şəkildə səsləndirir. Postmodernizm estetikası məcrasında yazılmış bu əsərin qəliz konsepsiyasını açıqlayarkən bir sıra paralellərə üz tutmuş, ehtimallar irəli sürmüşdüm . İntiqam müəllim o zaman dedi ki, "məqaləndə lirik bir ovqat var – mənə həmin ovqat çox yaxındır".

Bu təbrik yazımda demək istərdim ki, mən də İntiqam müəllimin hər bir çıxışında onun lirik, şairanə qəlbini duyuram. Təsadüfi deyil ki, o, kino sevdalısıdır, duyğusal poetik misralar müəllifidir, musiqi səslərinə həssasdır. Şuşalı kökləri burda özünü göstərir! Üzeyir bəyi də, Qarayevi də (onun haqqında filmin ssenarisini yazıb), ümumən üslub və janrından asılı olmayaraq gözəl, zövqlü musiqini çox sevir. Bir dəfə İTV-nin Məmməd Arifin də xatirəsi anıldığı verilişində "Azad bir quşdum" mahnısını elə oxudu ki, mən ekran qarşısında donub qaldım! Hər sözü duyaraq, hər intonasiyanı çalarlandıraraq. Bir həsrət də var idi, bir hüzn də o səsdə. "Oxumağı bacarmayan şuşalı deyil" – həmən bu deyim yadıma düşdü. Başqa bir dəfə İntiqam müəllim uzun illər Yazıçılar İttifaqının qarşısındakı bağda səsləndirilən Q.Qarayevin "Matəm odası" barədə soraqlaşdı. Həmin nəcib kədər dolu vüqarlı əsərin linkini ona göndərdim və "bu musiqi məni Qarayevli illərə qaytardı" deməyindən hiss etdim ki, duyğulanıb, hansısa çox lətif və kövrək xatirələrinə dönüb.

İntiqam müəllimdə bir keyfiyyət də məni həmişə məftun edib. Kimin haqqında söz açıbsa – ancaq heyranlıqla, ürəklə – olsun Zeynal Cabbarzadə, olsun ədəbiyyatımızın klassiki, olsun kino sənətimizin işarəvi nümunələri, olsun cavan yazarın yaratması. Yəni bir gəncliyə xas ehtiras da var onda, heyrətlənmək xüsusiyyəti də yox olmayıb. İllər ərzində çox hadisələr baş verib, o cümlədən itkilər, xəstəliklər, haqsızlıqlar, mənəviyyatsızlıq halları, amma bütün bunlar İntiqam müəllimi məyus etməyib, həyatdan küsdürməyib, xislətini dəyişdirməyib. Daşıdığı ada rəğmən kin-küdurət saxlamır və inanmıram ki, kimdənsə nə vaxtsa intiqam almaq fikrinə düşüb. Vüqarlıdır, amma təkəbbürdən, iddiadan da uzaq adamdır – vaxtilə Akademiyanın Ədəbiyyat İnstitutunun aspiranturasında oxusa da, müdafiə etməyib və buna görə əsla pərişan deyil, dost-tanışının elmi uğurlarına isə

hamıdan çox sevinir. İntiqam müəllim günbəgün iş görüb – kinostudiyada redaktor olub, ssenarilər və çeşidli məqalələr yazıb, televiziya verilişləri aparıb, "Azərbaycan"ı çapa hazırlayıb, nəşr etdirib. Eşq ilə, məsuliyyətini dərk edərək, bir az pafosla səslənsə də, faydalı, lazımlı bir çalışma icra edib – toplumumuz üçün, millətimiz üçün. İndi də jurnalın bir əsrlik yubiley dönəmində ikiqat əzm, coşqu və şövqlə çalışır. Çünki jurnal onun taleyinə yazılıb – 46 ildir o, doğma ev qədər əziz bu məkandadır. Çünki atası – dünyasını erkən dəyişmiş gözəl şair Böyükağa Qasımzadənin – vaxtilə jurnalda şöbə müdiri olmuş bu yazarın xatirəsi qarşısında da borcunu yerinə yetirir. Amma, ən əsası, ədəbiyyatımıza görə məsuliyyət daşıdığını bir an da unutmayaraq, öz ali missiyasını bacardığı qədər mükəmməl, şərəflə icra etməyə çalışır. Bu, ehtirama və sevgiyə layiqdir!

İntiqam müəllim hər bir yeniliyə, çağdaş sənətə, eksperimental xarakterli axtarışlara açıq bir adamdır. Eyni zamanda o, saxta və həqiqi olanı bir-birindən ayırd etməyi bacarır, "xaric notu" da o saat eşidir və bu zaman, özünün təbirincə, "mühafizəkar" yanaşma sərgiləyir. Deyir ki, milli dəyərlərimizi, dilimizin saflığını mühafizə etmək lazımdırsa, mühafizəkardır. Habelə tariximizə xor baxmaq cəhdlərinə, dəb xatirinə bu və ya digər mövzunun və ifadə vasitələrinin cəlb olunması hallarına qarşı da öz prinsipial mövqeyini ortalığa qoyur.

Düşünürəm ki, vurğuladığım bu cəhətlər elə "Azərbaycan"ın bugünkü simasını müəyyənləşdirir. Jurnal bədii dəyəri olan hər bir yeniliyə qapılarını həvəslə açır, ədəbiyyatımızın ənənələrini uca tutur, zamanın çağırışlarına da mümkün qədər operativ cavab verməyə çalışır.

100 il sərasər çıxan "Azərbaycan" iftixarımızdır, milli sərvətimizdir, mətbuatımızın müstəsna hadisəsidir! Ədəbiyyatımızın abidəsi, ruhumuzun mücəssəməsidir. Bu önəmli bir tarix ərəfəsində jurnalı sualtı daş və qənbərləri mərd-mərdanə dəf edərək qoruyub saxlayan hər bir kəsi ehtiramla yad edirəm. "Azərbaycan"ı bu gün yaşadanlara isə, usanmaz İntiqam müəllim başda olmaqla, ancaq yeni-yeni kəşflər, yeni sənət sarsıntıları, hüdudsuz ixtiraçılıq, "Azərbaycan" qədər – ən azı! – sağlam və olduqca mənalı ömür diləmək istərdim.



*Fuad NOVRUZLU*

## AĞIR METAL VƏ GƏNCLİYİM

Yarıqaranlıq otaq,
Siqaret tüstüsü və tünd ətir qoxusu,
Yüksək templi ritm-gitar diqtəsi,
Aqressiv, xırıltılı vokal,
Şırım-şırım ulduz tozu,
Tarım-tarım əsəblər,
Əyri-üyrü misralar,
Tələsik cızmaqaralar,
Qırıq-qırıq dualar,
Arabir isterik qəhqəhələr,
Ehtiraslı öpüşlə bitən göz yaşları,
Küçədəki gənc, eyforik kütlənin uğultusu,
Zərb alətlərinin gurultusu,
Sevginin xaotik azadlıq mübarizəsi,
Dopamin həmlələri və alkoqol burulğanı,
Metal zəncirlər, qırmızı fənərlər,
Uzaqlardan sədalanan kilsə zəngi.

## ARZULARIN TƏBİƏTDƏKİ DÖVRANI

Boz qanadlı raketlər
Sənin arzularına doğru uçur, övlad!

Onların qandonduran vızıltısı
səni şirin yuxudan oyadacaq,
Onların buludları yaran trayektoriyası
Səni qoruyan mələkləri çaş-baş salacaq.
Onlar hələ havada ikən
sən ürəyində bir arzu tutacaqsan,
Həmin arzunu öz qəlbinin
dərinliyinə basdıracaqsan...

Övladım, raketlər göyün yeddinci qatından
sənə bir qucaq nur gətirəcək,
Detonasiyası qəlbini ilk öpüştək titrədəcək.
Qəlpələr hələ ki sağlam bədəninin
zirehli ruhunu dəlmə-deşik edəcək,
Qanındaki adrenalin sıçrayışı
səni ulduzlara yaxınlaşdıracaq,
Qəlbinə basdırdığın arzu
parçalanmış bədənindən atmosferə fışqıracaq...

Övladım, sən titrək tətik barmağını
həmin arzuya tuşlayacaqsan,
Amma o arzu öz şikəst sahibini
tanımaqdan boyun qaçıracaq,
özünə təzə sığınacaq tapacaq.
Boz qanadlı raketlər növbəti hədəfə təyinat alacaq...

## KÜLƏK DUASI

Tanrım!
Küləyin buxovlarını aç,
Tufanın zəncirlərini qır!

Qoy təbiətin qüdrəti
Süst qəlbimi titrətsin.
Qoy şimşəyin gurultusu
Keçmişimin kabuslarını uçurtsun.
Qoy tufanın vahiməsi
Şüuraltı cərəyanlarımı lərzəyə gətirsin.
Qoy ildırımın caynaqları
İçinə salındığım qəlibi çatlatsın, parçalasın,
Daldalanmış ruhumu sərbəst buraxsın.
Qoy küləyin sürəti
Qarışıq fikirlərimi qənimət aparsın!

## "PRAVDA"

Məni cəzaçəkmə koloniyalarından yuxarıda,
Qırmızı ulduzlardan aşağıda,
Azad səmalarda gözlə.

O səmalarda ki,
hava hücumundan müdafiə qüvvələri
onlara hakim deyil.
O səmalarda ki, orada yüz minlərlə ruh
qaranlığın şər cəbhəsində səfərbər deyil.
O səmalarda ki, orada radioelektron mübarizə
vasitələri dua daşıyan mələklərə maneə deyil.
O səmalarda ki, orada qızılı gümbəzlər
günəşdən parlaq deyil.

Məni müharibənin fövqündə,
İki okeanın arasında,
Ehtirasın episentrində gözlə.
O ehtirasın ki, radioaktiv dalğalar
onu daha da alovlandırır.
O ehtirasın ki, ümumxalq etirazı
onun qarşısında aciz qalır.
O ehtirasın ki, federativ zorakılıq aparatı
onun suverenliyini tam tanıyır.

Məni geniş meydanlardaki izdihamdan kənarda,
Nüvə hegemonluğu kölgəsinin altında,
Bəyaz gecələrin şər qarışan cəbhəsində gözlə.
O cəbhədə ki, orada bir dəfə açılan
körpülər daha bağlanmır.
O cəbhədə ki, orada qazanılan qəlpə yaraları
zamanla sağalmır.
O cəbhədə ki, orada hüdudsuz imperiya
üfüqləri heç vaxt qaralmır.

## QARANLIQ FOTO

Görürsən,
Bu fotodakı qaranlıq
Uyuşmaz cəhətlərimizi
Necə ört-basdır edib?

Ətrafımızda vıyıldayan xaos...
Xaosun nizama qarşı əbədi üsyanı,
Xaosun düzən sevdamıza atdığı istehza,
Xaosun sənin saçlarındakı,
Mənim şüurumdakı,
Bizim hisslərimizdəki təzahürü... hamısı,
Hamısı bu dördkünc zaman-məkan çərçivəsində
qaranlığın diqtəsinə tabe olub.

Bizi ağuşuna alan
Ehtiras və emosiya tornadosu...
O tornadonun arxasıyca uzanan
təngnəfəs saatlar və siqaret tüstüsü,
O tornadonun yerlə-yeksan etdiyi günahlar şəhərinin
firavan xarabalıqları,
O tornadonun episentrindəki etiraf
və ani mükafat ziq-zaqı... hamısı,
Hamısı bu fotoda qaranlıq tərəfindən
Hamarlanıb, cilovlanıb, qucaqlanıb...

Yadındadır,
Səninlə razılaşdıq,
Bu qaranlıq foto
Zamanın xəttiliyi və dönməzliyinə qarşı
Bizim ikiölçülü üsyanımızdır?
Bəlkə, fotodakı qaranlığa tabe olmaq da
Öz qərarımızdır?

## SALAM, DOKTOR

Salam, doktor,
Qaranlığıma xoş gəldin.
Sağ ol ki, məni tanıdın,
Özüm güzgüdəki kölgəmi tanıya bilmirəm.
Sağ ol ki, məni tək qoymadın,
Özüm qaradinməz ruhumla dil tapa bilmirəm.

Salam, doktor,
Bilmirəm necə oldu ki,
Zehnimin çırağının nəbzi belə zəiflədi.
Bir addım sonramı görə bilmirəm.

Bilmirəm necə oldu ki,
Ağır sükut
Fikirlərimin səs-küyünü
Tamam zəbt elədi,
Daha şüurumun pıçıltısını eşidə bilmirəm.

Bilmirəm necə oldu ki,
Göz işlədikcə uzanan üfüqlər
Daraldı, qaraldı,
Daha köçkün ruhuma yer tapa bilmirəm.

Bilmirəm necə oldu ki,
Şüurumun ucsuz-bucaqsız kainatı
Bu qaranlıq zindanla əvəzləndi,
Yuxarı baxanda bir ulduz belə görə bilmirəm...

## SƏNDƏN ÖYRƏNDİKLƏRİM

Sən mənə
Öz doğma dilində
"Hər şey yaxşı olacaq" və "səni sevirəm"
Deməyi öyrətmişdin.

Öyrətmişdin ki, göz yaşları
Öpüşə hərarət qatır.
Öyrətmişdin ki,
Kişi üçün həssaslıq ayıb deyil,
Hissləri müzakirə etmək zəiflik deyil.

Məni öz tanrına inandırmağa çalışırdın.
İnanırdın ki, çarmıxdakı Məsihin
Bizim sevgimizə ehtiyacı var.
İnanırdın ki, sevgi ilə Məsihi çarmıxdan,
Məni isə qaranlıqdan xilas etmək olar.
Beləliklə, mənə öyrətdin ki,
Duanın dili qorxu deyil, sevgidir.

Özünü inandırmışdın və məni də
İnandırmağa çalışırdın ki,
Bu xudahafizimiz sonuncu deyil.
Hərçənd ikimiz də reallığı anlayırdıq.

Beləliklə mənə öyrətdin ki,
Ayrılan yollar faciə deyil.

Üstündən nə qədər zaman keçib.
Yəqin, küçəmizin köhnə çıraqları
Bizim söhbətlərimizçün darıxıb.
Ola bilsin, o vaxtdan
Çarmıxdaki Məsih özünə yeni sevgi tapıb.
Amma sənin öyrətdiyin cümlələr
Elə hey dilimin ucunda qalıb.

## VƏTƏN NƏĞMƏSİ

Uşaqlığın şirin təxəyyülündən
Yenicə oyanıb
Gözlərini ovuşduran
Yeniyetmə xəyallar.
Firavan gələcək vəd edən
Səkkizguşəli ulduzlar.
Gənc şüurun
Hələ kəşf etmədiyi
Neçə-neçə dünyalar.
Davaya çağıran ellərin
Münaqişəli sərhədi.
Cərəyan edən
Siyasi hadisələrin
Qaranlıq kölgəsi.
Ana ürəyində ilişmiş xeyir-duanın
Qızmar qəlpəsi.
Zirehli əjdahaların
Burulğanlı, odlu nəfəsi.
Nigaran "xudahafiz"lərin
Uzun atəş məsafəsi.
Tədricən səngiyən nəbzin bəstələdiyi
Vətən nəğməsi.
Susmayan təbliğat-təşviqatın
Bir dəqiqəlik sükut fasiləsi.

♦ Nəsr

Mübariz CƏFƏRLİ

# MÖHLƏT



♦ Roman

***And olsun and içib vəd verənə!..***

...Qalın geyinmiş, üzünə də qara, yun şərf dolamış, yalnız gözləri, bir də solğun dodaqları görünən qadın yanından keçənləri ötəri süzdü və toppuş bədəninə uyarsız qıvraqlıqla irəli yeriyib sağ əlini açaraq dil-ağız elədi:

– Allah xatirinə kömək eləyin, Allah sizi arzularınıza çatdırsın...

Cavan yanındakı qocaya xoş gəlməkdən ötrü ayaq saxlayıb ciblərini eşələmək istədi, ancaq qocanın etinasızlıqla yoluna davam elədiyini görüb fikrindən vaz keçdi, di gəl, dilini də dinc saxlaya bilmədi:

– Arvada sədəqə vermək lazım idi ki, arzularımız yerinə yetsin...

Qoca vecsiz-vecsiz əlini yelləyib yüngülcə köksünü ötürdü:

– Gərək sən verəydin, mənim arzum yoxdu...

Cavan çaşıb qalsa da susdu, ətrafına baxmadan yoluna davam elədi, amma saysız-hesabsız sorğu-sualı vardı yanındakına, çəkinməsəydi, çox şey xəbər alardı. İntəhası bilirdi ki, qoca ona düz-əməlli cavab verməyəcək, uzaqbaşı zarafata salıb deyəcək ki, özünü bicliyə vurma, sən özün yerin altını-üstünü məndən yaxşı bilirsən, bildiyin şeyi soruşmaq boş yerə vaxt itirməkdi, indi bizim vaxtımız sonsuz olsa da, sonsuzun da qədrini bilmək lazımdı, çünki haçansa sonsuz olan da bitə, qurtara bilər.

Gedənlərin xəbəri yox idi ki, dilənçi də qeyri-ixtiyari, sakitcə, səssiz-səmirsiz onların ardınca gəlir... Həm də özxoşuna gəlmir, hardansa arvadın qulağında min illərdi ənginliklərə axan bir ün əks-səda verir: “Bəsdi, burda dayanma, get səni aparmağa gələnlərin dalınca”. Qadın bir andaca lap uzaqlardan gələn həzin səsin sehrinə düşür, öz-özünə başından açılıb çiyninə, ordan da ayağının altına sürüşən uzun şalının, üzünü örtdüyü yun şərfin onun ardınca “baxmağı”nın, səssiz-vıyıltısız küləyin daranmamış, qarışıq saçlarına da əl gəzdirməyinin fərqinə varmır, irəliləyən bilmir ki, tək deyil, onun dalınca gələnlər saysız-hesabsızdı...

Yəqin qadın özbaşına və özxöşuna bundan xəbər tuta da bilməzdi, bir anlığa ayaq saxlayıb geriyə boylansa da, nəinki heç kəsi, heç nəyi görməyəcəkdi... Çünki göz qırpımındaca ətrafı ağappaq, pərulu bulud topasına bənzər sıx duman bürümüşdü, sanki qəfilcə göy yerə enmişdi, nə irəlini, nə gerini ayırd eləmək mümkündü. Ağappaq, nəm dumanın içində hərəkət eləyənlərin, üzü sonsuzluğa irəliləyənlərin yalnız öləzik qaraltısı görsənirdi.

* * *

Darvazanın “bala”, balaqca qapısını bağlayaraq evin qabağındakı kölgəlikdə oturub söhbətləşənlərə yaxınlaşan cavan nədənsə, suçlu-suçlu ayaq saxlayıb gözlərini yerə dikdi.

– Kim idi? – masanın arxasındakı keçəl başına nazik ağ fəs qoyan qoca armudu stəkandakı çayla nazik dodaqlarını isladıb xəbər aldı.

– Ət gətirmişdi... E... Qurban əti... Götürmədim... Dedim ki, sağ olun, biz qurban əti yemirik... – nədənsə, dili dolaşan cavan səbrlə izahat verdi.

Başı fəsli onunla üzbəsurət əyləşənə baxdı:

– Hər kimdisə, yəqin buralara təzə köçüb, yoxsa yerli camaat mənə qurban əti gətirməz...

Cavan dilini ağzında güclə sürüyə-sürüyə kəkələdi:

– Nə təzə köçən... Əfruz xala... gətirmişdi...

Başı fəsli güldü:

– Deyirəm axı, nədən ötrü dilin topuq vurur... – önündəkinə baxdı. – Ay Məhəmməd, bilirsən də, bizim bu növcavan Əfruzun qızına aşiq olub...

Məhəmməd gülümsünüb əlini yellədi:

– Uşağı xəcil eləmə, mən hardan bilim?.. – pərtliyindən pörtmüş cavanı lap utandırdı. – Nə gec gətirib sizin qurban payınızı? Bizə dünən gətirmişdi. Ay Adəm, adam da qaynanasının verdiyini geri qaytarar? Gərək əti aleydun, siz qurban əti yemirsiz, yeməyin də, mən gedəndə götürüb aparardım evə... İki pay bir paydan urvatlıdı... İndi o arvad sənin haqqında nə fikirləşəcək? Day acığa düşüb sənə qız verməz ki... – Adəmin neyləyəcəyini bilmədən durduğu yerdəcə qaxaca döndüyünü görən qonaq ona ürək-dirək verdi. – Bizim qonşudu Əfruz... Qızı da yaxşı qızdı... Yəqin böyük qızı istəyirsən... O birilər xırdadı hələ... Darıxma, o qızı sənə almaq axund Məhəmmədin boynuna... – əlini yüngülcə sinəsinə vurdi. – Ölməmişəm ki... Sənin elçiliyini özüm eləyəcəm... Haçan papaq eləsən, mən hazır...

Məhəmmədin sözləri Adəmin canına yağ kimi yayılsa da, qocaların yanında dayanmadı, özünü verdi evin dalına. Uzağa getmədi ki, çağrılanda eşitsin, tez gəlib ordan-burdan söhbətləşənlərin çayını təzələsin, samovara kömür atsın. Bilirdi ki, masa arxasında əyləşənlərin söhbəti uzun çəkir. Axşamacan dağı arana, aranı dağa qatırlar. Həm də danışanların bəzi kəlmələrini eşidə bilsin. Nə bilmək olar, bəlkə söhbət maraqlı səmtə yönələcəkdi...

* * *

Amma Adəm gedəndən sonra heç biri dillənmədi, araya sükut çökdü. Arabir qonşu həyətlərdən xoruz banı eşidilirdi, hardasa bir az aralıda it hürürdü dayanmadan... Nəhayət, Məhəmməd qəribə bir səs çıxartdı, bilmək olmadı boğazını arıtlayır, əsnəyir, ya köksünü ötürür.

– Adəm qızışıb, deyəsən xeyir iş olacaq... – sükutun buzu əridi. – Doğrudan Əfruzun qızın istəyir? – soruşdu.

– Küçədə, tində-dalanda görüşüb xosunlaşırlar... Cavandılar da... Deyəsən Əfruz da məsələdən halidi, yoxsa kəndin o başından durub yellənə-yellənə özü bizə qurban əti gətirməzdi ki... Əti göndərməyə adam qəhətdi?.. Hamı bilir axı mən qurban əti yemirəm, qurban bayramını da keçirmirəm...

– Əstəğfürulah de, Xaliq... Bəlkə belə küfrlərinə görə göz qırpımında bütün doğmaların, arvadın, oğlun, gəlinin, nəvən yoxa çıxdı? Heç bir nişanə qalmadı o rəhmətliklərdən... "Rəhmət" deməyə də dilim gəlmir, çünki hələ də öldü-qaldıları məlum deyil. Amma neynək, elə diriyə də rəhmət düşür... Heç qəbirləri də yoxdu yazıqların... Düzdü, sənin çəkdiklərin bizim başımıza gəlsəydi, havalanardıq. Ona qalsa, gərək Xəyyam havalanıb küçələrə düşəydi. Bəllidi ki, sənin bildiklərin bizim qafamıza sığsaydı, başımız çiyinlərimizin üstündə durmazdı. Amma hər şeyə qulp qoymaq da düzgün deyil axı... Özü də əsrlərlə ürəklərdə-beyinlərdə bərkiyib daşa dönmüş din-iman məsələsində... Mən məclisdə-filanda sözarası səni tərifləyəndə camaat dodaq büzür ki, axund üzgörənlik eləyib kafir dostuna qahmar çıxır. Gəl hay özünü cır-dağıt, boğazını yırt ki, Xaliq imansız deyil, elm adamıdı, fəqihdi, təkcə "İslam"a yox, bütün dinlərə vaqifdi, fərqli düşünəni düşmən saymaq cəhalətdi... Kimə deyirsən, binadan məxluq nağıla qulaq asmağa meyillidi, dinləmək istədiyini eşitməkdən ötrü sinov gedir... Başqa cür danışanı daşqalaq eləməyə hazırdı... Üzürlü say ki, keçmişi yadına salıb sənin yaranı qopardıram... – astaca nəfəsini dərdi. – Deyəsən mən də zaylayıb ağını çıxartmışam, ağzıma gələni danışıb sənə yol göstərirəm...

– Zərər yoxdu, o görünməmiş bədbəxtlik haçan yadımdan çıxıb ki, mənim?.. – Xaliqin gözləri yol çəkdi. – Ancaq başıma gələn o müsibətdən də qabaq qanmışdım ki, bütün dinlərdə dolaşıqlıq var. Bəni-Adəm Allahın kəlamlarını ya qanmayıb, ya da bilə-bilə özünəsərfəli şəkildə qələmə alıb. Harda ki insan övladı var, orda nəfs var, harda nəfs varsa, orda mənfəət var... Adəm özü də İblisxislətli idi, o da Allaha qarşı çıxdı, di gəl, İblisdən fərqli Adəm günahını anlayıb üzr istədi. Yaradan da onu bağışladı. Fəqət tamamən yox... Bəlkə buna görə məxluq hələ də zillət içindədi?.. Adəm cənnətdən qovulmasaydı, məhşər gününə ehtiyac olmayacaqdı, Adəm qovuldu, onun övladları nəfslərinə ram olub təbiətin yuxusuna haram qatdılar...

– Yaxşı, "Qurban bayramı"nın buna nə dəxli?.. Qurban paylaşmaq, yoxsula, kasıba, fəqirə, imkansıza əl tutmaq üçün bir vasitədi. Nəyi pisdi ki bunun, pis nə var axı burda?.. Sən belə deməyinlə bütün müqəddəs kitabları,

əstəğfürullah, elə “Quran”ı da məsxərəyə qoyursan... Axı “Quran”da da var bu rəvayət... Bundan yekə küfr olar? Sən danışdıqca adam özü özündən xoflanır, qorxudan mənim tüklərim biz-biz olur... Az qala: “Allah sənə hidayət eləsin”, demək istəyirəm, ancaq özümü güclə saxlayıram, çünki danışan özgəsi deyil, mənim bərkdən-boşdan çıxmış dostumdu, bütün dinlərdən baş çıxardan adamdı, “Quran”ın hafizidi. İndi qalmışam naəlac, bilmirəm başıma haranın daşını salım... Sənin dediklərini malalaya-malalaya bir ucdan mən özüm də günaha batıram, axirətdə nə, necə cavab verəcəyimi kəsdirmirəm...

– Küfr niyə? – Məhəmmədin zarıya-zarıya dediyi son kəlmələrini qulaqardına vurdu. – İbrahimin oğlu İsmayılı qurban vermək şərtindən çox-çox qabaqlar da ayrı-ayrı toplumlar arasında övladını qurban kəsmək adəti vardı. Özü də birinci övladı... Oğlan uşağını... Cəbrayıl İbrahimə Allahın ona İsmayılın əvəzinə qurbanlıq qoç göndərdiyini xəbər verəndə Xəlilullah *(İbrahim peyğəmbərin ləqəbi, mənası Allahın dostu, sonralar İbrahim adlı bəzi xaqanlara da “Xəlilullah” ləqəbi verilmişdi)* özü də son məqama kimi çıxış yolu axtarırdı. Yoxsa ürəkləri, qeybi bilənin, necə deyərlər, aləmlərin sirri ovcunun içində olanın, özü öldürüb-diriltdənin nə ehtiyacı var idi qurbana? Yaxud miskin bir bəndəni sınamağa? Bəli, bəli, miskin!.. Hansı mərtəbədə olursa-olsun, yer üzündə hamı, hər şey yaradanla müqayisədə miskindi. Yaranan yaradılanla bir daş-tərəziyə qoyula bilməz! Yaradan onsuz da ürəklərdən keçənləri bilirsə, onun iradəsindən kənar, ondan xəbərsiz bir yarpaq belə budağından qopmursa, hansısa sınaq, atanı oğul qurbanı ilə imtahana çəkmək mənasız, məntiqsiz, az qala gülməli deyil? Bəşər həmişə özü haqqında yüksək fikirdə olub, qeybdən eşitdiklərini də özünəsərfəli şəkildə qələmə alıb... – Xaliq yarımçıq armudu stəkanı nəlbəkiyə qoydu. – Axırda çanaq dördayaqlıların; qoyun-quzunun, mal-qaranın başında çartlayıb. Hara ki, insan barmağı dəydi, orda hökmən əyrilik olur. Binadan bünövrə belə qoyulub, belə davam eləyir... Belə gəlib, belə görükür ki, elə belə də gedəcək... Mən azdan-çoxdan qandığımı deyirəm, oluram pis kişi... Qalıram xurafatçıların əlində... Neçə kərə sən özün mənim yaxamı o “mən ölüm, sən öləsən”, bilməyən mövhümatçıların əlindən qurtarmısam... – gülümsünüb mətləb üstünə qayıtdı. – O ki qaldı min bir əzab-əziyyətlə çarmıxa çəkilən peyğəmbərə, həzrəti İsa da heç vaxt özünə: “Allahın oğlu” deməyib. Kəramətli adam idi İsa, inanclı adam idi. Yeniyetməlikdə Hindistana səyahət eləmişdi, vedalardan *(Hindistanda yaranan qədim dini təlim)* xəbərdar idi, indiki Tibet ərazisində yaşayan rahiblərlə görüşmüşdü, həmin rahiblərə qoşulub ruhunun bir də yer üzünə qayıdanda daha mükəmməl canlıya keçməsi üçün ətrafı təxminən əlli iki kilometr olan müqəddəs dağı *(Əsrlərdir ziyarət edilən Tibetdəki Kailas dağı, inanca görə bəzi müqəddəslərin, məsələn, Buddanın, Krişnanın, həzrəti İsanın və s. ruhu (qədim mənbələrdə sadəcə ruhu yox, müqəddəslərin özləri də yazılır) bu dağdakı gizli otaqlardadır, zamanı yetişəndə onlar zühur edəcək və şərlə mübarizədə insanlığa dayaq olacaq)* pay-piyada üç dəfə dövrə vurmuşdu, hətta rəvayətə görə müqəddəs dağdakı gizli, qadağan olunmuş yollardan keçib çox sirlər öyrənmişdi,

dağın içindəki insanın ölçüsünü dəyişib qeyb aləminə, keçmişə-gələcəyə səyahət eləməyə imkan verən kahalarda da olmuşdu. Çox mətləblərdən, çox gizlinlərdən hali idi, biliklərini xeyirxah işlərə yönəldirdi, xəstələri sağaldırdı, suyun üstü ilə yeriyirdi, korların gözünü açırdı, ölüləri dirildirdi. Ölüləri dirildirdi deməyimdən çaşma, insan dünyaya yavaş-yavaş gəldiyi kimi, öləndə də asta-asta ölür. Yəni cavanlıqda gördüyümüz işləri illər ötüşdükcə eləməyə gücümz çatmırsa, elə bu da ölümə doğru getməkdi. Deməyim odu ki, həzrəti İsanın diriltdiyi ölülər ruhu bədənini tamam tərk eləməyənlərdi. İsa deyirdi ki, insan Allahın qulu deyil, övladıdı, buna görə də bəziləri onu düzgün anlamayıb Allah, Allahın oğlu çağırırdılar, o da həmin adamları lənətləyirdi ki, məni günaha batırmayın. Savab işlər görürdü. Pilatın da yaxın adamı idi. Tərəfdarları ilə birləşərək varlı dindarların, rahiblərin qızıllarını alıb üfunət bürümüş şəhərin – Yerusəlimin – dizə çıxan zir-zibilini təmizlətdirirdi, şəhərə su çəkdirirdi, xeyriyyəçiliklə məşğul olurdu. Üzdəniraq dindarlar da əlbir olub Pilatın indiki Suriya ərazisindəki böyüyünə şikayət elədilər, ona hədiyyələr, rüşvət verməklə, həzrəti İsanı sakitcə aradan götürmək istədilər. Pilat da əlacsız qaldı, onlara mane ola bilmədi, ancaq axıracan Məryəm oğlu İsanı qorumağa çalışdı...

– Sakitcə aradan götürmək istəyirdilərsə, hay-küylə çarmıxa çəkmək nəyə gərək idi?

– İsanın çarmıxa çəkilməyi uydurmadı... Çarmıxa çəkilib göyün dördüncü qatına qalxan, üç gündən sonra dirilib ardıcıllarının yanına gələn: “Acam, mənə yemək verin, deyərdi?” Ruh da balıq yeyər, bal yeyər, şərab içər? Ruhun bədəni var ki, onun əlinə-ayağına toxunmaq mümkün olsun? Həzrəti İsadan təxminən üç yüz il sonra, din xadimləri tərəfindən səsə qoyularaq, cəmi iki səs çoxluğu ilə, Allahın oğlu elan edilib İsa, İsa Allahın oğlu elan olunandan cəmi bir il sonra Vatikan yaranıb. Çünki əhali artırdı, insanları təkcə zor, əsgər gücünə idarə eləmək mümkün deyildi. Bundan da təxminən bir əsr ötüb, İsanın anası Məryəm müqəddəs elan olunub...

– Birincisi, Vatikandan çox-çox qabaq da dinlər, inanclar vardı, ikincisi, dini kitabda əməlli-başlı təsvir olunub İsanın çarmıxa çəkilməyi, üç...

Xaliq Məhəmmədin sözünü kəsdi:

– Düzdü, elə Adəm dövründən üzü bəri, – Adəm öz adını eşitcək maraqla qulaqlarını şəkləsə də, danışılanlar ona bildiklərini təkrar-təkrar eşidirmiştək maraqsız, adi gəldiyindən həvəsdən düşdü, – dinlər, müxtəlif təlimlər yaranırdı, get-gedə müxtəlif inanclar meydana çıxırdı ayrı-ayrı toplumlar içində, amma kütləviləşməmişdi, fövqəlqüvvəyə çevrilib yer üzünə hakim kəsilmək iddiasında deyildi həmin dinlər... Çarmıxa çəkilmək məsələsinə gəlincə, həzrəti İsanın başı cəncəldə olanda qorxudan gizlənməyə siçan deşiyi axtaran, hərəsi bir yerə dağılışan, onu tanıdıqlarını belə danan həvvarilərdən heç biri ustadlarının çarmıxa çəkilməsini görə bilməzdilər. İsa peyğəmbərin ölümündən sonra qələmə alınanlarda da, heç bir şagird ustadlarının çarmıxa çəkildiyini şəxsən gördüyünü yazmırdı. Bu barədə yalnız kimlərdənsə eşitdiklərini qeyd eləyirdilər. Məsələn, filankəsin dediyinə görə həzrəti İsanı belə, bu cür çarmıxa çəkiblər... Və sair və ilaxır...

Ona görə həmin yazılarda, həzrəti İsanın çarmıxa çəkilmək məsələsini qələmə alanlar arasında gözgörəsi fərqlər var. Bu barədə səhih yazını İsanı satıb sonra da özünü asan on iki ardıcıl arasında peyğəmbərin ən sevimli, ən etibarlı şagirdi yazıb ki, onun da qələmə aldıqları gizlədilib. O şagird ki, əslində müəllimini vəziyyətdən çıxarmaq üçün onun göstərişini yerinə yetirib, buna görə də əsrlərdi ki, satqın kimi dindarlar tərəfindən lənətlənir. Əslində bu satqınlıq yox, fədakarlıq idi. Özün fikirləş, o necə Allahın oğludu ki, aləmləri yaradan qüdrətli ata nadan kütlənin onu çarmıxa çəkməsinə sakitcə tamaşa eləyir? Bəzi dinşünaslar buna belə cavab verirlər ki, güya, Allah öz oğlunu qurbanlıq quzu kimi insanlığa, cəmi bəşərə qurban verir ki, nadanların gözü açılsın, cızığından çıxmış yarıvəhşi adamlar kamilləşsin. Fəqət İbrahimin oğlu İsmayılı qurban kəsməyini rəva görməyib qeybdən qoç göndərən öz oğlu İsanın vəhşicəsinə çarmıxa çəkilib qətlə yetirilməyinə göz yumardımı? Vatikanın kitabxanasının zirzəmisindəki oxunmasına qadağa qoyulmuş kitablarda bu barədə açıq-aşkar faktlar var. Yasaq edilmiş yazılarda qeyd olunur ki, həzrəti İsa evlənib, hətta övladları da olub peyğəmbərin. Deyilənə görə qəbri də Hindistandadı. Güman ki, öz qızı da həzrəti İsanın yanında dəfn olunub... Fəqət İsanın məzarının Yerusəlimdə, indiki Türkiyə ərazisində, hətta Parisdə olduğunu deyənlər də var. Nəsə, dolaşıq məsələlərdi, bir cavabın içindən min bir sorğu-sual çıxır...

– Bütün dinlərdə müzakirəyə qapalı, gizli məqamlar var. Elə "İslam"da da gərək əsl dindar ruh, qeyb, o dünya, məhşər günü, cənnət-cəhənnəm məsələsinə şəkk eləməsin, qeyd-şərtsiz, isbatsız inansın, bu öz yerində, mat-məəttəl qalmalısı budu ki, sən bunları hardan bilirsən? – Məhəmməd gözlərini döydü. – Burda otura-otura qadağan olunmuş o gizli dediyin kitablardan necə xəbər tutmusan?.. Bir az nağıla, uydurmaya da oxşayır sənin dediklərin...

– Haqlısan, bütün dinlərdə həm qapalı maqamlar var, həm də nağılabənzərlik... Gərək belə olmayaydı, fəqət bizim arşınımızla heç nə ölçülmür... Yəqindi ki, bunsuz ötüşmək olmayıb. Məncə külli-aləm özü bir cəmdi, bütövdü... Sanki yaradanın içindədi, beləcə, istər-istəməz məxluqdan tutmuş qum dənəsinəcən gördüyümüz-görmədiyimiz hər kəs, hər şey yaradanın bir parçasıdı. O ki qaldı danışdıqlarımı hardan bilməyimə, cidanı çuvalda gizlətmək olmaz... İndi əyyam dəyişib, Mazandaranda bir molla asğıranda burda bizim qulağımz cingildəyir. Qədim bir filosof düz deyib ki, bütün gizlinlər, bütün sirlər gec-tez açılacaq... Amma mən bəşərə ali sirlərin açılacağına inanmıram, çünki onsuz da Adəmə əsl, əsas sirlər açılmışdı. Ölümsüz idi o. Məlum hadisədən sonra yaddaşını, qanadlarını itirdi. Mən insanın bütün yaradılanlardan üstün olmasını da qəbul eləmirəm. Bu ədalətsizlikdə də, əstəğfürüllah, yaradanın yox, hiləgər, kələkbaz, bu dünyanın bir göz qırpımında ötüb keçəcək naz-nemətinə uyan, aldanan məxluqun barmağı var. Bəzən: "mən-mən", deməyimi də başqa cürə yozma, mən hər şeyi bilməliyəm... Xaliqəm axı... – zarafata saldı. – Hər şeydən, hamıdan küsüb öz hücrəmə sığınmağıma baxma... Əslində dünya da balaca bir komaya sığacaq qədər kiçikdi...

– Nə deyim... Mazandaran budu, burdan-buradı, ağzımızın içində olmasa da burnumuzun ucundadı... – Məhəmməd əlacsız-əlacsız başını bulayıb əlini yellədi. – Bəndənin nə deməyindən, nə fikirləşməyindən asılı olmayaraq müqəddəslərin məqamı dəyişməz. Amma dilini dinc qoymasan, axırda mövfümatçılar səni daşqalaq eləyəcək. Olan-qalan hörmətini də itirəcəksən. Bizim də əlimiz heç yana çatmayacaq. A kişi, özün yaxşı bilirsən ki, mən də çox şeylərdən xəbərdaram, fəqət hər bildiyini car çəkib məxluqa demək olmaz axı... Hər yetənə necə, niyə, nədən deyəsən ki, elə yaşadığımız dünyada gözümüzə görünməyən min cürə məxluqat var, yerin altında, göyün üzündə ağlasığışmayan qeyri-adi həyat var... Elə məsələlər var ki, adi adamlar bilməməlidi... Məxluqa hər gizlini açmaq olmaz, çoxları hazır deyil buna, düzgün anlamazlar, düz başa düşməzlər, hər şeyi qatıb qarışdırarlar, qaş düzəltdiyin yerdə vurub göz çıxararsan. Beş barmağın beşi də bir deyil axı...

– Din-imanda elə şey ola bilməz!.. Kitab hamı üçün göndərilibsə...

– Yenə şükür ki, ruhun əbədiliyini inkar eləmirsən... – Məhəmməd Xaliqin dediklərini qulaqardına vurub mızıldandı.

– İnkar eləmirəm, amma sənin məclislərdə dediyin cənnət-cəhənnəm, huri-qılman, əbədi kef, əbədi əzab məsələsinə başqa cür baxıram. Hərçənd o məsələlər insan ağlının ölçülərinə uyğun gəlmir, ölçülər dəyişdiyindən içi mən qarışıq məxluq ruhun, qeyb aləminin sirlərini heç vaxt bilməyəcək, elə sağı-solu hərlənib-fırlanıb çevir tatı, vur tatı deyərək axırda durduğu yerə qayıdacaq. Fəqət məhşərəcən axtarışlarından əl çəkməyəcək. Adını da qoyacaq həqiqət axtarışı... Hər şey ondan irəli gəlir ki, adamlar ölümdən qorxur. Əgər cənnət əsrarəngizdisə, mömin ölümdən niyə qorxmalıdı? Ruha gəlincə, mən ruhun fərdiliyini ağlıma sığışdıra bilmirəm. İnsan ölən kimi ruhu bədəndən çıxıb əbədidə əriyir. Damlanın dənizə düşdüyü kimi... Buraxdığın nəfəsi havada tapmaq mümkün deyil. Ağzını boşuna yorma, qanıram ki, indi də həmişəki kimi vaqiə, ölülərin yuxuya girməsini soruşacaqsan, mən də boynuma alacam ki, o dərinlikləri bilmirəm, dərinə getdikcə dolaşığa düşürəm, dalana dirənirəm...

– Hamısı nala-mıxa vurmaqdandı... Ruh məsələsinə çox girişmə, oralara gedib çıxmaq insan ağlı üçün deyil. Elə şeylər var ki, onlara isbatsız inanmağa məhkumsan. Yoxsa, əlin heç yana çatmayacaq...

– Elədi, əslində mən həmişə tərəddüd içində olmuşam... Başıma müsibət gəlməmişdən də beləydim... Axtardığı suallara cavab tapmadıqca adam bədbinləşir, dünyadan küsür...

– Bəlkə gücün çatmayacaq daşları qaldırmağa girişməyəsən? Peyğəmbərlərə rəva görülməyəni bilmək istəyi də şeytanilikdi... Necə deyiblər onu: "Əcəl gələr, ölərik". Yəqin öləndən sonra qəliz mətləblər öz-özünə aydın olacaq bizlərə... Ona görə bizə də ayrılan həyatı sakit, hay-küysüz yaşamaq lazımdı... Nə qədər fikirləşirsən fikirləş, yüz qəpiyin bir manat eləyir. Bəri başdan çiynini ağır yükün altına vermək divanəlikdi...

– Yox, inanmıram... Deyəsən öləndən sonra da, heç nə aydın olmayacaq bizlərə. Elə sən söylədiyin kimi fikirləşmək də təsəllidən başqa bir şeyə

yaramayacaq... Şeytaniliyə gəlincə, ağılı idarə eləmək bizim əlimizdə deyil ki... Hər şey bizdən asılı olmadan baş verir. Beyin siqnal verir ki, bu stəkanı götür çayı iç... – qabağındakı yarımçıq stəkanı əşyayi-dəlil kimi götürüb təzədən nəlbəkiyə qoydu. – Amma bunu götürüb ağzına aparınca müəyyən bir vaxt ötür. Di gəl, sənin qəliz dediyin o cavabsız fikirlər, suallar özündən asılı olmayaraq qəfil güllə kimi, göz qırpımında girir adamın ağlına, cavab tapmırsan... Havalı kimi gəzirsən... Cavab cəhənnəm, dərdini deməyə də kimsə tapılmır. Yenə yaxşı ki, sən arabir gəlib mənə baş çəkirsən... – söhbəti dəyişdi. – Hər nə isə, yüz fikir bir borcu ödəmir. Yaxşısı budu, bir qısmat çörək yeyək, səni bilmirəm, mən acmışam...

– Qulaq as, heç olmasa cümə günləri gəl məscidə... – axund yemək söhbətini qulaqardına vurdu. – Mən moizə oxuyanda otur yanımda. Beləcə, qayna-qarış dindarlara... Heç kəs mənim yanımda sənə: "Gözün üstə qaşın var", deyə bilməz, çəkinib eləmə... Cümə namazını bir yerdə qılaq. Beş-altı həftə keçər, yavaş-yavaş pişnamazlıq da eləyərsən, məclislərə də gedərik... İncimə e, hələ ki, sənintək yas yerlərinə gedib mollalıq eləməyini rəva görmərəm, – səsini yavaşıtdı. – Bu dəfə işləri korlasan xurafatçılar səndə salamat yer qoymayacaq. Öz aramızdı, onları da qınamalı deyil, neçə illərdi dirisinin dərdini çəkməyib ölüsünə ağlayanların çörəyini yeyirik də biz... Yoxsa, sağlığına qismət, bu ev-eşik, bağ-bağat, bu dirlik bizlərə ata-babamızdan qalmayıb ki... Hörmət-izzəti, ağsaqqallığı da ki, öz yerində... Sənin axtardığın həqiqət nə dindarlara gərəkdi, nə ölü yiyələrinə... Köhnə bazara təzə nırx qoyma... Dilini saxla, çörəyini ye, Allah ağzını bağlamayıb ki... Əvvəlki kimi dini rəvayətlərdən danışıb məslisləri, məclisdəkiləri ələ al... Mən onsuz da altdan-altdan çoxdan məxluqu sakitləşdirmişəm ki, ay camaat, molla Xaliqin üstünə çox getməyin, onun başına görünməmiş fəlakət gəldiyindən hərdənbir özünü-sözünü bilməyib küfr eləyir, inşallah, tez bir zamanda özünü toparlıyar, hər şey yoluna düşər. Qalanı səndən aslıdı. Əyri oturaq, düz danışaq, indi camaat dədəsinnənəsin düz-əməlli xatırlamır, əsrlər əvvəl baş verənlərdən sənə-mənə nə, ay kişi?.. Keçmişi qurdalamaq tarixçilərin işidi, dindarların yox...

– Din adamları idarə eləmək üçün vasitədi. Tanrının nə dinə ehtiyacı var, nə bəndəyə... Böyük mütəfəkkirlərdən birinin qəbrinə yazılıb ki, Allahın dini yoxdu... O ki qaldı qazanca-filana, var-dövlətə, ev-eşiyə aqillər yaxşı deyib ki, lazım olduğundan artığı gərəksizdi, sənin deyil. Müdriklərsə lap dərinə gedib. "Heç nə sənin deyil", – söyləyiblər. Gözümü yumub açmağa macal tapmamış bütün döğmalarımı itirəndə barmağımı dişlədim ki, ay dadi-bidad, müdriklər aqillərin ustadı imiş... Belə ki, əziz dostum, yaşımın-başımın bu vaxtında day məni dünya malı ilə şirnikləndirmək əbəsdi...

– Anlayıram, başına böyük müsibət gəlib. Amma özünə toxtaqlıq verməlisən. Gör aradan neçə il ötüb. Divanə olub küçələrə düşməyəcəksən ki?.. Mən istəmirəm sən düşmən sevindirən olasan. Başını dik tut! Axirətəcən sənin yanındayam, özünü tək-tənha hiss eləmə, verən də Allahdı, alan da... Demə ki, xərifləmişəm, ağzıma gələni danışıram, yəqin sənin başına gələn fəlakətdə də bir kəramət var, biz qurbanolduğumun işinə qarışa bilmərik.

Doğmalarını sənin əlindən alıb, əvəzində Adəmi göndərib. Özün tez-tez deyirsən axı, tanrının işindən baş çıxarmaq, qeyb aləminin sirrini bilmək bəndəlik deyil. Belə... – Axund nəfəsini dərib tənbehə keçdi. – Mən hər şeyi yoluna qoymaq istəyirəm, kor tutduğunu buraxmadığı kimi sən də elə dediyini deyirsən... – sağ əlinin şəhadət barmağını göyə tuşladı. – O kişinin heç kəsə, heç nəyə ehtiyacı yoxdu, istəsə hər şeyi göz qırpımında ya yoluna qoyar, ya dağıdar... Bizlər nəkarəyik ki, binadan qoyulmuş qaydalara qarşı çıxaq? Bunu eləmək elə öz çörəyimizə bais olmaq deyil?

Xaliq axunda diqqətlə qulaq assa da, onun sualına cavab vermədi:

– Çörək dedin, yadıma düşdü... – cavanı çağırdı. – Adə, ay Adəm, gəl bu çay surfasın yığışdır, yemək gətir... – Adəm gələndə Xaliq məzələndi. – Yenə sir-sifətindən zəhrimar yağır. Nolub?

Masa arxasındakıların evlənmək məsələsi yada salmamağı evin tinində gizlənib söhbətə qulaq asan Adəmin kefini pozulmuşdu. Az qalırdı boğazını arıtlayıb qocalara çımxırsın ki, bəsdi boş-boşuna dağı-arana, aranı-dağa qatdız, xeyir işdən danışın...

Adəmin əvəzinə Məhəmməd cavab verdi:

– Aşiq fikir eləyir yəqin...

Xaliq güldü:

– Qəm yemə, söz verdik axı... Əfruzun qızını alacağıq sənə... Vüsala çatacaqsan... Adı nədi qızın?

Bu dəfə Adəm tez dilləndi:

– Həvva...

Məhəmmədin də dodaqları qaçdı:

– Nolar... Adəmlə Həvvanı qovuşdurmaq savabdı... Biz də sənə eləyəcəyimiz yaxşılığın əcrini o dünyada alacuq...

– Çarhovuzun yanındakı evi də verəcəm sizə... – Xaliq qızı oğlana alıblarmış kimi, bazarlıq elədi. – Hələlik qalarsuz orda... Yeri gəlmişkən, bir vaxt elə, carhovuzu da təmizlə, bala... Suyu tamam iylənib...

– Baş üstə!.. – söhbət ürəyincə olduğundan masadakı çay dəstgahını yığışdırmağı unudan Adəm ürəkdən dedi.

– Çarhovuzun yanındakı ev balacadı axı... – Məhəmməd razılaşmadı. – Öz yanında saxlayarsan da cavanları...

– Elə ora da mənim yanımdı... Bir həyətdi də... Fəqət atalar necə deyib: “El elə sığar, ev evə yox”. Öz oğlum evlənəndə tikdirmişdim o balaca evi. O da bir-iki il arvadı ilə elə orda yaşadı. Binadan başım hay-küy götürmür mənim... – baxışlarını yayındırdı, sanki Adəmin yanında suçlu idi. – Həm də sən özün bilirsən ki, mənim qohum-əqrabam bir sürüdü... Üzlərinə baxmadığımdan bura gəlməyə çəkinirlər. Ancaq marığa yatıb mənim ölümümü gözləyirlər ki, cumub hər şeyi tarmar eləsinlər. Pula gedəni dəyər-dəyməzə satsınlar, pula getməyəni də daşıyıb aparsınlar... Elə bilirlər oğlumun ev-eşiyini də satmışam, onun yığdıqları da mənə qalıb, altım doludu mənim, xəzinə üstündə oturmuşam... Bəri başdan tamahı Zülfüqar *(Həzrəti Əlinin ikihaçalı qılıncı, deyilənə görə bu qılıncı İslam peyğəmbəri özü ona bağışlamışdı)* qılıncından iti olanları hürkütmək olmaz. Din-iman-

ları pul-para, var-dövlət olanlardan nə desən gözləmək mümkündü. İncidərlər Adəmi... Day ağzım yanıb, gözüm qorxub mənim... – Adəmin rənginin qaçdığını, amma nədənsə, bu qorxaqlığa oxşamırdı, sezib qımışdı. – Ancaq mən də uzun yaşayacam onların acığına... Canım bərkdi... O dəhşətli müsibətdən sağ-salamat çıxdımsa, day mənə ölüm yoxdu...

– Nə bilirsən... – Məhəmməd zarafatla mızıldandı. –Əzrayılla şərt kəsmisən?..

– Əzrayıl nəkarədi ki, yiyəsindən iznsiz can alsın?.. – Xaliq başındakı fəsi çıxardıb ehmalca masanın üstünə qoydu və çilli, tüksüz başını qaşıdı. – Qorxmağa gəlincə, mən heç nədən qorxmuram... Buddistlər yaxşı deyiblər ki, yaşayanda ölməyə, öləndə də yaşamağa hazır ol... Mən də hazıram, dərzi kimi iynəm həmişə yaxamdadı... – fikirli-fikirli altdan-yuxarı Adəmə baxdı. – Sən nə quruyub qalmısan? Deyəsən eşq olan-qalan ağlını başından alıb... Surfanı yığışdır, yemək gətir dedim axı...

Adəm əl-ayağa düşdü:

– Yığışdırım da, mənim gözüm üstə... Amma gərək yeməyi beş-on dəqiqə gözləyəsiz... Bilmirdim belə tez yemək istəyərsiz...

– Fırıldaq gəlmə, denən ki, bayaqdan evin tinində durub qulaqlarımı şəkləmişdim, sizə qulaq asırdım... – Xaliq gülə-gülə masanın üstündəki uzun, qara təsbehini götürüb çevirməyə başladı. – Ay xətəkar...

Adəm söz tapa bilməyib susdu və suyu süzülə-süzülə, nədənsə,ləngər vura-vura dönüb getdi. Adəm gedəndən sonra araya öləzik sükut çökdü, sonra Xaliq boğazını arıtlayıb dedi:

– Yenə yaxşı ki, hərdən gəlib mənə dəyirsən, zarafatlaşırıq eynim açılır... Sən olmasan tamam boş görünərdi dünya mənə... Hayif ki, bu gün sənin də qanını qaraltdım...

Ev yiyəsinin sözləri Məhəmmədin ürəyindən olsa da:

– Bu nə sözdü deyirsən? – dodaqaltı mızıldanıb bozardı. – Borcumdu... Məsciddə bayram namazını qılan kimi durub gəldim sənin yanına... Heç bayramlaşmağa gələnlərin çoxu ilə görüşmədim də... – gülümsündü. – Qəm yemə, hər şey yoluna düşəcək, Əfruzun qızını da alacağıq Adəmə... Hələ Adəmin toyunda iki qardaş qol götürüb oynayacağıq da...

– Əfruzun ərinin adı nədi?

– Buy, gəl məni də tanıma... – Məhəmməd təəccübləndi. – Çəkməçi Atəş...

– Çəkməçiliyini bilirəm, adı yadımdan çıxmışdı... Axır zamanlar adlar yadımdan çıxır. Hərdən ha fikirləşirəm, min ildi tanıdığım adamın adını yadıma sala bilmirəm... O dəfə divanda uzanmışdım, nədənsə, birdən-birə rəhmətlik dədəmi xatırladım, kişinin adını yadıma salınca, yalan olmasın, yarım saat fikirləşdim... – mətləb üstünə gəldi. – Hə, çəkməçi Atəşin bəxti yaman gətirib... Əlləri qızıldı Adəmin... Hər işi bacarır. Bu boyda dirriyi o saxlayır... Bişirdiyi yeməklərin də dadından doymaq olmur. Maşallah, kişi işini də görür, zənən işini də...

– Yaxşı ki, onu götürüb yanında saxladın, kömək elədin binəvaya... Yoxsa yiyəsiz qalıb çöldə-bayırda ac-susuz tələf olacaqdı... Savab iş gördün...

– Savabın yarısı da bizim Xəyyama düşür. Elədi, doğmalarımı itirəndən sonra çox dayaq oldu Adəm mənə... Hələ bilmək olmaz kim-kimə kömək eləyib... – dərinə getməyib söhbəti dəyişdi Xaliq. – Gərək elçi getməmişdən xəbər eləyək ki, Atəş içməsin... Gərək axund ayaq basacağı evdən şərab qoxusu gəlməsin axı. Deyirlər ayıq vaxtı olmur onun...

– Altı qızı olub, oğul üzünə həsrət qalan içməyib neyləsin? Dolanışığı da ağırdı, yazıq axır vaxtlar əlacsızlıqdan dəlləklik də eləyir... İndi həm pinəçidi, həm dəllək... Ayaq işinə də baxır, baş işinə də... Təki beşdən-üçdən qazanıb birtəhər külfətini dolandırsın...

– Dolanışığı ağırdısa ayağını yorğanına görə uzatsın. Qurban kəsmək kasıbın harasına yaraşır? – narazılıq elədi Xaliq. – Amma day qızının birini alıb onun yükünü yüngülləşdirəcəyik də...

– Demədim ki, acından ölür... Yəqin hələ küncdə-bucaqda molla Pirinin yığdığı pul-paradan, qır-qızıldan qalıb...

– İndiyə pul-para, qır-qızıl qalar?.. Bir çətən də külfəti var idi axı o rəhmətliyin...

– Atəşin babası molla Pirinin möcüzələri yadındadı da... – axundun qırışmış, gündən qaralmış sifətinə təbəssüm qondu.

Xaliq qımışdı:

– Nöş yadımda deyil, rəhmətlik başın başlara qoşub gah buxara papaq, gah qara əmmamə qoyaraq mollalıq eləsə də savadsız idi. Amma əsl sən deyən dindardı. Qatı mövhümatçı... Bisavadlığından kələfin ucunu da itirmişdi. İş o yerə çatmışdı ki, hərdən camaat da onunla məzələnirdi... Yəqin eşitmisən də, deyirlər, günlərin birində kənddə quraqlıq imiş. Molla Piri qonşu kəndə gedəndə görür ki, camaat əli qoynunda bikef-bikef dayanıb. Yaxınlaşıb soruşur ki, nolub? Camaatin içindən bir itoynadan qaşlarını çatıb ciddi-ciddi qayıdır ki, necə nolub, ay molla, görmürsən neçə vaxtdı yağış üzünə həsrətik, zəhmətimiz hədər gedir, əkin-biçin yanır, yağış yağmasa qamış bitməyəcək, arvad-uşaq acından qırılacaq, qərəz, yenə umudumuz sənədi... – şəhadət barmağını göyə qaldırır qalınqaş itoynadan. – O kişi, eşitsə-eşitsə, bircə səni eşidəcək... Camaat da yerbəyerdən qalınqaşın sözünə qüvvət verir. Molla Piri də forslanıb çıxır yaxındakı təpəciyə, əllərini qaldırır göyə: “Ey yerin göyün sahibi, bir yağış yağdır, qoyma məhsul tələf olsun, məxluq ac qalsın... – yuxarıdan-aşağı göz gəzdirib camaatın səssiz-səmirsiz, fağır-fağır ona baxdığını görəndə lap vəcdə gələrək özündən çıxır. – Bax, budur sənə deyirəm, mən gedirəm qonşu kənddəki məclisə, mən gələnəcən buralara yağış yağdırmasan səninlə başqa cür danışacam!” Piri bunu deyib çıxıb gedir. O, gedəndən sonra beşcə dəqiqənin içində gün batır, göyün üzünü qapqara buludlar örtür, bir leysan başlayır ki, elə bil göydən vedrə-vedrə su ələyirlər. Qəribə burasıdı kı, təkcə həmin kəndə yağır selləmə yağış. Piri qayıdanda görür ki, yalan olmasın, su dizə qalxıb, islanıb yoluq cücəyə dönən camaat da bir küncdə kor-peşman büzüşüb bilmir neyləsin. Hamı çarəsiz-çarəsiz ona baxır. Bu arada baməzə Qasım yenə dilini dinc saxlamır. “Molla, deyəsən, əstəğfürullah, qurbanolduğumu yaman qorxutdun, yağış istəyirdin sel elədi

göydən. Sən də barıtı bir balaca az elə də, ay evi tikilmiş". Molla Piri də dizəcən suya, zığa-palçığa bata-bata, sürüşə-sürüşə yenə birtəhər çıxır həmin təpəcikə. İki cantaraq kisi də Pirinin qoluna girib yuxarı çıxmağa kömək eləyir ki, görək bu işin axırı necə bitəcək, molla bu dəfə nağayracaq?.. Piri gözünə döndüyüm də üzünü göyə tutub bir qəbər susur, sonra başını bulayıb kədərli-kədərli, amma qəzəbli-qəzəbli, hirsli-hikkəli gileylənir: "Bu nə işdi tutdun?!. Uşaq bunu eləməzdi". Onun dediklərini eşidən qoluna girənlər bir anlığa başlarına gələni unudub qəhqəhə çəkirlər... Piri də dayaqsız qaldığından əllərini havada oynada-oynada dikdirin başında yıxılıb düz aşağıyacan təpəsi üstə sürüşür zığın-palçığın içinə... Allah yerini behişt eləsin molla Pirinin: "Uşaq bunu eləməzdi..." – deyimi indiyəcən yerli camaatın dilində zərb-məsələ çevrilib... Bizim camaat da şəbədə qoşmağa məəttəldi, bu hadisədən sonra hərə beş-üç manat tapıb bir dərdlə, bir bəhanə ilə qaçırdı Pirinin yanına ki, ay molla, bilirik o kişi sənin sözündən çıxmır, al bu pulu denən bizə ruzi yetirsən, o biri başılovlu gəlib yalvarırdı ki, molla, ayağının altında canımı tapşırım, o qurbanolduğuma xəbər ver, qoy qarımış qızıma bir elçi göndərsin, digəri yalvarırdı ki, balam ağır xəstədi, o gözəgörünməzə yaxşı-yaxşı tapşır ki, uşağı bu bəladan qurtarsın. Əlqərəz, ya camaat özünü avamlığa vurmuşdu, ya molla Piri... Burası var ki, Piri də heç kəsə: "yox", deyib etiraz eləmirdi, qapısına gələnlərdən işi düzələnlər də olurdu, beləcə, siftə zarafatla, məzələnmək üçün Pirinin yanına gələnlər get-gedə çəkindilər, qorxub gerçəklədilər, molla Pirinin də adı dillərə düşdü, el-oba onun yanına axışdı, o vaxtlar da molla Piri yaxşı pul-para qazandı, var-dövləti başından aşdı. Fəqət illər ötdükcə, qocaldıqca öz qüdrətinə, əzəmətinə, seçilmiş olmağına, Allaha yaxınlığına özü də elə ürəkdən inandı ki, axırda başına hava gəldi, havalandı... Yadındadı da, bir də görürdün qışın oğlan çağında küçənin ortasındaca başlayırdı soyunmağa ki, məni isti vurub... Pal-paltarını çıxardıb lüt anadangəlmə gəzirdi, dodaqaltı öz-özünə deyirdi ki, gülməyin, ay qanmazlar, ulu babamız Adəm də əyninə heç nə heyinməyib, çılın-çılpaq dövran sürüb... O, soyunanda abırsız kişilər çırtma çalırmış, zənənlər qaçıb gizlənirmiş. Ölümünə yaxın evdən bayıra buraxmırdılar Pirini, çünki lap xərifləyibmiş. Deyirlər elə lüt anadangəlmə də canını tapşırıbmış. Hər nə isə, Allah molla Piriyə rəhmət eləsin... Necə deyirlər onu, ölülərə rəhmət, dirilərə də cansağlığı... – fəsi başına qoyub ayağa durdu. – Dur bir az həyətdə gəzişək, cana xeyri var yeriməyin, Adəmin beş-on dəqiqəsinə bələdəm, onun surfa açmağı uzun çəkəcək deyəsən... Hər işdə əldən itidi, aşpazlıqdan başqa... Özü də deyir ki, yemək bişirəndə tələsmək olmaz, təam hazırlamaq zərgər işidi, gərək bütün nemətləri qazana vaxtında atasan... Tələsdin, yaxud vaxtını ötürdünsə, o yeməkdən əlini üz, birtəhər yeyib qarnını doydursan da, ləzzət almayacaqsan... Allah saxlamış özündən bir xörəklər icad eləyir ki, bir təamlar bişirib süfrəyə qoyur ki, dadından doymaq olmur...

Məhəmməd də yavaşca:

– Elədi... – deyib ayağa qaxdı. – Allah onu sənə, səni də ona çox görməsin... Yenə köməkdi, həyandı sənə...

* * *

Çarhovuzun yanındakı evin qabağına çatanda Xaliq ayaq saxladı, Çaxund da çar-naçar onun yanında dayandı. Xaliq daş pilləkənə göz gəzdirib izn istəyirmiş kimi, yanındakına dedi:

– Girək içəri...

– Necə məsləhətdi... – Məhəmməd etiraz eləməyib həlimliklə, lakin könülsüz-könülsüz dilləndi.

Xaliq corabsız ayağına keçirdiyi başmaqlarını çıxarıb səliqə ilə cütlədi və daş pillələri ayaqyalın qalxdı. Yuxarı çıxdıqca birinci kərə qalxırmış kimi, üstünə mavi rəng çəkilmiş pillələri saydı – bəzi yerlər sürtüldüyündən, qopduğundan altdakı göy, solğun rəng də nəzərə çarpırdı, rənglər bir-birinə qarışdığından pillələr çopurlaşmışdı, artırmanın döşəməsindəki narıncı boya da qopuq-qopuq idi, amma köhnə rəngin altında başqa boya olmadığından doşəmənin köhnəlmiş, tikanları ayağa batan taxtası bozarırdı – dodaqaltı, öz-özünə: “Bir, iki, üç, dörd, beş, altı”... Həm daş pillələrin üstündə, həm də toz qonmuz taxta döşəmədə balaca ayaqlarının izi qaldı. Qədd-qaməti kimi əl-ayağı da xırda idi. Ətrafa maraqla göz gəzdirdi, sanki bu evə birincə dəfəydi gəlirdi. Arxaya baxanda Məhəmmədin hələ də aşağıda dayanıb duruxduğunu görüncə bərkdən dedi:

– Gəl də, nə quruyub qalmısan? – Məhəmməd əyilib üstü deşik yay çəkməsini çıxarmaq istəyəndə qoymadı. – Sən soyunma, elə-belə gəl, onsuz da içəri toz-torpaqdı, ayağına nəsə batar, yox yerdən peşmançılıq olar. Çoxdandı heç kim gəlmir bura, gedəni də qoymuram buraları təmizləsin... Elə bilirəm bura ayrı adam gəlsə təsadüfən qiymətli bir şeyi salıb sındıracaq. Fəqət dəyərli bir şey də yoxdu burda... Dəyərlilərin hamısı quş kimi uçub getdi... – şalvarının çübindən nazik, uzun açar çıxardıb qapıya saldı. – Deyəsən heç kəsdə bir suç yoxdu, son zamanlar mən özüm vasvası olmuşam...

Xaliq otağın qapısını açanda Məhəmməd soruşdu:

– Bir gözdü?

– Hə... – Xaliq başını tərpətdi. – Ancaq iri otaqdı... Sən olmamısan burda?..

– Bilmirəm... – Məhəmməd çiyinlərini çəkdi. – Yadımdan çıxıb... – qapı açılanda içəridən gələn tozu və qatı kir, kəsif iyini içinə çəkməməkdən ötrü burnunu tutdu.

– Gəl içəri, çəkinmə... – Xaliq yalın ayaqlarını taxta döşəmədə yavaşca şappıldada-şappıldada irəli yeridi. – İndi pəncərələri açacam, bu iy-qox çəkiləcək...

Məhəmməd car-nacar içəri girəndə hiss elədi ki, min bir pəncərə açılsa belə, bütün Arazın-Kürün suyu ilə yuyulub təmizlənsə də illərdi ist-üstə qalaqlanan başgicələndirici qoxu bu otaqdan, bu evdən keçib gedən deyil. Bir-birinə qarışmış özəyi naməlum, ürəkbulandıran iyi birdəfəlik yox eləmək üçün tavanında, divarlarında yekə, qalın və qaramtıl hörümçək toru sal-

lanan, üstünə nazik tozdan “xalı” sərilən divanın arxasındakı yanlarını güvə yeyib deşik-deşik eləmiş xalçanın üstünə asılmış iri, böyüdülmüş fotonu – Məhəmməd gözlərini qıyıb baxsa da, şəkildəkinin kim olduğunu yaxşı görə bilmədi – üstəgəl otağın ortasındakı iri masanı, masanın ətrafındakı stulları elə bu otaq, bu evqarışıq birdəfəlik yandırıb külə döndərmək lazımdı.

Xudaya, görəsən havada vızıldayan qara milçək necə, nə təhər girmişdi bura, nə ilə qudalanıb arı boyda yepyekə olmuşdu? İçəridə lal-dinməz, hərəkətsiz dayanıb pərdəsiz pənçərələri açmağa çalışana baxan – nədənsə, əl atıb büllur çilçırağın işığını yandırmaq ağıllarına gəlmirdi, bəlkə də içəri hər tərəfdən işıq düşdüyündən, o günəş şüası havaya qalxan tozu da işım-işım işıldadır, par-par parıldadırdı, buna ehtiyac yox idi – özü öz sualına cavab verə bilmədi. Çünki Xalıq pəncərələri aça bilməyib qan-tər içində ona sarı döndü.

– Bekara əziyyətdi, pənçərələri aça bilmədim... – günahkarcasına gülümsündü. – Mənlik deyil, qocalmışam... Gəl elə artırmada oturaq. Burda boğulur adam...

Onun sözləri Məhəmmədin ürəyindən oldu, tez özünü bayıra atdı, Xaliq də artırmaya çıxıb otağın qapısını örtdü, üstəlik qapını qıfıllayıb açarı yenə şalvarının cibinə qoydu.

Artırmadakı köhnə, rəngi getmiş kətildə yanaşı oturub – kətillərin üstünün toz olduğunun fərqinə varmadılar, toz-torpaq veclərinə deyildi, şükr eləyirdilər ki, bayırda, artırmada sinədolusu nəfəs almağa təmiz hava var – taxta, oymalı məhəccərə dirsəkləndilər. Sərçələr çarhovuzun yanındakı tutun budağına qonub ağacın sipşirin barını dimdikləyirdi. Ağacın altına qonub yerə düşən tutu rahatca yeməyə qorxurdu quşlar. Çünki həyətdəki pişiyin belini əyərək, gizlənərək gözləri parıldaya-parıldaya marığa yatıb onları güddüyünü bilirdi. Bir qarın ac, bir qarın tox olsa da sağ-salamat qalmağın heyvan dişində çabalamaqdan yaxşı olduğunu əcdadlarından öyrənmişdi qanadlılar. Bunu unutmağın bədəli ya tələyə düşməkdi, ya yem olmaq... Hər ikisinin sonusa, ölümdü, yoxluqdu və ən zülümü ölümdən qabaqkı dəhşətli bir əzabdı ki, o dəhşətli əzabdan sonrasını da bir Allah bilir...

Həyətdəki ağaclara, ətrafı mərmər, lal-sakit, göyümtülləşən suyunun üstündə qurumuş, sarımtıl yarpaqlar “lövbər salan” çarhovuza baxırdılar.

– Bilmirəm günahım nəydi ki, başıma fəlakət gəldi... – Xaliq öz-özünə danışırmış kimi, yanındakına baxmadan dilləndi. – Evin yeganə uşağı idi, sözünün üstünə söz deyən olmamışdı, çox ərköyün böyümüşdü. Bəlkə də elə ərköyünlüyünün, dikbaşlığının badına getdi... Böyüyəndə dedi ki, mən paqon sahibi olmaq istəyirəm, belimdə də tapança... Oldu da... Mən saqqal tərpətdim, şirni verdim, cavan vaxtından vəzifəyə qoydurdum onu. Yadındadı da, qonşu rayonda işləyirdi... – ah çəkdi. – İşləmirdi yox, camaata qan uddururdu. Neçə kərə mənim yanıma xahiş-minnətə gəlmişdilər ki, ay molla, sən el-obanın ağsaqqalısan, din-iman adamısan, oğluna tapşır adamları incitməsin, məxluqla həlim dolansın. Hər zamankıtək mənim də içim özümü yandırırdı, çölüm özgəsini, heç kəsə deyə bilmirdim ki, o,

dəyişib day məni də hərləmir. Cəmi bircə dəfə ağız açdım ona, onda da sözüm yerə düşdü, mən də payımı götürüb üzüsulu çəkildim qırağa. Seyid Qeybulla ocağının nəzir qutusu məsələsində... Yazıq seyid içində, qəlbində, ürəyində boğduğu hirs-hikkəsindənmi, qəzəbindənmi, əlacsızlıqdanmı, sarışın adam qapqara qaralmışdı, çırtma vursaydın, qanı damardı, o boyda kişi yəqin ya çaşqınlığından, ya da bilərəkdən – Allah rəhmət eləsin, öləndə də yasına getmədim utandığımdan – papaqsız, əmmamasiz, elə başıaçıq gəlmişdi qapıma ki, ay Xaliq, sənin oğlun bizim ocağımızdakı, qapımızın ağzındakı nəzir qutusunu möhürləyib aparıb idarəsinə, oğlumu da tutub, özümüzə də gün verir, içıq vermir, iş açıb barəmizdə, hər gün silisçiyə gedib gəlməkdən əldən-dildən düşmışük. Allah xatirinə bir çarə qıl... Mən də özüm getdim oğlumun ayağına ki, ay bala, Qeybullagilnən işin olmasın, bilmirsən ki, onlar ağır seyiddi, onların ocağına sataşan xeyir tapmaz, day indiyəcən nə olub-olub, bir daş altda, bir daş üstdə, get üzr istə, məsələ bitsin... Üzümə bozardı ki, nə danışırsan, onlar nəkarədi ki, mən ayaqlarına gedib üzr istəyim, sənin aşağıdan yuxarı baxdığın seyidləri mən hər gün hüzuruma çağıtdırıb keçi kimi mələdirəm, sən avamlığına salıb mənim işlərimə qarışma, bir də nə seyid-meyid, onlar fırıldaqçıdı, gənə kimi camaatın qanını sorurlar, hazıra nazirdilər, ucdantutma hamısını dama basmaq lazımdı ki, başqalarının da gözü qorxsun, hamı bilsin ki, bu rayonda söz sahibi kimdi!.. Qanundan böyük qüvvə yoxdu... Din-iman da, Allah da, peyğəmbər də bizik!.. Day o boyda gədəyə nə deyəydim, ana tərəfə çəkmişdi, yekəpərdi, mənim başım onun çiyninə çatmırdı. Qərəz, korpeşman qayıtdım geri... Neçə gün evdən eşiyə çıxmadım. Arvad nə qədər dilə tutsa da, oğlumun telefon zənglərinə çavab vermədim. Çox sınmışdım... Nəhayət, “Qurban bayramı”nda ertədən rəhmətlik... e... hələ də umudumu üzməmişəm, elə bilirəm diridilər, hardasa yaşayırlar, intəhası yaddaşlarını itiriblər, mən xəyallarından silinmişəm, amma hərdən çaşıb doğmalarıma rəhmət oxuyanda diksinirəm. Hər nə isə, ertədən gəldilər bura. Özü, arvadı, bir də nəvəm... Həlbət ki, bilirdi küsmüşəm. Ancaq özünü o yerə qoymayıb hay-harayla gəldi yanıma, boynumu qucaqladı, qayıtdı ki, bu nədi, fağır-fağır oturmusuz, bayramdı, yığışın gedirik bizə, restoranda oturub kef eləyə-eləyə gedirik, qoyunu da bizdə kəsirik, bayramı da bizim evdə, bir yerdə keçiririk. Gördüm əl çəkənə oxşamır, dedim, bu dini bayramdı, sən ki, belə şeylərə inanmırsan, nədən əl-ayağa düşmüsən, mən məscidə gedib camaatnan bir yerdə olmalıyam, yaxşısı budu sən ananı apar... Day üz vurmadı, anasını da götürüb tez-tələsik düşdü yola. O gedən də getdilər... Yoxa çıxdılar, nə ölülərindən xəbər tutan oldu, nə dirilərindən... Elə bil bu adamlar heç dünyaya gəlməyiblərmiş. Haqqüçünə hökümət adamları da çox axtardı onları. Balam adi adam deyildi axı, vəzifə sahibi idi. Fəqət heç bir faydası olmadı. Naəlaclıqdan bir gecə gözdən oğurlanıb falçı Xeyransanın yanına da getdim. Bilmirəm Xeyransa qocalıb ağlını itirmişdi, ya mənə təsəlli vermək istəyirdi, rəhmətlik dedi ki, fikir eləmə, doğmaların sağ-salamatdı, fəqət sən onları bir də görməyəcəksən... Boynuma alıram ki, yaman sevindim. “Neynək, – dedim özlüyümdə. – Qoy

əzizlərimin nəfəsi gedib gəlsin, mən onları görməsəm də birtəhər dözərəm". Qəsdən atüstü, necə gəldi, adda-budda, yığcam danışıram, çəkdiklərimi dilə gətirsəm gərək qırx gün, qırx gecə məni dinləyən ola... Heyhat, hər şeyi dilimə gətirə bilərəmmi?.. Elə şeylər var ki, boynuna ilgək keçirilsə də demək olmur. Qalırsan ürəyin partlaya-parlaya... Nə isə, bu gün mənin kefim yoxdu, həmişəki kimi deyib gülə bilmirik, sənin də qanını qaraldıram...

– Nə qan qaraltmaq, ömür həmişə toy-bayram deyil ki... Onsuz da bunları mənə çox danışmısan... – axund eşitdiklərindən bezibmiş kimi, sakitcə, bir az da etinasızlıqla dedi.

– Sənə danışmıram ki... Hər gün öz-özümə pıçıldayıram ki, ürəyim boşalsın, rahatlanım... Nə gündüzüm gündüzdü, nə gecəm gecə... Səksəkəli yatıram, tez-tez də nəvəmi yuxuda görürəm... Görürəm ki, arxamca gəlir, pay-piyada yol alıb harasa gedirik, ancaq hara getdiyimizi kəsdirmirəm, yerdə-göydə olduğumuzu da bilmirəm, hər yan sıx, qatı duman içindədi, duman elə qatıdı ki, sanki göy yerə düşüb, buludlar yerə dəyir, ya da biz, nəvəmlə mən buludların üstü ilə gəzirik. Özü də yaman yekəlib nəvəm, boy-buxunludu, qədd-qamətdə nənəsinə, dədəsinə çəkib. Bığı-saqqalı da çıxıb, bir suyu elə bizim Adəmə oxşayır...

– Adəmin üzünə tük çıxmayıb axı... – Məhəmməd söhbəti dəyişmək istədi.

– Bir suyu dedim də... Deyəsən heç vaxt bizim Adəmin üzünə tük çıxmayacaq. Kosabaladı...

Məhəmməd zarafata saldı:

– İnanmıram dəllək kosaya qız verə...

– Onun munnəti olsun... Yazıb oxumaqla arası olmasa da, Adəmin ayağı biləni bizim camaatın başı bilmir... – Xaliq müsahibinin məzələndiyini duysa da, Adəmə qahmar çıxdı. – Sən də yetimin haqqını tapdalama, nə olub binəva Adəmə, başıaşağı, gülərüz uşaqdı, hər bir işi bacarır, "qa" deməmiş yemək gətirir, "qu" deməmiş su...

Axund: "Çox tərifləmə, hələ ki, bir boşqab xörəyi gətirib çıxarda bilmir", demək istəsə də, nədənsə, fikrindən vaz keçib sözləri dilinin ucundan qaytardı, əvəzində mızıldandı:

– Tez deyil onu evləndirmək? Qorxuram yola getməyələr... Bir xatası çıxa e... İndiki cavanlara nə var, iraq-iraq, axşam evlənirlər, səhər boşanırlar... Heç bilmək olmur nə istəyirlər, qarınlarının ağrısı nədi...

– Tez nədi?.. Bəlkə də gecdi... Üzdən uşaq görünməyinə baxma, Adəmin əsl yaşını kim bilir? – dinləyən anlamadı ki, müsahibi zarafat eləyir, yoxsa ciddi deyir. – Əksinə, qorxuram ki, evlənməsələr xatası çıxa... Divar dibindəzadda, küncdə-bucaqda görüşürlər. Odla pambıqdı da, gözləri qızar, aralarında nəsə olar, camaatın dilinə düşərik. Pinəçinin bizinin qabağında dayanası halım yoxdu mənim. Qocalmışam...

– Day pinəçilik eləmir o... Dəlləkdi, baş-üz qırxır...

– Dəllək ülgücü lap pis... – Xaliq pıqqıldadı. – Allah axırını xeyrə calasın, hiss eləmişəm ki, qızın anası da Adəmdən əl çəkmir, ondan ötrü sinov gedir. Bilmirəm bizim bu gədədə nə görüb... Nə biləsən indiki arvadların ağlından

nə keçir... Bir cür düşünürlər, başqa çürə danışırlar, axırda da kəlləmayallaq qərar verirlər. Baş açmaq olmur...

– İndi ki, belə narahat-nigaransan, məni də xeyir işdən ötrü çağırmısan, neynək, qoy sən deyən olsun. İnşallah tezliklə Əfruzu... – axundun dili dolaşdı. – Əstəğfürulah, Həvvanı alarıq Adəmə, işlər düzələr...

* * *

Adəm bir-iki addım kənara çəkilib əlindəki qayçını havada oynadaraq ağ, yüngül bağ kreslosunda əyləşən Xaliqə diqqətlə baxdı və özündənrazılıqla başını tərpətdi:

– Yaxşıdı... – özü öz sözünə qüvvət verdi. – Saçın da yaxşıdı, qaşlarından da artıq tükləri götürdüm, saqqalın da gözəgəlimlidi...

Qoca qalxanda üstündəki ağ tüklər yerə töküldü, boğazından dizinəcən uzanan ipək örtük də sürüşüb masanın altında bürmələndi, ayağa duran bunun fərqinə varmayıb sinəsini, dizlərini yüngülcə çırpdı:

– Adə, ay cüvəllağı, məni ələ salmısan? – qımışdı. – Saçım var mənim? Balaca olanda ağıllı uşaq idin, böyüyə-böyüyə zibilin çıxdı...

– Mən sənin keçəl başını tüklü kimi görürəm, ay dayı... Yəni ağ saqqalınla keçəl başın bir-birinə yaraşır... Bəlkə də saçın olsaydı, belə... göz dəyməsin tfu...tfu... – yalandan tüpürüb öz yanını qaşıdı. – Belə qəşəng görsənməzdin... Saqqalını da ki, qısaldıb düzəltdim, artıq tükləri kəsdim, lap yaraşıqlı oldun e, ay dayı...

– Yaxşı, gic-gic danışma... Kömək elə, gedim yuyunub geyinim, sonra tərpənim sənin xeyir işinin dalınca... Məhəmməd məni gözləyir... O sağ olmuşun da evinə bir xeylağ yoldu burdan... Sənə görə qoca vaxtımda əldən-ayaqdan düşəcəm, ay cüvəllağı...

– Şofer Buludun mobil telefonuna zəng elə, gəlib aparsın da səni...

– Yox, maşınla getsəm hay-haraylı olar, hələ ki, bu işi sakit-sakit görsək yaxşıdı, şər deməsən, xeyir gəlməz... Sən xəbər vermisən də qız evinə?

– Nəyi? – Adəm gözlərini döydü.

– Nəyi olacaq, bizim olara gedəcəyimizi...

– Həlbət ki... – Adəm qayçını masanın üstünə qoydu. – İstəyirsən yuyungeyin, mən özüm səni velosipednən aparım...

– Nə danışırsan, başuva at təpib?.. – desə də qocanı gülmək tutdu. – Sonra da hərə bir zurna çalıb hoydu-hoyduya götürsün məni ki, molla Xaliq qoca vaxtında ağlını tamam itirib, bütün kəndi velosipedlə gəzir... Sənin velosipedinlə elçiliyə getməyin zurnası taksidən də bərk çıxar. Onsuz da bir tikə abırım qalıb, adım özünü-sözünü bilməyən qanmazların dilindədi...

– Onda gedək səni çimizdirim... – Adəmin də dodaqları qaçdı...

...Çimməndən sonra totuq, toppuş yanaqlarına qızartı çökmüşdü, bütün bədəninə xoş bir yorğunluq yayılmışdıdı, həyətdə, masa arxasındakı yüngül kresloya yayxanmışdı, qabağındakı armudu stəkanda da çay. Çayını içib yavaş-yavaş yola düşəcəkdi. Hələliksə, kölgəlikdə oturub dincini alırdı, ətrafa göz gəzdirə-gəzdirə özlüyündə nəyisə götür-qoy eləyirdi, dodaqları-

nı ehmalca tərpətsə də səsi çıxmırdı, sənki içindəki sorğu-suala cavab verirdi. Demə, içindəkilərlə danışmaq üçün səsə ehtiyac yoxmuş, ün, səda yan-yörədəkilərdən ötrüymüş... Yanındasa Adəm müntəzir dayanmışdı.

Qoca xəyaldan ayrılıb çaydan bir qurtum aldı, həm əli, həm dili ilə Adəmi çağırdı:

– Bəri dur...

Adəm lap yaxına gəldi:

– Nədi?..

Xaliq boğazınacan düymələdiyi ağappaq, yaxalıqsız köynəyinin döş cibini eşələyib qaşsız, qızıl üzük çıxartdı:

– Bunu görürsən?..

Adəm məsələni duysa da, qəsdən özünü keyliyə vurdu:

– Görürəm, nədi ki?..

– Xeyir işimiz düzəlsə, bunu qızın barmağına taxacam... – özündənrazılıqla deyib təzədən üzüyü köynəyinin cibinə qoyaraq nəfəsini dərdi.

– Sağ olasan, ay dayı...

– Çarhovuzu yaxşı təmişlədün? – burnunu çəkdi.

– Həlbət ki... Özün gördün axı, bir həftə əlləşdim çarhovuznan... Dibində bir qarış lil-palçıq var idi. İndi tərtəmizdi, suyu da ki, dupduru... – Adəm gülümsündü. – İstəsən, isti səni əldən salanda atıl hovuza, nə qədər kefindi çim, üz, sərinlən özün üçün...

– Hə, bircə üzməyim çatışmırdı... – qoca mızıldanıb yerində qurcalanaraq bu dəfə şalvarının cibini eşələdi. – Bunu da götür... – əlindəki açarı Adəmə uzatdı. – Yavaş-yavaş çarhovuzun yanındakı o balaca evi də yaxşı-yaxşı yu, təmizlə... Qapı-pəncərəsini açıq saxla, qoy havası da dəyişsin... Ora yaman gündədi, toz-torpaq dizə çıxıb, iy-qoxdan içəri girmək olmur...

– Baş üstə, ay dayı... – Adəm açarı alıb sevincək dedi. – Gül kimi eləyərəm oranı, narahat olma...

– Day mən durum, yolçu yolda gərək... – qoca özü ilə danışırmış kimi, dodaqaltı mızıldanıb ayağa qalxdı. – Sən də mənim hara getdiyimi heç kəsə demə... – Adəmə tapşırdı. – Xəmiri yoğurmamış təndiri tüstülətməyək...

* * *

...Məhəmməd üz vursa da Xalıq onun evində oturmadı ki, yorğunam, çimməndən sonra pay-piyada yol gəlmək məni əldən salıb, sizdə otursam elə oturduğum yerdəcə mürgüləyəcəm, gəl yubatmayaq, gedək Adəmin işini yola verək, gələcəyimizi bilirlər, yəqin Atəşgildə yaxşı süfrə də açacaqlar bizə...

Atəş həqiqətən yaxşı çay süfrəsi açdırmışdı evinin qabağındakı artırmada. Masadakı cürbəcür şirniyyatın, mer-meyvənin sayı-hesabı yoxdu. Üçü əyləşmişdi süfrə arxasında, Əfruz onlara qulluq eləyirdi, qızlarsa gözə dəymirdi. Görüşüb əyləşəndən, xoş-beşdən, hal-əhvaldan, qabaqlarındakı çaydan bir qurtum alandan sonra Xaliq söhbətə uzaqdan başlamaq istədi.

– Eşitdim pinəçiliyin daşını atıb dəlləyliyə keçmisən?

– Elədi, ay Xalıq dayı, Kitayski çəkmələri gətirib doldurublar hər yana, day heç kəs ayaqqabı yamatdırmır. Çünki təzəsini almaq köhnəni yamatdırmaqdan, köhnəyə daban vurdurmaqdan, cırılan yerini tikdirməkdən ucuz başa gəlir. Hərçənd elə dəlləkxanada balaca stol qoyub pinəçilik də eləyirəm, bilmək olmaz da, hərdən kimsə şeytanın qıçını sındırır, yol azıb gəlir... – Atəş yüngülcə nəfəsini dərdi. – Belə-belə işlər, Xalıq dayı, il-ildən bəd gəlir, bu dolanışıq, yaşayış, gün-güzaran deyil ki, cəhənnəm əzabıdı... Cəhənnəmə qayıtmaq belə yaşamaqdan yaxşıdı. Əlinin Papağını Vəlinin, Vəlininkini Əlinin başına qoyuruq ki, günü birtəhər yola verək...

– Mən neçə ildi mollalıq eləmirəm, ancaq cavan dindarlar qalıb bir qıraqda el-oba hələ də məni: “molla” çağırır. Sənnən başqa məni adımla çağıran yoxdu. O qədər az-az eşidirəm ki, öz adım yadımdan çıxıb... Sən də dəlləkliyə çox umud olma, bundan sonra hansı sənətin qulpundan yapışsan, camaat yenə sənə: “çəkməçi”, bədəbəddə: “pinəçi”, deyəcək...

– Çarəm nədi, ay Xalıq dayı, ayrı neyləyə bilərəm? – Atəş yazıq-yazıq boynunu bükdü. – Əlimdən nə gəlir? Arvad da həyətdəki toyuqdan, yumurtadan satır, yenə birtəhər çulumuzu sudan çıxardırıq...

Axund dilini dinc saxlamadı:

– Görüşəndə də Xalıq dedin, indi də... Bu kişinin adı Xalıq deyil e, Xaliqdi, diqqətli ol, bala... Sən anadan olandan burda yaşayırsan, hələ bu kişinin, bu ağsaqqal molla Xaliqin adını bilmirsən? – Məhəmməd qəfil əməlli-başlı əsəbiləşib əlindəki yarımçıq armudu stəkanı nəlbəkiyə elə qoydu ki, masadakı boşqablar cingildədi, armudu stəkandakı yarımçıq çaydan bir az da nəlbəkiyə töküldü, qabdakı meyvələrin təpəsinə qoyulmuş qırmızı alma masaya düşdü, ordan da diyirlənib döşəməyə yumbalandı. – Ya özün bilə-bilə belə deyirsən? Düzü, səni sakit, mərifətli bir qonşu kimi tanıyıram, bu hörmətsizliyin səbəbini də qana bilmirəm...

Xaliq gülümsünüb odun üstünə su tökmək istədi:

– Əşi, zərər yoxdu, dərinə getmə, nə fərqi var... O qədər geç-geç görüşürük ki, ad-zad da yaddan çıxır...

– Yox, əstəğfürulla, ikiniz də böyüyüm, ağsaqqalımsız... – Atəş çəkinsə də ayağını geri qoymadı. – Amma düzünü deyəcəm, bu kişiyə Xaliq demək günahdı... İstəyirsiz inciyin, küsün, dəxli yoxdu... Mən belə şeyləri bilmərəm e, uşaq vaxtı babamdan, molla Piridən eşitdiklərimi xırdalayıram...

– Niyə? – bu dəfə axund hirsini boğub sakit-sakit xəbər aldı. – Nədən, a bala, sən mənim gözümün qabağında böyümüsən, de görüm, bu kişinin... – əşyayi-dəlil kimi Xaliqi göstərdi. – Nə pisliyi keçib sənə, sənin atana, ya baban molla Piriyə? Bəlkə aranızdan su axıb? Açıq de, biz də bilək, öz payımızı götürüb başımıza çarə qılaq... Örtülü bazar, dostluğu pozar...

Xaliqsə susub narahat-narahat yerində qurcalandı.

– Nə bazar, nə su?.. Nə ola bilər axı, bizim aramızda? Xalıq dayı elimizin ağsaqqalıdı. Amma incimə, axund ağa, mən bu kişiyə Xaliq deyə bilmərəm. Çünki Xaliq bir dənədi... – şəhadət barmağını tavana tuşladı. – Göydəki kişi... Insanı Xaliq çağırmaq, ona elə: “Allah,” deməkdi... Adamın adını Allah qoymaqsa, çox böyük günahdı...

Gələnlər göz qırpımında ram olub sövq-təbii bir ağızdan pıçıldadılar:

– Əstəğfürullah...

– Allah molla Piriyə rəhmət eləsin, molla Piri müdrik adam idi, göydəki kişiynən də söhbəti tuturdu sənin babanın, din-iman aləmində onun müdrikliyi dillərə düşmüşdü, dedikləri də haqdı... – axund malalasa da əslində dediyindən dönmədi. – Amma burası var ki, xudavəndi aləmin adları saysız-hesabsızdı, ona qalsa, yerdə-göydə, kainatda nə varsa Allahındı, aləmlərin rəbbi odu... Bir də ki, ad şərti şeydi, adama: “Alim”, adı qoyanda dönüb zəkalı olmur. Keçəl oğlunun adını Zülfəli qoysa da, öz başına tük çıxmaz...

Xaliq onun sözünə qüvvət versə də, üzə durmadı:

– Elədi, axund ağa, bəli, yeri behiştlik olsun, rəhmətlik molla Piri çox zəkalı, dərin adam idi... O dərinliklərə baş vurmağa bizim kəramətimiz çatmaz. Odur ki, gəl bu məsələdə çox çək-çevir eləməyək...

– Sözüm yoxdu, siz din-iman əhlisiz, belə şeyləri məndən yaxşı bilərsiz... – forsla, lovğa-lovğa deyib sir-sifətini turşudan Atəş yumşaq yerinə tikan batmış kimi qəflətən yerindən dik qalxdı. – Qurban olum, beşcə dəqiqə mənə izin verin... İndi qayıdıram... – cavab gözləmədən tez-tələsik həyətə düşdü.

Atəş gedən kimi Məhəmməd mətbəxin qapısının dalından söhbətə qulaq asan Əfruzu çağırdı:

– Az, ay qızım, bu nə həngamə çıxardır? – narazı-narazı soruşdu. – Yenə piyandı? Tuluğunu doldurub?..

– Ağzından iy gəlmirdi... – Xaliq başını buladı.

– Yox, nə vurmaq... – yaxına gəlib əllərini ovuşduraraq deməyə söz axtaran Əfruzun dili dolaşdı. – Başqa cür başa düşməyin, yazıq pis xəstəliyə düşdüyündən hərdən özünü-sözünü bilmir...

– Nə xəstəlik?.. – axund süfrədəki qoz ləpəsini ağzına atıb xəbər aldı.

Əfruzun bəyaz sifətinə xəfif qızartı çökdü:

– Üzüm ayağınızın altına, ikiniz də doğmamsız, əzizimsiz, böyüyümsüz, bu evin adamısız... – qadın belə deyəndə Xaliq duruxdu, çünki bu evə cəmi bircə dəfə molla Piri rəhmətə gedəndə ayaq basmışdı, onda da içəri keçməmişdi, elə həyətdəki çadırda əyləşmişdi. – Heç bilmirəm necə deyim... – sözlərinə ara verib münasib kəlmələr axtardı və yəqin ki tapa bilmədiyindən birbaşa mətləbə keçdi. – Sidiyə ölüm-zülümlə gedir, bədbəxt Atəş... Bir ayağı tualetdədi, gedib saatlarla hıqqanır orda ki, bir damcı bayıra getsin. Neçə dəfə müştəriləri üzü sabunlu qoyub qaçıb ayaqyoluna... Dəlləyə gələnlər də gözləməkdən bezikib üzlərini nəm əski ilə siliblər, yuyublar, sonra da deyinə-deyinə gediblər dəllək Həsənin yanına. Sifəti yarımçıq qırxılanlar ülgücü götürüb söylənə-söylənə birtəhər özləri təraş eləyiblər üzlərini... Atəş də əlacsız qalıb çox vaxt dəllək budkasını bağlayır ki, işləmirəm, yorulmuşam. Heç kəs bilmir axı, bizim yetim nə çəkir... – Əfruz çarəsizlikdən ərinin sirrini açsa da, yerini bərkitməyi də unutmadı. – Day özünə bir söz deyib üstünü vurmayın, siz allah... Onsuz da hirslidi... Orda-burda da heç nə danışmayın... Sizi ağsaqqalım bilib məsələni açdım...

Xaliqlə Məhəmməd, nədənsə, təbəssümlə bir-birlərinə baxdılar.

Axund səsini yavaşıtdı:

– Az, o dünənki uşaqdı ki... Nə yaşı var onun?..

Əfruz çarəsiz-carəsiz boynunu büküb ah çəkdi:

– Nə deyim, axund ağa, qurbanolduğum dərd verəndə yaşa baxmır ki...

– Fikir eləmə, mənim balam... – Məhəmməd ciddiləşib qadına təsəlli verdi. – Dərdi verən, dərmanı da göndərər...

– Nə deyim, axund ağa, biz nəkarəyik, Allah bilən məsləhətdi... – Əfruz yazıq-yazıq mızıldandı, iri, ala gözləri doldu.

Axund qabağdangəlmişlik elədi:

– Ağlama, bala, biz xeyir iş üçün gəlmişik, xeyir işin siftəsində ağlasan axırı yaxşı qurtarmaz...

Əfruz göz yaşları içində gülümsündü:

– Sevindiyimdən ağlayıram, axund ağa... Gör mənim qızımın elçiliyinə kimlər gəlib... Bəxti üzdə imiş balamın... – qəfil əl-ayağa düşdü. – Siz allah, Atəş gəlincə, bekar oturmayın, şirniyyatdan nuş eləyin... Bizim qız bişirib hamısını, əlləri qızıldı uşağın... Ləpədən də götürün...

– Allah sizin qızı da, elə bizim Adəmi də xoşbəxt eləsin... – dedi Xaliq və təəssüfləndi ki, təsbehini evdə unudub, bilirdi ki, belə həssas məqamlarda təsbeh həm adamın başını qatır, həm də əzəmətli göstərir, ikilikdə axund zarafata salıb hərdən ona deyərdi ki, sənin təsbehin özündən yekədi.

– Qoy çaylarınızı təzələyim? – qadın yarımçıq stəkanları götürdü.

Əfruz gedəndən sonra axund üzünü Xaliqə tutdu:

– Onda çox incitməyək Atəşi... Qayıdan kimi məsələni açıb ağzını arayaq, qurtarsın getsin... Day uzatmağın mənası yoxdu...

Xaliq razılıqla başını tərpətdi:

– Elədi... – dedi və dodaqaltı əlavə elədi. – Binəva Atəş...

* * *

Ancaq Atəşin gedib qayıtmağı çox çəkmədi, Əfruz elçilərin çayını yenicə təzələmişdi ki, ev yiyəsi artırmanın qapısında göründü və nəyisə tapdalamaqdan ehtiyatlanırmış kimi, ehmal-ehmal gəlib yerində oturdu. Elçilər mənalı-mənalı baxışdılar, Xaliq axunda qaş-göz elədi ki, başla, vaxtdı, yubatma...

Əfruz ərinə çay gətirəndə ayağını sürütləyib bir bəhanə ilə kişilərin yanında dayanmaq istədi, lakin udqunub, dili ilə nazik dodaqlarını yalayıb, sözə başlamaqda olan Məhəmmədin onun getməyini gözlədiyini hiss eləyib çar-naçar aralansa da, elə mətbəxin qapısının ağzında durdu.

– Belə-belə işlər, Atəş bala... – duruxdu, bilmədi elçi gəldikləri qızın atasına "bala", deməkdə düz elədi, ya yox. Ancaq daha ox atılmış, dediyini demişdi, çıxan canla deyilən sözü geri qaytarmaq mümkünsüzdü. Sözünü dəbbələmək istəmədiyindən dili yüngülcə dolaşa-dolaşa davam elədi. – Yəqin bilirsən ki, biz bura xeyir iş üçün gəlmişik, gəlmişik ki, sənin gül balan, gül qızın Əfruzu... e... – çaşsa da özünü o yerə qoymadı. – Yəni sənnən Əfruzun ilk nübarı Həvvanı balamız, oğlumuz Adəmə istəyək... İstəyirik iki

gəncin bir ocaq sahibi olmağına xeyir-dua verəsən... Allah bu evə həmişə xeyir iş qismət eləsin... – qımışdı. – Axundla molla, evlərdən iraq, yas məclislərində bülbül kimi ötür... Ona görə çaşıram, səriştəm yoxdu elçilik eləməyə... Öz oğlumun da elçiliyini bizim arvad elədi. Qız evinin hərisi alınandan, məsələni yoluna qoyub düz-qoş eləyəndən sonra xəbər verdilər mənə... – ciddiləşdi. – Fəqət neyləyək ki, bizim Adəmin anası yoxdu...

Atəş pıçıltı ilə axundun sözünü kəsdi:

– Heç atası da yoxdu...

Xaliq bu dəfə hirsli-hikkəli və boğuq səslə:

– Onun atası mənəm!.. – dedi.

Axund közərən odun üstünə su çiləmək üçün tez dilləndi:

– Yaxşı, Atəş kişi, indi söz səndi, de görək nə deyirsən? Əgər bu işə meylin yox idisə, qızı verməyəcəkdinsə, boş-boşuna bizi öz hüzuruna gətizdirib yüngülsaqqal eləməyə də dəyməzdi...

Atəş nədənsə, qanrılıb bütün qədd-qaməti ilə mətbəxin qapısının qabağını kəsən Əfruza baxdı:

– Allah eləməsin, nə yüngülsaqqal... İkiniz də böyüyümsüz, ağsaqqalımsız, əziz qonağımsız... Bura da öz evinizdi... Əmma...

– Nə əmma? – qəfil Əfruz ərini yamsılayıb əl-qolunu ölçərək əsəbi-əsəbi soruşanda, elçilər də, elə qız atası da diksindi.

– Əmması budu ki... – Atəş təhər-tövrünü pozmadan davam elədi. – Qurbanolduğum mənə oğul vermədisə, bu o demək deyil ki, qızlarımı çöldən tapmışam... Mən də elə kürəkən istəyirəm ki, mənə oğul olsun. Xalıq dayı, sən ürəyigeniş adamsan, Adəmi də çoxdan almısan qanadının altına. Əmma hamı bilir ki, onun əsli-kökü, ata-anası məlum deyil. Heç bizim tərəflərin adamlarına da oxşamır... – deyib təsvirə keçdi. – Boy-buxunu, əl-ayağı yekə, gözləri domba, ipiri, o hədəqəsindən çıxmış gözlərin qarışıq rənginə baxanda adamın canına üşütmə düşür, kosalığını qoyuram bir qırağa, bunu açıb-ağartmaq düzgün deyil, adamın qüsurunu üzünə vurmaq kimi çıxır, amma kor-kor, gör gördü, qulaqları da başına yapışıb...

Axundu gülmək tutdu:

– Sən onun qulaqlarını harda görmüsən?..

– Necə harda görmüsən, bəs onun başını mən qırxmıram?.. – Atəş də gülümsündü. – Həftə səkkiz, mən doqquz mənim yanımdadı. Keçəl qırxıram başını, on gün keçməmiş görürəm saçları çiyninə tökülüb... Saçları da yaman tez çıxır... Elə bil başına sarmısaqlı zeytun yağı sürtüblər, Allah üzündən aldığını başına verib...

Məhəmməd əl çəkmədi:

– Kosalığı, irigözlülüyü. qulaqları öz yerində, bunu qandıq, bəs, boy-buxunlu olmağın nəyi pisdi?

– Demirəm ki, pisdi... – qız atası armudu stəkandakı çayla dodaqlarını islatdı. – Ancaq hər şeyin bir həddi var da...

– Həmi də... həmi də... – axund duruxub münasib söz axtarsa da, tapmadığından cavanların sirrini faş elədi. – Bilməlisən ki, Adəmlə Həvva bir-birlərini istəyirlər...

– O, boş şeydi, – qızın atası etinasızlıqla əlini yellədi. – Olar cavandı, sevgi də bu gün var, sabah yoxdu...

Xaliq gözucu baxdı ki, Əfruz dinib danışmasa da yaman pörtüb, çırtma vursan qanı damar, gözlərindən də qığılçım çıxır, hirsli-hikkəli dayandığındanmı, nədənsə, sanki durduğu yerdəcə əsəbiləşdiyindən iri döşləri də get-gedə lap böyüyüb, yekəlib gen-bol paltarına sığmır, qadının imkanı olsa bu dəqiqə hirsindən əynindəki uzun, nazik, qısaqol donu cırıb artırmadan həyətə vızıldadar, lüt anadangəlmə ərinin üstünə cumar, onu ayaqlarının altına salıb bütün artırma boyu sürütləyər.

– Belə çıxır ki, sən bizə: “yox”, deyirsən? – Xaliq “kəsə yolla” getdi.

– O nə sözdü... – Atəş büzüşüb yumağa döndü və gözlənilmədən ağ bayrağı qaldırdı. – Mən qələt eləyərəm... Əmma ki...

– Yenə nə əmma?.. – axund sir-sifətini turşudub üzünü lap qırışdırdı.

– Əmma siz də məni başa düşün... Qız atasıyam... Qalmışam iki od arasında, həm nigaranam, qəlbim narahatdı, həm də nəkarəyəm sizi kimi ağsaqqallara etiraz eləyim... Əmma...

– Ay kişi, yenə nə əmma-əmma salıb durmusan, sözünün canını de, ürəyimizi çəkmə? – bu dəfə Əfruz özünü saxlaya bilmədi, lakin qadının səsi aram gəldi, yəqin göründüyü kimi hürsli deyildi, mətbəxdən gələn istidən pörtmüşdü, ya da ərinin aciz-aciz: “qələt eləyərəm”, deməsi qadını sakitləşdirmişdi.

Elçilər qadının dediklərini eşidib gülümsündülər. Atəşsə bu dəfə arvadının atmacasına məhəl qoymadı.

– İnciməyin, xətrinizə dəyirəmsə, min kərə üzr istəyirəm, əmma başqa yol yoxdu, gərək mənə möhlət verəsiz, düşünəm-daşınam, fikirləşəm... – kirpiklərini tez-tez qırpa-qırpa narahat baxışlarını yayındırıb nöqtəni qoydu və çiyinlərindən ağır yük götürülübmüş təki dərindən, rahat-rahat nəfəs aldı.

Xaliq təkrarən təsbehini evdə unutduğuna təəssüfləndi, xəyalən təsbeh dənələrini çevirirmiş kimi, əlini yumub baş barmağı ilə şəhadət barmağını yavaş-yavaş sığalladı, sonra dirsəyini masaya dirəyib sol əlini çənəsinin altına qoydu, uzun-uzadı, lal-mat Atəşə baxdı və nəhayət, ağır-ağır dilləndi:

– Nolar, sən deyən olsun... Nə qədər möhlət lazımdısa verək... Sən möhlət istəyənlərdənsən...

* * *

Xaliq evin qabağındakı üzüm tənəyinin köldəsində ağ, yüngül bağ kreslosuna yayxanaraq oturub fikrə getmişdi, qabağındakı çayın da soyuyub buza döndüyünün fərqinə varmırdı. Gözlərini yumsa da yatmamışdı. Heç mürgüləmirdi də... Zəif taqqıltı eşidən kimi kirpiklərini bir-birindən aralayıb gördü ki, qızılı pişik düz qabağına, masanın üstünə tullanıb. Əlini uzadıb ehmal-ehmal pişiyi sığallamağa başladı, sığallanan xoşallanıb gözlərini yumdu. Sonra qalxıb ətrafa göz gəzdirəndəsə pişik şəklənib cəld masadan yerə atıldı, masadakı stəkan-nəlbəki cingildədi.

– Adə, ay Adəm, hardasan?.. – çığırmasa da bərkdən dedi.

– Burdayam, ay dayı... – Adəm çarhovuzun yanından səsləndi. – Nə lazımdı?..

– Nağayrırsan orda, a bala?..

– Burdakı evi yığışdırıram da... Hələ işim uzundu, o qədər iş-güc var ki, burda... Bu evi söküb təzədən tikmək yığışdırmaqdan asandı...

– Get əl-üzünü yu, bəri gəl, iş-güc qaçmır...

– Yemək verim sənə, dayı?

– Əşi yox, ac deyiləm, bəri dur, sənə sözüm var... – dedi və keçib yerində oturdu, masanın üstündəki təsbehini götürüb aram-aram çevirməyə başladı.

Adəm, yəqin ki, marağından tez işini-gücünü atıb göz qırpımında gəldi Xaliqin hüzuruna.

Xaliq qaşqabağını salladı:

– Bu nə vid-fasondu, toz-torpağın içindəsən ki... Get yuyun, pal-paltarını dəyiş dedim də...

Adəm özünə haqq qazandırdı:

– İş görürəm axı...

– İş qaçmır, qoy qalsın, özünü çox yorma, get əyin-başını səliqə-sahmana sal...

– Harasa gedirik?

– Yox, heç yerə getmirik, sənə söz deyəcəm...

Adəm əlacsız-əlacsız gülümsündü, anlamadı ki, deyiləcək sözün geyim-kecimə nə dəxli... Lakin qocanın sözünü də çeyirmədi və sakitcə çıxıb getdi...

Gec qayıtdı, deyəsən yuyunmaq adıyla əməlli-başlı çimmişdi, uzunsov sifəti ağarmışdı, yanaqları da allanmışdı. Toya gedəcəymiş kimi, ən xoşuna gələn təzə, üstü zərli köynəyini, ağ şalvarını geyinmişdi. Uzun saçlarını da səliqə ilə yana daramışdı və gəlib dayanmışdı qocanın önündə.

– Mən hazıram, ay dayı... – masaya nəzər salıb əl-ayağa düşdü. – Çayını dəyişim?.. – soruşdu.

– Yox... – qoca etiraz elədi. – Çay-zad içmirəm... – altdan-yuxarı Adəmə baxıb zarafatından da qalmadı. – Get dəllək Atəşin yanına, qoy sənin başını keçəl qırxsın... Bu istidə belə uzun saç saxlama... Saçlarının dibini yandırarsan...

Adəm könülsüz-könülsüz mızıldadı:

– Mən day o kişinin yanına getməyəcəm...

– O kişi kimdi? – qoca özünü xamlığa qoydu.

– Dəllək Atəşin də...

– Bəs sənin saçını kim qırxacaq?

– Dəllək Həsən... Həm evimizin yanıdı, həm də köhnə ustadı, qırxında öyrənənlərdən deyil...

– Nöşün adə... – Xaliq qımışdı. – Xeyri özgəsinə nöş verirsən? Atəş yazıq bizə: “yox,” deməyib ki... Möhlət istəyib qiymətini artırır də... Möhləti də ki, nə qədər kefindi verə bilərik... Biz heç yana tələsmirik... Yox, işdi-şayəd, dözməyə səbrin çatmasa, dəllək çox nəm-nüm eləyib özünü dağın başına qoysa, gedib onun qızından yaxşısını alarıq... – Adəmin əvəzinə elə

arın-arxayın danışdı ki, guya, özü arvad alacaqdı, evlənəcəkdi. – Qiyamətəcən vaxtımız var. Kəmhövsələ olma, otur... – qarşıdakı kresloda yer göstərdi cavana...

– Mən başqa qız istəmirəm... – Adəm üzə durdu. – Ya Həvvanı alacam, ya da heç kəsi... Mən özbaşına deyiləm ki, hər yetənlə evlənim...

Qoca Adəmin hikkəsini görüb geri çəkildi:

– Onu sözgəlişi dedim... Qızışma, ürəyini də buz kimi saxla... Axırda Atəş özü mənim ayağıma gələcək. Görərsən... – gələcəkdən xəbər verən rəmmallar, münəccimlər kimi arxayın-arxayın dedi. – Ancaq sən səbrli ol, – təkrarladı. – gücnən görə bilmədiyin işin axırına səbrlə çıxarsan... Özün də başımın üstündə boynunu büküb ürəyimi sıxma, otur... Onsuz da heç yandan hava gəlmir, bürküdü... Sən də olmayan, gəlməyən mehin kəsmə...

Adəm itaətkarlıqla susub əyləşdi. Qoca qəndqabının ağzını qapağı ilə bağladı ki, arılar, milçəklər yaxında, masanın ətrafında vızıltı salmağın mənasız olduğunu anlayıb çıxıb – daha doğrusu, uçub – getsin. Guya, sözlərini balaca qanadlılar, ev heyvanları, həşəratlar eşitsəydi, gedib Süleyman peyğəmbərə xəbər verəcəkdi. Təsbehini çevirə-çevirə üzündəki təbəssüm yox olan fikrə getdi. Qarşısındakına baxsa da, Adəm anladı ki, qoca onu görmür, xəyalı çox-çox uzaqlardadı...

– Nə yaxşı köynəyün var... – yox, yanılıbmış cavan, görürmüş Adəmi Xaliq. – Təzədi deyəsən... Hardan almısan?

– Demişdim axı, ay dayı, Əfruz xala bağışlayıb... Mənim ad günümə...

– Sənin ad günün də var?..

Adəm tutuldu:

– Belə də... Yalannan... Soruşanlara kağız-kuğuzumda yazılanı deyirəm...

– Hə... Düz eləyirsən... Kağızda iyirmi iki mart yazılıb?

– Hə... Amma həlbət ki, dəqiq deyil o tarix...

– Adəm, bala... – Xaliq sözünə azca ara verib davam elədi. – Sən mənim gözümün qabağında boya-başa çatmısan, mən heç vədə bu məsələni açmırdım ki, sənin yaranı qopartmayım. Həm də elə bilirdim ki, qanmazsan, başa düşməzsən hələ. Ancaq indi görürəm ki, bunsuz da ötüşmək olmur. Gərək bəzi gizlinlər açılsın...

– Hansı gizlinlər? – Adəm qalın, uzun kirpiklərini tez-tez qırpıb key-key gözlərini döydü.

– Sənin...sənin atan kimdi?.. Nələr yadında qalıb keçmişindən?.. – udquna-udquna xəbər aldı Xaliq.

– Balacalıqdan sənə: “dayı”, deməyimə baxma, dilim öyrəşib. Mənim atam sənsən... – Adəm elə ürəkdən, daha doğrusu, elə ürəklə dedi ki, önündəki özü-özündən xoflandı. – Haylf ki, ayrı heç nə yadımda qalmayıb... – qoca Adəmin üzünə diqqətlə baxsa da, anlamadı ki, o, həqiqətən təəssüflənir, ya ata dediyini azdırıb cavab vermək istəmədiyi sorğu-sualdan yaxa qurtarmağa çalışır.

– Dediyinin əvvəli məlumdu, ona şəkk-şübhə yoxdu... Mən də səni öz balam kimi istəyirəm... – qoca boğazını artladı ki, qəfil gəlib hülqumuna

dirənən qəhəri udsun. – Amma qalan sözünə inanmadım. Sən bir tikə vaxtından mənə adaşın Adəmdən üzü bəri İbrahimdən, Musadan, Buddadan, həzrəti İsadan, digər müqəddəslərdən, Tibet möcüzələrindən, dünyanın yaranışından, gərdişindən, bütün dinlərdən, inanclardan elə şeylər danışmısan ki, üzü-üzlər görmüş o boyda axunda nəql elədikcə kişinin gözləri kəlləsinə çıxır. Başıma görünməmiş qəzavü-qədər gələn vədələr idi, sən də gecələr səhərəcən min bir gecə rəvayətlərinə oxşayan, amma dini olmuşları elə nağıl kimi danışırdın mənə. Ovundururdun məni... Axund bilmir ki, mən sənin dediklərinin yarıbayarısını da söyləməmişəm ona. Özü də öz adımdan danışmışam hər şeyi, guya, bəşər yaranandan bütün gizlinlərdən, keçmişdən-gələcəkdən xəbərdaram. İndi də sən deyirsən öz keçmişin yadından çıxıb? Uzaqlar, çox uzaqlar, min-min il qabaq baş verənlər xatirindədi, yaxını, üzü bəridəkini unutmusan? İnanmağım gəlmir...

– Sənə danışdıqlarımı da kimsə mənə nəql eləyib...

– Kim?

– Xatırlamıram...

– İnanmıram... – əsəbi-əsəbi təkrarladı qoca. – Nə qədər and-aman eləsən də inanamayacam... Görmədiyini, ağızdan eşitdiyini sən danışdığın kimi yerli-yataqlı təsvir eləmək olmaz. Mümkün deyil bu... Elə siftədən başa düşmüşdüm ki, sən adi adam deyilsən, ona görə səni nə məktəbə qoydum, nə də sonralar bir işə düzəltdim. Əslində hamıdan, hər kəsdən gizlətdim səni... Qorudum... Fəqət indi yavaş-yavaş qanıram ki, mənim dəridən-qabıqdan çıxıb çanfəşanlıq eləməyim əbəsmiş. Mən kiməm, nəçiyəm, nəkarəyəm, səni qoruyan qoruyub... Özüm də hiss eləyirəm ki, sən də mənə qabaqkı kimi etibar eləmirsən. Uşaqlıqda mənə danışdıqlarının da yönü dəyişdi get-gedə. Böyüdükcə iş-güc başını qatdı, bizlərdən birinə çevrildin. İndi mən sənin qabaqlar elədiyin o söhbətlər üçün darıxıram, o söhbərlər ki, qulaq asdıqca qiymətli sandığım hər şey, öz bədənim, öz vücudum belə dəyərsiz görünürdü mənə, içimdə özüm özümdən xoflanırdım ki, görəsən əslində mən kiməm, nəçiyəm, bu dünyaya nədən ötrü gəlmişəm, sonum, yəni ölüb gedəndən sonra axırım necə olacaq?..

– Sən mənim atamsan... – Adəm gülümsünüb mehriban-mehriban təkrarladı. – Qorumağa qalsa, hamınızı Allah qoruyur... Sən dediyin axırın necə olacağına gəlincə, onu da yer üzündə heç kəs bilmir...

– O öz yerində, Allah hamımıza kömək olsun, – qoca müsahibini dolaşdırmaq istədi. – Deyəsən, böyüyə-böyüyə sənin də zibilin çıxdı, adam da atasından sirr saxlayar?

– Mən səndən sirr saxlamıram, sən bilməli olduğundan da çox şey bilirsən... Keçmiş-gələcək söhbəti də deyil, sadəcə, mənə yük olan bəzi lazımsız məqamlar get-gedə öz-özünə yaddaşımdan silinir ki, rahat yaşayım...

– Yaşamağı yaxşı dedin, bala, o vaxt sən mənə çox kömək elədin. Dərd dərdin üstünə qalaqlananda qoymadın yıxılım... - bir anlığa qocanın fikri keçmişə uçdu. – İşə bax, bir tikə uşaq mənə həyan oldu...

– Ağıl yaşda deyil, başdadı...

– Ədə, fırıldaq, mənnən məllim kimi danışma... – qoca müsahibinin üzündəki təbəssümdən inciyəntəhər oldu. – Ağıl həmişə yaşdadı, fəqət bəzən qocalar kələfin ucunu itirir.... Yaxşı, çarə yoxdu, qoy sualı başqa cür verim... – əl çəkmədi. – Onda de görüm, sənin anan kimdi? Ola bilməz ki, doğma ananı da xatırlamayasan...

Adəmin gözləri yol çəkdi:

– Mənim anam yoxdu...

Qoca inamsız-inamsız başını buladı:

– Əcəbdi... – dedi. – Həzrəti İsanın atası yox idi, sənin də anan... – anladı ki, daha Adəmi uzun-uzadı çək-çevirə salıb divara dirəmək mənasızdı... – əli birdən-birə yüngülcə titrəyə-titrəyə təsbehini masanın üstünə qoydu. – Yaxşı, səndən bir söz soruşacam, amma nala-mıxa vurma, sən allah, sən mənim canım, bilirsənsə düzünü de... Bilirsən ki, mən bütün doğmalarımı göz qırpımında itirmişəm... De görüm, onları necə, haçan görə bilərəm? Ən çox nəvəmi görmək istəyirəm... Allah mənim kimi oğluma da övlad payını gec, min bir nəzir-niyazdan sonra verdi.

– Onların keçmişini görmək olar... – Adəm anicə fikrə gedib aram-aram dilləndi. – Amma indi neylədiklərinə, harda olduqlarına tamaşa eləmək üçün gərək gizli yerlərin altındakı qadağan olunmuş kahalara, otaqlara gedəsən. Indi ora getmək müşkül məsələdi, gedib çıxsan da səni içəri buraxmazlar...

– Eh, onların keçmişini görmək nəyimə gərəkdi? – qoca həvəsdən düşdü. – Keçmişləri gözümün qabağında keçib, hər zaman xatirimdədi, şükür, hələ ki, ağlımı itirməmişəm...

– Başqa yol yoxdu... – Adəm Xaliqin üzünə baxıb özü öz kəlmələrinə şübhə elədi. – Ancaq bu dünyada heç nəyə hökm vermək olmaz, nə bilmək olar, bəlkə başqa yollar da var...

Qoca qəfil ağlına gələnlərdən duruxdu:

– Deməli... Deməli... – çarəsiz-çarəsiz udqundu, deyəsən, illərdi bağrında gəzdirdiyi öləzik köz, şüa, zərif şəfəq və zəif nur da bu gün sönəcəkdi. – Deməli, onlar ölüblər?..

– Azıblar... – dedi Adəm.

Qoca nə isə demək istəsə də özlüyündə “azıblar” kəlməsini “ölüblər” sözü ilə daş-tərəziyə qoyub müqayisə eləyərək dinmədi. Bəlkə də bəd xəbər eşidəcəyindən – əslində bəd xəbəri çoxdan eşitmişdi – içindəki işartının birdəfəlik, həmişəlik, tamam-kamal sönəçəyindən qorxdu...

* * *

Adətən dənizin böyüyüb-böyüyüb rayon mərkəzinə bitişən kəndə yaxın tərəfinə gəlib çimənlər təkdənbir, özü də nabələd adamlar olardı, çünki kəndin qırağındakı sahil qızıl quma həsrətdi. Gündən cadar-cadar olub bağrı yarılmışdı sahilin. Ləpədöyəndəsə topuğacan xırda, qəhvəyi çınqıl vardı, burda çəkməsiz, başmaqsız, çəkələksiz gəzənin ayaqlarını deşik-deşik eləyib dədəsinə od vurardı, dənizkənarı gəzintisini burnundan gətirərdi. Bir az aralıdakı bağrı yaralı, qupquru, daşlaşmış, bəmbərk bəyaza

çalan bozumtul torpaqda təkəmseyrək yaşıl tikanlar, xırdaca kol-kos bitmişdi, tikanlıqlardan o tərəfdə isə torpaq yolun ətrafını hündür yulğunluqlar basmışdı. Həm də çoxdan, lap çoxdan söz gəzirdi ki, dənizin bu tərəfi sualtı, görünməz dalğalarla, suyun dibindəki qayalıqlarla doludu, ən mahir, özündən deyən üzgüçünü belə yeraltı, daha doğrusu, sualtı burulğanlar göz qırpımında ağuşuna alıb dərinliklərə aparır, üzgüçü nə qədər çabalasa da sualtı "Əzrayıl"ın çaynağından qurtula bilmir. Dənizin kəndə yaxın yerində batanlar bəs deyincədi, ona görə kənd adamları, yerlilər adətən yolu uzaq olsa da aralıdakı sahildə dincəlirdilər. Orda həm sahildəki isti, qızıl qum günəş şüasının altında bərq vururdu, həm də suyun altında gözəgörünməz, gözlənilməz qayalıqlar, burulğanlar yox idi. Oralar çimmək, üzmək, dincəlmək, gündən qaralmaq, lap quma basdırılıb canındakı yeli-soyuğu çıxarmaq üçün yararlı, əlverişli, gözəl olduğundan səhərdən-axşamacan adam əlindən tərpənmək olmurdu. Qonşu rayondan gələnlər, gecəni dirigözlü dənizdə-sahildə açanlar da az deyildi.

Xaliqinsə başı hay-küy götürmədiyindən yaxınlıqdakı sahildən, dənizdən xoşu gəlirdi. Batmaq, boğulmaq qorxusu da yox idi. Çünki nə üzə bilirdi, nə də haçansa dənizə girib elə ləpədöyəndə, dayazda çimmək bir yana, duzlu su ilə yalandan islanmağı, yaxalanmağı da yadına gəlirdi. Onunku qarşısına çıxan saysız-hesabsız xırda yarğanları adlaya-adlaya gəzişib var-gəl eləmək, oturub dənizə baxaraq çay içməkdi. Bu dəfəsə çay içə bilməyəcəkdi. Termosunu evdə, masanın üstündə unutmuşdu. Günah da şofer Buludda idi. "Tez ol, molla əmi, qaçaraq gəlmişəm, səni dəniz qırağında qoyub getməliyəm, başqa müştərilərim də var, əlimyandıda gözləyirlər məni," – elə hay-küy salıb onu tələsdirmişdi ki, içi təzə çayla dolu termos qalmışdı evdə. Tərs kimi indi də susamışdı molla...

Kötüyün üstündə əyləşib ləpəsiz, dalğasız, ucu-bucağı olmayan bicənəyə bənzəyən sapsakit, lal-mat dənizə baxmaqdan bezikərək ayağa qalxdı, üstüaçıq, yüngül yay çəkmələrini corabsız, yalın ayaqlarına keçirdi, dördqat büküb sağ əli ilə günün qabağına tutduğu qəzeti – buna görə təsbeh çevirə bilmirdi – əzib kənara tulladı, havada zərrəcə meh olmadığından yumulanmış qəzet də ağır daş kimi elə düşdüyü yerdəcə qaldı. Daha günəşdən, gündən qoxmağa, qorunmağa dəyməzdi. Sınmışdı...

Təsbehini çevirə-çevirə xırda addımlarla sahildəki hündür qayaya sarı getdi, bilirdi ki, orda balıqçılar, lap dəqiqi, həvəskarlar qarmaq atır. Deyirdilər guya, bu qaya "oğlan" qayasıdı, qabaqlar bu qayanın yanında bir "qız" qayası da varmış. Qayaları suyun üstündə rəngsiz, göy qurşağına bənzəyən ensiz, körpüvari bir cığır da birləşdirirmiş, adamlar ehtiyatla həmin cığırın üstündən adlayıb qayadan-qayaya keçirlərmiş. Ancaq guya, "qız" qayası bir gün hiss eləyir ki, nədənsə, "oğlan" daha ona sarı baxmır, gözü elə gömgöy suların qoynundadı. Əvvəlcə qayaların arasındakı cığır öz-özünə uçulur, sonra xiffətdən "qız" qayası ovulub suyun dibinə gedir, dənizdə, dəryada qərq olur.

Dənizin-suyun üstündə əzəmətlə dayanan, illərdi, qərinələrdi, əsrlərdi sinəsini dəli dalğalara – hərçənd ki, indi dəniz quzu kimi sakit, lal-matdı,

hələ ki, ləpədən-dalğadan əsər-əlamət yoz idi – sipər eləyən qayayasa çatmağa az qalmış, suyun dibi görünən dayaz yerinə bağdakı lək kimi dörd uzun, şiş, paslı, içi görünməyən dəmir borular basdırılmışdı. Üzbəüz basdırılan boruların dibinə ağır yük maşınının qalın təkərləri bərkidilmişdi. Dəniz dalğalı olmayanda təkərlərin yarıdan çoxu suyun üzündə qalırdı. Boruların yanındasa, üzü bəridə, ləpədöyəndə balıqçı Natiqin üzü üzlər görmüş köhnə, yanları, qabaq qapılarınn altı çürüyüb deşilmiş, əvvəllər narıncı rəngdə olan, indisə həmin rəngdən adda-budda hissələr, yerlər nəzərə çarpan, pəncərələri və dal qapısı açıq “Moskviç”i “sədaqətlə” dayanıb yiyəsini “gözləyirdi”. Dənizin duzlu suyu maşının təkərlərini yalayırdı, yuyurdu, sanki ömrünü başa vurmaqda olana ürək-dirək verirdi.

Qoca astadan, dodaqaltı: “Ya Allah,” – deyib ensiz, xırda daş-kəsəkli seyrək kol-kos basmış cığırla dənizin dərinliklərinəcən uzanan qayanın üstünə dırmaşdı. Yanılmamışdı, həvəskarlar – yəni satmağa yox, evinə bir-iki balıq aparmaq üçün səhərdən-axşamacan qayanın üstündən dənizə qarmaq atıb səbrlə gözləyərək qurdunu öldürənlər – iş başında, lap dəqiqi, qayanın üstündə idi. Qoca onlara yaxınlaşanda iki cavanın ortasında və qayanın qırağında oturaraq ayaqlarını sallaya-sallaya dənizə baxan, sifətinin bir tərəfi yanıq, çal saçlı, yekəburun kişi qalxıb onunla salamlaşdı.

– Xoş gördük, molla... Gəzintiyə çıxmısan deyəsən?..

– Xoş günün olsun, Ziyad... Elədi... Bir şey tuta bilirsiz?

– Yox... – çönüb yanındakıları gösdərdi. – Dedim bekarçılıqdı, uşaqları gətirim bura ki, bəlkə bir şey tutduq, yavanlığımız çıxdı... – demə, yanındakılar Ziyadın oğlanları imiş... – Gün doğmamışdan burdayıq, hələ bir kilkə də tutmamışıq... Dəniz quruyub sanki, balıq qəhətə çıxıb...

– Nə əcəb təksiz?

– Hamı getdi... Əliboş, deyinə-deyinə... Təkcə biz qalmışıq... Natiqi gözləyirik ki, bir şey tutmasaq da, heç olmasa ucuz bir balıq alaq. Evə əli ətəyindən uzun dönməyək... Vaxtdı, indilərdə gələr... Çoxdan gedib...

Qoca təsbehini şalvarının cibinə qoyub sağ əlini gözünün üstündə “günlük” eləyərək irəli boylandı və göz işlədicə uzanan, nəhayətsiz görsənən dənizə baxdı:

– Hələ gözə dəymir... – deyib xəbər aldı. – Suyun var?.. Termos yadımdan çıxıb, qalıb evdə...

– Suyu neynirsən... – Ziyad əl-ayağa düşdü. – Qoy sənə çay verim. Sən burda otur, bu dəqiqə... – desə də üz-üzə qoyulmuş iri daşın üstündə özü qocadan qabaq əyləşdi.

Xaliq qımışdı:

– Çay lap yaxşı... – yerini rahatladı. – Külək-zad yoxdu ki, ay sağ olmuş... Nədən daşları düzmüsən surfanın qırağına? – süfrə dediyi qabaqlarındakı balaca, rəngi getmiş, üzərindəki naxışları qarışmış, köhnəldiyindən tamam nazilmiş, sürtülmüş, ortası deşik palazdı, palazın üstündə də yekə, qalın stəkan, iri, üzəri naxışlı-güllü, bər-bəzəkli termos, bir də qəndqabı...

– İndinin sakitliyinə nə etibar, bir də gördün qəfil külək qalxdı, tufan başladı... Ehtiyat igidin yaraşığıdı... – oturduğu yerdən qımıldanmadı, əlini ağdan-qaraya vurmayıb oğlunu səslədi. – Ədə, Tələt, dur molla əmiyə, çay süz... Onsuz da bizdən balıq tutan olmaz... – bikef-bikef əlini yellədi. – Torbadan təmiz iskan gəti, qaramel gəti... – Başına iri həsir papaq qoymuş yanağı xallı cavan dinməz-söyləməz ayağa durdu, Ziyadsa davam elədi. – Balığı tutur sizin allahsaxlamış Adəm. Yarımca saat oturur bizim yanımızda, iki-üç dənə iri kütüm, kefal, çəki, sıf tutub qoyur velsavetinə, çıxıb gedir, fikir vermişik ki, heç soxulcan da keçirmir qarmağına. Elə boş atır qarmağı. Elə bil balıqlar qəsdən, özxoşuna gəlib ilişirlər onun qarmağına. İncimə, molla, hərdən öz-özümə xoflanıram, adama elə gəlir ki, Adəm tilovu, qarmağı-zadı da yalandan, elgözünə gətirir dənizə, əslində ona heç nə lazım deyil, istəsə əlini atıb dənizdən balıq çıxardar. Belə... Nə təhər deyim... – azca susub uyarlı, münasib sözlər axtardı. – Qəribə, birtəhər uşaqdı sizin Adəm... – Ziyadın Adəm haqqında "sizin", deməsi mollanın xoşuna gəldi. – Deyirəm ay allahsaxlamış, belə ki, çox balıq tutursan, səbirli ol da, otur, balıqdan yaxşıca yükünü tut, hara tələsirsən? Qayıdır ki, çoxu neynirəm, bir-iki dənə bəsimizdi, istəyəndə yenə gəlib tutaram... Hərdən görür ki, bizim tilovumuz, torbamız boşdu, tutduğundan bizə də verir...

– Hə... Əl-ayağı ruzuludu Adəmin... – qoca iri, qalın stəkandakı dəmir tamı verən çayı ləzzətlə qurtumladı. – Day Bolgə, Ağ balıq, Nərə-zad tuta bilmirsiz deyəsən?

– Nə danışırsan, a molla, göydən gəlmisən, qarmaqnan Nərə tutmaq olar? Ağ balığı, Bölgəni, Nərəni heç Natiqgil tuta bilmir... Getdi e, o gözəl zamanlar... Qara kürünün qəpik-quruşa olduğu, bankalarda quruduğu vaxtlar... Bizim tərəflərdə o balıqlardan qalmayıb... O balıqları tutmaq istəyənlər iri gəmilərlə üzü o tərəfə gedir... O da ki, it əzabıdı... Nə bilim, sərhəddi keçmək, qonşu ölkədə balıq tutmaq... Deyirlər, xərci də çoxdu, qorxu-hürküsü də... Sərhədçilər özləri icazə versələr də, iş bərkə düşəndə yaxalarını qırağa çəkib deyirlər ki, bizim heç nədən xəbərimiz yoxdu, balıqçı gəmiləri dövlət sərhəddini pozublar... Gəmiçiləri də basırlar dama, tutduqları balıq-kürünü da alırlar əllərindən, bir neçə aydan sonra, hərdən bir ildən çox da çəkir, dədən yaxşı, nənən yaxşı rüşvət-zad alıb buraxırlar...

– Hə... Mən sizlərə görə deyirəm, bala, onsuz da mən özüm axçasız *(üzərində pərək, pul olmayan balıqlar, qədimdə həmin balıqlar haram sayıldığından bəzi dindarlar onları yeməzdi)* balıq yemirəm... – qoca müsahibini borclu çıxartmaq istədi.

– İndi biz də eləyik, sən dediyin balıqları ancaq yuxuda yeyirik... O qabaqlar idi, bolluqdan camaat Ağ balığı, Nərəni, Bölgəni haram sayırdı. İndi göydə uçan, yerdə qaçan, çayda-dənizdə üzən nə varsa tutub ötürür içəri ki, birtəhər qarnını doydursun... Məxluq Naqqaya həsrətdi, sən nə qoyub, nə axtarırsan...

– Bəs, buralarda bir balıq böyütmə zavodu da açmışdılar axı... O balıqlar hələ böyüməyib?

– Əşi, olar hamısı gözə kül üfürmək üçündü... Burdan balığı əl boyda eləyib buraxırlar dənizə, ordan da heç barmaq boyda olmamış özləri tuturlar... – Ziyad siqaret yandırdı. – Sən dünyagörmüş adamsan, molla, oğurluq baş alıb gedən məmləkətdə xeyir-bərəkət olmaz... Vay o gündən ki, başda oturanlar oğurlaya... Ona görə, hələ bu günümüzə də şükür... Şükür ki, hələ birtəhər ayaq üstəyik...

– Elədi... – qoca nəsə demək xatirinə mızıldadı. – Neynəmək olar, özünüz kasıbların qurduğu dövləti dağıdıb varlıların hökumətini qurduz...

– Biz nəkarəyik ki, hökmət dağıdağ, hökmət qurağ... Hamısını başda oturanlar elədi... İndi də dərdimizi deməyə yer tapmırıq, umudumuz Allaha qalıb... Bir qarın acıq, bir qarın tox... – deyəsən Ziyadın sinəsi sözlə dolu idi. – Biz heç, biz pis-yaxşı birtəhər dövranımızı sürmüşük, mənim bu uşaqlara yazığım gəlir... – qəfil dənizə baxıb dikəldi. – Gəlirlər...

Qoca da həmin səmtə boylandı. Motorlu qayığın səsi özündən bərk gəlirdi, deyəsən yükü ağır idi suları yara-yara ləpə, dalğa yarada-yarada irəliləyərək dənizin yuxusuna haram qatanın...

Xaliq boş stəkanı palazın üstünə qoyub ayağa durdu:

– Nə əcəb alverçilər gözə dəymir?

– Hərdən ağız açıb ucuzuna bir-iki balıq almağıma baxma... Haqqüçünə desəm, sağ olmuş, balığı çox olanda mənə verdiyinin pulunu da almır. Düzdü, pay verəndə balacasını verir, amma Natiq hərif-zad deyil ki, dənizin qırağına gələn alverçilərə balığı su qiymətinə satsın. Özü min bir əzab-əziyyətlə tutduğu balığı evinə aparıb dolu qiymətinə verir də... Day o allahsız alverçiləri neyniyir?..

Qoca qayanın üstündən qayıqdakılara tamaşa elədi. Dayazda suya tullanıb motoru söndürülən qayığı itələyə-itələyə boruların arasına saldılar. Qayıq oldu “təkərli”. Sonra qayığın burnunndakı yoğun, sarımtıl kəndiri gətirib ləpədöyəndəki moskviçin arxasına bağladılar. Natiq göbəyinə çatan qara, rezin botularını çıxardıb maşındakı bağsız “ket”lərini tez-tələsik ayağına keçirdi, dalınca gələn dərzi Xudayarın oğlu Səyyad da onun botularını götürüb qayıtdı geri, tulladı qayığa və üçüncü kişi, kəl Ramizin oğlu Vahid kimi bərayi-ehtiyat “təkərli” qayığın digər tərəfindən yapışdı. Natiq motoru işə saldı, maşının nəriltisi dənizi yuxudan oyatdı, ləpədöyəndəki ürkək, zəif ləpələr sahilin cadar-cadar olmuş torpağını yaladı. Maşın irəlilədikcə kəndir tarımlaşdı və təkərli qayıq löngər vura-vura boruların arasından çıxıb yavaş-yavaş ensiz yarğanlı, cadarlı, bərkiyib daşlaşmış qumun üstünə duzlu sudan iz sala-sala kökünün harda olduğu bilinməyən enli, qaramtıl kötüyün yanınacan sürütləndi. Maşın dayananda qayığın yanındakılar “Moskviç”in arxasına bağlanan kəndiri açıb dörd-beş kərə kötüyün ətrafına dolayaraq düyünlədilər. Təkərli qayıq “dimdik”, tarım dayandı. Vahidlə Səyyad qayıqdakı dolu torbaları maşının yük yerinə, ora yerləşməyəni isə arxa oturacağı çıxarılmış və yerinə qara bez sərilmiş parçanın üstünə qoydular.

Natiq ətrafa göz gəzdirəndə uzaqdan qayadan düşməkdə olan mollanı görüb maşının yük yerinin qapağını zərblə örtərək iri addımlarla irəli yeridi.

– Xoş gördük, molla əmi... Havanı dəyişməyə gəlmisən?.. – ehtiyac olmasa da qocanın qolundan tutub aşağı düşməsinə kömək elədi.

– Hə... Darıxdım evdə... – molla başını tərpətdi. – Buluda dedim, məni gətirdi bura...

Maşının yanında ayaq saxlayanda Natiqin gözü qocanın çəlimsiz arxasında gizlənmək istəyirmiş kimi, balaçalaşıb boynunu bükən Ziyadı aldı.

– Bir şey tutmamısan?.. – soruşdu Ziyaddan.

– Tutmamışam... – Ziyad fağır-fağır və nədənsə, günahkar-günahkar təsdiqlədi. – Əliboşam...

– Qayanın üstündə sizdən başqa qarmaq atan olmadığından bildim ki, işlərin yaşdı... Niçevo, fikir eləmə, balıq da qismətdi, bu gün olmaz, sabah olar... – yəqin Ziyada təsəlli verməkdən ötrü yalandan ağızucu gülümsündü. – Ala, Vahid!.. – hamı yaxında olsa da Natiq səsinin yoğun yerinə saldı. – Ordan Ziyada bir çəki ver... – üzünü mollaya tutdu. – Gün batır, bəs sən necə qayıdacaqsan?

– Elə həmişəki kimi... Buludun mobil telefonuna zəng vuracam, gəlib məni aparacaq...

– Əşi, Buludu neynirsən? Allah bilir Buludun başı harda qarışıqdı, haçan gələcək... – Natiq etiraz elədi. – Gəl aparaq da səni... Pulun artıq düşməyib ki, Buluda verəsən...

Molla etiraz eləməsə də, narahat-narahat gündən qaralmış sifətini turşudaraq dinməz-söyləməz Ziyada balıq verən Vahidə və səssiz-səmirsiz dayanıb siqaret tüstülədən Səyyada baxdı:

– Elədi, pul heç vədə artıq olmur... Məni aparsan bəs, bular harda oturacaq? Arxada yer yoxdu axı...

– Əşi, bular öyrəncəlidi, dalda birtəhər çöməlib oturarlar... Özü də burdan- buradı da... Beş dəqiqəlik yoldu... – dedi Natiq və üzrxahlıq da elədi. – Ancaq gərək bağışlayasan ki, elə qabaq sideniya da toz-torpaqdı...

Molla:

– Zərər yoxdu, əynim nimdaşdı... – deyib ehmalca üstünə boş torba sərilmiş oturacaqda əyləşdi, torba çirkli deyildi, amma kürəyini arxaya söykəmək istəyəndə sol tərəfinə nəsə batdığından yayxanmaqdan vaz keçib kətildə əyləşibmiş kimi, belini əydi, pənçərələri açıq olsa da, içindəki balıq iyi baş gicəlləndirən, yükdən arxası yerə yatıb qabağı qalxan maşın nərilti qoparıb yerindən tərpənəndə yola nərdivan atdı. – Maşalla, balığınız çoxdu deyəsən, yəqin dolanışığınız da pis olmaz...

– Uzaqdan elə görünür, molla əmi... Balıqdı də, bir gün olur, bir gün olmur... Bir də görürsən külək başladı, dalğalar şahə qalxdı, neçə gün dənizə girib balıq tutmaq mümkün olmadı. Balıq cəhənnəm, dənizdəki torlarımız da cırıq-cırıq oldu, düşdük bir ətək ziyana... – Natiq sükanı sola hərləyib torpaq yola çıxdı. – Xərcimiz də çoxdu... Uçaskovuya ver, su polisinə ver, bələdiyyəyə ver, icraya ver... – adbaad saymaqdan vaz keçdi. – Aşağı ver, yuxarı ver, ay qurtaranda görürsən ki, sənə qalan bir qarın çörəkdi, bir də əllərinin qabarı...

– Yenə buna da şükür... – molla dərinə getməyərək təsəlli verib malaladı.

– Ala, Vahid... Molla üçün iki dənə Kütüm ayırarsan... Day Ziyada verdiyin kimi balacalarından seçmə e... İrilərindən qoyarsan... Nöşün ki, molla əzizimiz, ağsaqqalımızdı... Dədəmin də dostudu... – söyləyib sözün düzünü zarafatla dedi. – Bu kəlin oğlunun... – arxada çöməlәni göstərmək istəyirmiş kimi, başını sağa çevirdi. – Pay verməklə arası yoxdu da... Əldən bərkdi, barmağın kəssən qan çıxmaz... Həmişə belə olur də, molla, ağanın malı gedəndə muzdurun qarnına ağrı düşür...

– Sağ ol... Heç nə lazım deyil... Biz balıq istəyəndə Adəm gəlib tutur...

– Əşi, onu heç demə e... Məəttəl qalmalı işdi, – Natiq razılaşdı. – Zalım oğlu bir-iki saat dəniz qırağında otursa adi qarmaqla bizdən çox balıq tutar. Hayıf ki, səbri yoxdu, darqursaqdı, göz qırpımında iki-üç balıq tutan kimi çıxır aradan... Bir-iki dəfə özünə demişəm ki, belə ki, əlin gətirir, qoşul bizə, yaxşı pul qazan, var-dövlət başından aşsın... Bəlkə sənin üzünə biz də özümüzə gün-güzaran qayırıb bir söz sahibi olduq... Qayıdır ki, var-dövlət mənim nəyimə lazımdı, balıqçılığa həvəsim yoxdu, heç dayım da qoymaz məni bu işə...

– Elədi... Qoymaram... – qoca başını tərpətdi. – Əmanətdi o uşaq...

– Kimin əmanətidi? – sükan arxasındakı xəbər aldı.

– Allahın... – molla yavaşca dedi.

Kəndə çataçatda, yol ayrıcında Natiq sürəti azaldıb:

– Əvvəlcə dönüb mollanı evinə qoyaq, onun payını verək, sonra biz evə gedərik... – guya, arxada pərçimlənib bir-birinə qısılanlarla məsləhətləşdi.

Qoca razılaşmadı:

– Balıq-zad lazım deyil, heç yerə dönmə...

Natiq karıxdığından maşını saxladı:

– Niyə, molla əmi? Uzaqdı axı, sən əliboş da getsən pay-piyada gecəyarısı evə güclə çatarsan...

– Evə getmirəm...

– Bəs? – Natiq çaşıb qalaraq mızıldandı.

– Sizə gedəcəm...

– Hə... Lap yaxşı... – sürücü gülümsünüb maşını yerindən tərpətsə də, marağını boğa bilmədi. – Xeyirdimi, a molla?

– İstəyirəm sənin dədənə dəyim... Hal-əhval tutum... Çoxdandı ondan xəbərim yoxdu, bir görüm Xəyyam nə təhərdi...

– Əcəb eləyirsən... – Natiq zarafata saldı. – Amma day dədəmdə görməli-dəyməli hal qalmayıb...

– Nədən? – molla bildiyini xəbər aldı.

– Elə xəstəhaldı da, evin içində gec-bəla ilə hərlənir...

– Nədən, balam, nə tez ağacını əlindən salıb? Biz yaşıdıq axı... Sənin də yadında olar, üç dost idik biz... Axund, mən, bir də sənin rəhmətlik... – molla qəfil dilinə gələni dəbbələdi. – Əstəğfürullah, sən mənə fikir vermə, dilim dolaşdısa, xeyirliyədi, demək ki, hələ çox yaşayacaq sizin kişi... Darıxma, inşallah, hələ sənin balalarından törəyənləri da oynadacaq...

– Eh, o gözəgörünməzə acıq getməsin, can nə qədər şirin olsa da, elə yarımcan yaşamaq nəyə lazımdı?.. – Natiq fikirli-fikirli dedi. – Allah sənə

ömür versin, amma bizim kişi sənin kimi deyil də, molla əmi... Qardaşlarımın itkisini ürəyinə saldı, üst-üstə gələn dərd-bəladan dağ boyda qədd-qaməti əyildi, oldu yarımadam...

Molla öz-özü ilə danışırmış kimi, pıçıldadı:

– Demək istəyirsən ki, mən arsızam?..

Deyəsən onun pıçıltısı maşının nəriltisinə qarışdığından dodaqlarından süzüləni eşidən olmadı. Hər halda, heç kim qocaya cavab vermədi...

* * *

– Ay Xəyyam, nə təhərsən, yay vaxtı bu nə içəri girib bürünməkdi? – Xaliq masa arxasında əyləşib cuna çəkilmiş pəncərələri taybatay açıq olan otaqdakı divanda uzanaraq üstünə naxışlı yun adyal örtən, seyrəlib pərquya dönən saçları, qalın qaşları ağapaq ağarmış, sinəsindəki bəyaz tüklərsə keşəlləşmiş dostuna baxdı. – Bu nə halətdi, a kişi, dur ayağa... Özünü bicliyə vurub evdəkiləri qorxuzma...

– Qorxuzmağdan keçib... – Xəyyam dikəldi, ayaq tərəfindəki yastığı da başının altındakının üstünə qoyub ayaqlarını sallamasa da yerinin içində oturdu və yenə arıq, qaxaca dönmüş bədənini boğazınacan örtdü, əynindəki üstü deşik-deşik, gen maykası görünməz oldu. – Qanıram ki, axırımdı... Day mən çox çəkmərəm...

– Onu Allah bilir... İndidən yasxana açma... Səninçün mollalıq eləməyə gəlməmişəm, o işlərə dostun Məhəmməd baxır, sən onu gör... – göz vurdu divandakına. – Şükayətin nədəndi ki?..

– Üstüvə sağlıq, canım qızmır da... – Xəyyam inildədi. – Xeyir ola, sənnən nə əcəb qəfil gəlmisən?

– Heç... Dəniz qırağına getmişdim, Natiqi gördüm, dedim, bir gəlib sənə dəyim... Elə Natiqin maşını ilə gəlmişəm, ona görə üst-başımdan balıq iyi gəlir. Gərək üzürlü sayasan...

– Balıq iyindən yaxşı qoxu var?.. İndi camaat balıq yeyəndə lovğalığından üç gün əlini-ağzını yumur...

Natiqin arvadı çay gətirəndə qonaq ürəkdən dil-ağız elədi:

– Allah atana rəhmət eləsin, qızım, yaxşı ki, çayı tez gətirdin, termosum qalıb evdə, bayaqdan Ziyadın verdiyi bir stəkan çayın üstündəyəm...

– Ölənlərin cənnətlik... Halal xoşun olsun, ay əmi... Çayını iç, indi yemək də gətirəcəm... – qadın əlindəki stəkanı onun qabağına qoyub mehriban-mehriban dedi. İçinə cürbəcür konfet tökülmüş iri, uzunsov, büllur qəndqabını da stəkanın yanına sürüşdürdü. – Təki həmişə siz gəlin, çay da düzələr, yemək də... – qadın dilli-dilavərlik elədi. – Oxuduğunuz “Quran” hamımıza kömək olsun...

– Yemək gətirməyə tələsmə, yanıram, hələ çox çay içəcəm... Yeməyə də Natiqin indicə tutub gətirdiyi təzə balıqlardan birini qızardarsan, qızım...

Qadın:

– Baş üstə... – deyib otaqdan çıxdı.

– Sənə nöşün çay gətirmədi?

– Canımın dərdindən, istilənməkdən ötrü o qədər çay içmişəm ki, day çaydan iyrənirəm... Çay içən kimi də qaçıram zaxoda... Qalıram zaxodnan evin arasında... Yavaş-yavaş, birayaq-birayaq həyətin o başındakı zaxopda gedib çıxınca az qalıram altımı isladam...

Xaliq qəhqəhə çəkdi:

– Yalandan mənə kələk gəlmə... – əlini yellədi gülə-gülə. – Yəqin gündə on kərə salvarını isladırsan...

Xəyyamın rəngi qarışmış gözləri bərəldi:

– Yox-yox, vallah-billah, yox!.. – bərkdən and-aman elədi, bilmədi acıqlansın, ya gülsün, sövq-təbii yun corablı ayaqlarını yerə qoyub masaya dirsəkləndi, örtdüyü adyalın sürüşüb döşəməyə düşməsinin fərqinə varmadı. – Hələ o həddə çatıb el-aləmdə biabır olmamışam... – müsahibinin üzünə baxanda gördü ki, hirslənməkdən keçib, yaxşısı zarafata salıb yerini bərkitməkdi. – Amma sənə düzünü deyəcəm, belə getsə, yəqin ki, ona da çox qalmıyıb...

– Bu başqa məsələ... Ay bərəkallah! Adam kimi otur... – molla gülməyini kəsib razılıqla başını tərpətdi. – Yoxsa, evinə qonaq gəlib, sən də uzanıb ayaqlarını qaldırmısan göyə, başlamısan zarımağa... Qanacağın olsun...

Xəstə kürəyini yerə vermədi:

– Kiri-kiri, saçın olmasa da, ağ saqqalından utan... Sən haçannan qonaq sayılırsan burda? Evin adamısan...

Xaliq təslim oldu:

– Onu yaxşı dedin... – stəkandakı çayın yarısını içib davam elədi. – Özünə yaxşı baxırsan a... Öz aramızdı... Görürəm saqqalını da təzəcə təraş eləmisən, olmusan cavan oğlan...

– Məndə taqət var üz qırxmağa?.. Nəvəmin sifətinə yenicə tük çıxdığından həvəslidi... Öz üzünü qırxanda mənimkinə də ülgüc çəkir... Bezmişəm, deyirəm, əl çək, deyir ki, yox, adam gərək təmiz olsun, üzdə tük saxlamaq kifirlikdi... – ev yiyəsinin səsi də əvvəlkindən yaxşı gəlirdi, deyəsən oturmaq onun nəfəsini, eynini açmışdı. Bir anda dirçəlmişdi.

Molla:

– Ola bilər... – deyib əlini nazik saqqalına çəkdi.

– Saqqal dedim yadıma düşdü, eşitdim Adəm üçün elçi getmisən dəllək Atəşin qızına...

– Hardan eşitmisən?.. – Xaliq təsbehini cibindən çıxartdı.

– Axund gəlmişdi srağagün... Məscid yanımızdadı də... Hərdən bizə gəlib balıq aparanda ayaqüstü mənə də dəyir... O, dedi ucundan-qulağından...

– Balıqların pulunu verir? – molla yarızarafat xəbər aldı.

– Yox əşi... Axund adama pul verər? Axunddan, molladan gələn xeyirdən əlini üz... Olar almağa öyrəşib, verməyə yox... – Xəyyam ayağının altına düşmüş örtüyü götürüb çiyninə atdı. – Xeyirli olsun, Allah xoşbəxt eləsin, üzüyü taxdın qızın barmağına?

– Yox... – molla başını buladı. – Hələ ki, Atəş nəm-nüm eləyir...

– Niyə?! – Xəyyam sağ əlinin şəhadət barmağı ilə masanın üstünü döyəclədi. – Minnəti olsun omun... Nə deyir axı?..

– Deyir ki, mən dədəsi-nənəsi, nəsli-kökü bəlli olmayan adama qız verə bilmərəm. Gərək papağımı qabağıma qoyub yaxşı-yaxşı fikirləşim...

Xəyyam üşüyürmüş kimi, büzüşüb:

– Hə... – mızıldandı dodaqaltı və kürəyini divana dirədi.

Araya sükut çökdü. Xaliq divanın arxasındakı xalçaya, xalçanın üstündəki iki qardaşın böyüdülüb qara haşiyəyə alınmış şəklinə baxa-baxa çayını axıracan içib stəkanı nəlbəkiyə qoydu. Şəkildəki qardaşlar əllərini bir-birinin çiyninə qoyaraq oturmuşdular. Gərək ki, indiki kimi yayda çəkilmişdi şəkil. Çünki qardaşlar qısaqol köynəkdə idi. Birinin köynəyi yaşıldı, o birininki qırmızı... Yəqin Natiq məktəbli olardı bu şəkil çəkiləndə... Yoxsa, rəhmətliklər onu da özlərindən ayırmaz, şəkli birlikdə çəkdirərdilər. Bəlkə də duymuşdular ki, bu adi şəkil deyil, ayrılıq fotosudu. Balaca qardaşlarını özləri ilə "götürməyə" qıymamışdılar. Bəli, bəli, elədi ki var, ayrı cür olsaydı, şəkildən baxanların gözlərindəki, baxışlarındakı dərindən-dərin kədərə, qəmə, qüssəyə necə don biçmək olardı? Sanki şəkildəkilər tezliklə dünyadan köçəcəklərini duymuşdular. Adətənsə məzarlıqda, başdaşılar üstünə həkk olunan şəkillərin baxışları çox kədərli olur. Sanki rəhmətliklər fəhmən çəkdirdikləri şəklin başdaşına vurulacağını qabaqcadan hiss eləyirlər...

Qəfil divanın arxasındakı, gözünün qabağındakı iri, butalı xalçanı da ucsuz-bucaqsız qəbiristanlıqa bənzətdi molla, bir anlığa ona elə gəldi ki, gözünün önündəki məzarlığın tən ortasında şəkildəki iki qsrdaşın məzarı yanaşıdı. Halbuki qardaşların heç birisinin qəbri yoxdu. Biri dəhşətli partlayışa düşdüyündən tikə-parça olmuşdu, ata-atda, qaçdı-qovduda heç yeri ələ gəlməmişdi, meyiti tapıb tikələri bir yerə yığmaq mümkün olmamışdı, digəri dənizdə boğulub tutmaq istədiyi balıqların yeminə çevrilmişdi. Amma Xəyyam hər iki oğluna yas vermişdi. Xalçanın üstündəki şəkildən kədərli-kədərli ona baxan cavanların yasında axundla molla ağsaqqallıq eləmişdi. O vaxt dalbadal aldığı zərbələrdən beli bükülən Xəyyama: "Səbrli ol", – deməkdən başqa söz tapmayan molla az sonra öz başına müsibət gələndə anlamışdı ki, hər şeyin bir ölçüsü, həddi-hüdudu var. Elə səbrin də... Və bu dünyada başqasına məsləhət verməkdən, söz tapmayanda ən azı: "səbrli ol", deməkdən asan, asan olduğu qədər də mənasız bir şey yoxdu. Molla isə itirdiklərinə yas verməmişdi, çünki çörəyi ordan çıxsa da, əslində yas mərasimini, yersiz vay-şivəni, itkidən sonra sayı-hesabı bilinməyən tədbirlərdə yığışıb üzünə yalandan qəmli ifadə verərək fikrə getməni, lap elgözünə ağlayıb sısqayaraq göz yaşı axıtmanı boş, yersiz sayırdı, ikincisi, haçansa onların qarıdacağına, tapılacağına ümid eləyirdi. Böyük dərd təklikdə çəkilər. Birlikdə çəkilənlər gözə kül üfürmədi...

Natiqin arvadı içəri girəndə qocaların dinməz-söyləməz oturub bir-birlərinə baxdığını gördü, ürəyinə nə damdısa elə sakitcə əlindəki çayla dolu stəkanı Xaliqin qabağına qoydu, boş stəkanısa götürüb ayaqlarının ucunda, ehmal-ehmal otaqdan çıxdı.

– Sənin yadındadı da Adəmi tapmağın?.. – Xaliq böğazını arıtlayıb cansıxıcı sükutu, sanki bir anlığa həyətdən gələn qarışıq səslər də kəsilmişdi, pozdu. – Dəniz qırağından tapmışdın...

– Həlbət ki, yadımdadı... Ortancıl gədə bir-iki ay olardı ki, boğulmuşdu. Mən də gecə-gündüz dəniz qırağından əl çəkmirdim. Hələ də umudlu idim...

– Sən biləni onun ata-anası kim olar?..

– Mən nə bilim... – Xəyyam çiyinlərini çəkdi. – Qayanın altındakı balaca kahada qalırmış... O kahada ki, biz neçə il orda yaşayıb balıq tutsaq da, xırda dəlmə-deşikdən o tərəfdə əməllicə yer olduğunu ağlımıza gətirməzdik... Sonralar zəlzələdən, yer titrəmələrindən nədənsə, o kahanın içi qumnan doldu, ağzı da bağlandı. Amma Natiq deyirdi ki, guya, kahanın içindən aşağı, yerin altına darışqal bir yol-riz varmış, ora ayaq basmaq istəyənin gözləri heç nə görmürmüş, qulaqlarına da ayırd eləyə bilmədiyi qarışıq səslər gəldiyindən aşağı düşməyə ürəy eləyən yoxmuş. Uşaqlardı da, hərəsi bəzəyib-düzəyib bir söz danışırdı. Həqiqətsə burda idi ki, biz Adəmi tapanda o, dəssəy uşaq idi, əyin-başı da tərtəmiz... Day bu uşaq nə yeyib içirmiş, orda nə ilə dolanırmış, kahadakı şamları necə yandırırmış, tək-tənha orda qalmaqdan nədən ötrü qorxub zar-zar ağlamırmış, çox suallar, çox gizlinlər elə heç vaxt açılmayacaq bir sirr kimi də qaldı. Nə soruşurduq nala-mıxa vururdu, gah elə deyirdi, gah belə... Günü də mənim yanımda, dəniz qırağında keçirdi. Qorxu dedim yadıma düşdü, əl boyda uşaqda zərrəcə qorxu-hürkü, çəkingənlik deyilən şey yox idi, hərəkətləri də mat qalmalı idi. Qışın oğlan çağında, külək dalğaları şahə qaldıranda bir də ayılırdıq ki, soyunub luppadan atıldı dənizə, görünməz oldu, ürəy-göbəyimizi yeyirdik ki, yazıq yetim batdı, tələf oldu, bilmirdim neyləyəm, kimi onun ardınca göndərim. Heç kəs də onun dalınca getməyə ürəy eləmirdi. O havada, o dalğada, o ləpədə hara gedəsən, necə gedəsən?.. Bir də görürdük ki, yanımızdadı. Sudan haçan, necə çıxdığından da xəbərimiz olmurdu. Deyirdim ki, ay bala, kimsəsiz uşaqsan, bir də məndən xəbərsiz suya girib dalğalara baş vurma, batarsan... Qayıdırdı ki, qorxma, burda mənə heç nə olmaz, məni qoruyan qoruyur. Suda batan saman çöpündən yapışar, mən də umudlanırdım onun sözlərindən: “Onda bəlkə mənim oğlumu da axtarasan?”. Nazik qaşlarını çatıb elə fikrə gedirdi ki, deyərdin yekə kişidi. “Hansını axtarım?” – xəbər alırdı. Çaşıb qalırdım. “Necə yəni, hansını, həlbət ki, ortancılı... Sən mənim böyük oğlumun müharibədə öldüyünü kimdən eşitmisən? – neynəyəcəyimi bilmədən əl-qolumu ölçürdüm. – Müharibədə erməni gülləsinə tuş gəlib parça-parça olanı dəryanın dibində necə axtaracaqsan?” “İkisini də axtarıram, – elə dediyini deyirdi. – Tapa bilmirəm hələ”. Uşağa baş qoşduğuma görə özümü qınayırdım. Amma genə deyirəm, çarəm kəsilmişdi, həm də bu savadsız başımla qanırdım ki, yanımdakı elə belə, adi uşaq deyil. Özü də israr eləyirdi ki, məni burdan uzağa aparmayın, atam gəlib məni axtaracaq...

– Kim idi ki, atası?.. – Xaliq söhbətin öz-özünə mətləbə gəldiyini görüb tez Xəyyamın sözünü kəsərək yenə soruşdu.

– Yadına gəlmir, sənli-mənli ha soruşduq, ağlabatan heç nə demədi. Təkcə öz yerlilərimizə yox e, ətraf rayonlara da xəbər verdik, polisə dedik, şəklini rayon qəzetinə verdik, uşağın yiyəsi çıxmadı... Basabas illər idi də, müharibə, qarışıqlıq, it yiyəsini tanımırdı... Qıymadım onu uşaq evinə verməyə, bir az bizdə qaldı, sonra da sən götürüb saxladın...

– Orası məlumdu e, onu demirəm...

– Bə nədi? – Xəyyam karıxdı.

– Deyirəm bəlkə Adəm sənə elə şeylər danışıb ki, onları yadına salsan kələfin ucunu tapa bilərik. Beləcə, ata-anasını da olmasa, qohum-əqrəbasının izinə düşərik...

– Yox... İzə düşəsi heç nə demədi... Yəqin sən də yüz kərə xəbər almısan onun özündən...

– Elə indiyəcən xəbər alıram... Hələ də ağlabatan bir söz demir... – molla təzə çaydan bir qurtum alıb qəfil ağlına gələni dilinə gətirdi. – Yaxşı, o ki o vaxt atasını gözləyirdi, bəs, sən soruşmadın ki, atasının adı nədi? – əslində əlacı kəsildiyindən sorğusunu ayrı dona bürüyüb təkrarən xəbər aldı.

– Soruşdum, nöş soruşmadım...

– Nə dedi?..

– Dedi ki, Xaliq... – ev yiyəsi qəndqabıdakı yumru, balaca noğulu ağzına atdı və gülümsünüb müsahibinin üzünə baxdı. – Mat-məəttəl qaldın, ya öz günahındı çıxıb qadağına?..

– Yox... – molla stəkanı nəlbəkiyə qoydu. – Mən elə də bilirdim...

Xəyyam anlamadı:

– Nəyi elə bilirdin?..

– Heç... – molla baxışlarını yayındırdı. – Bilirdim elə cavab verəcək...

– Amma sən Adəmi qanmaz bilmə... O, bizim ikimizi də susuz aparıb, susuz gətirər. Onun bildiyinin yarıdan çoxu yerin altındadı... Özünü bicliyə vurub... Mən öz savadsız ağlımla elə o vaxt bunu qanırdım... Baxma ki, guya, Adəm məndən də bisavaddı, yazıb oxumaq da bilmir...

– Məsələn... Sözünün canını de...

– Məsələni budu ki, bir dəfə hardansa uruslar gəlmişdi bizə. Balıq almağa... Savadsızıq da, qalmışdıq lal-kar kimi naəlac... Onlar bizim dili bilmirdi, biz də onların... Bu məqamda qəfil Adəm araya girib başladı rus dlində bülbül kimi ötməyə... Nə isə, işimizi yola verdi, alverimizi elədik. Deməyim odur ki, deyəsən bizim Adəm təkcə rus dilində yox e, külli-məxluqatın dilində danışa bilir. Elə bil yer üzündəki ilk hərfləri də özü kəşf eləyib, intəhası, bildiklərini büruzə vermir, özünü bisavad göstərib bizi hərifləyir. Gülmə-gülmə, mən kəmsavadın da sözünü qəribçiliyə salma, görərsən, mən ölü, sən diri...

– Sən kəmsavad niyə olursan?.. Dünyagörmüş adamsan...

– Elədi, dərd adama ən bilikli məllimlərdən də yaxşı dərs öyrədir... Kim necə, nə təhər məsləhət verir versin, xeyri yoxdu, öz başına qapaz dəyməyincə ağıllanmayacaqsan. Amma öz aramızdı, sən olmaseydun mən çoxdan ölmüşdüm, indiyə sümüklərim də çürümüşdü... O vaxt mən sənə baxıb ayaq üstə qala bildim...

– Nə mənada?

– Adam özündən bədbəxtini görəndə tapır da əsl təsəllini... İncimə, dost, qardaş olsaq da düzünü deyirəm...

– İncimirəm... Fəqət heç vaxt özünü bədbəxt hesab eləmə... Allaha acıq gedər. Sənin oğlun şəhiddi, şəhidlərin də yeri cənnətin ən üst qatındadı...

– Eh, mən sənin dediyin o cənnət-cəhənnəmə çoxdan inanmıram... – Xəyyam etinasız-etinasız əlini yellədi. – Onlar hamısı varlıların uydurmasıdı... Həqiqətən cənnət dediyin bir yer olseydi, şəhidlər də sən söylədiyün kimi cənnətə düşseydi, inan ki, varlılar biz kasıbları ölməyə də qoymazdılar...

– Var-dövlətin bura nə dəxli? Bilirəm acıqlısan, küskünsən, fəqət heç kəs əbədi kasıb, ya əbədi dövlətli olmur. Bu gün fərman verən, sabah can verir. Dövran dəyişsəydi, sən varlansaydın, belə danışmazdın... Ancaq rahat ol, ürəyini də buz kimi saxla, bir gün biz hökmən o torpaqları geri qaytaracağıq... Bir qarış torpağımız da düşmən tapdağında qalmayacaq... Bax onda, sənin oğlunun da ruhu şad olacaq...

– Torpağı qaytara bilərsiz, bəs, mənim balamı kim qaytaracaq?..

– Allah sənə ömür versin, sən də balanla cənnətdə görüşəcəksən...

– Nağıl danışma... Uzaq olsun, yasda-zadda deyilsən... Ruh, cənnət, hurilər... Gopdu hamısı... Düşmənimə də bala dağı arzulamıram. Ölüb getdinsə, bitdi, qurtardı hər şey... Cənnət də burdadı, cəhənnəm də... Varlılar cənnətdədi, fəqir-füqara cəhənnəmdə...

– Nağıl niyə?.. Yenə şükür ki, Natiq kimi oğlun var, gəlinin, nəvələrin, bir qısmat çörəyin var...

– Çörəydi bu?.. – süfrədə çörək tapmayıb qəndqabını göstərdi. – Zəhərdi, zəhər!.. Hamı kimi mənim də öz arzularım vardı... O birilərlə bağlı arzu-istəklərim yerin dibinə getdi... Natiqi də oxutmaq istəyirdim. İstəyirdim heç olmasa kiçik oğlum oxuyub adam olsun... İnistuta da girmişdi yazıq, amma sonra oxumağın daşını atıb qayıtdı kəndə. Yoxsa, dünya dağıla mən qoymazdım o, balıqçılıq eləsin...

– Bəs niyə qoydun?..

– Naxoşladım, əlacım kəsildi... Başqa yolum qalmadı... Bəs nağayraydıq, dilənçilik eləyəydik, ya acından gəbərəydik, hə?.. – Xəyyam hirslə çiynindəki örtüyü divanın üstünə vızıldatdı. – Yoxsa, başlamısan ki, cənnət belə gəldi, torpaq belə getdi... Heç olmasa ikilikdə malalı, rəndəli danışma, düzünü de... Day mollalıq da eləmirsən ki, deyim elə şeyləri yaslarda avam camaata danışarsan... Mən də savadsızam, ancaq avam deyiləm... Day ölüb gedirəm, qulağımın dibi qalıb e...

– Elə demə, sən hələ çox yaşayacaqsan...

– Neynirəm belə yaşamağı?.. Qurdnan qiyamətə qalacam?.. Mən çoxdan ölmüşəm. Basdıranım yoxdu...

– Elə demə... – molla başqa söz tapa bilməyib təkrarladı.

– Bəs nə deyim? İnsanın əzizi, lap canından artıq istədiyi doğması, gözünün işığı çox ola bilər, ancaq adamın ən yaxını elə özüdü, can-candan ayrıdı... Heç kəs heç kəsin ağrısını özü kimi hiss eləmir. İndi sən mənə o dünyadan, cənnət-cəhənnəmdən moizə oxuyursan, ancaq yadındadı, öz doğmaların yoxa çıxanda, mənim yanımda, tək mənim yanımda yox e, axund da orda idi, and içib dedin ki, əzizlərimin ölüsü-dirisi tapılmayınca mən bir də məscidə ayaq basıb namaz qılmaram. Çünki Allahın ədaləti yoxdu... Özü də tək bizim yanımızda deməmizən bunu, çox yerdə, çox

adamın yanında demisən. Camaat indiyəcən səni bağışlaya bilmir. Dindarları deyirəm...

– Allah ədalətlidi, ancaq adamların ağlı-zəkası, kəraməti çatmır bunu qavramağa...

– Ədalətlidi?.. Bə niyə dünya bu kökdədi? Hər yan qan-qada, məxluq bir tikə zəhrimar çörək, var-dövlət üçün qırır bir-birini...

– Onu Allah yox, biz eləmişik...

– Bizi də Allah yaradıb... – Xəyyam istehza ilə gülümsündü. – Adə, ay mənim adı dillərdə gəzən oxumuş dostum, ay molla, sözlərim sərf eləmir, qabaqlar dediyini indi nədən danırsan?..

– Səhv eləmişəm, mən də insanam, adamın əli hər yerdən üzüləndə çox qələtlər eləyir... – molla başındakı ağ, nazik fəsi çıxardıb ehmalca qabağına, stəkanın yanına qoydu, təsbehini də başından çıxartdığının "belinə" doladı. – Sonra da it kimi peşman olur... Həm də mən elə deyəndə dinlərdən soyudum, yaradandan yox... Heç vaxt "Allah" sözü dilimdən düşmədi. Fəqət anladım ki, aləmləri yaradan sinaqoqa, kilsəyə, məscidə sığmaz... Kainatı yaradanın bəndələrin tikdiyi evə ehtiyacı yoxdu... Min kərə təkrar eləyirəm, Allah ədalətlidi...

– Bəs, nöş imkan verir ki, bəndəsinin əli hər yerdən üzülsün? Nədi bizim günahımız?.. İlkim idi, böyük oğlum idi düşmən gülləsinə tuş gəlib qəbrinin yeri də bilinməyən... Balacalıqda onu qucağıma götürüb o qədər qoxlamışam ki... Amma üzündən öpməyə də qıymırdım. Ətrindən, rayihəsindən də doya bilmirdim, indiyəcən burnumdadı o qoxu... Bircə dəfə o illərə qayıdıb balamı qoxlaya bilsəydim, qalan ömrümü verərdim... – gülümsündü acı-acı. – Deyəsən tərəzinin gözü əyildi, bundan sonra mənim nə ömrüm qalıb ki? Bu gün-sabahlığam... – gözlərini bərəldib onündəkinə baxdı və özü də bilmədən, fərqinə varmadan cəmdən təkə keçərək sualını təkrarladı. – Hə, de görüm, nəydi mənim günahım, Allah nədən belə elədi, nədən zülüm verdi mənə?..

– Bilmirəm, bilmirəm... Qəliz söhbətdi burası, sənlik-mənlik deyil... – əslində ev yiyəsinin xətrinə dəyməməkdən ötrü "sənliyi" "mənliyə" qatan molla baş barmağını yuxarı qaldırdı. – Onun bildikləri bizim ağlımıza sığışmır axı... Bircə bunu qanıram ki, mən kainatı yaradanla öz başıma gələnləri bir tərəziyə qoymaqda həqiqətən böyük səhv eləmişəm... – azca ara verib davam elədi. – Çox peşman olmuşam, çox... Külli-aləmi götürəndə biz qarışqadan da balacayıq... O, biləni də qavramaqda acizik, imkanımız yoxdu buna... Bəlkə də balaca dediyimiz, bilmədən hər gün tapdaladığımız, ayağımızın altında qalan qarışqa bizlərdən çox bilir...

– Heç inanmıram sənin peşman olmağına... – Xəyyam deyilənləri qulaqardına vurub peşmançılıqdan "yapışdı".

– Niyə inanmırsan?.. – Xaliq narahat-narahat yerində qurcalanıb ölgün-ölgün fəsinə baxmaqda davam elədi. – Mən adam-zad deyiləm?..

Xəyyam ayağını geri qoymadı:

– Sən peşman olseydun, mənim kimi dörd divar arasında oturmazdun, çoxdan məscidə gedərdün, yenə mollalıq eləyərdün... – sanki qəfil önün-

dəkinə acıdığından dərinə də getmədi. – Nə bilmək olar, sən oxumuş adamsan, yəqin bir bildiyin var... Orası doğrudu ki, necə yaşayırsa yaşasın, məxluqun ömrü həmişə peşmançılıqla bitir...

– Day məscidə gedib namaz qılmasam da, dörd divar arasında oturmuram... Allah da həmişə qəlbimdədi... – molla etiraz eləsə də, qısa saqqalını tumarlayıb Xəyyamın söylədikləri ilə razılaşdığını dilinə gətirməkdən çəkinmədi. – Onu düz dedin ki, heç kəs bilmir başqası nə çəkir. Nə qədər doğma olursan ol, can-candan ayrıdı...

– Axır vaxtlar həqiqətən canımı qoymağa yer tapmıram. Yatmaq nədi, gözümü bir balaca yumub mürgüləmək istəyəndə nəşi tapılmayan şəhid balam gəlir yuxuma... Qəribədi ki, dənizdə boğulanı görmürəm çoxdandı. Elə bil balıqlar onu götürüb dürrlərin, mirvarilərin çıxdığı tərtəmiz bir yerə aparıblar, yeri rahat olduğundan buralar düşmür yadına... Səhid balamınsa yeri narahatdı, yuxudaca onun qəmli-kədərli gözlərinə baxanda zəhrim yarılır, oyananda görürəm tərin içindəyəm, qorxudan dilim-dodağım təpib. Sanki yazıq, tifil, nakam balam da elə mənim kimi iki dünya arasında girinc qalıb... Deyirəm, yaxşı ki, bizim arvad bu dərdə dözməyib tez öldü, canını qurtardı... Əsl zülüm çəkən mənim kimi basdırılmadan gəzən ölülərindi, nə o yanlıqsan, nə bu yanlıq... – gözlərini ovuşdurdu Xəyyam. – Mən balıqçıyam, kənd adamıyam, günüm dəniz qırağında, çöldə-bayırda keçib, uşaqlar belə olmaseydi mənim nə dərdim vardı ki?.. Onların dərdi mənim belimi qırdı. Yoxsa, mən yüz il yaşayardım e, yüz il... – nədənsə, sağ əlini açıb beş barmağını göstərərək yuxarı qaldırdı, yəqin hər barmağını iyirmi hesab eləyirdi.

– Ömrü verən Allahdı, qədər Allahındı, elə demə... Fəqət yüzə də bir şey qalmayıb...

– Yox... – Xəyyam razılaşmadı. – Bir var yaşayasan, bir də var belin qırıla, sürünəsən... Quruca nəfəsin gedib-gələ... Baxıram camaatın dolanışığına, rüzgarına, məxluqa yazığım gəlir... Deyəsən hamı sürünür, hamının günü-güzaranı tükdən asılıdı sanki... Harda qırıldı-qırıldı...

Natiqin arvadı içəri girdiyindən molla dostuna cavab verməyib susdu, qadın ortaya iri, bütöv, isti təndir çörəyi qoydu, Xaliqin yarımçıq stəkanını da götürüb apardı. Deyəsən süfrəyə yemək, lap dəqiqi, qızarmış balıq gələcəkdi. Amma birdən-birə qonağın iştahı küsmüşdü...

* * *

Bulud maşını Seyid Qeybullanın evinin qabağında saxlayaraq geri qanrılıb dedi:

– Qayırmaq istəyəndə zəng elə özümü yetirim... Gedirəm bazara, burdakı bazar-dükan ucuzluqdu, deyirlər. Mən bir oralara dəyib başımı qatım, sən də işini qurtaran kimi zəng vur, müştəri tapmasam elə ikimiz qayıdaq kəndə... – nala-mıxa vurub əslində özü öz dediyini təkrar eləyə-eləyə arxa oturacaqda büzüşənin birdən-birə nazik saqqalı kimi ağarıb bəmbəyaz olmuş sifətinə baxdı.

– Yox... – dedi qoca, səsi quyunun dibindən gəldi. – Sən işində ol, mənim məəttəlim olma, mən özüm qayıdaram...

Buludun ürəyinə nəsə damdı:

– İstəyirsən mən də səninlə gəlim? – toppuş, kök sifətindən xəfif, zərif təbəssüm keçdi.

Molla:

– Yox, – deyib maşından düşdü. – Sən işindən qalma, elə yerlər var ki, ora tək getmək lazımdı... – arxa qapını örtdü.

Bulud:

– Özün bil... – xeyirxahlığının qiymətləndirilmədiyini görüb pərt-pərt dedi və maşını yerindən tərpətdi.

Qoca dəmir darvazanln “bala”, balaca qapısının ağzında dayandı. Içəridən səs-səmir gəlmirdi. Hündür hasardan da həyət görsənmirdi. Allah boy-buxun paylayanda geridə qalan qədd-qamətli olsaydı da içərini görə bilməzdi. Qapını aralayıb həyətə göz gəzdirdi, ancaq içəri girməyib ehmaca örtdü. Yaxşı ki, küçədə bir kimsə gözə dəymirdi, yoxsa onun qapını açıb örtməyini, həyəti pusmağını düzgün anlamazdılar. Ən azı, elə bilərdilər ki, həyətə, seyid Qeybulla ocağına utancaq bir dilənçi gəlib, amma içəri keçib dilədiyini almağa ürək eləmir. Əslində bayırda ins-cins olmamağı yaxşı deyildi, kimsə, kimlərsə ocağa gəlsəydi, gələnlərə qoşulub içəri girmək rahat olardı. Molla Buludun onunla gəlməyinə razı olmadığı üçün təəssüfləndi. Amma daha gec idi. Qatar, daha doğrusu, maşın getmişdi. Həm də, bəlkə belə yaxşı idi. Buludun ağzında söz qalmırdı, bekarçılıqdan birinin üstünə beşini də qoyub aləmə yayırdı eşidib gördüyünü. Seyid Qeybullanın ocağındakı oğul-uşağın əlindən qurtulsa da, şofer Buludun dilindən qurtara bilməyəcəkdi.

Bir-iki dəfə axundla gəlmişdi bura, axund Məhəmmədlə seyid Qeybullanın arası yaxşı idi, lakin seyid Qeybulla mollanın yanına xahiş-minnətə gələndə axund bəri başdan işini bilib yaxasını kənara çəkmişdi ki, onsuz da oğlu mollanın sözünə baxmayacaq. Uşaqlıqdan, bir tikə vaxtından çox ərköyündü, ona görə nə özünüzü yüngülsaqqal eləyib mollanı pis vəziyyətdə qoyun, nə də məni... Amma əli hər yerdən üzülənlər axunda qulaq asmamışdılar. Nəticəsi də məlum...

Molla ürkək-ürkək ətrafına baxdı və yəqin neyləyəcəyini bilmədən – lap-dan ürəyindən geri qayıtmaq da keçdi – titrək əli ilə dəmir qapının üstünü ehmal-ehmal sığalladı. “Ola bilməz ki, buralarda adamlar az qala gün günortayacan yatsın. Küçədən, həyət-bacadan nəinki adam, heç səs-səmir də gəlmir. Heyvan-qara, toyuq-cücə, it-pişik də yoxa çıxıb elə bil... Maşın-zad da keçmir küçədən... – qəfil fikirləşdi molla. – Mən hara gəlib düşmüşəm, iraq-iraq, məxluq ölüm yuxusuna gedib nədi?” Ağlına gələnə elə inandı ki, bədənini tər basdı. Ancaq o dəm anladı ki, ərləməyi ağlına gələnlərdən deyil, bayaqdan qapının qabağında, günün altında dayanmağındandı. Boğazınacan bağladığı yaxalıqsız, ağ köynəyinin yuxarıdakı iki düyməsini açdı. Dili ilə qurumuş, nazik dodaqlarını yaladı. Aralıdakı salxım söyüdün altına tərəf addımlayıb ağacın kölgəsində sərinlənmək, gündən

qorunmaq istəsə də fikrindən daşındı. Daha uzatmağın mənası yoxdu. Gərək içəri girib özünü heç nə baş verməyibmiş kimi apara. Söyüdün altında dayandığını görənlər şübhəyə düşərdi. Olardı qarğa məndə qoz var... O, əvvəllər bu rayondakı, lap elə bu küçədəki yaslara az gəlməmişdi. Üstündən illər ötsə də əlbəttə ki, onu tanıyanlar vardı. Amma indi tanış-bilişə rast gəlmək, olub keçənləri eşələmək sərfəli deyildi.

Qətiyyətlə önündəkini itələmək istəyəndə, balaca qapı öz-özünə açıldı. Əli boşluğa düşdüyündən az qala üzü üstə yerə dəyəcəkdi. Amma yaxşı ki, möhkəm bir əl onun sinəsindən tutub saxladı. Xaliq baxdı ki, qapını açan seyid Qeybullanın böyük oğludu. O vaxt seyid Qeybulla mollanın yanına böyük oğlu ilə gəlmişdi.

– Xeyir ola, ay molla, qapının dalında nöş durmusan?.. – seyidin oğlu ərklə onu içəri dartdı. – Gəl evə... Heç gecələr də bu qapını bağlamırıq biz. Nöşün ki, məscid qapısı kimi bizim ocağa gələnlərin hamısı üçün gecə-gündüz qapımız açıqdı. Xoş gəlmisən, buyur içəri, molla...

– Gəlirəm, gəlirəm... – qoca çar-naçar ayaqlarını sürüdü. – Sizin ocağa baş çəkməyi özümə borc bilirəm. Allah yerini behişt eləsin, bu gecə yuxuda sənin atanı görmüşəm... İcazə ver, həyətdəcə ona dua eləyim, sonra qəbrinin üstünə də gedəcəm kişinin...

Seyidin oğlu qollarını geniş açıb mollanı qucaqladı, az qaldı qocanın ayaqları yerdən üzülsün.

– Nə həyət, ay molla, gəl evə, sən din-iman adamısan, bütün ev-eşik qurbandı sənə... Gəl-gəl... Xoş gəlmisən... – ev sahibi qabağa düşüb yol göstərdi. – Nə yaxşı ki, nəhayət, bizim də qapını açmısan...

Qoca “ nəhayət” kəlməsindən şəklənsə də üstünü vurmadı:

– Yox... – ayaq saxladı. – Evə çıxmayaq, elə həyətdə beş-on dəqiqə durub hal-əhval tutsaq, bəsdi...

Qeybullanın oğlu etiraz eləmədi:

– Nolar, onda həyətdə oturaq, gəl fındıqlığın altındakı stol arxasına... Ora kölgədi... – əli ilə irəlini göstərdi. – Gəl orda bir stəkan çay içək... Dərdləşək, gör neçə vaxtdı buralara gəlmirsən... Dədəm sizin axundla dost idi, sənə də böyük hörməti vardı kişinin... Amma kişi öləndən sonra nədənsə, axund da gəlmir buralara... – axundu sudan quru çıxarmağa çalışdı. – Deyəsən başı qarışıqdı.

Molla xırda addımlarla ev yiyəsinin ardınca gedə-gedə dostuna qahmar çıxdı:

– Elədi, hərənin başı özünə qarışıb. Heç kəsi qınamaq olmur day... Allah zəmanənin üzünü qara eləsin, baisin də evini yıxsın, hərə bir tikə çörəyin girincidi...

Evin qabağından keçəndə ikinci mərtəbədəki açıq pəncərədən hirsli-hikkəli, boğuq, xırıltılı qadın səsi eşitdi:

– Saqqalına p..x olmuş utanıb qızarmır, hələ bu həyətə də ayaq basıb murdarlayır... Allahı olan nə özü allahsızlıq eləyər, nə də törəmələri...

Qocanın çəlimsiz, nazik ayaqları yerə mıxlandı, nə irəli gedə bildi, nə də geri qayıtmağa halı qaldı, deyəsən evdəkilər onu çoxdan, elə maşından

düşəndən görmüşdülər, yəqin qabaqda gedən də yuxarıdan, ikinci mərtəbədən gələn hirsli-hikkəli səsi eşidib karıxmışdı. Geri dönsə də quruyub qalmışdı, bilmirdi neyləsin... Anicə çökən sükuta donan mənzərə də əlavə olundu, sonra hardansa, qara bir pişik mollanın yanına gəldi, qorxub çəkinmədən başını onun ayaqlarına sürtdü və yazıq-yazıq miyoldadı. O dəm molla pişiyə baxıb qəfil fikirləşdi ki, həqiqətən yer üzündə həzrəti Süleymandan qüdrətli, kəramətli bəndə olmayıb, çünki o, bəşərdəki bütün canlıların dilini bilirdi. Nəhayət, önündə dayanıb geri qanrılan geri qayıtdı, mollanın qoluna girdi, zorla gülümsünüb üzrxahlıq elədi:

– Bibimdi, ay molla, gərək bağışlayasan, arvad qocalıb, özünü-sözünü bilmir, başı qaçıb... Zənənlərin sözünün başına ip atmaq nadanlıqdı... – izi azdırmağa çalışdı. – Alah bilir yenə kimə hirslənib...

Molla boğazını arıtlayıb güc-bəla ilə ağızucu:

– Zərər yoxdu, – mızıldansa da utandığından başını qaldırıb qoluna girənin üzünə baxa bilmirdi, gözü ayağının altında idi, ürəyindəndi ki, qəfil yer aralansın, o da aşağıda yox olub getsin... – O sözün haqdı ki, arvadlara baş qoşanın başına, ağlına şübhə eləmək gərəkdi... – fındıq kolunun altına çatana qədər özünü ələ alıb zarafat eləmək də istədi. – İstər zənən olsun, istər kişi qocalara baş qoşmaqsa lap divanəlikdi... – əlini seyidin oğlunun qolundan çəkib köhnə, uzunsov masanın arxasındakı üstünə nazik döşəkçə qoyulmuş kətildə oturdu.

– Sən oturma! – seyidin oğlu onunla üzbəsurət əyləşə-əyləşə bərkdən dedi.

– Niyə? – molla duruxub qalxmaq istədi, yanını azca qaldırdı da...

– Qoy deyim uşaqlar evdən sənə stul gətirsinlər...

– Əziyyət çəkmə, heç nə lazım deyil... – molla dərindən nəfəs alıb yerində rahat əyləşdi. – Bir az oturub, gedəcəm. Narahat olma...

– Deyim bir çay gəlsin də... – seyidin oğlu əl çəkmədi. – Nə qaçaqaçdı, hara gedirsən?.. – yerində qurcalandı. – Yoldan gəlmisən, bir stəkan çay iç, bir qısmat çörək kəs...

– Səni and verirəm Allaha, rahatsız olma!.. Heç nə gərək deyil, beş-on dəqiqə oturub gedirəm... – molla səsini qaldırdı və qəfil yavaşcadan dedi. – Yəqin burda mənə çayı stəkanımın içinə tüpürüb gətirərlər...

– Bu nə sözdü, molla?.. – seyidin oğlunun gözləri kəlləsinə çıxdı. – Hamının sənə böyük hörməti var...

Molla başa düşdü ki, bilmədən ürəyindən keçəni dilinə gətirib.

Qımışıb:

– Zarafat eləyirəm... – desə də ayağını geri qoymadı. – Fəqət hər kəs layiq olduğunu almalıdı... – yenə nəfəsini dərdi, qısaca ara verib davam elədi. – Sən özün də yaxşı bilirsən ki, mənim günahım çoxdu sənin rəhmətlik atanın qarşısında... Yeri cənnətlik olsun Qeybullanın, sir-sifətindən, üz-gözündən kələ-kötür, əl-ayaqdan yekə olmağına baxma, çox kövrək, mələk kimi bir adam idi o. Səsi də boy-buxununa, qədd-qamətinə bənzəmirdi. Ərə getməmiş... e... yetkinləşməmiş oğlan səsi kimi cır idi... O, rəhmətə gedəndə məlum səbəbdən yasına gələ bilmədim. Ancaq inan ki,

çox ağrıdım, dəhşətli ağrıdım, çünki o kişinin ölümündə mənim də günahım vardı...

– Sənin nə günahın var, molla... – seyidin oğlu sağ əlini yumub yumruğunu yanağına dirədi və diqqətlə müsahibinə baxdı. – Bizim başımıza sənin oğlun min bir müsibət gətirdi, it oyunu açdı... Həyət qapısının üstündəki nəzir qutusunu qopartdırdı, dini mərasimlərdə adamların evimizə yığışmağını yasaq elədi, qapımıza polis maşını gəldi, bu evdə axtarış aparıb guya, narkotikadı-nədi o zibildən tapdırdı, balaca qardaşımı tutdular, biçarə qardaşım türmədə vərəmlədi, ordan çıxandan sonra cəmi altı ay yaşadı, yazıq dədəmi həftə səkkiz, mən doqquz polis idarəsinə çağırıb sorğu-sual elədilər... – səbrlə, sakitcə sadaladı. – Mən yadıma düşənləri sayıram, bizə, bizim ocağa olunan pisliklər bir deyil, iki deyil, saysız-hesabsızdı... Elə o dərddən, o hörmətsizlikdən, o get-gəldən kişinin ürəyi partladı. Belə alındı, day sənin nə suçun, ay molla?.. Özün dedin axı, hər kəs layiq olduğunu almalıdı... Bibimin hikkəsinə fikir vermə, nə rəhmətlik dədəmin, nə də mənim sənə qarşı zərrəcə kin-küdurətimiz yoxdu... – gülümsündü. – Sən dindarsan, sənin nə günahın, əstəğfürulah, stəkanının içinə tüpürülməyə layiq adam deyilsən... – özü öz dediklərini təsdiqləyirmiş kimi, başını astaca yırğaladı. – Suç sənin yolunu azmış oğlunda idi... Sənin oğlun kor qoydu ocağımızı, sənin oğlun zəlil elədi bizi...

– Düz deyirsən, nankor oğul mənimdi... – molla inildədi. – Mən indi onun nə nə elədiyini, nə çəkdiyini bilmirəm, fəqət mən özüm nələr çəkirəm, bir Allah bilir... Uzaqdan sənə asan görsənməsin...

– Nə deyim, yazıya pozu yoxdu... – Qeybullanın oğlu yumruğunu yanağından çəkib yerində qurcalandı. – Allah hər ikinizin günahından keçsin...

– Belə... Nə deyəcəyimi də bilmirəm... – molla həqiqətən deməyə söz tapmırdı. – Allah şeytana lənət eləsin... Fəqət şeytan öz yerində, mənim öz günahım da böyükdü yəqin...

– Adamlar min hoqqadan çıxır, sonra da şeytana lənət oxuyur... – Qeybullanın oğlu həlim-həlim, ehmal-ehmal, ehtiyatla “tikanlarını” batırdı. – Şeytan yazığın nə günahı?..

– Şeytan çıxardır da adamları yoldan... – özünü və bəlkə də oğlunu təmizə çıxartmaq üçün mızıldadı molla.

– İndi əyyam dəyişib, adamlar şeytandan betər olub... – deyəsən keçmiş günləri xatırladığından Qeybulanın oğlu, molla ha fikirləşsə də, onun adını yadına salammırdı, danışdıqca istər-istəməz, qeyri-ixtiyari, sövq-təbii özünü ələ ala bilməyib hövsələdən çıxırdı. – Məxluq bütün oğraşlığı eləyir, şeytanın adı bədnamdı...

Molla payını götürüb ayağa qalxdı:

– Day mən gedim... Hələ rəhmətlik Qeybullanın qəbrini də ziyarət eləməliyəm... – müsahibinin zəif damarını tutmaq istədi. – Gedim bir “fatihə” verim, “yasin” oxuyum orda...

– Pay-piyada nə təhər gedəcəksən? – seyidin oğlu ağ eləyib dərinə getdiyini duyub yerindən durdu. – Qəbiristanlıq uzaqdadı axı...

– Piyada niyə, hər tərəf maşındı, bir taksidən-zaddan tapacam da... – seyidin oğlunun çallaşmış, qalın qaşlarına baxdı, oğul atası kimi boy-buxunlu olsa da, üzdən, sir-sifətdən kələ-kötür, lap dəqiqi, çopur deyildi. Gözləri də göydü, yəqin ana tərəfə çəkmişdi. Hərçənd molla onun anasını heç vaxt görməmişdi.

– Bəs, dədəmin qəbrini necə tapacaqsan? – Qeybullanın oğlu xəbər aldı. – Sən bizim məzarlıqda çoxdan olmamısan yəqin... Dar günlər gələn məmləkətdə qəbiristanlıqlar genişlənər... İndi bizim qəbiristanlığın ucu-bucağı görünmür... Qəbirlər qarışqa yuvası kimi gün-gündən artıb gedir...

Molla fikirləşdi ki, seyidin oğlu burasını düzgün demədi, qəbirlər qalarıdı, heç yerə gedə bilməz, gərək "gedir", əvəzinə, heç olmasa, "dayanır", söyləyəydi. Amma üstünü vurmadı:

– Ay pir olmuş, seyid Qeybulla uşaq-muşaqdı ki, qəbrini tapa bilməyim? Orda kimdən soruşsam yerini göstərəcək...

– Hə, elə pirin dalındadı kişinin qəbri... – seyidin oğlu təngnəfəs olubmuş kimi sinədolusu, ağır-ağır ağır nəfəs aldı. – Sənnən gedərdim, hayıf ki, işim çoxdu... Əvvəlki adam deyiləm, day ürəyim də sözümə baxmır...

– Narahat olma, özüm tapacam... Molla üçün məzarlıqda qəbir tapmaqdan asan iş yoxdu... Gözümüz öyrəşib...

– Oturardın, bir qısmat çörək-zad yeyərdik... – müsahibini ağızusu dedi. – Ac-susuz getməyin yaxşı düşmür... Heç doyunca dərdləşmədik də...

– Yox, çox sağ ol, surfanız bol olsun, söhbət quzunu qurda verər, getsəm yaxşıdı... – molla çar-naçar qımışdı. – Yolçu yolda gərək...

Qeybullanın oğlu üz vurmayıb onu həyət qapısınacan ötürdü. İkinci mərtəbədəki açıq pəncərənin altından keçəndə molla çəkinə-çəkinə gözucu yuxarı baxdı. Amma bu dəfə ordan səs-səmir gəlmədi.

* * *

...Hasara alınmış böyük qəbiristanlığın – deyirdilər, guya, bura çoxdandı Rusiyada yaşayıb işləyən yerli bir iş adamı hasar çəkdirmişdi ki, mal-heyvan məzarlığa girib qəbirlərin üstünü batırmasın – türməyə oxşayan "barmaqlı" darvazasının açıq qapısından içəri girib asfalt yolla irəlilədi. Yan-yörəsindəki başdaşılardan boylanan müxtəlif şəkillər etinasızlıqla ona "baxırdı". Yolun qırağındakı, "mərkəz"dəki qəbirdə əbədilik məskən salanlar gün boyu gəlib-gedənə "baxdığından" yəqin darıxmaq nədi "bilmirdi", "ucqar"da dəfn olunanlarınsa işi "zülümdü".

"Görəsən o üzdəkilərin bəridən xəbəri olur, məsələn, yüz ilin ölüsü bilirmi ki, bu dəqiqə canını qoymağa yer axtaran sərsəm bir qoca qəbiristanlığa ölən seyidə üzrxahlıq eləmək üçün təşrif buyurub? Bəlkə boş-boşuna əziyyət çəkirəm?" Bilmədi qəfil ağlına gələn fikirlərə gülsün, yoxsa ağlasın. Hər halda, məzarlıqda qəhqəhə çəkməsən belə dodaqaltı gülmək də ağıldankəmlik, hörmətsizlik, arsızlıq əlamətidi. Bacar ölmə – halbuki bu da məxluqn əlində deyil, yoxsa cəmi ikiayaqlılar əbədiyaşarlığı seçərdi – çox yaşa, canını tapşırandan sonra ikisindən biri olacaq, ya nələrisə hiss

eləyəcəksən, ya da heç nədən xəbərin olmayacaq. Diriykən istədiklərini tapmaq gərəkdi ki, can əldən getməsin. Təri dabanından axan qoca tez bir isti çay, ya sərin su tapmasaydı, yəqin ki, həqiqətən elə bu ucsuz-bucaqsız qəbiristanlıqda canını tapşırıb o dünyalıq olacaqdı. Sonra aşağıdan-yuxarı güc vurmağın nə mənası?..

Gəlib çatdı pirin qabağına, pirin par-par parıldayan qara mərmər pillələrinin önündə ayağındakıları çıxardıb – qalırdılar ya corabla, ya da tamam ayaqyalın – iç pilləkəni qalxaraq içəri keçirdi ziyarətə gələnlər. Qara dəmir barmaqlıqlı darvazanın ağzından başlayan yanları bər-bəzəkli başdaşılarla dolu enli asfalt pirin qabağında bitirdi, ətrafdakı min-min qəbirlərə saysız-hesabsız dolanbac, üstünü kol-kos ortmüş cığırlar uzanırdı. Üstü mavi gümbəzli pirin yanındakı eyvanı yerdən olan balaca tikilinin qapısı açıqdı. Pirin qabağında quyu vardı. Suyu şor idi, içməli deyildi. Pirə gələnlər ürəklərində niyyət tutub dibindəki suyu güclə görünən quyuya xırda, dəmir pul atardılar, guya, pul gedib suya batanda səsi bayıra gəldisə, deməli, arzun yerinə yetəcək. Quyudan bir az aralıda, köhnə, başdaşısının yazısı getmiş, üstünü gündən sapsarı saralaraq ot, kol-kos basmış qəbirlərin arasında adam boyu üstü hörülmüş su çəni tiklmişdi, çənin aşağısındakı yoğun dəmir krant bağlı olsa da damıırdı. Yəqin içməli suyun boş yerə axıb getməməsi üçün krantın altına balon qoyulmuşdu. Damçılar səbrlə balonu yarılamışdı. Çənin üstündə ağzı üstə çevrilmiş altı deşik, daha doğrusu, altı tamam çürüyüb qopmuş vedrə – anlamaq olmurdu ki, burda uyuyanlar kimi ömrünü başa vurmuş, iki tərəfi də açıq, boruyabənzər vedrəni hansı səbəbdən tullamamışdılar – vardı, vedrənin yanında da yekə, həsir süpürgə... Solda, eyvanlı tikilinin qabağındakı talvarın altında uzunsov, səkkizayaqlı göy masa mıxlanmışdı yerə. Masanın hər iki tərəfində də həmin rəngli uzun taxtadan oturacaq düzəldilmişdi. Masanın üstündə samovar qaynayırdı. Tikilidən orta yaşlı, çəlimsiz bir qadın çıxıb ona yavaşca salam verdi. Sanki ölüləri günorta yuxusundan oyatmaqdan qorxurdu.

– Əleykiməssalam, qızım... – molla qadının qabaqdan mırıq dişlərinə baxdı. – Çiyərim yanır, Allah rizası üçün mənə bir stəkan çay ver...

Qadın əl-ayağa düşdü:

– Baş üstə, əmi... Otur... – ona yer göstərdi. – Indi verərəm...

Molla masa arxasındakı oturacaqda əyləşib stolun üstündəki plastik, qapaqlı qəndqabılardan yaxında olanı qabağına çəkdi. Qapağın qırağına daraşmış arılar, milçəklər vızıltı salıb ətrafda uçmağa başladı.

Qadın samovarın üstündəki dəm çaynikini götürüb masaya qoydu, sonra armudu stəkana samovardan qaynar su tökdü, üstünə də çaynikdən rəngli dəm... “Adətən əvvəlcə çaynikdəki dəmi süsürlər, baş-ayaq çay süzüb gətirən arvadlardan ehtiyatlı olmaq gərəkdi”. Yəqin ki, bekarçılıqdan ağlına gələn fikrə gülümsündü öz-özünə. Yaxşı ki, bu dəfə ağlına gələni qeyri-ixtiyari bədahətən söyləmədi. Qadın stəkanı onun qabağına qoyub tikilinin eyvanına keçdi, ordan qapısı açıq otağa girdi. Otaqdan çıxanda bir əlində balaca döşəkçə vardı, bir əlində saxsı nimçə.

– O nədi, qızım?.. – molla xəbər alanda bilinmədi döşəkçəni soruşur, ya nimçədəkini...

Qadın ikincini başa düşdü:

– Ehsandı... Kənddən səhər gətiriblər... Halva-yuxa... – dedi. – Nuş elə, əmi, sənin də qismətinmiş... – nimçəni qocanın qabağına qoydu, üstü alabəzək döşəkçəni də ona uzatdı. – Bunu da qoy altuva, quru taxtanın üstündə oturma...

Molla yerini rahatlayıb ürəkdən:

– Sağ ol, qızım, – dedi. – Allah qəbul eləsin... Amma döşəkçəyə ehtiyac yoxdu, onsuz da hava istidi... – döşəkçəni altına, minnəti qadının boynuna qoydu.

– Hə, istidi, əmi... Bilmirəm nədəndi, bu gün “Yasin”oxuyanlar da gəlməyib...

– Cümə axşamı deyil axı...

– Eh, olar cümə axşamı nə bilir, hər gün səhərdən-axşamacan burda marığa yatıb müştəri axtarırlar ki, bir tikə çörək qazansınlar...

– Millətin dərdi çörək dərdidi... – deyib yuxaya bükülmüş halvanı dişlədi. – Neyniyəsən bala, kim harda nə tapdı əkişdirir...

– Bizim kimi kasıb-kusub nə tapacaq ki, əkişdirsin?.. – qadın yəqin ki, həmsöhbət tapdığına sevindiyindən üzbəsurət oturdu. – Əsl oğrular yuxarıda oturanlardı... – şəhadət barmağını göyə qaldırdı.

– Kimsən, kimlərdənsən, bala?.. – qoca qadının sözlərinə əhəmiyyət verməyib ağzı yana-yana stəkandakı çayı yarılayaraq soruşdu.

– Bəlkə eşidəsən, hambal Hüseynin qızıyam... Sovet vaxtı, mən uşaq olanda dədəm çörək zavodunda yekə un kisələrini boşaldırdı. Adı da qalmışdı hambal Hüseyn... Amma o kişi hambal olanda biz indikindən qat-qat yaxşı dolanırdıq...

– Eşitməmişəm... – molla anicə fikrə gedib xəbər aldı. – Dədən sağ-salamatdı?..

– Yox... – qadın təəccüblə nazik qaşlarını oynatdı. – İndiyə dədə qalar? Mən özüm bu gün-sabahlığam...

– Elə demə, Allah sənə ömür versin... Qədər Allahındı...

– Eh... Belə ömrü neynirəm?.. – qadın qeyzləndi. – Zillət çəkmək kasıbın alnına yazılıb...

– Ərün yoxdu?

– Ərim tikintidə fəhlə idi... – qadın ah çəkdi. – Damdan yıxılıb öldü...

– Çoxdan?..

– On ildi...

– Allah rəhmət eləsin... Oğul-uşaqdan nəyin var?..

– Bir oğlum var... – qadın utana-utana cavab verdi.

– Nəçidi?..

– Maşın yuyur moykada...

– Bir şey qazana bilir?

– Nə qazanacaq?.. O gəlir ki, ver, bu gəlir ki, ver... Yetimə qalır qəpik-quruş... Arxan-dayağın, yuxarılarda adamın, qohum-əqrəban olmadı milyon

da qazansan xeyri yoxdu. Bir bəhanə tapıb əlindəkiləri alacaqlar, dillənsən özünü də şərləyib basacaqlar dama... Dilini dinc qoysan, tutulmayacaqsan, dalına bir təpik ilişdirəcəklər ki, get, ağıllı ol... Qalacaqsan quru yurdda... Özün hər şeyi məndən yaxşı bilirsən yəqin... Dünyagörmüş adamsan...

– Yenə səbr eləmək yaxşıdı, qızım... Allahdan ümid kəsilməz...

Qadının gözləri yol çəkdi:

– Düzdü... Neynəyək, başqa çarəmizmi var? Bisavad adamlarıq.... Yenə şükür ki, rayonda yeni iş yerləri açılanda min bir yalvar-yaxardan sonra bələdiyyədə işləyən qonşumun üzünə burda mənə də iş veriblər, qəpik-quruş da olsa alıram... Camaat buna da həsrətdi...

– Neynirsən ki, burda? – molla sanki yeyib-içdiyinin haqqını ödəmək üçün özünü qadının söylədikləri ilə maraqlanan göstərmək istədi. – İşinin-gücünün adı nədi?..

– Təmizliyə baxıram, yaxındakı qəbirləri silirəm... Mənəm, bir də qoca bir arvad... O arvad bu gün gəlməyib... Xəstədi... – səsini yavaşıtdı. – Düzdü, maaşımızın yarısını alırlar əlimizdən, amma yenə buna da şükür...

– Verməyin...

– Vermərik yerimizə başqasını götürərlər... O qədər yalvarıb-yaxaran, işsiz-gücsüz var ki... Yenə burda hərdənbir camaat ət kəsir, bizə də qurban payı verir, ağzımız dada gəlir... Müştəriləri çox olanda “Yasin”oxuyanlar bizə də beşdən-üçdən verirlər... Onları da qınamaq olmur, olardan da alırlar axı... Yoxsa onları qoyallar burda səhərdən-axşamacan durub müştəri gözləməyə?.. – yerli-yataqlı izah elədi. – Bir də gördün ölü yiyələri də gəlib cibimizə pul qoyur ki, əzizlərinin, qohum-əqrabalarının qəbrinə yaxşı baxaq, təmiz saxlayaq, tez-tez başdaşılarını, sinədaşılarını silib təmizləyək... Yaxşı ki, ölülər dirilər kimi vasvası deyil, yoxsa burda hər gün bir həngamə qopardı ki, gəl görəsən, o ölü deyərdi, mənim başdaşımı yaxşı təmizləmədin, bu biri məzəmmət eləyərdi ki, mənim sinədaşımı tozlu-torpaqlı qoydun...

– Burdakı bütün qəbirləri yuyub təmizləyirsən?.. – heyrətdən mollanın gözləri bərəldi...

– Hardan... Qədim məzarlıqdı bura, burdakı qəbirlərin sayı-hesabı bilinmir, onların hamısını təmişləməyə bir rayonun əhalisinin də gücü yetməz? Həlbət ki, piri, pirin yanında basdırılan seyidlərin məzarını... Bir də ki, ölü yiyələri məxsusi pul verən qəbirləri... Min ilin ölüsünün sinədaşısız, torpağa yaprıxmış, yiyəsiz qəbrini yuyub təmizləmək nəyə gərəkdi axı?..

– Gecələr də burda qalırsan?..

– Yox, – qadın diksindi. – Gecə burda qalmaq olar? Gecə burda qalsa qorxudan bağrı yarılar adamın... – bəlkə də qorxudan söhbəti dəyişdi. – Bir stəkan da süzüm, əmi?..

Qoca:

– Süz... – deməmişdən qadın əlini uzadıb boş stəkanı götürdü. Dolu stəkanı halva-yuxanı ləzzətlə çeynəyənin qabağına qoyanda nədənsə, mollanın dili dinc durmadı, ağzı işləyə-işləyə xəbər aldı. – Bəs, pirə pul gətirən, nəzir-niyaz eləyən olmur?

– Nə danışırsan, əmi?.. Pul gətirən olsa, bizi burda qoyarlar? Ağır yerdi bura, o pirin içində, – qadın sol əlini uzadıb əşyayi-dəlil kimi piri göstərəndə qoca da tənbəllik eləməyib azca qanrıldı və ilk dəfə görürmiş kimi, maraqla qabağına qara pərdə çəkilmiş qapısı açıq pirə baxdı, – seyid Qeybullanın babasının qəbridi. O kişi möcüzələr yaradırmış, deyirlər, mələk kimi balaca qanadları da varmış, göz qırpımında nəinki burdan Məşədə, lap keçmişə, gələcəyə uçarmış... Hər nədisə, mən gözümü açandan eşitmişəm ki, bu pirə pul gətirmək yasaqdı, haramdı, günahdı... Düzdü, xələt gətirən olur, şiriniyyat, konfet-filan gətirən olur, lap qoyun gətirib qurban kəsən də olur, amma kim ürək eləyib bu pirə pul gətirər? Kim canından bezib, kim istəyər ki, oturduğu yerdə qolu çiynindən quruyub düşsün yerə?.. Elə beş-on ilin söhbətidi, nə beş-on il, deyəsən ərim rəhmətlik sağ idi onda, bizim rayona cavan bir kişini paqonluların böyüyü qoydular. Deyirlər əsli qonşu rayondan imiş... Dədəsi də molla... Hardan olmağının nə dəxli var, həmən paqonlu zatıqırıq çıxdı, böyük-kiçik bilmədi, rayonda hamıya qan uddurdu. İş o yerə çatdı ki, seyid Qeybullanın ocağına da ilişdi, onun balaca oğlunu tutub saldı dama... Qeybulla da əllərini göyə açıb babasının ruhunu çağırdı, paqonluya bir qarğış elədi ki, o yazığın, çaşdım, yalansa görüm yazıq ilan vuraydı onu, özüqarışıq bütün yaxınları göz qırpımındaca yox oldu, heç izləri-tozları da qalmadı, indiyəcən ha axtarırlar, hələ də tapa bilmirlər ki, bu adamlar hardadı... – lapdan ağappaq, qırmızı ləkəli boynunu irəli uzatdı, uzunqol gen donunun yaxalığı aralansa da heç nə görsənmədi, çünki qadının döşləri kişi döşlərinə bənzəyirdi, bapbalaca idi, illər ötüşdükcə yekəlməsə də nazilib uzanmamışdı, əksinə elə bil lap kiçilmişdi, yaprıxıb taxta kimi qupquru sinəsində ərimişdi, səsini yavaşıdıb pıçıltıya keçdi. – Ancaq deyirlər ki, hərdənbir sakitlikdə, hava qaralanda, alatoranda həmin paqonlu gəlib üzanır seyid Qeybullanın qəbrinin üstünə, kişinin başdaşını qucaqlayıb göz yaşlarını sel kimi axıdır, yalvarır ki, cəddinə qurban olum, keç mənim günahımdan, burax bizi, çıxıb gedək... O paqonlunu o cür görənlər çox olub, vahimədən dili tutulan da olub, qorxub qaçan da, yaxınlaşaşmaq istəyən də... Hətta deyirlər ki, guya, qəssab İsfəndiyar ürəkli çıxıb, irəli şığıyıb, başdaşını qucaqlayanın qolundan da tutub... Sonralar da danışırmış ki, dədə-babadan belə eşitmişik ki, ruh deyilən şey gözə görünsə də, əti-sümüyü olmaz, ancaq mən o zatıqırıq paqonlunun qolundan bərk-bərk yapışmışdım, məxluq o murdardan o qədər çəkmişdi ki, dünya dağıla, əlimi kəssələr də onun qolunu buraxmayacaqdım, elə cəddinə qurban olduğumun qəbrinin üstündəcə xirtdəkləyəcəkdim onu, di gəl, qəfil qəbri qucaqlayan dönüb üzümə baxdı, gördüm ki, üzümə baxanın gözləri yoxdu, gözlərinin yeri boşdu, qolum boşaldı, nəydisə, bir də baxdım ki, qəbrin üstündə tək-tənhayam, yanımda ins-cins gözə dəymir, sağ əlimi də öz-özünə yumruq kimi sıxıb, düyünləyib daşa döndərmişəm. Dırnaqlarım ovcuma girmişdi, həyəcandan düz üç gün yumruğumu aça bilmədim... – susub əlini stola dayaq verərək qalxanda səntirlədi, ləngər vura-vura özünə də çay süzüb oturdu, çayı masaya qoyanda əli əsdiyindən stəkandakından nəlbəkiyə də dağıldı, deyəsən, haçansa, hardansa, kimdənsə eşitdiyini

yerli-yataqlı danışa-danışa sanki bir anlığa özünü qəssabın yanında hiss eləmişdi, qorxudan dili-dodağı təpmişdi, boğazı qurumuşdu.

Araya sükut çökdü, qoca təsbehini çıxardıb masaya qoydu, masanın üstündəcə titrək əlləri ilə təsbehin xırda dənələrini aramla soldan-sağa, sağdan-sola çəkməyə başladı, şəhadət barmağını təsbehin ortasına qoyub müxdəlif fiqurlar yaratmağa çalışdı. Dairə, kvadrat, üçbucaq... Hardansa qızılı rəngli pişik gəlib qocanın ayağının yanında dayandı ürkək-ürkək... Aşağıdan-yuxarı matdım-matdım ona baxdı, bir-iki dəfə gözlərini yavaşca yumub acdı, sonra ürəklənib oturacağın üstünə hoppandı, molla pişiyin hənirindən onun yanına gəldiyinin fərqinə vardı, əl atıb heyvanın başını ehmalca sığalladı, pişik arxası üstə uzandı, qoca onun qarnına da sığal çəkdi. Yadına düşdü ki, öz evində, həyətində də, buna bənzər qızılı pişik var. Lakin qoca səhv eləyirdi, pişiklər adicə oxşar deyildi, yan-yana dursaydı, onları ayırmaq müşkülə çevrilərdi və molla da səhv elədiyini anlayıb əlini heyvandan çəkdi, başını qaldırıb apaydın, bəmbəyaz, buluda həsrət qalmış günəşli göy üzünə göz gəzdirdi, sanki bəxti gətirdi, baxışları uzanıb-uzanıb ərşi-əlayacan, lap göyün yeddinci qatınacan gedib çıxdı, burası var ki, baxışlarının çatdığı məkanda gözləri heç nə görmədi, çünki oralarda, yuxarıda da ağappaq yumşaqlıqdan başqa rəng yox idi ki, nəyisə, nələrisə seçib bir-birindən ayırasan. Bəlkə də elə evindəki pişik idi, qocanı tək qoymayıb hiss elətdirmədən qarabaqara arxasınca gəlmişdi ki, ona həyan olsun, yoxsa özgə, yad pişik göz qırpımında tanımadığı adama qarnını göstərib məhrəm, yaxın ola bilməzdi. Qocaya elə gəldi ki, yanındakı qızılı pişik də onun baxışlarının getdiyi məqamacan, məkanacan yüksələ bilsə ətrafdan seçilməyəcək, öz rəngini dəyişib bəmbəyaz, ağappaq olacaq... İlahi, görəsən molla axıraxırda, qoca vaxtında hardan, nədən belə uzaqgörən olmuşdu? Ya əslində bu qanmadan, bilmədən yolunu azmaq və özündənmüştəbehlik idi? Amma bəlkə də hər şey baş qatmaq, özünü aldatmaq üçünmüş, yalan-gerçək gərəksiz, boz omrü birtəhər rəngarəngliyə boyamaqdan ötrüymüş, əslində illərdi həsrətini çəkdiyi və yalnız ağlın, ruhun, zəkanın, fəhmin gedə biləcəyi qat-qat uzaqlarda, daha doğrusu, yuxarılarda da görməli, baxmalı, heyran qalmalı qeyri-adi heç bir şey yoxmuş... Qeyri-adi heç nə olmasa da qəfil qocaya elə gəldi ki, yuxarıdan aşağı güclə seziləcək ağappaq dolanbac bir nərdivan var və o nərdivandan hələ bığ yeri tərləməmiş cavan bir oğlan düşür. Gördüyünə elə inandı ki, sövq-təbii gözlərini yumub açdı, açıb yumdu və baxdı ki, yuxarıdakı nərdivan yoxa çıxıb. Nərdivanın yerində göy qurşağına bənzər, lakin rəngsiz, halqavari yerlər qalıb. Ya da gözləri onu ilğım kimi aldadıb.

Ah çəkdi, hələ də danışdıqlarının təsirindən çıxmayıb çəkingən-çəkingən lal-mat oturan qadına baxıb dodaqaltı mızıldana-mızıldana astadan soruşdu:

– Yəqin sən özün də o paqonlunu seyid Qeybullanın qəbrinin üstündə görmüsən?.. – təsbehini cibinə qoydu.

Qadının dili-dodağı təpidi, kəsik-kəsik:

– Nə danışırsan... İraq olsun, ay əmi... – dedi. – Mən onu görsəydim, o dəqiqə qorxudan bağrım çatdayardı... Neçə ildi burdayam, indiyəcən pirin

arxasına keçib seyid Qeybullanın qəbrini, başdaşını silib təmizləməmişəm. Bilirəm ki, savabı böyükdü, ancaq qorxuram... Mənnən işləyən arvada yalvarıb yaxarıram ki, sən allah, get oranı sən təmişlə... O da üstünü vurmur... – ətrafa baxdı narahat-narahat. – Bu gün bilmirəm nolub, səhər-səhər halva-yuxa gətirənlər gedəndən sonra bura sənnən başqa bir adamın ayağı dəyməyib. Allah xeyrə calasın, həmişə gur, tünlük olub buralar... Səni yola salannan sonra mən də qapını bağlayıb gedəcəm. Günbatana qalsam, tək-tənha üşənərəm burda...

Qoca qadının sözlərini qulaqardına vurdu:

– Bəs, qəssab İsfəndiyar harda olur?..

– Qabaqlar rayon mərkəzində olurdu, yaxşı ev-eşiyi vardı... – qadın gülümsündü. – İndi burda olur, bir il olar öldüyü... – yerində qurcalanıb dəqiqləşdirdi. – Hə bir il olub, ili keçən həftə çıxdı... Bir çay da süzüm?..

– Nə? – qoca əlini qulağına apardı, deyəsən fikri-xəyalı qəflətən uzaqlara uçduğundan qadının dediklərinin sonunu yaxşı eşitməmişdi.

– Deyirəm bir stəkan da çay süzüm? – təkrarladı. – Çay nədi, say nədi, iç getsin... İstinin canı istidədi... – qadın belə deyəndə molla anlaya bilmədi o, havanın istiliyindən dəm vurur, ya çayın...

– Yox, qızım, sağ ol... – qoca qalxanda altındakı döşəkçə yerə düşdü, oturacaqda mürgüləyən pişik də göz qırpımında hürküb qaçdı, molla əyilib döşəkçəni yerdən götürdü, oturacağa qoydu. – Day mən geidm...

– Bəs, gəlmişkən piri, seyid Qeybulanın qəbrini ziyarət eləməyəcəksən?

– Ziyarət elədim də... – molla yorğun-yorğun gözlərini ovuşdurdu. – Qəbiristanlığa girəndə cəmi ölənlər üçün “Fatihə” verdim. Day məxsusi ora getməyə ehtiyac yoxdu...

– Əmi... – qadın ayağa qalxaraq çəkingən-çəkingən deyib susdu.

– Nədi?.. – qoca diqqət kəsildi, ürəyinə damdı ki, qadın pul istəyəcək, hələ əlini cibinə də atmaq istədi.

– Bayaqdan ağzımı Allah yoluna qoyub nə gəldi danışıram, sən allah gedib orda-burda deməyəsən e, sənə qurban olum... Oturduğum yerdə dərdə-bəlaya düşərəm...

– Nəyi deməyim, qızım, qəssabın paqonlunu qəbir üstündə tutmağını? – qoca düz-əməlli anlamayıb xəbər aldı.

– Yox e... – qadın qımışdı. – Nə qədər qorxulu olsa da, ölülərdən adama ziyan gəlməz... O heç... Mən işdən, güzarandan, maaşımızın yarısını böyüklərin almağından deyirəm... Arvadam da, bekarçılıqdan ağzıma gələni danışıram... – üzr istəyirmiş kimi, peşman-peşman gözlərini yerə dikdi. – Orda-burda deyərsən, gedib böyüklərin qulağına çatar, işdən çıxardarlar e, məni... Camaat sözdən söz çıxardıb bir-birinə quyu qazmağa məəttəldi... Qurban olum, ay əmi, səni and verirəm bu pir sahibinə, heç yanda, heç nə danışma, söhbətimiz elə burda qalsın...

– Nə danışırsan, qızım?.. Qəti narahat olma... Mənim saç-saqqalıma yaraşarmı söz gəzdirmək? – desə də yadına düşdü ki, saçı tamam yoxdu, çoxdan dazdı.

– Baba... – qadın ürəkləndi. – Bayaqdan elə mən danışıram, sən heç demədin e, kimsən, nəçisən, bura niyə gəlmisən... Deyəsən axı, birinci kərədi səni gorürəm burda...

– Elədi... Yerli deyiləm, qızım, elə yol keçirdim, susamışdım, döndüm ki, həm ölülərə “Fatihə” verim, həm də burda çaydan-sudan içim... Sağ ol ki, hələ üstəlik halva da verdin mənə...

– Halal xoşun olsun, ay baba... – qoca donüb getmək istəsə də, qadın öz-özündən xoflanıb əl çəkmədi, inanmırdı ki, susayıb çay-su isdəyən düzü-dünyanı qoyub upuzun yol gələrək çölün düzündəki məzarlığa təşrif buyursun. – İstəyirsən halvadan bir az verim, evinə də apar... Vallah, ürəknən deyirəm, ehsandı da... Bu gün bura gələn olmayıb... O qədəri mən neyniyəcəm?.. Sabaha da qalsa, quruyacaq...

– Yox, bala, sağ ol, Allah qəbul eləsin, payın çox olsun...

– Piyada necə gedəcəksən, bir az gözlə, bəlkə kimsə ölüsünə baş çəkmək istədi, hardansa qəfil maşın-zad gəldi bura... Gözlə. heç kəs gəlməsə bir-birimizə qoşulub yoldaşlı gedərik...

– Yox, qızım, salamat qal, asfaltacan birtəhər gedərəm, əsas yola çatandan sonra maşın çox olur... – dedi, pirin ətrafındakı, yan-yörədəki saysız-hesabsız başdaşı selinə sarı boylandı və xırda addımlarla yavaş-yavaş, aram-aram dönüb getdi...

Qadın onun ardınça baxanda gördü ki, qoca yeriyə-yeriyə yüngülcə ləngər vurur, elə bil sağ ayağını çəkir, birdən-birə dönüb gedənə yazığı gəldi, bilmədi qoca bu asta, ehmal, ürkək yerişlə gedib baş yola, asfalta necə qıxacaq. Sonra da özlüyündə fikirləşdi ki, dilxor olmağa dəyməz, necə gəlibsə, eləcə də gedəcək. Qadının xəbəri yox idi ki, qoca darvazanın qabağınacan maşınla gəlib, yəni onu gətiriblər...

* * *

Adəm sinidə çay aparanda qoca onu saxladı:

– Adə, bəri bax, nə həşirdəsən, çayı hara aparırsan?

– Balaca evə... – Adəm başı ilə irəlini göstərdi.

– Ora niyə?.. – molla başa düşmədi. – Nağayrırsan orda, başuva yer qəhətdi, elə otur burda, mənim yanımda iç də...

– Özümə aparmıram e... – Adəm sinini masaya qoyub izah elədi. – Qonağa süzmüşəm...

– Qonaq kimdi?..

Adəm gec cavab verdi:

– Əfruz xala...

Qoca gülümsündü:

– Deyirəm axı, çay, qənfet, mürəbbə... – sinidəkiləri sadaladı. – Bəh-bəh... Yarıyıb sənin qaynanan... – deyib xəbər aldı. – Xeyirdimi bura gəlməkdə?..

Adəm çiyinlərini çəkdi:

– Mən nə bilim, deyir, səni görməyə gəlib, sözü var...

– Sözü var gəlsin bura da, day orda nöş oturub?

– Bura gəlməyə utanır...

– Yaxşıdı e, vallah, kəndin o başından buracan basa-basa gəlir, həyətə girib balaca evdə rahatlanır, fəqət iki addım atıb mənim yanıma gələ bilmir. Bəxtin üzdəymiş sənin, əcəb utancaq qayınanan var... Barı xeyirdimi görəsən? – təkrarlayıb yavaşdan dedi. – Allah xeyrə calasın, mənim ağlım bir şey kəsmir.

Adəm yenə yaxasını ələ vermədi:

– Nə bilim, ay dayı, mənə heç nə demədi...

– Yaxşı, get evdən mənim dişlərimi gətir... Qravatımın yanındakı bankanın içindədi...

– Dişlərini neynirsən, ay dayı, arvadı yiyəcəksən? – Adəm qımışdı.

Qoca özünü acıqlı göstərmək istəsə də, gülməyini saxlaya bilmədi:

– Sırtıq-sırtıq ağzına gələni danışıb hırıldama, ay qaynanası göyçək, get mənim dişlərimi gətir ki, Həvvanın anasının qarşısına adam görkəmində çıxaq... Qaynanan bizi dişsiz görüb bəri başdan qabağımızda at oynatmasın... Mən heç, sonra ana-bala sənin başında qoz sındırarlar... Nə üzümə baxırsan, yeri day... – cavan götürüldü, molla ayağa qalxıb aşağıdan çığırdı. – Adə, a bala, ordan mənim təzə köynəyimi də gətir...

...Adəm çarhovuzun qabağındakı balaca evi elə yaxşı səliqə-sahmana salmışdı ki, iki göz istəyirdi tamaşasına dursun.

Qoca içəri girəndə Əfruz masa arxasındakı stuldan qalxdı, molla əli ilə: "otur", işarəsi verib əlinin "dediyini" dili ilə də söylədi:

– Əyləş, qızım, əyləş... Xoş gəlmisən, bala... – deyib divanda, qadınla üzbəüz yerini rahatladı. Qoca gəlməmişdən Adəm onun çayını masaya qoyub otaqdan çıxmışdı. "Cüvəllağı çıxıb aradan... – qımışdı qoca. – Guya, öz aləmində məndən həya eləyir də... Allah bilir indu ya qapının dalından qulaq asır, ya pəncərədən, ya da ki, bacadan..." – Necəsən, bala, evdə-eşikdə nə var, nə yox?.. Atəş nə təhərdi, qızlar nağayrır...

– Nağayracaqlar, sənin canına dua eləyirlər... – qadın şərti şumda kəsdi. – Sən Allah, mənim bura gəlməyimi heç kəs bilməsin, molla əmi, adamlar sözdən-söz çıxardıb ağızlarına gələni danışmağa məəttəldilər...

Molla yaxasını kənara çəkdi:

– Nə danışırsan, qızım, mən çoxdandı məclislərə, məsçidə getməsəm də mollayam, mollanın da evi məbəd, ziyarətgah sayılır. Ora hər kəs gəlib nəsə diləyə, məsləhət ala bilər. İkincisi, heç ola bilməz ki, günün günorta çağı kəndin o başından buracan gəlib bizim həyətə girəsən səni heç kəs görməyə... İndi hamı bir-birinə gözdü... Deməyim odur ki, günlərin birində yandırdığın əskinin tüstüsü aləmi bürüsə günahı bizdə görmə... – təsbehini çıxardıb sarısını udmuş qadına ürək-dirək də verdi. – Hamı bizləri yaxşı tanıyır, bizim haqqımızda dedi-qodu eləmək istəyənlər başını yekə bir daşa döyür...

– Həlbət ki, molla əmi... – qadın ürəklə təsdiqlədi. – Hamı bir-birini yaxşı tanıyır. Amma deməyim odur ki, gərək söhbətimiz burda qalsın. Çünki Atəşdən xəbərsiz gəlmişəm bura...

– Onu yaxşı eləməmisən... – qoca gülümsünüb təsbehini çevirdi. – Arvad ərindən xəbərsiz heç bir iş tutmamalıdı, – divanda yeri narahat olduğundan keçib masanın başındakı stulda əyləşdi.

Qadın da cəld tərpənib çayı onun qabağına qoydu:

– Neynəyim, ay molla əmi, çarəm yoxdu, bizim Ataş əvvəlki adam deyil, iraq-iraq, ağzıma qara daş, elə bil cin vurub kişini...

– Necə yəni? – stula yayxanıb xəbər aldı.

– Bax, siz qızıma elçi gələndə özü razılıq vermişdi ki, deyin gəlsinlər, sözüm yoxdu, qızı verirəm. Yoxsa, başımıza at təpməmişdi ki, boş yerə sizi qapımıza gətirib yüngülsaqqal eləyək. Siz elçi gələndə sözü fırladıb möhlət istədi. Həmin möhlətin də ucu-bucağı görünmür, belə getsə uzandıqca uzanar xeyir iş. İş uzana-uzana da işin içindən iş çıxar, qalarıq başımıza döyə-döyə... Ha kişinin o yan-bu yanına keçirəm ki, xeyir işi yubatmazlar, nəyi gözləyirsən? Deyir ki, səbr elə, gözlə, sən qanmadığın çox mətləblər var...

– Orasını düz deyir, bütün hallarda səbr eləmək məsləhətdi, səbrlə çox düyünlər öz-özünə açılır... – Molla qəmiş qoydu. – Fəqət inanmıram ki, arvad kişini yola gətirə bilməsin. Həvva Adəmi məcbur eləmədi ki, almanı dərib yesin?..

– Hə də... – qadın sevincək razılaşdı. – Elə mən də onu demək istəyirəm...

– Nə hə də?.. – qoca təsbehini çevirə-çevirə Əfruza baxdı. – Nə demək istəyirsən?

– Demək istəyirəm ki, cavandılar... – susdu anicə, – üzüm ayağının altına, odlu-alovludular, xəlvətdə görüşərlər, aralarında bir şey baş verər, el içində rüsvayi-cahan olarıq... – deyəsən Əfruz “alma dərib yemək” məsələsini başqa cür anlamışdı.

– Mən neyniyim, qızım, get, bu sözləri öz ərinə de...

– Eh, demək nədi... – qadın dodaqlarını büzdü. – Hər gün səhərdən-axşamacan baş-qulağını dəng eləyirəm e...

– Bəs, o, nə deyir?

– Heç nə... Deyir ki, gözlə, bu xəmir hələ çox su aparacaq...

– Hə... – molla çayından bir qurtum alıb mızıldandı. – O, yəni sənin ərün, möhlət istəyib vermişik... Əslində sən onu tələsdirməkdə yaxşı iş görmürsən. Yəqin onun da bir bildiyi var...

– Bəs neyniyim, molla əmi?

– Həmin sualı mən də sənə verirəm, qızım...

– Necə yəni?.. – Əfruz heç nə başa düşməyib key-key kirpiklərini qırpdı.

– Yənisi budur ki, qız sizindi, söz sizindi, de görüm, mən bundan artıq neyniyə bilərəm, bala?

– Deyirəm bəlkə axund ağaya qoşulub bir də bizə gələsüz? – qadın sözünün canını dilinə gətirdi. – İnanmıram təzədən sizinlə söz güləşdirib hö-cətləşə... Düzü, mənim də Adəmdən xoşum gəlir e, o uşaq elə şirindi ki... – elə dedi ki, guya, Adəm həqiqətən balaca uşaqdı. – Üzündə şeytan tükü var sanki...

– Əstəğfürullah... – molla gülümsünüb yox yerdən qadını karıxdırmaq istədi. – Amma Adəmin üzündə tük yoxdu ki... Kosadı... Şirinliyinə gəlincə,

elə bir şirinlik görməmişəm onda... – gələcək qayınanasına Adəmdən yüngülvari "qeybət" qırmağından da qalmadı.

Əfruz qaşqabağını salladı:

– Mən o mənada demədim...

Molla geri çəkildi:

– Bilirəm, qızım, bilirəm, zarafat elədim...

Qadın ürəkləndi:

– Hə, nə deyirsən, molla əmi, gələcəksüz bizə?..

Xaliq qadına cavab verə bilmədi, qəfil, tez-tələsik içəri girən Adəmə acıqlandı:

– Ədə, nolub, nə xəbərdi, bir hövsələ elə, görmürsən söhbətimiz var?

Adəm əlindəki mobil telefonu qocaya uzatdı:

– Sənə zəng gəlib...

– Sonra özüm zəng vurardım da, niyə gətirdin? – molla sir-sifətini turşudub narazılıq elədi. – Kimdi ki? – telefonu alsa da, qulağına aparmadan soruşdu.

Adəm:

– Axund ağa... – deyib otaqdan çıxdı.

– Alo... – mollanın səsi bərk çıxdı. – Əssəlamün-əleykim, möhtərəm axund... – zarafatla zəng eləyəni salamladı.

– Əleykim... Kefin doqquz vurur... Xeyirdimi?..

– Xeyir olmamış nolacaq... Siz sözləşmisiz nədi? – dönüb Əfruza baxdı, qadın narahat-narahat qaş-gözünü oynatdı, sağ əlinin şəhadət barmağını qaldırıb dodaqlarının üstünə qoydu.

– Necə yəni? – axund başa düşmədi.

– Heç... – qoca sözünü dəbbələdi. – İndicə Adəm səni soruşurdu, deyirdi ki, axund ağa görsənib eləmir... Deyəsən, uşaq darıxıb sənin üçün...

– Onun işi nə yerdə qaldı, Ataş nə deyir?

– Hələ ki, hər şey elə sən bildiyin kimidi... Bir xəbər yoxdu...

– İnşallah, yaxşı olar... – deyib susdu axund.

– Sözlü adama oxşayırsan...

– Elədi...

– Buyur...

– Eşitdim seyid Qeybullagilə getmisən...

– Kimdən eşitdin?

– Bulud dedi...

Molla susub boğazını artladı, sonra:

– Hə... – dedi. – Olub elə bir şey...

– Mənə xəbər versəydin, sənnən gedərdim. Oturub-oturub qəfil təktənha ora getməkdə yaxşı iş görməmisən...

– Niyə?

Axundun səsi gec gəldi, yəqin demək istədiklərini "rəndələyirdi":

– Yox yerdən qanqaraçılıq ola bilərdi...

– Səsimi eşidirsənsə, demək ki, hər şey yaxşıdı, hələlik sağ-salamatam...

– Şükür...

– Görük bu arada... Bir az dərdləşib başımızı qataq... Adəmin də gözü yolda qalıb. Yaxşı düşmür, kişiyə söz vermisən...

– Gələrəm, narahat olma, oralara yolum düşəndə gəlib sənə dəyərəm... Hələlik, sağ-salamət qal...

– Sən də salamət ol... – molla siftə istədi ki, Adəmi çağırıb mobil telefonu ona versin, sonra fikrindən daşınıb asan yolu seçdi; əlindəkini qoydu masanın üstünə. – Çayını niyə içmirsən, qızım?.. – deyib həlim-həlim gülümsündü. – Darıxma, hər şey yaxşı olacaq... Bütün hallarda səbr eləyən qalib gəlir. Ya işin düzəlir, ya da düzəlmir, fəqət baxırsan ki, heç düzəlməyi sənə gərək də deyilmiş... Hər ikisində rahat olursan...

Əfruz itaətlə çaydan bir qurtum alıb gözlərini döydü:

– Çox qəliz söhbət elədin, sözün doğrusu, bir şey qana bilmədim, molla əmi... İndi nə deyirsən, bizim iş düzələcək, ya yox?.. – susub maraqla qocanın ağzına marıtladı.

– Nə deyim, bala, yenə axund gələr, məsləhətləşərik, məsləhətli don gen olar, biz əlimizdən gələni eləməliyik... Qalanı o gözəgörünməzdən asılıdı... O necə yazıbsa, odu... – molla masanın üstündəki təsbehini götürüb aramla çevirməyə başladı.

Qadın inildəyib içini çəkdi:

– Vay... Molla əmi, yəni deyirsən işimiz Allaha qalıb?

– İşi Allaha qalmaq pisdi? Hamımızın işi Allaha qalıb...

– Bəlkə... – Əfruz gözlərini masaya dikib susdu.

– Sözünü de, qızım, çəkinmə, burda özgə adam yoxdu...

– Deyirəm bəlkə... – fikirli-fikirli sözünün Mustafasını dilinə gətirdi. – oğlan qızı qaçırtsın?.. Mən də kömək eləyərəm, bir plan qurarıq...

– Heç bir plan-mlan lazım deyil... – qocanın qaşları çatıldı. – Elə şeyi ağlına da gətirmə...

– Niyə? İndi qoşulub qaçmaq moddu... Elə qonşunuz dəlləy Həsənin qızı qoşulub qaçmadı?.. İndi əkiz uşaqları da var...

– Biz elə iş görə bilmərik?

– Niyə? – qadın əl çəkmədi.

– Çünki sənin ərin bizə: “yox”, deməyib. Aramızda kişi söhbəti olub... O, bizdən möhlət istəyib... Gərəkdir ki, lap qiyamətəcən də olsa, o möhləti verək... Bu da bir cür əmanətdi, verdiyin sözə əməl eləməmək xəyanətdi, qızım... Əmanətə xəyanətsə, böyük günahdı...

– Qiyamətəcən?.. – deyəsən, Əfruzun ağlı yenə bir şey kəsmədi.

– Hə... – qoca təsbehini çevirə-çevirə başını tərpədib təsdiqlədi.

Qadın könülsüz-könülsüz qalxıb ayaqlarını sürüdü:

– Day onda mən gedim...

Qoca:

– Xoş getdin... – deyib Əfruzu artırmayacan ötürdü, otağın qapısından bayıra boylanıb Adəmi səslədi. – Adə, ay Adəm, Əfruz xalan gedir, gəl onu ötür... – guya, qadın gəldiyi yolu tanımırdı, özü sakitcə qayıda bilməzdi. Bəlkə də molla Əfruzun “xoş getmədiyini” sezib onun könlünü almaq istəyirdi.

Amma Əfruzun alt dodağı yer, üst dodağı göy süpürürdü:

– Özüm gedərəm, uşağa əziyyət vermə, – dedi və Adəm tərpənincə göz qırpımında çıxıb getdi. Cavan qadının arxasınca həyət qapısını örtməyə macal tapdı. Yox, lənət şeytana, deyəsən, darvazanın qabağında Əfruzu haqlamışdı, çünki bir xeyli dayandı qapının ağzında. Yəqin gələcək qaynanası ilə xosunlaşıb öz aləmlərində qatı açılmamış planlar qururdular.

...Əfruz gedəndən sonra Adəm də bir xeyli həyətdə qurcalanıb velosipedə minəndə çarhövuzun qabağındakı evin daş pilləkənində oturan qoca xəbər aldı:

– Sən hara yığışmısan?

Adəm dedi:

– Dənizə gedirəm. Balıq tutmağa...

Molla güldü:

– Deyəsən dəryadakı balıqlar kimi, qurudakı balıqlar da gəlib öz-özünə düşür sənin tilovuna... – razılıqla başını buladı. – Ay xətəkar... – qəflətən ağlına nə gəldisə əlini yelləyib Adəmi yanına çağırdı. – Adə, yaxşı yadıma düşdü, bir bəri dur görüm, sənə sözüm var...

Adəm velosipedi üstünə əhəng çəkilmiş daş hasara söykəyib qocanın qabağına qaçdı:

– Nədi, ay dayı?

Molla səsini yavaşıdıb pıçıltıya keçdi:

– Birdən Əfruz səni başdan çıxarar, Həvvanı qaçırdıb eləyərsən, onda gərək el içində rüsvay olub ömürlük ağrımaz başımıza dəsmal bağlayaq. Sonra o dəlləydi, çəkməçidi, pinəçidi nədi, qiyamətəcən yaxamızdan əl çəkməz ki, eşşəyim ölüb, başı qızıldan... Mən o Atəşin nəsil-kökünü yaxşı tanıyıram, nəsillikcə başdan xarabdılar...

– Mən elə qələt eləmərəm, ay dayı, arxayın ol... – Adəmin sifətinə yerin altından-üstündən agah bir təbəssim qondu. – Uşaq-zad deyiləm ki...

Molla onu təriflədi:

– Ay bərəkallah!.. Halal olsun sənə ananın südü... – dedi və susdu, özlüyündə fikirləşdi ki, gərək süd məsələsini açıb ağartmayaydı.

* * *

Çarhovuzun qırağında dayanıb fikrə getmişdi. Qızılı pişik də çarhovuzun qırağında uzanıb mürgüləyirdi, özünü günə verirdi. Günortadan xeyli keçdiyindən günün kəsəri azalmışdı. Qoca əllərinə dayaq verib çarhovuzun qırağına qalxdı və dırmaşdığı yerdə əyləşib sağ əlini suya salıb silkələdi. Suyun "yuxusu qaçdı", üzərində nazik ləpələr yarandı. Əllərini suya salanın ayaqları da yerdən aralı idi; sallanırdı. Su sərin idi, rəngi də bəmbəyaz. Lap dibi, dibindəki rəngbərəng, sürüşkən mərmərləri görsənirdi çarhovuzun. Yazıq Adəm yəqin çox əziyyət çəkmişdi carhovuzu təmizləyincə. İndi də qoca baxdıqca doymadığı duruluqdan, şəffaflıqdan ləzzət alırdı, təkcə gözü, şüuru, ağlı-başı yox, ruhu da dincəlirdi, bir anlığa özünü qov kimi yüpyüngül hiss eləyirdi. O qədər çəkisiz ki, daha suya

baxmağa taqəti qalmırdı, ətrafa boylanmaq istəyirdi. Üzbəüzə, çarhovuzun üstünə Adəmin şümal rəndələnmiş, uzun, başına xırda gözlü dəmir tor bərkidilən ağacı qoyulmuşdu . O ağacla, daha doğrusu, ağacın başına bərkidilən torla suya düşən saralmış yarpaqları, vərəqi, xırda cücüləri, milçəkləri, arıları, xülasə, zir-zibili yığıb çarhovuzu təmizləmək mümkündü. Lakin hələ ki, buna zərrəcə ehtiyac yox idi, çünki suyun üzündə zərrə də nəzərə çarpmırdı. "Doğru deyiblər ki, hər şeyin əzəli təmizlikdən başlayır, – düşündü qoca, – gözəgörünməz, nəzərəçarpmaz bapbalaca bir naqislik get-gedə bütün bəşəri əyib məhvərindən çıxarda bilər". Birdən-birə ağlına gələnləri hardan oxuduğunu, kimdən eşitdiyini xatırlamağa çalışsa da, bir nəticə hasil olmadığından yenə də qocaya elə gəldi ki, Adəmin haçansa söylədikləri yadına düşüb... Ancaq təmizlik dediyinə də tam arxayın olmaq sadəlöhvlükdü; havada qətiyyən meh-filan olmasa da, ağacların budaqları sapsakit "dayansa" da, hardansa yekə, "damarları çıxmış" sarımtıla çalan yaşıl bir yarpaq havada hərlənib-fırlanıb sakitcə, ehmalca düşdü suya və düşdüyü yerdəcə tərpənməz qaldı. Yarpaq suya düşən kimi pişik başını qaldırdı və qəzəbli-qəzəbli bərkdən miyoldayıb yerə hoppandı, elə miyoldaya-miyoldaya, əcaib səslər çıxara-çıxara qapıb göz qırpımındaca yox oldu. Yəqin hardasa gizlənəcək yeri vardı. "Əstəğfürullah, durduğu yerdə bu heyvanı cin vurdu nədi?" – fikirləşdi molla. Bir dəfə də həyət darvazası aralı qalmışdı, hardansa yekə bir it girmişdi həyətə, başlamışdı qızılı pişiyi qovmağa, pişik də qorxudan hündür hasardan hoppanıb – bəlkə də açıq qapıdan çıxmışdı – qaçıb girmişdi dəllək Həsənin budkasına. Ancaq onda da bu cür əcayib, qarışıq səslər çıxarmamışdı yazıq heyvan...

Molla baxdı ki, suya düşən yepyekə yarpaq tut yarpağı deyil, ümumiyyətlə, belə saçaqlı-damarlı yarpağı olan ağac onun həyətində yoxdu. Bir az da diqqətlə nəzər salıb gördü ki, indiyəcən, ömründə belə yarpaq görməyib, hansı ağacındısa, bura hardan düşmüşdüsə, Allah bilir... Bəlkə heç yarpaq da deyildi, yarpağabənzər ölü qurddu, həşəratdı?.. Amma ölü qurd, cücü göydən niyə düşməlidi ki?.. Nə biləsən, xudavəndi-aləmin yaratdığı möcüzələr saysız-hesabsızdı. Yarpağabənzər həşərat qanadlı da ola bilərdi...

Əvvəl istədi qalxıb xırda torlu ağacı əlinə alsın, təmizliyə, saflığa xələl gətirən yarpağımı, həşəratımı, hər nəydisə, suyun üzündən götürüb tullasın həyətə. Hətta oturduğu yerdən qımıldanmaq istədi də... Amma baxdı ki, nə həvəsi var durmağa, nə də taqəti...

...Durub, suya düşəni çıxardıb atmaq onluq deyilmiş. Həşəratabənzər yarpaq yavaş-yavaş hərəkətə gəlib suyun üzündə fırlanmağa başladı, bu suyun üzündə axmaq da deyildi, çünki hava kimi su da lal-matdı, amma get-gedə elə sürətlə hərləndi ki, suda halqavari burulğan, ətrafda zərif və zəif dalğalar yaratdı. Burulğan çarhovuzun dibinə çatanda qoca gördü ki, aşağı boşdu, lap dəqiqi, yerin altına gedən taxtadanmı, dəmirdənmi, daşdanmı dolanbac bir pillləkən var. İçində getdikcə güclənən bir səs qocaya əmr eləyir: "Gəl..." O, mütiliklə içindəki səsə tabe olub çarhovuzun içinə düşür, burulğana girir və qəribə burasıydı ki, suyun içində olsa da, islanıb eləmir. Baş-gözü də, əynindəki pal-paltar da qupqurudu.

Sonra suyun dibindəki pilləkənin birinci pilləsinə qoyur ayağını və baxır ki, "gəl-gəl", deyərək onu səsləyən ün çox məhrəmdi, həmin məhrəm, doğma səs – o qədər yaxındı ki, qoca o səsi indiyəcən bəlkə də min kərə eşitmişdi, amma kimin səsi olduğunu kəsdirə bilmirdi, çünki səs müəyyyən həddəcən güclənsə də artmırdı, zərifliyini itirmirdi və qoca eyni sözü eşitdiyindən hələ anlamırdı ki, gücdən-taqətdən düşmüş ahıl, zənən, yoxsa uşaq səsi gəlir içindən qulağına – ürəyinə də qüvvət verirdi, qocanın bədənində-canında qətiyyən qorxu-hürkü yoxdu. O məhrəm səs əmr eləməsəydi belə qoca aşağı yol göstərən dolanbac pilləkəkəni gücü yetdiyi, gedə biləcəyi qədər, gözü qaranlığa alışdığı yerəcən enəcəkdi. Aşağı düşə-düşə ürəyindəki çəkingənliyi yox eləyən səs sahibi ilə elə ürəyindəcə danışmağa başlamışdı. Düzünə qalsa, siftə üşənəntəhər olmuşdu ki, birdən aşağı düşər, tanımadığı yerdə azıb qalar, sonra geri qayıda bilməz. Sonra özünə təsəlli vermişdi ki, yəqin hara getsəm üzü bəridəkindən yaxşı, maraqlı davama rast gələcəm. Bircə Adəmdən nigarandı, lakin pillələri endikcə elə bil nəinki Adəm üzü bəridəkilərin hamısı sövq-təbii, qeyri-ixtiyari yaddaşından silinirdi. Qalırdı öz hayına, zülmət qaranlıqla üzbəüz, təkbətək... Pilləkən qurtaranda bir şeyə də heyrətləndi; sanki onun yaşını yarım əsr azaltmışdılar, qıvraq idi, addımları da cavanlıqdakı təki möhkəm, qətiyyətli, çevik... Bəlkə də təkcə gücü-qüvvəsi qayıtmamışdı, bənizi, sir-sifəti də cavanlaşmışdı, əllərindəki, alnındakı, üzündəki, simasındakı dərin qırışlar da hamarlanıb itmişdi, hələ üstəlik, keçəl başına da sıx, qapqara tük çıxmışdı, saqqalı da qaralmışdı. Güzgüyə baxıb özünü görə bilməsə də, əlni başına atmağa kəraməti çatdı. Başındakı fəsi də çıxartdı. Heyhat, hələ də keçəl idi. Həvəssiz-həvəssiz fəsi təzədən başına qoydu.

İniltiyəbənzər ün eşidəndə qoca bura neçənci dəfə gəlib-qayıdıbmış kimi, arın-arxayın xəbər aldı. "Ətrafda inildəyənlər nə istəyir? Yolu əlimə alıb düp-düz getsəm də qaranlıqdan heç nə görmürəm. Hələ öyrəşməmişəm qaranlıqda nə isə görməyə". "Sən yerin birinci qatındasan, eşitdiyin qarışqaların səsidi, qarışqalar şikayət eləyir ki, niyə bizi zəhmətsevər, ancaq balaca yaratdın? O qədər balaca ki, yuvamız böyüklərin ayağının altında qaldı, tələf olduq". Qoca burdan keçib yenə pilləkənlərlə aşağı düşdü, təzədən uzun dəhlizə bənzər yerə çatanda azacıq işıq da gördü irəlidə. Ya zülmətdə görməyə alışırdı, ya da irəlidə həqiqətən öləzik nur vardı. "Bəs bu nə səsdi?" "Ağaclardı ikinci qatda... Ağlayır ki, niyə bizə yerimək, qaçmaq imkanı vermədin ki, meşələrimizi yandıranda kül olduq, kövdəmizi baltalayanda müti-müti yerimizdə dayanıb durduq?" Üçüncü qatda irəlidəki nur bir az artmışdı, qarışıq səslər də çoxalmışdı. "Bunlar nə istəyir? – xəbər aldı qoca. "Bunlar heyvanlardı, dil açıb yer üzündə onların başına gətirilən haqsızlıqlardan danışır". Bir mərtəbə də aşağı düşdülər, qulağındakı qarışıq səslər artmış, irəlidəki nursa yan-yörəni işıqlandırmağa başlamışdı. Bu dəfə molla sual verməyə macal tapmamış cavabı eşitdi. "Balıqlardı, onlara olunan zülümdən şikayətlənir, balıqçıları lənətləyib düşdükləri torun əzabını təsvir eləyir". Beşinci qatda işıq lap güclənmişdi, ətrafı əməllicə sezmək olurdu, di gəl, yan-yörədə heç nə yoxdu, ya ucsuz-bucaqsız səhra idi, ya da ki, sonu görünməz

boşluq... Qarışıq, sözləri ayırd eləmək mümkün olmayan səs də artmaqdaydı. “Bunlar arılar, quşlar, cəmi qanadlılardı... Onların haqqını tapdayanlara, onlara tor qurub qəfəsə salanlara, qanadlarını qıranlara lənət oxuyur.”. Altıncı qatda tam sakitlik idi, irəlidəki işıq da yox olub getmişdi, yenə hər yana zülmət, qaranlıq çökmüşdü. “Bəs burdan niyə səs-səmir gəlmir?” – deyəsən səsə-ünə öyrəşdiyindən qoca narahat-narahat soruşdu. “Bura insanlarla digər canlılar arasındakı divardı ki, onları bir-birindən ayırsın. Daha bundan aşağı, yeddinci qata düşə bilməzsən”. “Yeddinci qatda kimlər var?” “İnsanlar, əgər aradakı divar olmasaydı, adamların vay-şivənindən, çığırtısından-iniltisindən sənin qulaqların batardı”. “Onlar niyə qışqırıb vay-şivən salır, nə istəyirlər?” “İnsanlar da dizlərinə döyüb şikayətlənirlər ki, nədən, nə səbəbə bizi mələklər kimi yaratmadın, niyə bizə nəfs verdin?” “Kimə şikayət eləyirlər?” “Yaradana”. “Yaradan şikayətlənənlərə nə cavab verir?” “Onu biz bilmərik, ancaq yəqin ki, cavab-zad vermir”. “Cavab verməyib neyləyir?” “Gülür”. “Görəsən yaradan nəyə gülür?” “Çünki adamlar özləri öz qanadlarını yandırıblar”. Qoca özünəbənzərlərin tərəfini saxlayıb özündənrazılıqla gülümsündü: “Həqiqətən insan yer üzünün əşrəfi imiş, ona görə yeri yeddinci qatdadı”. Bu dəfə qulağına əməlli-başlı qəhqəhə gəldi: “İnsan göyün yox, yerin yeddinci qatındadı”. Molla şəkləndi: “Yəni burdan o yana yol yoxdu?” “Əksinə... – səs qəhqəhə kimi bayırdan yox, yenə içindən gəldi. – Burdan güzgülü istiqamətlərlə hər tərəfə yol var”. “Güzgülü istiqamət? – molla anlamadı. – O nə təhər olur?” “Yəni burdakı saysız-hesabsız yollar güzgü kimi bir-birini əks elətdirir, istəsən keçmişə qayıdırsan, istəsən gələcəyə gedirsən, istəsən gözəgörünməz dünyaların sakinləri ilə görüşürsən, istəsən ərşi-əlaya qalxırsan,” – içindəki həlim səs qocaya yol göstərirmiş kimi, səbrlə sadaladı. “Hər kəs hara istədisə, ora da gedə bilər?” “Hər kəs istədiyi yerə gedə bilsəydi, məxluq yerin yeddinci qatında niyə inildəyirdi?” Qəfil ağlına gəldi ki, hər necəsə, nə üçünsə ona qaranlıq dünyaya – amma qaranlıq dünya məsələsi də dəqiq deyildi, qoca aşağıda, yerin altında nurabənzər şüasız işıq da görmüşdü, yəqin nə qədər üzü zülmətə enirsən en, yenə də hökmən iynə ucu boyda göz qamaşdırmayan qığılcıma rast gəlməlisən – səyahət eləməyə icazə verilibsə, deməli, onun xüsusi imtiyazı var, çıxmayan səsi titrədi: “Demək, mən istəsəm həmin yollarla gedib doğmalarımı da görə bilərəm?” İçindəki səs gec dilləndi: “Yox, sənin buna iznin yoxdu”. Molla onu heç vaxt tərk eləməyən öləzik ümiddən yapışdı: “Bəs, haçan görəcəm onları?.. – özü öz sualına cavab vermək istədi. – Qiyamətdə?..” İçindəki səs isə amansız idi: “Yox!.. Sən onları heç vaxt görməyəcəksən!..”

Aradan nə qədər keçdiyini bilmədi, elə bil hər yan zülmətdən də qara boya ilə rəngləndi, içindəki səs də susub lal-dinməz oldu, onu yarı yolda qoydu, əksinə bayırdakı səs gücləndi, sanki kimsə bərkdən onu çağırırdı. Zorla kirpiklərini bir-birindən aralayıb gözlərini açanda Adəmi çarhovuzun başında gördü:

– Bayaqdan səni axtarıram, ay dayı, hovuzun içinə nə təhər düşmüsən?.. Orda niyə uzanmısan?

Qoca özünə gəlib dikəlsə də nəm mərmərin üstündə oturdu:

– Pilləkənlə aşağı düşmüşdüm...

Adəmin gözləri kəlləsinə çıxdı:

– Nə pilləkən, hansı pilləkən? Hara aşağı? – hövuzun içinə hoppandı, neyləyəcəyini bilmədən oturub key-key dizlərini qucaqlayan mollanı qaldırdı, ağ fəsi də yerdən götürüb qocanın başına qoydu, amma qocanın elə yalın ayağa geyindiyi və hər tayı bir tərəfə düşən üstüaçıq, yay başmaqlarına əl vurmadı, bəlkə də alatoranda hovuzun döşəməsi ilə oxşar rəngdə olan başmaqları sezmədi. – Bəs, hovuzun suyu hanı, hara axıb gedib bu qədər su?..

– Mən nə bilim... Yox olub... – qoca iniltiyəbənzər bir səs çıxartdı.

Adəm ətrafa boylandı, hovuzun içinə baxdı:

– Yox olub nədi, budey, suyun qapağını çıxartmısan axıb gedib... – əyilərək yerdəki iri nikel qapağı əlinə götürüb oynatdı, əşyayi-dəlil kimi mollaya göstərdi və qoydu çarhovuzun yuxarısına. – Eybi yoxdu, sabah hovuzun içini silib-təmizləyib su ilə dolduraram...

Qoca ayağını geri qoymadı:

– O qapağı mən çıxartmışamsa, mənim əyin-başım nədən yaş deyil, qupqurudu, hə?.. – soruşdu.

– Gün qurudub da yəqin... Görünür ki, çoxdan düşmüsən bura, bir hovuz su belə tez axıb gedə bilməzdi axı...

– Nə gün?.. – qoca razılaşmadı. – Görmürsən hava qaralır?..

Adəm narahat-nigaran əlini yelləyərək dərinə getmədi:

– Ay dayı, boş ver, şükür ki, yenə salamatlıq olub... Yəqin təsadüfən yıxılmısan hovuza, ayağın ilişib, hovuzun qapağı çıxıb... Burda nə var ki?.. Gedək, çimizdirim səni, pal-paltarını dəyiş, sonra da sənə yaxşı bir çay verim, eynin açılsın, özünə gəl... – qocanı qaldırıb qucağına götürdü. – Bayaqdan kim bilir nəmişlikdə neçə saat uzanmısan... Soyuq-zad dəyər e, sənə... Xəstələnərsən...

– Hovuza yıxılmamışam... Özüm düşmüşəm bura, suyun-burulğanın içinə... – qoca dediyindən dönmədi, yıxılmamaqdan ötrü uşaq kimi Adəmin boynunu qucaqladı. – İnan ki, hovuzdakı su özü aralanıb mənə yol verdi. Ona görə islanmadım...

– Demək, göz dəyməsin, mənim dayım da, həzrəti Musa misallı bir müqəddəsdi... İntəhası, ölçüləri çox kiçikdi...

Qoca Adəmin zarafatla, yoxsa ciddi söylədiyini ayırd eləyə bilməsə də acıqlandı:

– Əstəğfürullah... Adə, başına at təpib, məzələnməyə vaxt tapmısan, nə gic-gic danışırsan?

– Yaxşı-yaxşı, hirslənmə, mən nə dedim ki... – Adəm üzüyolalıqla qımışdı. – Yenə sağ olsun, böyüyə yol göstərirsə, demək ki, mərifətli, qanacaqlı, qabiliyyətli sudu...

– Adə, giçləmə, dedim, yəni mən lap kaftarlaşmışam?.. – qoca dilini dinc saxlamadı. – Su böyükdü, ya mən?..

– Həlbət ki sən... – deyəsən Adəm lap ağını çıxarırdı. – Sən hamıdan böyüksən... Bircə boyun balacadı...

Qoca dinmədi, qəfil ona elə gəldi ki, illər ötüşdükcə, yaşının üstünə yaş gəldikcə o, qocalıb eləmir, əksinə get-gedə cavanlaşır, uşaqlaşır, saçı-saqqalı – saç məsələsini açıb-ağartmaqa ehtiyac yoxdu – ağ uşağa çevrilir. Molla barmağını dişlədi, son zamanlar birdən-birə Adəmin hər şeyi zarafata salmağında, deyəsən, yekə bir həqiqət gizlənirdi, həqiqət də ondan ibarətdi ki, əslində Adəm təkcə ondan yox, cəmi məxluqdan böyükdü... O, qoca görsənsə də əslində hələ ağlı düz-əməlli kəsməyən balaca, dünyadan xəbərsiz bir körpədi, qucağında oturduğu gücü-qüvvəti yerə-göyə sığmayansa cavan qalsa ds əsrləri yola salmış nuranidi, pirdi...

Ağlına gələn ağlasığmaz, bir az da sərsəm fikirləri qovmaq üçün gözlərini yumdu, qaranlıqda gözünün qabağına göyümtül halqalar gəldi...

...Qumun üstündə müxtəlif cizgilər, heç vədə görmədiyim, ağlıma sığışdırmadığım fiqurlar çəkildi, göydən rəml atıldı, ancaq ha gözlədim, göydən atılan yerə düşmədi. Gözüm göydə gözləyə-gözləyə bir də ayıldım ki, narın qızılı qumun üstünə çəkilənlər də itib gedib. Çünki zaman keçdikcə qlzılı qum bərkiyərək daşa dönüb, rəngi də bomboz bozarıb. Təkcə göyümtül halqalar qalıb daşa dönmüş böz qumun üstündə... Bir-birinin içində olan göy halqalar...

Gözə güclə görünən ən kiçik halqanın içində üzüaşağı otsuz-qanqalsız, ətrafı ağac üzünə həsrət bir cığır vardı. O cığırla yayın istisində başına buxara papaq qoymuş, əyninə ağ, yaxalıqsız köynək, balağı topuğuna bağlanmış qara, nimdaş salvar geyinmiş xırdasümük bir kişi ayaqyalın, sağına-soluna baxmadan gözlərini yerə dikərək aram-aram gedirdi. Çiyninə atdığı balaca heybəsində də quru çörək...

Asta yeriyən yorulmaq bilmirdi, taqəti kəsilmirdi, ayaq saxlayıb dincəlməyi, nəfəsini dərməyi ağlına gətirmirdi, elə bil bitib-tükənməz səbri ilə sonugörünməz, bəlkə də axırda elə yeriməyə başladığı yerə çatacağından halqalar kimi neçə kərə dövrələmə keçib getdiyinin fərqinə varmadığı upuzun, halqavari yolu taqətdən salmaq istəyirdi. Amma bilmirdi ki, nə qədər gedirsə getsin, heç vaxt mənzil başına çatmayacaq. Xəbəri olmadan görə bilmədiyi saysız-hesabsız birrəngli halqaların içindən keçərək – o halqaların ətrafındakı, yan-yörəsindəki göz qamaşdıran ipiri güzgülər təkcə baxmaq üçün deyildi, zamanı dayandırmaqdan, irəli-geri fırlamaqdan ötrü idi, yəqin ona görə yolçu düz qabağa, ayağının altına baxırdı, ətrafa boylanmırdı ki, taqəti kəsilməsin – yorulmaq bilmədən əbədiyyən yoluna davam eləyəcək. Beləcə, içindən qulağına gələn anlaşılmaz, qarışıq, sözlərini ayırd eləmək mümkün olmayan səslər də gah ucalacaq, gah yavaşıyıb pıçıltıya çevriləcək, zaman keçəcək, illərin üstünə illər gələcək, qərinələr, əsrlər bir-birini əvəzləyəcək, lakin nə yol bitəcək, nə də güc-qüvvəsi tükənməz – hərçənd kənardan baxanda heç kəs çəlimsiz, arıq qocanın aşıb-daşan bir qüdrət sahibindən yetərli pay aldığını düşünə bilməzdi, əksinə adama elə gəlirdi ki, yol gedənin qüvvəsi tükənib, daha doğrusu, tükənir, yıxılmasa da, gec-tez dayanıb əl çəkəcək bu mənasız yolçuluqdan, lakin gözün gördüyü qulağın eşitdiyindən də aldadıcı imiş, əsrlərdi ki, yol gedən dayanmaq bilmirdi, üstəlik öz güc-qüvvəsinə elə

inanırdı ki, çəlimsiz, nazik ayaqlarına elə ümidliydi ki, əlindəki əsanı da tullamışdı – bir yolçunun o sonsuz yolu bitirib olmayan mənzil başına çatmaq istəyi...

Digər tərəfdən yeriməkdən ayaqlarının altı yöğun qabar bağlamış yolçunun başqa çarəsi yoxdu, bilirdi, hiss eləyirdi, duyurdu ki, elə hərəkətdən, yolu əlinə alıb getməkdən, aramla addımlamaqdan güc-qüvvə toplayır, dayanan dəm yıxılıb canını tapşıracaq. Lakin deyəsən bədəndəki bitib-tükənməz, ağlasımaz güc-qüvvət anlayışı uzaqdan görsənən ilğımdı, əslində dayanmadan yeriyib yolu taqətdən salan yolçu ayaqları yerə dəymədiyindən yorulmaq bilmirdi. Əlbəttə, qucaqda oturan heç vaxt, lap dəqiqi, yerə qoyulanacan, özü yeriməyə məcbur olanacan yorulmaz...

* * *

Adəm yaxına gələndə qoca qəsdən özünü hirsli göstərmək istəsə də, bacarmadı:

– Adə, ay cüvəllağı, harda qalmısan, demirsən ki, mən burda ölürəm, nəfəsim kəsilir, öskürəyim dayanmır...

– Yox, qaraçılıq eləmə, ay dayı, maşallah, bu gün yaxşısan...

– Yəqin axund bəhanə olub, başın Atəşin qızına qarışıb... – gülümsünüb təsbehini çevirdi. – Ay xəyəkar, zənən görən kimi hər şey yadından çıxır...

– Yox, vallah, bayaqdan axund ağagildən çıxmışamsa, Allah mənə qənim olsun... – Adəm əllərini sinəsində çarpazladı. – Dayı canı, Həvvanızadı da görüb-eləməmişəm...

– Yaxşı, and-aman eləmə, otur... – Adəm dinməz-söyləməz üzbəsurət əyləşdi, molla, nədənsə, qımışa-qımışa ona baxdı. – Bəs, bu vaxtacan nağayrırdun orda? Axunddan soruşmadın ki, bizə nöş gəlmir, iki-üç gündü mobil telefonunu nöş söndürüb?

– Eh, ay dayı... – Adəm əlini yellədi. – Axund yazıq öz hayındadı...

– Nolub? – molla narahat-narahat diqqət kəsildi.

– Sürüşüb, pilləkəndən yıxılıb, ayağı...

– Sınıb? – qoca hövsələsizliklə onun sözünü kəsdi.

– Mən nə bilim... – Adəm boynunu bükdü. – Sınıqçı Kazım da olarda idi. Nala-mıxa vururdu, gah, deyirdi kişinin ayağı çıxıb, gah da deyirdi, deyəsən, çıxıq deyil, çartlaqdı...

– Çatdan-çıxıqdan ziyan olmaz... Təki sınıq olmasın... – qoca rahat nəfəs aldı. – Kazım tezliklə bir çarə tapar. Neçə ildi külüng vurur, gecə-gündüz məktəb oxuyan həkimlərdən çox bilir... Axund özü nə təhər idi?

– Nə təhər olacaq, bir ayağı göydə, başı-gözü sarıqlı olsa da, zarafatından qalmırdı...

– Başı-gözü niyə? Ayağın başa nə dəxli?

– Yıxılanda başı da yarılıb... Day kişini o halda görüb özüm tez gəlmədim... Xeylağ oturdum orda ki, birdən nəsə lazım olar...

– Düz eləmisən... – molla razılıqla başını tərpətdi. – Zarafata salıb nə deyirdi? Məni yamsılayırdı yenə?

– Yox... Bu dəfə mənə ilişmişdi... Məzələnirdi ki, buna da şükür, sən Həvvanı alıb vüsala çatanacan hələ çox qanlar axacaq...

– Adam içində dedi?

– Yox, təklikdə...

– Dedinmi ki, molla soyuqlayıb, səni görmək istəyir?

– Yox, kişini o halda görüb day üstünü vurmadım... Utandım...

– Onu yaxşı eləmisən... – qoca yenə razılıqla başını tərpətdi. – Hərdənbir utanmaq da lazımdı... Halı pis idi?

– Yəqin ki, yarası ağrımağına ağrıyırdı... Ancaq özünü sındırıb inildəmirdi, zarımırdı, hələ üstəlik, dediyim kimi, lətifə danışırdı, zarafat eləyirdi, deyib gülməyə çalışırdı, intəhası, Natiq gələndən sonra kişinin kefi yaman pozuldu.

– Hansı Natiq?

– Xəyyam əminin oğlu...

– Nə dedi ki, Natiq axunda?

– Dedi ki, dədəmin halı xarabdı. Rayondan gələn həkimlərin də ağlı bir şey kəsmədi, elə bir-iki iynə vurub: "Təvəkkül Allaha," – dedilər, pullarını alıb, başlarını bulaya-bulaya çıxıb getdilər. Natiq dedi ki, dədəsi day heç danışa da bilmir, tez-tez gözlərini yumub açır, bir də nəfəsini yavaşca içinə çəkir, vəssalam... Axund ağa da fikirli-fikirli qayıtdı ki, Natiq, bala, bu dünyanın işi belədi, özünü üzmə, neyləməli, bir gün gələn, bir gün getməlidi, hər şeyə hazır olmaq lazımdı... Nəfəsini tez-tez içinə çəkməyindən görükür ki, kişinin vaxtına az qalıb, bu gün-sabahlıqdı... Yəqindi ki, ruhu bədənindən çıxmaq istəyir, canını tapşırmaq istəyir yazıq...

– Nə ruh, nə can?! – qoca razılaşmadı. – Ölümün vaxtını kim bilir? Tez gələcək, gec gələcək... Bu saat Xəyyam canı ilə əlləşdiyi məqamda mən özüm burda qəfil yıxılıb ölə bilərəm. Qədər Allahındı... Axund məsələni düzgün anlamayıb... – başını bulayıb astaca dedi. – Nəfəsini yavaşca içinə çəkəndə canını tapşırmaq istəmir o. Oğlunu qoxulayır...

Adəm çaşıb qaldı:

– Heç nə anlamadım, axı Natiq öpüşməkdən, qoxulamaqdan heç nə demədi, ay dayı... Əksinə dedi ki, gözümün yaşını saxlaya bilmədiyimdən dədəmə yaxın getmirəm. İstəmirəm ki, kişi məni gözü yaşlı görüb lap pərişan olsun...

– Natiq nə qanır belə şeyləri?.. O, getsin balığını tutsun... – molla etinasızlıqla təsbehi masanın üstünə qoydu. – Yəqin yazıq Xəyyam son məqamda yenə müharibədə ölən oğlunu qoxulayır...

Araya sükut çökəcəkdi ki, qonşunun xoruzu bərkdən banladı.

Qoca içini çəkib təəssüflə, yavaşca əlini dizinə vurdu:

– Hayıf Xəyyamnan... Yazıq düz-əməlli bir gün görmədi...

– Axund ağa yarımcan olub, heç onun dərdini çəkmirsən, Xəyyam əmidən narahatsan... – Adəmin ağlı bir şey kəsmədi.

– Elədi... – molla razılaşdı. – Nədənsə, həmişə arxayın olmuşam Məhəmmədən... Axunda nə var e, o da sənin kimi buğda yeyib, cənnətdən çıxıb... Amma Xəyyam elə mənim kimi fağırdı, zavallıdı... Düz deyirsən, bir

özümə gəlib, bu gün-sabah gedib ikisinə də dəysəm yaxşıdı... Bu vəfasız dünyaya nə etibar?..

Bu dəfə hardasa bir it hürüb yaranacaq sükuta qənim kəsildi və qocanın yadına nə isə düşdü, narahat-narahat yerində qurcalandı:

– Adə, ay Adəm, bilmirsən, bizim pişik hara yoxa çıxıb? Neçə gündü gözümə dəymir axı...

Adəm oturduğu yerdəcə ətrafa boylandı:

– Nə bilim, ay dayı, ona nə var, Allah bilir qarnını harda doydurub, indi də hansı ağacın kölgəsində mürgüləyir... Ac olsa, mütləq gəlib çıxacaq... – mollanın sözlərinə “züy tutdu”. – Pişiklər də dünya kimi etibarsızdı...

– Belə-belə işlər... Ömür də pişik kimi qaçıb gedir... – qoca mızıldandı. – Dostların da ağacı əllərindən düşür...

Adəm eşitdiyini başa düşdüyü tərzdə yozdu:

– Maşallah, ay dayı, göz dəyməsin, görürsən, bu gün heç öskürməmisən, yaxşısan... Sağalmısan day, vallah... Bir çay dəmləyib gətirimmi sənə?..

Molla təsbehini masanın üstündən götürüb başını tərpətdi:

– Gətir...

Adəm ayağa qalxdı.

* * *

Səhər evdən çıxıb əvvəlcə pay-piyada Xəyyamgilə gəldi. Evin qabağında “Təcili yardım” maşını görəndə dalağı sancsa da, şükür, hələ ki, salamatlıq idi. Xəstənin başının üstünü kəsdirib narahat-narahat əl-ayağa düşən ağxalatlılara mane olmamaq üçün içəri girməyib artırmada dayandı, gözlərini açıq qapıdan içəri dikdi. Natiq salamsız-kəlamsız, fikirli-fikirli gəlib onun yanında durdu.

Molla yavaşca xəbər aldı:

– Vəziyyət nə təhərdi...

Natiq çarəsiz-çarəsiz boynunu bükdü:

– Pisdi...

– Elə demə, Allahdan umud kəsilməz... Bir də gördün göz qırpımında yaxşılaşıb durdu ayağa.

– Təki sən deyən olsun... – xəstənin oğlu inamsızcasına pıçıldadı.

– Həkimlər nə deyir? – Xaliq qapısı açıq otağa işarə elədi.

– Heç nə... Kişi çörək yemir axı... Deyəsən ona görə tez-tez gəlib iynə vururlar, sistem qoşurlar. Yazığın bədəni deşik-deşikdi... Day damarını da gücnən tapırlar...

– Bəs nədən xəstəxanaya aparmırlar?

– Nə illah eləyirəm, pul da verirəm, deyirlər ki, hələ tərpətmək olmaz... Evdə qalsa yaxşıdı. Deyəsən, istəmirlər ki, xəstəxanada ölüb eləsin... – Natiq köynəyinin cibindən siqaret qutusunu çıxartsa da, nə fikirləşdisə, qutunu elə taxta məhəccərin üstünə qoydu, içindən siqaret götürüb alışdırmadı. – Nə fırıldaqdısa, baş açmaq olmur... Siftə əllərini üzmüşdülər

ki, bekara əziyyətdi, kişi sabaha çıxmaz. Ancaq indi hər gün gəlib gedirlər. Puluna minnət...

– Danışır?

– Kim?

– Dədən...

– Yox əşi, nə danışmaq...

– Adam tanıyır?

– Bilmirəm... – Natiq çiyinlərini çəkdi. – Bircə gözlərini yumub açır... Bir də ki, tez-tez burnu ilə nəfəs alır... Nəfəs alır da yox e, nəfəsini içinə çəkir... Sanki içində ağrısıkəsilməz, daim incidən bir yarası göynəyir. Axund dedi ki, olur elə şeylər, yəqin ruhu bədənindən çıxmaq istəyir, intəhası, canını tapşıra bilmədiyindən əzab çəkir dədəm... – boğazındakı qəhəri udmaq üçün sözlərinə azca ara verib xəbər aldı. – Sən nə fikirdəsən, görəsən, doğrudan elədi?

– Nə deyim... Yəqin ki... – molla çarəsiz-çarəsiz köksünü ötürdü. – Axundun ayağı biləni bizim başımız bilmir...

– Adam canı ilə əlləşəni görəndə qanır ki, çarpışmağa dəyməz, yer üzündə nə varsa, baş aldatmaq üçündü, boş şeydi...

– Day mən gedim... – molla pilləkənə doğru addımladı.

– Gözlə, indi həkimlər gedəcək... Sən də içəri girib dədəmi görərsən...

– Yox... – molla razılaşmadı. – Mən onu belə görmək istəmirəm. İnşallah, sağalar, gəlib dəyərəm... Gedib bir axunda da baş çəkim... Deyirlər axundun da halı xarabdı...

– Hə... Onun da ayağı sınıb, başı yarılıb...

– Ayağı sınıb, ya çıxıb?

– Dəqiq bilmirəm... Sınıqçı Kazım gah elə deyir, gah belə... – Natiq çiyinlərini çəkib başını buladı. – Ancaq ayağı göydədi...

Pilləkənin başına çatanda Natiq candərdi, könülsüz-könülsüz dedi:

– Piyada nöş gedirsən, gözlə, səni maşınla aparım...

– Yox, piyada getsəm yaxşıdı, sən işində ol, sənin maşınına minəndə adamın üstündən bir həftə balıq iyi gəlir... – molla baltanı kökündən vurdu ki, Natiq onun bəhanəsinə inanıb narahat olmasın...

...Axundun həyətindən çıxanda gördü ki, Bulud maşınına söykənib fikirli-fikirli siqaret tüstülədir.

– Adə, ay Bulud, bir bəri dur... – çağırsa da, özü ona yaxınlaşdı.

Bulud xəyaldan ayrılaraq çaşdığından siqaret ağzından düşdü, siqareti yerdən götürüb təzədən damağına qoya-qoya soruşdu:

– Nədi, molla əmi, nolub?

– Adə, sən nə ağzıyırtıq adammışsan... – molla qeyzlənməsə də, qəsdən sifətinə ciddi görkəm verdi.

Xəyyamgildə kefi pozulsa da, axundla gözü yaşaranacan deyib gülmüşdü, dostuna: “Həmişə ayağı göydə”, söyləyib başı yarılanın atmacalarını cavabsız qoymamışdı, amma deyəsən hər ikisi duyurdu ki, bu dəfə əndazəni keçən zarafatın, gülüşün, lağlağının içindən yepyekə bir kədər, qəm-qüssə boylanır, bəlkə də göz yaşlarını gülüşlə gizlətmək

istəmişdilər, buna görə axundgildə çox oturmamışdı, yeməyi də yaxın qoymamışdı, elə bircə stəkan çay içmişdi, vəssalam, anlayırdı ki, day yeməklik halı yoxdu, qabağına min cür dadlı təam qoysalar da, son dəfə Xəyyamın evində yediyi təzə balıq kimi hər tikə ağzında böyüyüb-böyüyüb boğazından zorla keçəcək, yəqin ikisi də bir dərddə olduqlarından axund üz vurmamışdı, di gəl, həyətdən çıxanacan mollanın sifətindəki həlim təbəssüm tamam silinib getməmişdi.

Təəccübdən Buludun gözləri bərəldi, qalın qaşları çatıldı:

– Xeyir ola, a molla, nə məsələdi?

– Mənim seyid Qeybullagilə getməyimi tez-tələsik gəlib axunda nöş xəbər vermisən?..

– Pisliyinə deməmişəm ki, molla... Demişəm ki, molla böyük adamdı. Nöşün ki, suçlu olduğun yerə gedib üzrxahlıq eləmək böyüklükdü...

– Lap münəccim kimi danışırsan, sən hardan bilirsən ki, mən orda üzr istəmişəm?

– Elə sənin o qapını açmağın özü üzr istəməkdi... – Bulud siqareti yerə tulladı. – Vallah, sən böyük adamsan... Şir ürəyi var səndə...

Molla vecsiz-vecsiz, etinasızlıqla əlini yellədi:

– Dilin olmasaydı, səni qurd-quş yeyərdi, hap-gopa basma... Mən sizlərə böyüklük eləyə bilmədim... Gədə-güdənin dilinə düşüb olan-qalan hörmətimi itirdim. Zəmanənin üzü qara olsun... – gileylənib ah çəksə də üzündəki təbəssüm kölgələnməmişdi, sanki özgəsindən danışırdı. – Qanmazların ucbatından day məscidə də ayaq basa bilmirəm...

Bulud:

– Əşi, qoy qanmazlar nə çərənləyir çərənləsin, olara baş qoşan kimdi, qələt eləyir hamısı, sən elə bizim böyüyümüz, ağsaqqalımızsan... Allah sənə ömür versin... – deyib söhbəti dəyişdi. – Evə gedirsən?

– Hə... Nədi ki?..

– Gəl aparım da səni... Pulsuz aparacam, qorxma... Onsuz da sizin tərəfə gedirəm. Dəllək Həsənin qızı qaynanası ilə qırğına çıxıb, acıq eləyib dədəsi evinə qayıtmışdı axı... İndi də əri gəlib dalınca, dil töküb, barışıblar... Gərək gedib oları Həsəngildən götürüm, aparıb qoyum qaynanasının xarabasına... Sən də gəl... – təkrarladı.

Molla gönülə gəlsə də, ayağını geri qoymadı:

– Elə bilirsən, bir kərə havayı aparmaqnan, günahını yuyacaqsan?

Bulud borclu qalmayıb "ürəyigenişlik" elədi:

– Yox əşi, hardan?.. – razılıqla qalın qaşlarını oynatdı. – Belə böyük günahı bir dəfə ilə yumaq olar? Başqa çarəm yoxdu, gərək düz bir ay pulsuz-parasız gəzdirim səni... Otur...

Molla gülə-gülə maşına əyləşdi, Bulud motoru işə salıb maşını yerindən tərpətdi...

Molla xəbər aldı:

– Xeyir ola, maşını Atəşin evinin qabağında nədən saxlamışdın?

– Atəşin?.. – Bulud anlamayıb key-key gözlərini döydü. – Heç elə-belə... – desə də izahat verdi. – İstəyirdim bir axunda baş çəkəm, dəllək Həsən

zəng elədi ki, durma, bizə gəl, qızımı götür apar qaynanasının xarabasına... Day mənim də axunda dəyməyim qaldı sonraya...

– Hə, mən də fikirləşdim ki, bəlkə Atəşi harasa aparmağa gəlmisən...

– Kimi?.. Atəşi?.. – Bulud bərkdən xəbər alıb qəhqəhə çəkdi. – O xəsis taksiyə minəndi?.. Getsin qanqalın otlasın...

– Elə demə, Allaha acıq gedər, kasıbı lağa qoymaq gönüqalınlıqdı...

– Kasıb?.. – Bulud Xaliqin dediyini elə təkrarladı, guya, qulaqlarına inanmamışdı. – Kasıb a, molla Piridən ona o qədər qır-qızıl qalıb ki, bütün nəsil-nəcabətinə bəsdi... Tak şto, sənin gələcək qudan acından günorta duran-zad deyil, arxayın ol, altı doludu...

Mollanın dalağı sancdı, pərt oldu, istədi soruşsun, bəs, gələcək qohumluq məsələsini sən hardan bilirsən, sonra anladı ki, ucundan tutub ucuzluğa getmək dəlinin yadına daş salmaqdı, Bulud bilməyən şeyə qurd düşər.

– Gələcəkdən çox danışma, gözünü yumub açarsan, gələcək gəlməyə bilər...

– Mən şofer babayam, elə qəliz şeyləri qanmaram, bircə bunu bilirəm ki, Atəş xəzinə üstündə oturub... – toppuş yanağına yavaşca şillə vurdu. – Bu ölsün, düz sözümdü... Görərsən, mən ölü, sən diri... Sən onun xeyirdə-şərdə dəsmal götürüb yalannan ağlamağına baxma... Göz qaytarır o... Gözdən pərdə asmaq üçün yeri gəldi-gəlmədi hər yanda şikayətlənir, sızıldıyır...

– O vaxtdan indiyə qızıl qalar?.. – söz güləşdirməkdən çox Buludu qızışdırırdı nədənsə. – Bilirsən molla Pirinin nə qədər yetim-yesiri var idi?..

– Həlbət ki, qalar! – Bulud ürəklə dedi. – Xərclənməyən şey necə qurtarsın?... O ki qaldı yetim-yesirə, sağlığuva elə hamısının altı doludu, hamısı da əldən bərkdi, simicdi... Bilirsən nə bicdi onların nəsli, barmağını uzatsan, qolunu qopartmamış əl çəkməzlər...

* * *

Evə qayıdanda qocanın əhvalı korlandı. Bir xeyli həyətdə ora-bura vurnuxdu, evin dalındakı ot basmış darısqal cığırı keçib bürün dəlmə-deşiklərə göz gəzdirdi, zibil yandırdıqları qapqara dərəyə baxdı, gözdən uzaqdakı uçuq, hələ də divarlarından qarışıq peyin, palçıq, saman qoxusu çəkilməyən damın künc-bucağını yoxlamağa, üstəlik əyilib çoxdandı “sakinlərdən” məhrum taxtası çürük, qapısız hinə belə başını soxmağa ərinmədi.

Adəm şəklənib mollanın yanına gəldi:

– Nə axtarırsan, ay dayı?

– Bizim pişiyi axtarıram... – qoca kədərli-kədərli, yorğun-arğın, hıqqana-hıqqana cavab verdi. – Görəsən binəva heyvan qəfil hara yoxa çıxdı? Başına nə gəldi?

– Özünü üzmə, sabah minərəm velosipedə, bütün kəndi ələk-vələk eləyib o pişiyi taparam... Amma kefini pozma, pişiklər it kimi sədaqətli deyil, harda yeməyi bol oldu, orda da lövbər salır...

– Çünki pişiklər adamları yaxşı tanıyır. Bilir ki, məxluq çiy süd əmib, onlar sədaqətə-zada layiq deyil...

– Fikir eləmə, sabah harda gizlənsə, taparam o pişiyi, gəl bir çay verim, iç, sonra da bir tikə çörək ye, yəqin acsan...

– Yox, acmamışam hələ, amma çay içərəm...

Qoca evin qabağına gəlib masanın arxasındakı kresloda əyləşdi, Adəm armudu stəkandakı çayı onun qabağına qoydu, molla stəkanı yarılamağa macal tapmamış göy üzünü qapqara bulud aldı, əvvəlcə kövrək bir-iki damcı düşdü yerə, sonra bir yağış başladı ki, elə bil göydən yerə dayanmadan vedrə-vedrə su əndərirdilər, tut ucundan çıx göyə. Yağışın səsindən, göyün gurultusundan mollanın canına üşütmə düşdü. İstədi durub girsin evə, lakin baxdı ki, oturduğu yeri yağış tutmur, göy gurultusundan evdə gizlənməksə mənasızdı. Həm də çay içə-içə yağışa, təmizlənib toz-torpağı yuyulan budaqlara, yarpaqlara baxmağın, bir andaca hardasa gizləndiklərindən səsləri kəsilən quşların, it-pişiyin, mal-heyvanının sükutunun, yalnız yağışın laylasının xəyalına dalaraq oturduğun yerdəcə mürgüləməyin, tənbəl-tənbəl, etinasız-etinasız bir gözünü açıb digərini yumaraq yeni, təzə heç nə görməsən belə, guya, ətrafa tamaşa eləməyin ayrı ləzzəti vardı.

Yağış qəflətən başladığı kimi lapdan kəsəndə – ağ buludların arasından kəsərsiz günəş qorxa-qorxa boylandı – qoca fikirləşdi ki, yaxşı oldu, çox yağsaydı, həyət-bacanı, küçəni-məhəlləni sel-su, zığ-palçıq basacaqdı. Elə hər şeyin qədərində olmağı məsləhətdi. Yağış dayansa da, yarpaqların üstündəki, budaqlardakı, damlardakı damcılar hələ də "nazlana-nazlana", seyrək-seyrək, təkdənbir-təkdənbir yerə düşməkdəydi. Molla dərindən nəfəs alıb yağışdan sonrakı nəmişlik, təmizlik, yaşıl ot-ələf qoxuyan havanı ciyərlərinə çəkdi, bir anlığa üzünü göydə, buludların üstündə hiss elədi, canına yayılan ləzzəti çoxaldıb şitini-şorunu çıxartmamaqdan ötrü təsbehini masadan götürüb ayağa durdu, başmaqlarını bağçanın ləklərindən axıb gələrək talvarın altında göllənən suda şappıldada-şappıldada, yalın ayaqlarını soyuq suda islada-islada evə girdi. Otağa keçib elə soyunmadan, pal-paltarlı divana uzandı, bir hövr mürgüləmək, gözünün acısını almaq istəyəni əməlli-başlı yuxu tutdu. Nə qədər yatdığını bilməsə də, birdən səksəkə içində oyandı. Gözlərini açıb ətrafa baxdı, pərdəsi çəkilmiş pənçərədən düşən işıq tutqunlaşmışdı, deyəsən, hava qaralmağında idi. Dikəlib divanda oturdu, gözlərini ovuşdurdu, ayağa durdu, əl atıb divardakı düyməni basaraq otağın içığını yandırdı. Əyilib divanın üstünə düşən fəsini götürdü, ehmalca, səliqə ilə başına qoydu. Sonra otağın küncündəki qıfılsız-kilidsiz üstü butalı sandığa yaxınlaşdı, sandığı açıb üstdəki iri albomu götürdü. Keçib oturdu divanın qabağındakı masanın arxasına qoyulan stulda. Divanla üzbəüz... Albomu masanın üstünə qoyub vərəqlədi. Amma axracan vərəqləmirdi, çünki qədim, hələ də ona maraqlı görsənən şəkillər qabaqda idi, özü də rəngsizdi həmin fotolar, arxadakılarsa "cavan" və rəngli... Həmişə qocaya elə gəlirdi ki, nə sirr-sehr, cazibə varsa elə "dədə-baba", ağ-qara şəkillərdədi, rənglilər kəşf olunandan, çıxandan sonra çəkilən fotolar oyuncağa bənzəyir, cəlbedicilik yoxdu rəngli şəkillərdə...

Bu albomu açan kimi boylanan "canlı", hər birinin öz tarixi olan şəkillərəsə hərdənbir uzun-uzadı baxırdı. Orda atasının bozumtul, güclə sezilən şəkli vardı, anasının şəkli – görünür ata-anası heç vaxt bir yerdə şəkil çəkdirməmişdilər – vardı. İndiyəcən hər dəfə anasının şəklinə baxanda ağzında onun bişirdiyi və hələ də dadı damağından getməyən südlü aşın ləzzətli təmını duyurdu, duyduğu ləzzətdən xoşhallanıb qeyri-ixtiyari, sövq-təbii ağzını marçıldadırdı. Anasından sonra çox yerdə südlü aş yemişdi, arvadı da bişirmişdi, hələ allahsaxlamış Adəm də... Ancaq heç vaxt anasının bişirdiyi südlü aşın dadına-tamına çatmamışdı yedikləri. Adəm elə bil anadangəlmə, oxumamış aşpazdı, xüsusən balıq yeməkləri bişirməyin ustası idi. Di gəl, onun da südlü aşı anasının bişirdiyinə çatmazdı, söhbət dad-tamdan, ləzzətdən də getmirdi, Adəmin südlü aşına da pis, dadsız demək insafsızlıq olardı, uzaqbaşı imanı yandırıb tərəzini əyməməkdən ötrü qiymət belə qoyula bilərdi; tamam fərqli dad-tam idi, o qədər fərqli ki, elə bil ayrı-ayrı xörəklər yeyirdin... Elə o vaxtdan, yəni Adəmin südlü aşından bir-iki qaşıq dadandan sonra – baxma ki, kasıb ailədə böyüdüyündən uşaqlıqdan yeməyə qarşı vasvası deyildi, daşdan yumşaq nə olurdusa: "Bismillah", deyib həzmi-rabedən keçirirdi – südlü aş yeməkdən birdəfəlik əl çəkdi, heç yerdə südlü aşı yaxın qoymadı.

Cavanlıqda – onda uşaqları da olmamışdı hələ – arvadı ilə çəkdirdiyi şəklə baxdı. Yanaşı, ancaq ədəb-ərkanlı, oturmuşdular, yalan olmasın, aralarında bir nərmə-nazik, incə-mincə zənən də əyləşə – kişi xeylağının oturmasına Xaliq, elə arvadı da ömür-billah razı olmazdı – bilərdi. Arvadının toppuş, ağapaq yanaqları qapqara gözləri kimi işım-işım işıldayırdı, par-par yanırdı, deyirlər, guya, həyat eşqinin ölçüsüdü, əlamətidi gözlərin parıltısı... Hərə bir söz danışır, düzünü hardan biləsən? Yanındakı başına kəlağayı örtmüşdü. Sinəsinə atdığı qalın, qara hörükləri ağ kələğayının altından çıxıb fotonun aşağısında kəsilirdi. Onda elə Xaliq özü də keçəl deyildi, gur, sıx, qapqara saçları vardı. Molla şəklə baxa-baxa tez-tez xatırladığı fikirləri yadına saldı: "Ay arvad, o vaxt, o "Qurban bayramı"nda mənim sözümlə oğluna, gəlininə, nəvənə qoşulub getməsəydin, bəlkə indi də burda, mənim yanımdaydın". Belə düşünən qoca ağlına gələnlərdən şəklənirdi də... "Fəqət nə bilmək olar, deyirlər olacağa çarə, yazıya-pozu yoxdu, yoxsa bir deyil, min oğlun birdən üz vursa da, sən məni tək-tənha qoyub heç yana getməzdin, səni aparan aparıb... Biz nəkarəyik, günah nə səndədi, nə məndə..." – əlacsız-əlacsız boynunu bükərək taleyi ilə barışırdı.

Şəklə bir xeyli baxandan sonra albomu örtdü, aparıb qoydu sandığa. Masadakı təsbehini də götürüb düşdü həyətə, yayxandı kresloya. Yuxarıda, başının üstündə yanan elektrik lampasının işığına pərvanələr topalaşmışdı. Lampanın şüşəsinə dəyib istidən bir andaca qarsıyan pərvanələr iynənin ucu boyda olub masanın üstünə, yerə düşsələr də, yenə qaranlıqda işıq saçan yalancı, balaca "günəş"in ətrafından əl çəkmirdi.

– Maşallah, yaxşı yatmışdın, ay dayı, xorultun otağı başına götürmüşdü, ona görə qıymadım səni yuxudan oyadıb soyundurmağa... – Adəm yaxına gəldi.

– Düz iş görüb durğuzmamısan... – molla tənbəl-tənbəl əsnədi. – Gözümün acısını əməllicə aldım...

– Yemək gətirim, ya çay içəcəksən?..

– Yox hələ, tələsmə, sənə vacib sözüm var, otur... – qarşısındakı kresloda Adəmə yer göstərdi, guya, ayaq üstə dayanan kreslonu görmürdü və iznsiz ömür-billah oturmayacaqdı. – Çörək yemək, çay içmək qaçmır... Elə qarnımızın dərdini çəkə-çəkə bu günə qalmışıq, hələ bilmək olmaz dördayaqlılar çox bilir, ya biz...

– Nolub? – Adəm molla ilə üzbəüz əyləşib diqqət kəsildi. – Xeyirdimi, ay dayı?..

– Yox, xeyir deyil... – molla birbaşa mətləbə keçdi. – Düzdü, qədər Allahındı, amma gününü, saatını dəqiq bilməsəm də, ürəyimə damıb ki, bu yaxınlarda mən öləcəm... Lap yəqindi bu, zərrəcə şəkk-şübhə ola bilməz...

– Bu nə sözdü deyirsən, ay dayı, Allah eləməsin, kiş-kiş... – Adəm qocanın əvəzinə öz qulaqlarını çəkdi. – Qulaqlara qurğuşun, elə demə, qurban olum, yay vaxtı canıma üşütmə düşür...

– Sözümü kəsmə... Yekə kişisən day!.. Diqqətlə qulaq as, fikrin məndə olsun, səbət g...tündən gilas tökülmür!.. – qoca qəfil acıqlandı, amma düzəməlli anlamadı nəyə hirslənib. – Içimdəki səslər də belə deyir, yuxumu da görmüşəm... Aldığım əmanəti qaytarmağın vaxtıdı... Vaxtında, üzüsulu getmək də xoşbəxtlikdi, mən qurdnan qiyamətə qalmayacam ki... – onun sözünü kəsməyə ürək eləməyib səssiz-səmirsiz gözləri dolan, əlacsız-əlacsız əsən dodaqlarını gəmirən Adəmə baxıb həlimləşdi. – Mən öləndən sonra aləm bir-birinə qarışacaq, indikindən də qat-qat pis olacaq, böyük-kiçik bilinməyəcək, qohum-qardaş bir-birini didəcək, məxluq bir-birinin ətini yeyəcək... – azca ara verib davam elədi. – Ancaq sən bir damcı da qorxub eləmə, möhkəm dayan, nə baş verirsə versin, səbirli, təmkinli ol... And olsun and içib vəd verənə ki, axırda sən qalib gələcəksən...

Araya sükut çökdü. Qoca başını aşağı salıb təsbehini çevirməyə başladı, dənələri üsulluca bir-birinin yanına qoyurdu ki, çevirdiyinin səsi çıxmasın, onsuz da heç vaxt səsi çıxmayan xırda dənələrin hissolunmaz tıqqıltısını da eşitmək istəmirdi, sanki yaranan, çökən sükutun “ləzzət”ini, “dadı”nı özü ilə o biri dünyaya, axirətə aparmaq fikrindəydi, lakin hardansa qulağına qarışıq pıçıltılar gəlirdi, o qədər öləzik, yavaş ki, sözləri ayırd eləyə bilmirdi, ancaq o qarışıq pıçıltılara yazıq, çarəsiz bir pişiyin miyoltusu da qarışmışdı. O əlacsız, fağır, arasıkəsilməz, inadkar miyoltu çox-çox uzaqdan gəldiyindən, pişiyi axtarmağın, tapmağın və ən əsası, görməyin əlçatmaz, ilğım kimi aldadıcı olduğunu başa düşdü, yəqin buna görə ayağa qalxmaq nədi, heç qımıldanmadı da... Çünki ötəri, anicə gözünün qabağına gələnə, lap dəqiqi, gözünün qabağından keçənə inanmırdı demək də doğru deyil, məhəl qoymurdu. Bir anlığa hər şey adiləşmişdi onun üçün və bu yeknəsək adiliyin içində qızmar günəş altındakı ucsuz-bucaqsız səhrada susuzluqdan yandığının fərqinə varmadan, elə səhranın narın qumu rəngindəki qızılı pişiyin usanmadan, sağa-sola baxmadan harasa qaçmağı ona yaşamağın, candərdi, əlacsız ömür sürməyin özü kimi boş və mənasız gəlirdi.

Nəhayət, Adəm boğazındakı qəhəri uddu, qəfil zəhər dadan ağzını azacıq acıb dili ilə qurumuş dodaqlarını yalayaraq çəkinə-çəkinə astadan – elə bil kiminsə onları eşidəcəyindən qorxurdu – və gözlənilmədən kəkələyə-kəkələyə xəbər aldı:

– Kimə... kimə qalib gələcəm, ay dayı?..

Xaliq təsbehini masaya qoyub bir xeyli diqqətlə, dinməzcə, lal-mat Adəmin üzünə baxdı, cavan neyləyəcəyini kəsdirmədən kəsərlinə iztehza qarışmış, üstünə yumşaq ağ bulud çökmüş yorğun gözlərdəki dərin və hər şeydən bezmiş, əlini üzmüş, ölgün baxışların ağırlığına tab gətirməyib başını aşağı saldı, dolmuş gözlərini masaya dikdi, kirpiklərini qırpmağa qorxurdu ki, uzunsov sifətinə, batıq yanaqlarına yaş süzülər...

Axır ki, qoca qəflətən çox-çox uzaqlara gedib çıxan fikirlərinin yüyənini çəkdi, boğazını arıtladı, nədənsə, gec, lakin aram və qətiyyətlə cavab verərək kəsəsinə elə bircə kəlmə dedi:

– Özünə...

***2021-2022***


**OXUCULARIN NƏZƏRİNƏ!**

**“AZƏRBAYCAN”**

**jurnalına abunə yazılışı davam edir.**

**Əlaqə nömrələri:**

**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalın bir nüsxəsinin qiyməti 2 manat, illik abunə qiyməti 24 manatdır.**
**İNDEKS: 76300**

*Əli ƏMİRLİ*

# Ədəbiyyatın yolu "Azərbaycan"dan keçir



Yüz yaşlı "Azərbaycan" jurnalının əlli ili gözüm önündə keçib. Düz əlli il qabaq üç hekayəm və şəklim kiçik ön sözlə ölkənin ən nüfuzlu jurnalının səhifələrində göründü. Həyatımda bu, fantastik hadisə idi. Adlarını və şəkillərini ədəbiyyat dərsliklərində gördüyüm Məmməd Səid Ordubadi, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Mirzə İbrahimov, Süleyman Rəhimov, Əli Vəliyev, Əbülhəsən, Mehdi Hüseyn kimi Azərbaycan ədəbiyyatının canlı klassiklərinin sırasında, indi deyilən kimi, heç bir dəstəyi olmayan gənc adamın 75 min tirajla çap olunan, ölkənin ən ucqar kəndlərinə belə gedib çatan bir jurnalda ilk addımını atması fantastikaya oxşasa da, reallıq idi. Elə o vaxtdan bu günə qədər bütün yazılarımın, teatr dili ilə desək, premyerası məhz "Azərbaycan" jurnalında baş tutub. Mənim üçün bu jurnal, bir-birlərini üç-beş ildən bir əvəzləyən baş redaktorların kimliyindən asılı olmayaraq doğma məkana, doğma yerə çevrilmişdi. Əlbəttə, bu yerdə 1977-ci ildə məhz bu redaksiyada tanış olduğum və 1997-ci ildən bugünədək baş redaktor vəzifəsində işləyən İntiqam Qasımzadənin xidmətini məmnuniyyətlə vurğulayıram.

1960–1970-ci illər "Azərbaycan" jurnalının ən parlaq dövrlərindən idi. Dediyim kimi, jurnalın yuxarı və aşağı dairələrin diqqət mərkəzində olması, böyük tirajı, yüksək müəllif qonorarı bütün yazıçıları özünə maqnit kimi çəkirdi. İstedad dərəcəsindən asılı olmayaraq, hər bir yazıçı məhz "Azərbaycan" jurnalında çap olunmaq istəyirdi. O dövrün ən parlaq imzaları, o cümlədən Altmışıncılar adlandırılan ədəbi nəslin bütün nümayəndələrinin ən məşhur əsərləri bu jurnalın səhifələrində boy göstərirdi. "Azərbaycan" jurnalında çap olunmaq hər bir yazıçı üçün başucalığı olmaqla bərabər, ona hörmət, sayğı gətirirdi. Özümdən deyim; fəhlə-tələbə kimi Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin

axşam şöbəsində təhsil alırdım. Auditoriyaya girib davamiyyəti yoxlayan hər müəllim adımı çəkəndə mütləq soruşurdu: jurnalda hekayələri çıxan sənsən? Əlbəttə, müsbət cavabım təsirsiz qalmırdı.

Bu yüz il içərisində Azərbaycan ədəbiyyatının keçdiyi inkişaf yolunu əyani şəkildə görmək üçün ora-bura əl atmaq, kitabları ələk-vələk eləmək lazım deyil, elə "Azərbaycan" jurnalının özünü vərəqləmək, öyrənmək bəs eləyir. Çünki yüz yaşlı jurnal, demək olar ki, həmişə ədəbiyyatımızın doğru göstərən şəffaf güzgüsü olub. Bu güzgü düzü düz, əyrini əyri göstərib. Bəzən, xüsusilə də çağdaş zamanımızda jurnalın səviyyəsindən, keyfiyyətindən qərəzli və ya qərəzsiz narazılıq edən səslər eşidilir. Narazılıq edənlər unudurlar ki, Yazıçılar Birliyi yazıçı yetişdirmədiyi kimi, jurnal da ədəbiyyat yaratmır, olanların ən yaxşısını səhifələrində yerləşdirir, ümumi mənzərəni sərgiləyir. Müasir ədəbiyyatımız necədirsə, bütün nəşr orqanları, o cümlədən "Azərbaycan" jurnalı da elədir, bir fərqlə: mətbəə işi görüb özünü nəşriyyat adlandıran sexlər “puluna minnət” – deyib, müştəri nə gətirirsə, çox vaxt oxumadan belə, çap edirlərsə, jurnal redaksiyaya daxil olan yazıları saf-çürük edir, ədəbiyyat adına layiq olmayanları səhifələrinə yaxın buraxmır. Bu prosesin nə qədər çətin, ağrılı, hətta məşəqqətli olduğunu bilənlər bilir. Narazı səslər də çox vaxt jurnala yol tapa bilməyən müəlliflərdən çıxır.

"Azərbaycan" jurnalı çox mürəkkəb yaradıcılıq yolu, formalaşma prosesi keçib. Sovet ideologiya maşınının təsirindən tam yayına bilməsə də, mövcud olduğu bu yüz ildə, bir qayda olaraq, ölkənin, millətin mənafeyinə xəyanət etməyib, onun mənəviyyatını, mental dəyərlərini gücü və imkanı çatan qədər mühafizə etməyə çalışıb, ən vacibi isə, Azərbaycan ədəbi dilinin yaranmasında, formalaşmasında, qorunmasında və bugünki səviyyəyə gəlib çatmasında misilsiz rol oynayıb. Bunu elə jurnalın adının dilimizin inkişafına və formalaşmasına tədricən uyğunlaşdırılması əyani şəkildə göstərir. "İnqilab və mədəniyyət", "Maarif və mədəniyyət", "Revolyusiya və qultura", "Vətən uğrunda", "Revolyutsiya və kultura" adları ilə çıxan jurnal, nəhayət, 1953-cü ildən hamımıza doğma "Azərbaycan" adı ilə nəşrə davam etdi. Bu adlar müəyyən dərəcədə, həm də dilimizin inkişaf yolunun göstəricisidir. Amma unutmayaq ki, bu dili yaradan "Azərbaycan" jurnalının çoxsaylı istedadlı müəllifləri idi. Məhz həmin sovet yazıçıları dediyimiz müəlliflərin zəhməti və istedadı hesabına, Azərbaycan ədəbi dili yarandı, onların zəhmətinin, istedadının nəticəsidir ki, bu gün dünya ədəbiyyatının ən qiymətli və mürəkkəb nümunələrini doğma dilimizə çevirə bilirik. Bəlkə də o yazıçıların əsərləri bu gün az oxunur, adları gənc nəslə məlum deyil, bir çoxlarının yaradıcılığı orta məktəb dərsliklərindən çıxarılıb, onların yerini bəzən ədəbi taleyi şübhəli olan müasir psevdoyazıçıların opusları tutur, amma Sovet yazıçıları dediyimiz həmin nasirlərin, şairlərin yaratdığı gözəl ədəbi dil yaşayır. Bizə qalır o dilin

qədrini bilmək, onu yad təsirlərdən qorumaq və zamanın tələblərinə uyğun şəkildə inkişaf etdirmək.

Biz jurnal haqqında danışırıq, amma jurnal abstrakt bir şey deyil, o, öz-özünə mövcud da deyil, onu yaradanlar, yaşadanlar olub. Jurnalla əlli illik dostluğum dövründə Cəlal Məmmədovun, İsmayıl Şıxlının, Hüseyn Abbaszadənin, Əkrəm Əylislinin, Cabir Novruzun, Yusif Səmədoğlunun, nəhayət, İntiqam Qasımzadənin baş redaktorluğunu görmüşəm, hər birinin dövründə hekayə, povest, romanlarım, son iyirmi ildə isə, pyeslərim "Azərbaycan" jurnalında çap olunub. Amma baş redaktor təkbaşına buraxmır jurnalı. Odur ki, yubiley ilində bu uzun zaman kəsiyində redaksiyada gördüyüm, ünsiyyətdə olduğum, təəssüf, artıq dünyasını dəyişmiş yazıçıları, ədəbi işçiləri yada salmaq, adlarını çəkmək istəyirəm: Ənvər Yusifoğlu, Ağacavad Əlizadə, Sabir Süleymanov, Vaqif Musa, Sara Nəzirova. Onu da deyim ki, yazının əvvəlində qeyd etdiyim ilk üç hekayəmin jurnalda çap olunmasının səbəbkarı təvazökar, alicənab insan, istedadlı nasir, repressiya acısını şəxsən dadmış Ənvər Yusifoğlu idi.

Bu gün isə jurnalın baş redaktoru İntiqam Qasımzadədir. Əlli ilə yaxındır İntiqam bəy "Azərbaycan" jurnalında işləyir, 1997-ci ildən isə jurnalın baş redaktorudur. Yazıçıların bu günlərdə işini başa vurmuş XIII qurultayında Anar müəllimin haqlı təklifi ilə İntiqam Qasımzadəyə yenidən etimad göstərilmiş, 100 yaşlı jurnalın baş redaktorluğu ona həvalə edilmişdir. Bu seçim, bu etimad təsadüfi deyildi. İyirmi beş illik redaktorluğu dövründə İntiqam Qasımzadə jurnalı, sözün əsil mənasında, zamanın fırtınalarından, burulğanlarından salamat çıxara bilmişdir. Elə onun baş redaktor təyin olunduğu tarixə - 1997-ci ilə nəzər yetirmək və ölkənin iqtisadi vəziyyətini yada salmaq kifayətdir. Jurnalı həm maliyyə tərəfindən təmin etmək lazım idi, həm də ədəbi material sarıdan. Ölkənin ən yaşlı və ən nüfuzlu jurnalının ardıcıl çıxması üçün redaktordan çeviklik, inadkarlıq, gördüyü işin lazımlılığına möhkəm inam, hətta fədakarlıq tələb olunurdu. Siyasi hadisələrin axınına düşmüş millət kitab-jurnal oxumağı yadırğamış, kitab ticarəti iflasa uğramış, nəşr olunan kitabların tirajı minimuma enib qohum-əqrabanın sayına bərabər olmuşdu. "Azərbaycan" jurnalı da "olum ya ölüm" dilemması ilə üz-üzə qalmışdı. Bax, belə bir zamanda İntiqam Qasımzadə təmənnasız olaraq (o illər jurnalda əməkhaqqı yox dərəcəsində idi) jurnalı məhv olmaqdan qoruya bildi. Şükür, o zaman Ulu Öndər Heydər Əliyevin göstərişi ilə Yazıçılar Birliyinin bütün ədəbi orqanları kimi "Azərbaycan" jurnalı da maliyyə sıxıntısından qurtardı. Bu gün də dövlətin maliyyə dəstəyi davam edir.

Əlbəttə, maliyyə vacibdir, amma daha vacib olan jurnalın keyfiyyətli ədəbi materiallarla təmin edilməsi idi. Cəmiyyətdəki siyasi coşqunluq və bunun tam əksinə olaraq, ədəbi durğunluq şəraitində aylıq ədəbi məcmuəni yeni və keyfiyyətli əsərlərlə təmin etmək, eyni zamanda ənənəvi

kursa sadiq qalıb bədii "plankanı" saxlamaq çətin məsələ idi. Baş redaktor kimi İntiqam Qasımzadə bu çətin vəzifənin də öhdəsindən gəldi. Yaşından, təcrübəsindən, ad-sanından, ədəbi statusundan asılı olmayaraq, bütün istedadlı insanların üzünə açdı jurnalın qapılarını. Son illərdə yaranan ən yaxşı əsərlər, əvvəllərdə olduğu kimi, yenə də "Azərbaycan" jurnalının səhifələrində dərc olundu, hətta jurnala müxalif yazılarla çıxış edən, deyinən, jurnalı bəyənməyənlərə də yer verildi. Narazı səslərin müəllifləri də anladılar ki, ən etibarlı ədəbi səhifə açılıb-bağlanan internet saytları, portalları deyil, məhz "Azərbaycan" jurnalıdır. Əslində, bu qocaman jurnalda dərc olunmaq hər bir yazıçının istəyidir, amma istəmək azdır, buna layiq olan yazılar yazmaq gərəkdir.

Əlbəttə, jurnalın ayaqda qalmasında Baş redaktorun peşəkar kollektivə ehtiyacı var. Odur ki, ölkənin məhz tanınmış ədəbi simaları jurnalın əsas komandasında çalışır. Baş redaktorun müavini, qüsursuz ədəbi zövqə malik istedadlı tənqidçi və ədəbiyyatşünas Südabə Ağabalayeva, tənqidimizin Belinskisi adlandırdığım görkəmli ədəbiyyatşünas alim, elmlər doktoru Vaqif Yusifli, nəsrimizin görkəmli parlaq simaları Məmməd Oruc, Mübariz Cəfərli, poeziya şöbəsinin rəhbəri, görkəmli şair Qəşəm Nəcəfzadə, jurnalın məsul katibi, istedadlı gənc nasir Vüsal Nuru və başqaları jurnalın yaradıcı komandasının özəyidirlər. Məhz onların sayəsində jurnal uzun illər ərzində yaranmış, formalaşmış müsbət imicini, ədəbi reputasiyasını saxlaya bilir. Onu da tam əminliklə deyə bilərəm ki, məhz bu insanların sayəsində jurnala təqdim olunan heç bir yaxşı əsər geri qaytarılmır. Səbəb sadədir, hər bir ədəbi məcmuənin taleyi, nüfuzu onun səhifələrindəki əsərlərin keyfiyyəti ilə ölçülür. Odur ki hər bir mətbu orqan məhz yaxşı əsər sorağındadır, amma yaxşı əsəri tanıyan, duymağı bacaran peşəkarlarlara ehtiyac var. Bu sarıdan "Azərbaycan" jurnalı korluq çəkmir.

Ən vacib olan məqamlardan biri də ədəbi jurnalın funksiya və spesifikasınının doğru-düzgün yerinə yetirilməsidir. Ədəbi jurnal nə qəzetdir, nə tənqid dərgisi, nə sürüşkən başlıqlı yazılara qucaq açan internet saytı, nə də xəbər bülleteni. Ədəbi-bədii jurnalın, indiki halda "Azərbaycan"ın əsas vəzifəsi çağdaş ədəbiyyatımızın ümumi mənzərəsini konkret bədii əsərlər vasitəsi ilə göstərməkdir. Həmin mənzərənin təhlili, şərhi və qiymətləndirilməsi artıq tənqidin işidir.

Yubiley ili gələcək, bitəcək, onunla bərabər yubiley bayramı və təbriklər də səngiyəcək, həyat isə davam edəcək, Azərbaycanımızın adaşı olan "Azərbaycan" jurnalı yaşının 101-ci ilinə qədəm qoyacaq. Uğurlu olsun!



*Sevil GÜL NUR*

## TİTRƏYƏN ÖPÜŞ

Məndən sonra pozular günlərinin düzümü,
Sabahların sükutla, gecələrin lal keçər.
Ruhun eşq libasını soyunar öz əynindən,
Ayrılıq ürəyinə özün boyda qəm biçər.

Məndən sonra düzülər misralar da yan-yana,
Yüz şeir də yazılsa, ödəməz bir ağrını.
Köksün üstə alışan o köz səni yandırar,
Dodağında titrəyən öpüş didər bağrını.

Məndən sonra yozular yuxuların tərsinə –
O mənli röyaların bircəciyi düz olmaz.
Məni unutmaq üçün sayarsan günü, ayı,
Məni unutmaq isə bir ömürdən tez olmaz.

## ŞAHMAT OYUNU

Sənin də gücün bitdi, sən də çox zəif oldun,
Sən də dözə bilmədin bu dəlisov qadına.
"Dəlilik" dediyin eşq ağır gəldi ruhuna,
Bir anda verdin onu ayrılığın badına.

Bu qəlbdə bir sən vardın, yalandırsa, oy onu,
Al qılıncı əlinə, diri-diri soy onu.
Mən "eşq" dedim bu hissə, sənsə – şahmat oyunu,
Hansı gedişlər etdin, salım bir-bir yadına?

Son gediş mənim oldu, sən buna məcbur etdin,
Uduzdun bu oyunda, oldu məğlub niyyətin,
Səni unutmağımdır böyük məğlubiyyətin,
Məndən salam deyərsən yıxılmış inadına.

İndi çək öz ruhuna hicran vurduğu dağı,
Dur qarşıla ömrünə "təklik" adlı qonağı,
Xatirələr üşütsün ətrim dolan otağı,
Dizlərini qucaqla, "sızıltı" de adına.

İndi uzun gecələr çəkər səni çarmıxa,
Ağrıların birləşər səni kökündən yıxa,
Quduz həsrət acısı canından çətin çıxa,
Darıxmaq deyirəm e, gəl indi bax dadına.

## BİR OVUC ÜMİD

Bir şəhərlik məsafə,
Bir nəfəslik ayrılıq,
Geri dönməyən yollar...
Qarşımdasa Mark Levi –
Hələ "bir-birimizə
deyilməyən sözlər" var...

Hələ saf duyğuların
Tamam olmayıb ili.
Hələ ayaq izimiz
Kövrəltməyib sahili...

Cücərən hisslərindən
Bir qucaq misra dərdim.
Sən sevgi istəmişdin,
Bağışla, ömrüm-günüm,
Kasıbın olanından –
Mən sənə şeir verdim.

Bu gecə də mənləsən,
Gözlərimə qonaqsan,
Üzlü qonaqlar kimi
Dəvət də gözləmədən
Ciyərimə keçirsən.

Bilirəm, içkini tünd,
Çayı soyuq içirsən.
Nə hazırlayım sənə?
Soyuq çay, isti şeir –
De, hansını seçirsən?

Kükrədi boğuq səsin
Yenə qulaqlarımda,
Bu sərsəri ruhumu
Çəkdi dərinliyinə.
(Lənətə gələsən e,
Gecə-gecə işlədin
İliklərimə yenə...)

Yenə də dil bilməyən,
Susmayan ağrıları
Tapşırdım bu gecəyə.
Adını zikr eyləyib
Bir ovuc ümid içdim
Sənsizlik keçsin deyə...

## CAVABSIZ SUALLAR

Necəsən, mənsiz adam,
Ömrünə gün doğdumu?
Məndən sonra başına
Eşq yağışı yağdımı?

Ruhunu oxşamağa
Bir şeir yazıldımı?
Hansısa bir nəğməylə
Dərd yükün azaldımı?

Məndən sonra bir kimsə
Sənə məntək baxdımı?

Saçlarını oxşayıb,
Əllərini sıxdımı?

Hansı baxışla keçdi
Bunca ağrı, bunca ah?
Məndən sonra ömrünə
Yaz gəldimi, sən allah?

Keçdimi həyatından
Əlli qadın, yüz qadın?
Bircəciyi oldumu
Eşq ətirli söz qadın?

## SƏKKİZ DƏQİQƏ

Atasan qürurunu, keçəsən inadından,
İncik olduğunu da çıxarasan yadından,
Boylanıb ümidlərin gündoğan tərəfinə,
Ona məktub yazasan bu gecə öz adından.

Yazasan ki, susaraq həsrətimə alışma,
Gedişimə üsyan et, unutmağa çalışma,
Aş bütün əngəlləri, sərhədləri qırıb tök,
Aramıza sədd çəkən ayrılıqla barışma.

Yazasan ki, bir addım məsafədə dayanma,
Vüsal uzaq olsa da, çox yaxındır yol amma.
Hər dönüş bir ümiddir, hər ümid bir başlanğıc,
Ömür gözləmək üçün çox qısadır, yubanma.

Yazasan, tənhalığın ağrısı da səngimir,
Sənsiz şeirlərim də dəyişib ahəngini,
Ürəyim qəm bağlayıb adını söyləməkdən,
Gözlərim yuyulmaqdan itirib öz rəngini.

Yazasan ki, bilmirsən, yoxluğuna əsirəm,
Səndən incimirəm e, mən özümdən küsürəm.
Acığımı çıxıram sən sevdiyin hər şeydən –
Dodağımı didirəm, saçlarımı kəsirəm.

Yazasan ki, getməklə öz evimi yıxmışam,
Sonra giley edəsən: nə tez yaddan çıxmışam...
Göz yaşın ləkə sala yazdığın sətirlərə,
Kağızın sol küncünə yazasan: darıxmışam...

Yazasan ki, sənin də qəlbinə qəm yığılsa,
Gecələrin qoynunda ruhun qəfil sıxılsa,
Desən ki, "darıxıram, qurban olum, qayıt, gəl",
Allah haqqı, gələrəm, lap dünya da dağılsa...

Ya da dəli şeytanın dediyinə uyasan,
Səhərlərin birində qapısını döyəsən.
Səkkizcə dəqiqəyə sığdırıb hisslərini,
Bir şeir oxuyasan, "gəl barışaq" deyəsən...

## BİR ŞEİRLİK DARIXMAQ

Gedişinə qurban kəsib həsrəti,
Ağrıların köksünə dağ basaram.
Elə bilmə, yoxluğunu dərd edib
Ürəyimin yaxasından asaram.

Elə bilmə, uçar bu ev başıma,
Elə bilmə, udar məni dörd divar.
Darıxmağım böyük deyil boyumdan,
Allah haqqı, bir şeirlik ömrü var.

Bir gecədə unudulur gedənlər,
Bir gecədə o son şeir yazılır.
Ondan sonra qısa olur gecələr,
Ondan sonra ağrılar da azalır.

Yuxuyla da dil tapırsan o gündən,
Sözlərini kəsməyə də can atmır.
Daha sənə hücum etmir xəyallar,
Xatirələr dodağını qanatmır.

Özünə də hələ yaxşı baxırsan,
Soruşana deyirsən ki, babatam...
Daha məni dərd eləmə, yaxşımı?
Ürəyimi dincə qoydum, rahatam...

## BUZ QADIN

Ayağı büdrədi xəyallarımın,
Rəngli yuxularım qəfil dağıldı.
Günəşlə ulduzum heç barışmadı,
Bütün fəsillərim soyuqda qaldı.

Odlu baxışını yan et gözümdən,
Buz dağın əridib qaynadacaqsan.
Sevgi havasına kar idi ruhum,
Sən onu yerindən oynadacaqsan.

Şeirim asılacaq bir kor ümiddən,
Yarımcan ağrılar çıxacaq üzə.
Yanında min illik hörmətim vardı,
Abrımı tökəcək hissim kağıza...

Bir ağrı hayqırır sol tərəfimdə,
Ağlım hisslərimə baş əyir indi.
Mənim ürəyimdə doğulan şeir
Sənin nəfəsində yaşayır indi.

Mən buz qadınıyam şimal qütbünün,
Alova ögeyəm, atəşə yadam.
Belə isti-isti şeir yaşatma,
Səsində əriyib itirəm, adam...

*Hüseynbala MİRƏLƏMOV*



# SÖZƏ SƏDAQƏTİN ƏDƏBİ ÜNVANI

Ədəbi-bədii düşüncə tariximizdə özünəməxsus mühüm rolu olan "Azərbaycan" jurnalı düz yüz il əvvəl "Maarif və mədəniyyət" adı ilə yola çıxmışdır.

Ta o zamandan başlayaraq, yeni bədii əsərlərin Azərbaycan oxucularına çatdırılması kimi şərəfli bir missiyanı öz üzərinə götürmüş jurnal bir əsrlik tarixində bir çox ədəbi nəsillərin yetişməsində çox ciddi rol oynamışdır.

"Azərbaycan" jurnalı uzun illər tarixi baxımdan bir çox mədəni-siyasi təbəddülatların, ictimai formasiyaların, repressiyaların şahidi olmaqla bu mövzuları öz əsərlərində əks etdirən yazıçı və şairlərin mənəvi tribunası kimi fəaliyyət göstərmişdir.

Jurnal həm sovet dövründə, həm də müstəqillik dönəmində müxtəlif ədəbi nəsillərin fundamental ədəbi nümunələrinin ilk dəfə nəşr olunduğu mətbu orqan kimi öz aparıcı funksiyasını müasir dövrümüzdə də qoruyub-saxlamaqdadır.

Müxtəlif illərdə Tağı Şahbazi Simurq, Mirzə İbrahimov, Mehdi Hüseyn, Əli Vəliyev, İsmayıl Şıxlı, Cabir Novruz, Yusif Səmədoğlu və digər dahi ədiblərin həyata keçirdiyi baş redaktorluq missiyasını hazırda mənim yaxın dostum, Əməkdar incəsənət xadimi, publisist, tənqidçi, tərcüməçi İntiqam Böyükağa oğlu Qasımzadə uğurla davam etdirir.

İntiqam Qasımzadə ədəbiyyata, sözə sadiq olduğu kimi, dostluğa sədaqəti ilə seçilən şəxsiyyətdir.

İntiqam Qasımzadənin çox sevdiyim xüsusiyyətlərindən biri ədəbi həqiqətlərə prinsipiallığıdır. "Azərbaycan"ın baş redaktoru kimi fəaliyyətə başladığı 1997-ci ildən bəri İntiqam Qasımzadə son dərəcə prinsipial mövqeyi və tənqidi əsaslandırması ilə müəllifin kimliyindən asılı olmayaraq bədii cəhətdən zəif əsərlərin jurnala yol tapmasına

imkan verməmişdir. Bu da, zənnimcə, onun milli ədəbiyyatımıza ən böyük xidmətlərindən biridir.

Jurnalda mütəmadi nəşr olunan müəlliflərdən biri kimi Sözə sədaqətin yüz illik ədəbi ünvanı – "Azərbaycan" jurnalını, baş redaktor İntiqam Qasımzadə başqa olmaqla, bütün yaradıcı kollektivi yüz illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm, bundan sonra da şərəfli missiyasını nailiyyətlər və uğurlarla davam etdirməsini arzulayıram.

Böyük ədəbi yol keçmiş "Azərbaycan"ın bu yüzillik təntənəsindən jurnalı ərsəyə gətirib yaşadanlarla yanaşı, həm də buranı daim özünə ədəbi tribuna bilən hər bir müəllifə də pay düşür.

"Azərbaycan"ın yubileyi ömrünü ədəbiyyata bağlamış, sözlə nəfəs alan hər kəsin ədəbi bayramıdır. Yüz illik bayramın mübarək, doğma "Azərbaycan!"

***Firuzə MƏMMƏDLİ***



# Teleqram

*Doğma, sevimli, ata evi kimi əziz, ana ağuşu kimi munis "Azərbaycan" jurnalımızın 100 yaşını ürəkdən TƏBRİK EDİRƏM. Uzunömürlülüyü innən belə də 100 illərlə davamlı olsun!*

*Jurnalın müəlliflərə böyük etimad və qayğı ilə yanaşan fədakar əməkdaşlarına səmimi-qəlbdən təşəkkür edir, onlara öz dəyərli fəaliyyətlərində uğur diləyirəm.*

*"Azərbaycan" jurnalı mənim böyük ədəbiyyata yaşıl işıqlı yolum olub və beləcə də davam etməkdədir. Jurnalımıza və başda İntiqam Qasımzadə olmaqla, onun dəyərli əməkdaşıarına eşq olsun!*



*Avdı QOŞQAR*

## ÖNÜMDƏ TUTQUN SƏHƏRLƏRDİ…

Qarşımda uçmağa yol var –
uçammıram, a dədəmin yurdu!
Qucmağa o qədər bel var –
yana qanrılıb qollarım –
qucammıram, ay İsə dayımın qızı!..
Dərdin daşa dönüb çöküb qəlbimə…

Günəş canımı isidəmmir,
isidəmmir, a dağların qarı!
Sinəmi göynədən dəli harayım –
sallanır dərələrə sarı –
ilğıma əlim çatmır, a duman topası.

Önümdə tutqun səhərlərdi,
xeyirliyə açılın, a nur üzlü dan yeri…
Ruhumda kişnəyən kəhərlərdi,
aşıma qatılan zəhərlərdi –
udammıram, ay ölüm şərbətini içənlər!

Meydan şumluqdu – mən atlı,
A sonsuz bozqırlarda at oynadanlar!

Görünmür zülümün əzəli, sonu.
Mənəm – yüz qıfıllı qapı ayrıcı –
bütün qapılar üzümə bağlıdı,
açammıram, a qapı dalındakılar!

## NƏ DERSƏN...

***Şah İsmayıl Xətaiyə...***

Göyəmi çəkilim,
yerəmi girim –
yoxsa ilim-ilim itim, nə dersən?
Ay yerin sahibi, “göyün sultanı”,
“atalı-analı” yetim, nə dersən?

Sinəmi qabağa verib durummu?
qandalı, zənciri vurub qırımmı?
Al üzlü gündüzlər mənim yarımmı?
Qan üzlü səhərdə bitim, nə dersən?

Gedir sillə izi, getmir göz dağı,
damır salxım-salxım, damır buz dağı.
Gülün ləçəyində mənəm göz dağı –
Şişliyə çəkilir mətin, nə dersən?

Düz tatqır yabıda,
şər öz atında,
Min hiylə gizlənir –
xoş söz altında,
Söz deyə bilənlər –
sükut taxtında,
boynu kəndirdənmi bütün, nə dersən?

Bir arxdan su içir, bu çərxi gərdiş?
həyat bir ağunğaz, yaşamaq vərdiş?
Dəyirman daşıdır, fırlanır, dərdiş! –
Üyünür, tökülür ətim, nə dersən?

Çoxumuz yox olduq, vay azımızdan,
Yollar qırov tutur ayazımızdan,
Sözümüz keçməyir boğazımızdan –
Uyuşaq, tutuşaq çətin, nə dersən?!

## ÖMRÜM SƏNƏ FƏDA OLSUN

Ömrüm sənə fəda olsun –
dərdimin ortağı yarım!
Başım baxtı, evim taxtı!
Məni diri-diri qəbirə qoyma.
qıyma nərə çəksin ruhum gecələr...
qoyma ağrı-acı gətirsin bu dərd.
Toparla cismini, ağrıya dov gəl,
yeddi qat soyuma yetərli bu dərd!

Canda təpər varsa, iradə varsa,
ağrı bütöv canın çuxası deyil,
ruhunu dik saxla, yıxası deyil...
Qılınc da – qınından çıxası deyil...
qıjqovdu səssizcə axası deyil
"Çoban aldandı" – yağası deyil,
Od tutan Əslinin yaxası deyil
Cəhənnəm odundan betərdi bu dərd!

Bilirsən, hər şeydən bulanan suyam,
gümanım qalmayıb təzə dən əkim!
Payız yeli əsir ömür dağımdan!
bir şair nə gözəl rəsmimi çəkib, –
"Dərd başımdan tutub, qəm ayağımdan".

Nə yaman sərt əsdi payız yelləri,
əzdi çiçəkləri, tökdü gülləri –
Qoyma ayaqlarda payəndaz olum,
qoyma adım gəzsin dildə-ağızda!
Qoyma döngələrdə dirənsin yolum –
həsrətim göyərsin hər gələn yazda...
Onsuz da iynəylə gor qazıram, gor –
yaza bilmədiyim sətirdi bu dərd!

Məni oğul-uşaq əlində qoyma,
içimi suvaran gözüm yaşıdı...
Ana yetimliyi, xatın itkisi –
dünyanın ən ağır əhlət daşıdı...
Qoyma daş ələnsin başıma göydən,
qoyma pambıq ömrüm odlara yansın!

Ürək rahatlıq tapmırsa evdə –
Yetimdi – lap başı ərşə dayansın!
Mənim ərşə yetən başım, ağrıma!
Mənim yaz gətirən qışım, ağrıma!
Tale payı kimi bəxtimə düşən, –
ürəyimi əzən daşım, ağrıma!

Necə daşıyaram bu yükü sənsiz,
bu varlıq çiynimdə duz yükü sənsiz.
duz yüküm, söz yüküm,
başa sal görüm,
necə ömür sürüm, sənsiz ürəklə?
necə çay yuxarı üzüm tərsinə?
tək necə çarpışım sözlə, çörəklə?
Məxluq çay aşağı dolanıb gedir,
içim bu dünyaya calanıb gedir.
Gedir, cismim, canım talanıb gedir,
sən idin bu yolda önümü kəsən,
sən idin üstümdə yel kimi əsən.
Əsənim, kəsənim, canım, ağrıma,
Ürəyim tutuşur, yanır, ağlama!
Baxıb üşüyürəm gücsüzlüyümə,
İnsana yenilməz güc verən haqdır,
Gözünkü qırıldı ağrı önündə –
cismin yavaş-yavaş oturacaqdı –
Gedib dirənəcək ölümə qədər,
bunları söyləmək bəlkə günahdır...
Şeytanamı uyduq, şərəmi döndük,
qəzaya-qədərə yetirdi bu dərd.
Bu yaşda dərd-bəla gətirdi bu dərd,
Səni karvanlara qoşub apardı –
məni öz içində itirdi bu dərd.

## SAĞLAM TOXUM

Hayıf bizdə olan mərdlikdən, oğul,
bütün ətrafımız namərd yığnağı –
gah hiylə qururlar,
gah tor atırlar, –
kösöv qarışdırır, alov atırlar...
Dünən də beləydi – yazıqlar bizə
Bu gün də dünənin həmən təkrarı.

Yenə aldanırıq deyilən sözə,
yenə yağdırırlar tufanı, qarı...
işdə bir siyasət – deyib aqillər,
öncədən yol-ərkan çəkilər əlbət.
Yol ayaqla tapdanar,
torpaq kotanla əkilər...
ömür yolumuz kimi –
ağ torpağı qara eləyib, –
eninə, uzununa şumlamazlar!
Kəhəri qatır yerinə,
Qıratı ayğır əvəzi
çidarlayıb danlamazlar.
Saf dən – mərd igid kimidir –
gərəkdir qədri bilinə,
qara torpağa əkilə,
dəmir külünglə bellənə!
Yoxsa toxumun qədrini bilməyən əkinçinin
əli boş qalar,
İgidinin qədrini bilməyən tayfanın qucağı.

* * *

Yer-göy qan iyi qoxuyur,
yovşandı, otdu, ay baba!
Qayası cadar-cadardı –
ürəyi çatdı – ay baba!

Susur, hönkürür, qovranır,
qana bələnib yorğanı,
Küt bir qılıncla doğranır –
qulunu, atı – ay baba!

Alt qatı üstünnən ağır,
palçıq kimi çevir, yoğur,
Olan canımızı soğur, –
Xümsü-zəkatı – ay baba!

İpi doğranan yaydınız,
zülmət örtdüyü aydınız,
bizlərə necə qıydınız? –
bu xarabatı, ay baba?

## ADIN HEÇ YADDA QALMIR

***(bir oxucu məktubundan)***

Adım ada qalsın, adlara qalsın,
adım bir addı ki, yadında qala.
Nə çağırmaq olur,
nə dilə yatır –
nə də ki ürəyin çatında qalır,
Ad nə desən olar,
əməl qalandı,
çox əməl sahibi – ölüb talandı...
Ad deyil – gülləyə uçan ilandı –
Qıvrılıb qatarın altında qalır.
özümə oxşayıb – kələk ötürdü
çölünü içinə ötür-ötürdü,
Şərqi deyə-deyə duza gedirdi –
aşkara oxumaz – batində qalır.
İçinə basılı qalıb çiyini –
Nimdaş görkəmdəydi –
üstü-əyini,
Nə açar bir kəsə –
qəlb istəyini –
nə umar bir kəsin yadında qala!
Adam görkəminə baxıb söyünər,
dərəyə daş atar, dağa öyünər,
Əyninə torpaqdan paltar geyinər –
Torpağın yeddinci qatında qalar.

## GETDİN, ALOVLARA QALADIN BİZİ

Getdin, alovlara qaladın bizi,
suvandı odamız həsrətlə, qəmlə...
bir az nizama sal –
gor evimizi, –
gəlirəm bir yaxşı ot çayı dəmlə!

Ruhun tanrılara daha yaxındı,
öyrən nə deyirlər gedib-qalannan?!
Sanırdım bu bizdən kənar axındı –
Canım səksəkədə sən gedən annan!

Əcəl qapımızı döydü qış kimi,
hamıdan tez verdin əcələ yaxa!
Gördüm gözlərində həyat eşqini, –
Qoymurdun ruhunu bədənnən çıxa.

İlk dəfə anladım gücsüzlüyümü,
İlk dəfə gördüm ki, "mağmin bəndəyəm".
O ki çırpınırdın ölüm qabağı
Mən elə indi də həmən gündəyəm!

Gün nədi, ay nədi, ilim beləcə, –
oynayır şimşəklə, oynayır odla.
Gəlim qabağında ölüm beləcə –
ölüyə nə var ki, dirini ağla...

Nə ölü, nə diri öz yerindədi,
Dəyişib günəşlə ulduzun yeri.
Ayrılıq quyusu çox dərindədi,
Uçdusa, qayıtmaz bir daha geri.

...Üstünə qoyulan sinə daşıdı,
pərdətək çəkilib sanki torpağa.
Səni bəşər bilib, sevib yaşadım,
bir müsəlman kimi qoydum torpağa.

Uddu qara torpaq tale ilkimi,
Allaha, fələyə kəsildim asi!
Sona çatan ömür Tanrı yazandı,
mənim əlimdədi –
bundan sonrası.

Saralıb budaqdan ayrılır yarpaq
sən erkən qopardın ömür tağını.
Sənə qucaq açdı anamız torpaq,
çətin mənimkidi – haranı seçim?
Hansı xarabanın künc-bucağını...

## YÜKÜM AĞIR OLDU...

Yüküm ağır oldu –
cəza sahibi.
Yanar oda yandı –

əza sahibi...
Günahı çox idi – qəza sahibi? –
Ya xətri, hörməti –
yanına çəkdin.

Heyif, ömrü gedək –
bar ağacıydı,
zinət ağacıydı, var ağacıydı.
Yağdı, tez əriyən qar ağacıydı –
Bir azca tələsdi –
bir gələcəkdik.

Gecikən, tələsən –
nədi, nə bilim?..
Titrəyən ürəkdi, simdi, nə bilim?
bunu əyarlayan kimdi, nə bilim?
Kimi ağac əkdi,
kimi qəm əkdi...

## OĞUZ BABAM, OĞUZ YURDUM

Möhtəşəmliyindən çox
ağrıların göynədir sinəmi.
Oğuz babam, Oğuz yurdum!
İnsan ağrı çəkəndə böyüyür,
ölümsüz olur – ağrıdan vurulan!
Ən böyük insan – ağrısı böyük olandı,
ən böyük dövlət – qanla qurulan!
ən urvatlı igid – sinəsindən vurulan...
Qandan-qadadan keçdi yolun,
nə qandan pəsindin, nə qadadan.
neçə qiyamata tuş gəldin.
Dəryalar kimi böyüdün, nəhrlər kimi doldun,
iç oğuz, diş oğuz, daş oğuz oldun!
bölündün, paralandın –
yurd-yurd, oba-oba yaralandın...
sevgindən vuruldun,
mərdliyindən sındırıldın!
Ocaq-ocaq damğalandın, –
tonqal-tonqal yandırıldın!
için çölünə yaraşıq,
çölün-için – dürlü-dürlü...

ərənlərin kimi dönməz,
Şahım, sultanımtək məğrur!
Oğuz babam, Oğuz yurdum...
at ağızlı oğulların
Köksün üstdə meydan qurdu,
Gündoğandan-günbatana
Karvan-karvan köçün bəlli,
gəlimli-gedimli dünya –
varın bəlli, heçin bəlli.
İzindən göyərən daşlar –
izini görünməz etdi,
başa keçib baş oldular,
ürəklərdə daş oldular,
baxışlarda yaş oldular...
yenə uca taxtındasan –
Oğuz babam, Oğuz yurdum!
zaman aşındıra bilmədi sizi!

* * *

Ruhum heç barışmadı
göyünnən, yerinnən sənin...
Nə dost oldum, nə də düşmən –
ölünnən, dirinnən sənin!

Bu nə mizandı qurulu?
köhləni başdan yorulu...
Altun dağların yarılır –
içinnən, dərinnən sənin.

Yaradana sarı gəldim,
bəsincə yüklədi dərdi –
Nə sevgi, nə vəfa gördüm –
"Mövlannan, pirinnən" sənin.

Ərənin, qoçun ovlanır,
qannı yaralar hoylanır,
neçə əbləhin boylanır –
bətnindən, tənindən sənin...

## AZƏRBAYCAN ƏSGƏRİ

Sür atını dağlara,
aranda qala qurdun,
Bir az oyat yaddaşı,
bir az yırğala yurdu.
Sən ordular içində
basılmayan bir ordu
Yar qarşına atılan
keçidləri, sədləri –
Azərbaycan əsgəri…

And olsun al Günəşə,
bu qüdrət haqdan gəlir,
Canda qanı oynadan
yaddaşdan, vaxtdan gəlir,
öləziyən ümiddən,
sönən çıraqdan gəlir,
endir zəfər cəngini – endir, titrətsin yeri –
Azərbaycan əsgəri.
Babaların çıxdığı bu dağları silkələ,
Dərbəndə elçi göndər,
Zəngəzura əl elə.
Tarixi şans yaranıb fürsəti vermə yelə,
Pozulan sərhədləri qaytar yerinə – geri –
Azərbaycan əsgəri.
Sən millətin yenilməz bətnindən
qopan tufan,
Sən millətin torpağa
caladığı təmiz qan,
O qanın işığında
Yuyunur Azərbaycan.
Görünür üfüqlərdə hür bayrağın al rəngi –
Azərbaycan əsgəri.

Azərbaycan doğulur – od-alov yağışından,
Qan püskürür Şuşanın torpağından, daşından,
Bir az istilik qopar Savalanın başından!
Tut başını yuxarı, ver sinəni irəli –
Azərbaycan əsgəri!

## YANAŞI

***Mövlud Qəhrəmanova məktub***

Mövlud müəllim, qayğı qoşa doğulur,
yanan qəlblə bilən başla yanaşı.
Həyat özü – qoşa yazır qovğanı,
nəmli gözdən axan yaşla yanaşı.

Dörd yanı var – bu məkanın,
dörd üzü...
hamısından ağır gələr – dərd üzü,
boyatıyır, işə keçmir – mərd izi –
yad qapıya düşən daşla yanaşı.

Məxluq – həyat meydanında piyada,
güvənc yoxdur nə doğmaya, nə yada.
Görübsənmi su içində tək ada –
tufanıyla, yağışıyla yanaşı.

Müdrik kişi, igid kişi, nər kişi,
yaranışdan suvar kişi, ər kişi.
Bu dövrana tab gətirməz hər kişi –
bir olmasa, qəlbi başla yanaşı.
Minik olsun – nə kəhər at, nə yabı,
bu küllükdə kimdi soran hesabı?
Vaqif demiş – "Kef-damaqdır əzabı",
gələn yaşla, ötən qışla yanaşı.

*Rüstəm KAMAL*



# Azərbaycanın "Azərbaycan"ı

"Azərbaycan" jurnalı ilə məni bir uşaqlıq xatirəsi bağlayır. 70-ci illərdir, orta məktəbdə oxuyuram. Ədəbiyyat həvəskarıyam. Bu kənd uşağının ən böyük arzusu bu jurnala abunə olmaq idi. Kəndə abunə yolu ilə jurnalın bir neçə nüsxəsi gəlirdi. Abunəçiləri də, məlumdur ki, kənd ziyalıları olurdu. Mənim atam isə fəhlə idi.

Hər il abunə kompaniyası başlayanda "Azərbaycan" , "Ulduz" jurnallarının, "Ədəbiyyat və incəsənət" qəzetinin adlarını iri hərflərlə vərəqə yazıb atama verirdim ki, kənd sovetinə təqdim etsin. Amma kənd soveti katibi "ənənəsinə sadiq qalıb", partiya-ideoloji yönlü bir sürü qəzeti bizə sırıyırdı...

Taleyin işinə baxın: vaxtilə məndən ötrü əlçatmaz olan bir jurnalın indi redaksiya heyətinin üzvüyəm...

"Azərbaycan"da ilk yazım, səhv etmirəmsə, 1999-cu ildə çıxıb, "Kitabi-Dədə Qorqud"un 1300 illiyinə həsr olunmuş nömrəsində. Bu hadisədə mistik bir məqam görürəm. Dostlarım "Kitabi-Dədə Qorqud"un mənim taleyimdə yerini yaxşı bilir – bu haqda geniş təfərrüata varmaq istəmirəm.

"Azərbaycan"la əməkdaşlığımın (doğmalığımın!) əsas dövrü İntiqam Qasımzadənin baş redaktorluğu dönəminə düşüb – təxminən 23 il edir. Maşallah, bir igidin ömrüdür...

Ədəbi dilimizin ciddi qorunduğu məkanlardan biri və birincisi "Azərbaycan"dır. İdeologiyalar dəyişdi, amma jurnalın ədəbi dil siyasəti dəyişmədi. Hətta akademik üslubda yazılmış məqalələr "Azərbaycan"ın estetik sınağından keçməli olur. Dil məsələsində burda nə qoca, nə də cavan yazıçıya güzəşt yoxdur. Xüsusən Südabə xanım Ağabalayevanın müasir ədəbiyyatşünaslığın termin

tünlüyünə və anlaşılmazlığına qarşı tələbkarlığının, deyərdim ki, fanatik diqqətcilliyinin dəfələrlə şahidi olmuşam.

Dövrlər, ideoloji-siyasi, tarixi-mədəni kontekstlər dəyişib. Redaktorlar dəyişib. Sürətlə dəyişən ədəbi peyzajda jurnalın simasını, ənənələrini və ədəbi-estetik meyarlarını qoruyub saxlamaq səbr və fədakarlıq tələb edir. Bu işdə jurnalın baş redaktoru İntiqam Qasımzadənin xidmətləri danılmazdır. Ədəbi peyzaj dəyişsə də, jurnalın ənənələrini, estetik meyarlarını qoruyub saxlamaq məsuliyyət və fədakarlıq tələb edir. İntiqam müəllim Yusif Səmədoğlu xatirələri ilə baş-başa qalıb jurnalın ağır günlərində belə, ümidini itirmədi. Azərbaycanın "Azərbaycan"ını qoruyub saxladı.

Kim nə deyirsə desin, redaktor və yazarlar arasında həmişə gözəgörünməz konflikt var. İntiqam müəllimin baş redaktor kimi ustalığı ondadır ki, bu konfliktin mənasız mübahisələrə, umuküsülərə çevrilməsinə qətiyyən imkan vermir. Uzun illərin təcrübəsi, səmimiyyəti və səbri öz sözünü deyir. İstedadlının nazı ilə oynamağı, qrafomana isə qapını göstərməyi bacarır.

Bu yaxınlarda, mənim altmış illiyimdə zarafatla bəzi "sirlərimi" açıb tökdü. Bir müəllif kimi mənimlə işləməyin çətinliyindən və özəlliyindən söz açdı və sonda İntiqam müəllim jurnalın hər nömrəsi üçün yazı gözlədiyini bildirdi. – Bu, əlbəttə, mənə şərəf və qürur verir.

Baş redaktor aktyor kimi bir neçə "ömür yaşamalıdır": neçə əlyazma onun əlindən gəlib keçir, neçə müəllifin mətnini ruhunun "köynəyindən keçirir". Ona görə də mənim tanıdığım İntiqam Qasımzadə ən tənha adamlardan biridir. Xoşgörüsünə, ünsiyyətcilliyinə baxmayaraq, üzündən-gözündən yorğun bir tənhalıq yağır. Digər tərəfdən, məhz onun peşəkar tənhalığı oxucu və yazıçının "astar üzü"nü görməyə imkan verir.

Həmişə düşünmüşəm ki, ədəbi dərgilərin üz qabığına redaktorun şəkli niyə vurulmur? Axı, bütün bədii mətnlərə onun da enerjisi yansıyır...

"Azərbaycan" jurnalı Azərbaycan mədəniyyətinin (və mənəviyyatının!) ən vacib layihələrindən biri kimi bu gün də işini davam etdirir. 100 yaşın mübarək, taleyimin jurnalı!

# ♦Yeni tərcümələr

*Mario VARQAS LYOSA*



***1936-cı ildə doğulub. Peru nasiri, dramaturqu, esseist və siyasi xadimidir. Nobel mükafatı laureatı, Fransa Akademiyasının üzvüdür.***

# *Əlbəyaxa döyüş*

♦ ***Hekayə***

Hər şənbə olduğu kimi, yenə də "Rio bar"da oturub pivə içirdik ki, birdən Leonidas qapıda peyda oldu. Üzünün donuq ifadəsindən nəhs bir şey baş verdiyini anladıq. Leon maraqlandı:

– Nə olub belə?

Leonidas bir stul götürüb, bizim masada əyləşdi:

– Susuzluqdan yanıram. İçmək istəyirəm.

Stəkanı necə ləbələb doldurdumsa, daşan köpük axıb süfrəyə töküldü. Tələsmədən köpüyü üfləyən Leonidas qabarcıqların ard-arda partlamasına maraqla tamaşa eləyirdi. Ardınca bu içkini birnəfəsə başına çəkib bildirdi:

– Bu gecə Husto əlbəyaxa döyüşə girəcək.

Bir müddət hamı susdu. Leon pivəsindən qurtumlar alır, Brisenyo isə siqaretini tüstülədirdi.

Leonidas sözünün ardını gətirdi:

– Tapşırdı ki, sizi xəbərdar edim. Sizin də ora gəlmənizi arzulayır.

Ən nəhayət, Brisenyo söhbətə qoşuldu:

– Nə səbəbə axı?

Alnının tərini silən Leonidasın havada yellədiyi əlindən döşəməyə tər damlaları sıçradı:

– Bu gün Katakaosda onunla rastlaşıblar. Ardını isə danışmağa bir hacət yoxdur...

Leon dedi:

– Nə isə. Onlar gec-tez dalaşacaqdılar, indi ki, belə oldu, qoy hər şey məlum qaydalara uyğun getsin. Heç nədən qorxub-çəkinmək lazım deyil. Husto nəyi necə edəcəyini bilir.

Gözləri yol çəkən Leonidas da razılaşdı:

– Hə, bəlkə də belə məsləhətlidir.

Pivə şüşələri boşalmışdı. Əsən güclü külək Meydanda orkestrin çaldığı melodiyanı bizə qədər gətirirdi. Şəhərkənarı gəzintidən dönənlər dəstə-dəstə körpüdən keçirdilər, sevişmək üçün sahildəki kölgəli guşələrə çəkilən aşiq-məşuqlar isə artıq öz daldalanacaq yerlərindən çıxmağa başlamışdılar. Onların əksər qismi "Rio bar"ın yanından ötür, bəziləri isə bara baş çəkirdilər. Az sonra bütün terras uca səslə deyib-gülən qadın və kişilərlə dolub-daşdı.

Leon xatırlatdı:

– Doqquz tamama bir şey qalmayıb. Gedək.

Çıxdıq. Leonidas dedi:

– Hə, qardaşlar, pivəyə görə təşəkkürlər.

Brisenyo dəqiqləşdirdi:

– Əlbəyaxa döyüş "Sal"ın yanında olacaq da, eləmi?

– Hə, amma on birin yarısında Husto bizi burada gözləyəcək.

Qoca bizə əl yelləyib, Kastilyas prospekti (Perunun paytaxtı Limanın cənub səmtindəki bir prospektdir, görkəmli hərbçi və dövlət xadimi, Müstəqillik uğrunda savaşın iştirakçısı Ramon Kastilyasın adını daşıyır. R.Kastilyas 1845-51 və 1854-62-ci illərdə Perunun prezidenti seçilib – Tərc.) ilə yola düzəldi. O, çimərliklərin başlandığı ucqar məhəllədə yaşayırdı. Darısqal evi sıldırım bir qayanın başında idi, sanki o zirvədə qərar tutmaqla, bütün şəhərin keşiyini çəkirdi.

Baş meydana çıxdığımız zaman oranın boşaldığına şahid olduq. Turist otelinin böyründə dayanan üç-beş cavan qızğın söhbətləşirdilər. Yanlarından ötərkən aralarında yaraşıqlı bir qızın olduğunu da gördük. Qız gülümsünürdü.

Qəfildən Brisenyo dedi:

– Topal onu gəbərdəcək.

Leon ona təpindi:

– Nəhs gətirmə də.

Kilsənin böyründəki tində ayrıldıq. Yeyin addımlarla evə tərəf yönəldim. Evdə heç kəs yox idi. Kombinezonu və bir cüt yun köynəyi əynimə geyindim, şalvarımın arxa cibinə isə dəsmala bükülmüş bıçaq qoydum. Qapıdan çıxmaq istəyəndə arvadımla qarşılaşdım.

– Yenə gedirsən?

– Hə, bir işi yoluna qoymalıyam.

Qucağında yuxulu oğlumuzu tutan arvadım məni dilə tutdu:

– Axı sən səhər o başdan durmalısan. Yoxsa bazar günləri işlədiyini də tamam unutmusan?

Ona təsəlli verdim:

– Heç narahat olma. Beş-on dəqiqəyə geri dönəcəm.

"Rio bar"a qayıdıb, dəzgahın qarşısında yerimi tutdum. Pivə ilə sendviç sifariş versəm də, onu yeyib-bitirə bilmədim: iştaham küsmüşdü. Qəfil kimsə çiynimə toxundu – qanrılınca, bunun bar sahibi Moyses olduğunu gördüm.

– O döyüş söhbəti gerçəkdir?

– Hə, "Sal"ın yanında baş tutacaq. Ancaq sən bu barədə dilinə heç nə gətirmə.

– Sənin məsləhətlərinə ehtiyacım yoxdur. Məsələnin təfərrüatından mən səndən qabaq agah idim. Sadəcə Hustoya yazığım gəlir, çünki o, özü çoxdan bəri bu cür fürsət axtarırdı. Topalın hövsələsiz olduğuna isə özün də yaxşı bələdsən.

– Yaramazın biridir o Topal.

Moyses:

– Amma əvvəllər sən onunla dost idin… – desə də, fikrini tamamlaya bilmədi, terrasdan onu səslədikləri üçün getdi. Bir neçə dəqiqə sonra təkrar böyrümdə peyda oldu:

– Bəlkə mən də sizinlə gəlim?

– Yox, məsələni biz öz imkanlarımızla çürüdəcəyik. Təşəkkürlər.

– Elə olsun. Ancaq nədəsə köməyim dəyərsə, bircə işarəniz yetərlidir. Axı Husto mənim də dostumdur, – deyib, icazəsiz-filansız mənim parçımdan bir qurtum aldı. – Dünən axşam Topal başının dəstəsiylə burda idi. Kəlməbaşı Hustodan söz salır, onu tikələrə ayıracağına and içirdi, mən isə elə hey dua edirdim ki, həmin vaxt siz yolunuzu buralardan salmayasınız.

– Həmin dəqiqələrdə o Topalın sir-sifətini nə görmək istəyərdim. Axı o, cırnayıb özündən çıxanda, üzü hədsiz gülünc şəkil alır.

Moyses qəhqəhə çəkdi:

– Hə, haqlısan, o, hazır şeytana oxşayırdı. Ümumiyyətlə, Topal idbarın biridir. Üzünə çox baxanın ödü ağzına gələr.

Parçımdakı pivəni içdim, sahildə bir az gəzişib, dərhal bara qayıtdım. Qapıdan içəri keçən kimi nəzərim Hustoya sataşdı: terrasda təkbaşına əyləşmişdi. Ayaqlarında krossovka vardı, əynindəki nimdaş jaketin iri yaxalığı isə boyun-boğazını qulaqlarına qədər qapamışdı. Qapqaranlıq küçənin fonunda yandan görünən sifət cizgiləri necə zərif idisə, tanımayan birisi hər halda onu qadına, ya da uşağa bənzədərdi.

Ayaq səsimi eşidincə, geri qanrıldı və mən onun üzünün yarısını, həm də ağzının kənarından ta alnına qədər uzanan o bənövşəyi rəngli ləkəni gördüm.Bəziləri deyirdi ki, bu, hələ uşaq vaxtı öz taytuşlarıyla dalaşarkən Hustonun aldığı bir zərbənin izidir. Leonidas isə and-aman edirdi ki, bəs Husto böyük daşqın günü dünyaya göz açıbmış, anası sel sularının evin kandarına qədər qalxdığını görərkən dərin qorxu hissi keçirib və bu ləkə də həmin təlaşın körpədə əks olunan izi imiş.

– Hə, mən burdayam, – dedi. – Bəs qalanlar hanı?

– Bir azdan gələrlər. Əlbət, yoldadırlar.

Husto düz gözlərimin içinə baxdı. Sanki indicə gülümsəyəcəkdi, ancaq qəfildən ciddiləşib, üzünü yana tutdu.

– Bu axşam nələr baş verib axı?

Karıxmış halda çiyinlərini dartıb, anlaşılmaz bir əl hərəkəti elədi:

– Onunla "Batmış araba" barında rastlaşdıq. Yüngülvari boğazımı yaşlamaq istəyərkən, Topalla, dəstəsilə üz-üzə gəldim. Başa düşürsən də? Əgər keşiş söhbətə qarışmasaydı, boğazımı çoxdan üzmüşdülər.

* * *

Topal ona çımxırıbmış:

– İndi sən guya özünü cayıl-mayıl zənn edirsən də, elə?

Husto da borclu qalmayıb:

– Hə, səndən də cayıl.

Keşiş onlara təpinib:

– Ağlınızı başınıza yığın, dəlilər.

Topal şərti belə kəsib:

– Bu gecə "Sal"ın yanında görüşməyə nə deyirsən?

Hustonun "Hə" cavabıyla söhbət nöqtələnib.

* * *

"Rio bar"ın müştəriləri artıq dağılışmışdı. Dəzgah qarşısında iki-üç adam vardı, terrasda isə sadəcə ikimiz idik oturan.

Əlimdəki bağlamanı ona uzadıb, dedim:

– Bax gör, sənə nə gətirmişəm.

Husto bıçağı çıxarıb baxarkən tiyənin uzunluğunu da ölçdü. Dırnağının ucundan biləyinin başına qədər, yəni düz əli boyda idi tiyə. Sonra cibindən öz bıçağını çıxarıb, bunları müqayisə elədi.

– Heç fərqlənmirlər. Onda elə özümünkünü götürüm.

Husto pivə sifariş verdi, səssizcə oturub siqaret tüstülədir, pivə içirdik. Sonra dilləndi:

– Üstümdə saat yoxdur. Amma indi haradasa on bir olar. Durun, gedək o görüş yerinə.

Körpünün ortasında biz Brisenyo və Leonla qarşılaşdıq. Onlar Husto ilə görüşdülər. Sonra Leon dedi:

– Dostum, sən onu dirigözlü yeyərsən ha.

Brisenyo da təsdiqlədi:

– Buna heç şübhə etmirik. O Topal yel olub, sənin yanından ötə də bilməz.

Onların hər ikisi gündüzkü geyimlərində idilər. Hustodan arxayın olduqlarını göstərmək və şux görünmək barədə də sanki öz aralarında sözü bir yerə qoymuşdular.

Leon təklif elədi:

– Gəlin, buradan enib, yolumuzu qısaldaq.

Husto razılaşmadı:

– Yox, yaxşısı budur, yolumuza davam edək. Çünki bu durumda ayağımızı zədələməkdən ancaq ziyan görərik.

Onun belə qəfil ehtiyatlanması bizə qəribə göründü: axı biz həmişə körpünün metal dirəklərindən sürüşməklə, düz çayın sahilinə enirdik. Prospekt boyu daha bir məhəllə keçib, sağa burulandan sonra bir müddət kəlmə kəsmədən irəlilədik.Ensiz cığırla çayın sahilinə endiyimiz vaxt büdrədiyi üçün Brisenyo bir ağız söyüş də yağdırdı. Ayaqlarımız qızmar quma gömüldüyü zaman biz pambıq kimi yumşaq dənizin səthiylə yürüdüyümüzü sanırdıq. Leon baxışlarını səmaya zillədi:

– Göy üzü buludludur. Bu gün heç Ay işığı da bir işimizə yaramayacaq.

Husto dilləndi:

– Məşəl yandırarıq.

Özümü saxlaya bilmədim:

– Dəlisən sən?! Yoxsa polisin məsələyə qarışmasını istəyirsən?!

Brisenyo tərəddüdlə dedi:

– Bəlkə elə hər şey xoşluqla yoluna qoyuldu? Haqq-hesabı çürütmək işi isə sabaha da ertələnə bilər. İndi durub, bu gözdeşən zülmətdə dalaşmayacaqsınız ha…

Heç kimdən cavab gəlmədi deyə, Brisenyo da susmalı oldu. Leon dedi:

– Hə, bu da “Sal”.

Vaxtilə bu yerdə nəhəng bir ağac çayın axarına tərs yöndə yıxılıb, qalmışdı: hələlik həyatda olan sakinlərdən heç kəsin xatırlamadığı əyyamlarda olubmuş bu. Onun uzunluğu çayın eninin dörddə üçü qədər idi, çəkisi necə ağır idisə, çay onu heç cür yuyub apara bilmirdi və axan suyun gücü ancaq ona yetirdi ki, hər il bu Salı bir neçə

metr irəliyə sürükləsin. Bu səbəbdən də yıxılan ağac yavaş-yavaş bizim şəhərdən uzaqlaşmaqda idi. Bu yerə "Sal" adını kimin verdiyi də bəlli deyildi, ancaq heç kəs onu başqa cür də adlandırmırdı.

Leon dedi:

– Onlar artıq gəliblər.

Biz "Sal"a beş metr qalmış ayaq saxladıq. Burada, bu solğun Ay işığında yolumuzu gözləyənlərin üzlərini ayırd eləmək müşkül məsələ idi, eləcə qaraltıları gözə dəyirdi. Onları dönə-dönə süzsəm də, hansının Topal olduğunu anlaya bilmədim. Husto mənə dedi:

– Onlara yanaşsana.

Üzümə təmkinli bir ifadə verərək, ağır addımlarla "Sal"a yaxınlaşdım. Kimsə üstümə çımxırdı:

– Orada dayan. Kimsən belə?

Bunun cavabında uca səslə dedim:

– Xuliandır. Xulian Uertasam da. Korsunuz yoxsa?

Bəstəboy biri mənə tərəf gəlməyə başladı. Bu, "Quşbeyin" ayamalı hərif idi. – Biz artıq dağılışmağa hazırlaşırdıq, düşünürdük ki, yəqin Hustito öz can güvənliyinin təmini üçün artıq polisdən kömək istəyib.

"Quşbeyin"in bu iynəli sözlərini qulaqardına vurmalı oldum:

– Mən hansısa ağciyərlə yox, əsl kişiylə danışmaq istərdim.

"Quşbeyin" titrək bir səslə soruşdu:

– Yoxsa özünü belə cürətli sanırsan?!

Topal söhbətə qarışdı:

–Mumlayın görüm.

Bunun ardınca onlar hamılıqla bizə yanaşdılar, Topal isə düppədüz mənim üstümə gəldi. O, yoldaşlarının hamısından xeyli hündür idi. Bu alacaqaranlıqda mən onun üz cizgilərini ayırd yox, sadəcə təsəvvür edə bilirdim – onun tüksüz, qarabuğdayı və sızaqlarla örtülü sifətini, çuxurdan boylanmaqla bərabər, bu ətli sifətin fonunda bir cüt xırım-xırda gözlərini, bunları əhatələyən uzunsov əzələlərini, bir iquananınkı qədər üçkünc biçimli çənəsinin üzərində qərarlaşan barmaq qalınlığındakı dodaqlarını. Topal daima sağ ayağına dayaq verirdi: deyilənlərə görə, onun həmin ayağında xaçvari bir çapıq varmış və həmin yara yuxulu ikən ona hücum çəkən donuzun dişlərinin iziymiş, hərçənd o çapığı da indiyədək hələ bir kimsə görməmişdi.

Topal xırıltılı səslə soruşdu:

– O ağsaqqalı niyə yanınıza salıb, buracan gətiribsiniz? Leonidası deyirəm. Hansınız onu bura gətirib? – deyən Topal barmağıyla qocanı nişan verdi. Bizdən bir neçə metr aralıda dayanan ahıl öz adını eşidincə, yaxına gəldi.

Topalın düz gözünün içinə baxaraq soruşdu:

– Nəyi qoyib, nəyi axtarırsınız belə? Kiminsə məni yanına salıb, harayasa aparmasına heç bir hacət yoxdur. Bura mən özüm, həm də öz ayağımla gəlmişəm, eləcə könlüm istədiyi üçün durub gəlmişəm. Əgər sən dalaşmayasan deyə, bir bəhanə gəzirsənsə, onu da açıq de, bilək.

Topal buna cavab verməyə nədənsə tələsmədi. Onun bu ağsaqqalı təhqir etməyə hazırlaşdığını düşündüyümdən əlimi şalvarımın arxa cibinə apardım. Amma Topal guya ədəb-ərkanı qoruyaraq, dedi:

– Əmican, siz bu məsələyə qarışmayın. Çünki mən sizinlə dalaşmaq niyyətindən uzağam.

Leonidas da qabağından yemədi:

– Sən zənn eləmə ki, artıq taqətdən düşmüşəm. Vaxtilə mən səndən adlı-sanlı cayılların da dərsini vermişəm.

– Sən deyən olsun, ağsaqqal. İnandım sənə, – deyərək Topal mənə tərəf döndü: –Bəs siz necə, hazırsınız?

– Hə, amma özününkülərə tapşır, canfəşanlıq eləməsinlər. Yox, əgər sözünü dinləməsələr, onda öz bəxtlərindən küssünlər.

Topal hırıldadı:

– Xulian, mənim hər hansı dəstəyə ehtiyac duymadığım, kimə də olmasa, sənə yaxşı bəllidir. Həm də bugünkü gün. Odur ki, bu barədə heç narahat olma.

Topalın arxasında duranlardan biri də qəhqəhə çəkdi. Topal mənə bir şey uzatdı. Mən də ovcumu açdım: onun açıq vəziyyətdəki qatlama bıçağının tiyəsinə toxunduğum an dərim yüngülvari çərtildi və mən istər-istəməz üşəndim: metal mənə bir buz parçası qədər soyuq görünmüşdü.

–Kibritiniz olmaz?

Leonidas bir kibrit yandırdı və onun alovu ta barmaqlarını yaxana qədər durub, səbrlə gözlədi. O zəif şölədə mən ovcumdakı bıçağı diqqətlə gözdən keçirdim, onun enini-uzununu, kəskinliyini və ağırlığını yoxlayıb:

– Hər şey normaldır, – dedim.

Topal öz adamına göstəriş verdi:

– Çunqa, sən bunlara qoşul, get.

Oradan aralandıq. Çunqa Leonidasla mənim aramda irəliləyirdi. Bizimkilərə yanaşdığımız vaxt Brisenyo siqaret çəkirdi: o, hər qullab aldıqca ətraf işıqlanırdı deyə, Hustonun qıyılmış dodaqları və amansızlıq ifadəsi yağan çöhrəsi, ağzında nə isə – bəlkə də bir ot-ələf – çeynəyən Leonun üzü, bir də Brisenyonun tərdən işıldayan siması nəzərə çarpırdı.

Husto qocaya təpindi:

– Axı sizdən kim xahiş eləmişdi bura gələsiz?

Leonidas da səsini qaldırdı:

– Heç kim. Ürəyim istədiyi üçün durub gəldim. Yoxsa indi məni sorğu-suala çəkəcəksiz?

Husto ona cavab qaytarmadı. Mən bizdən bir qədər aralıda dayanan Çunqanı ona nişan verincə, Husto öz bıçağını çıxarıb, onun üstünə tulladı. Silah onun bədəninə çırpıldığı an Çunqa qeyri-iradi diksindi. O, qumluğa düşən bıçağı əl havasına tapanda, dedim:

– Üzr istəyirəm, onu mən əlimdən saldım. Bu da bizim bıçağımızdır.

Çunqa məni dalamağa çalışdı:

– Bir azdan sənin bu nəzakətindən heç bir əsər-əlamət qalmayacaq.

Bunun ardınca o, az əvvəl mənim etdiyim kimi, kibrit işığında barmağını bıçağın tiyəsində gəzdirdi, onu lal-dinməz bizə qaytardıqdan sonra yeyin addımlarla "Sal"a tərəf yönəldi. Sonrakı dəqiqələr ərzində biz ılıq rüzgarın pambıq tarlalarından alıb, çayın sahilinə qədər gətirdiyi qoxuları ciyərlərimizə çəkərək gözlədik. Bizdən arxada, çayın hər iki sahili boyunca uzanan şəhər işıqları sayrışmaqda idi. Ətrafa çökən dərin sükuta ara-sıra ya it hürüşməsi haram qatırdı, ya da ulaq anqırtısı.

"Sal" tərəfdən kiminsə səsi yüksəldi:

– Hazırsınız?

Mən də uca səslə:

– Hə, hazırıq, – cavabını verdim.

"Sal"ın həndəvərindəki cavanlar hərəkətləndilər, qısıq səslə öz aralarında nəsə danışdılar, sonra onlardan biri, həm də axsayan birisi bu iki dəstənin əhatəsindəki yerin mərkəzinə doğru gəldi. Yeriyərkən Topalın ayağını yerlə necə sürütdüyü diqqətimi çəkdi: sanki bu üsulla o, həndəvərində hər hansı çuxurun və ya kiçik daşların olub-olmadığını özü üçün dəqiqləşdirirdi. Qaranlıqda baxışlarımla Hustonu axtardım: Leon ilə Brisenyo əllərini onun çiyinlərinə qoyaraq durmuşdular. Qəfildən Husto sərt bir hərəkətlə o əllərin əhatəsindən qurtuldu və dayandığım yerə çatanda məni süzüb, gülümsədi.Onun əlini sıxdım. Husto artıq "Sal"a tərəf gedəndə Leonidas dözməyib, irəli sıçramaqla, onun çiyinlərini qucaqladı. Ağsaqqal öz bürüncəyini Hustoya uzatdı. O an mən onların yanında durmuşdum.

Qoca pəsdən, titrək səslə ona özünün son tövsiyələrini verdi:

– Ona bircə anlığa da yanaşma, arada məsafə saxlamaqla, ta taqətdən salana qədər onunla məzələn. Xüsusən də üzünü və qarnını zərbədən qoru. Qolunu gərək daima açıq vəziyyətdə saxlayasan.

Aşağı sinməklə, ona inamlı həmlələr elə. İşdir, büdrəsən, o, sənə yaxın düşməsin deyə, elə düşdüyün yerdəncə ona müqavimət göstər… Haydı, indi get hünərini göstər...

Husto deyilənləri başını aşağı əyərək dinlədi. Düşünürdüm ki, sonda qocanı qucaqlayar, ancaq o, sərt bir hərəkətlə ona uzadılan bürüncəyi alıb, sol əlinə doladı. Sonra isə başını dimdik tutaraq, qumluqla inamla irəliləməyə başladı. Sağ əlində tutduğu ensiz metal tiyə xəfifcə işıldayırdı. Topala iki metr qalmış Husto ayaq saxladı.

Sonrakı bir dəqiqə boyu onlar hərəkətsiz halda donub qaldılar, amma yəqin həmin vaxt bir-birinə dikilən baxışlarıyla öz aşkar nifrətlərini ifadə etməyə çalışırdılar. Budur, gözləri bir-birinə zillənib, geyim altındakı əzələləri gərilib, barmaqları isə bıçağın dəstəyini çılğınlıqla sıxır. Kənardan baxan birisi bədənləri yarıyacan ılıq gecənin zülmətinə qarışan bu bir cüt insanın döyüşə hazırlaşdığını əsla zənn eləməzdi, çünki hər ikisi hansısa qaramtıl metaldan tökülmüş heykəlləri, ya da çayın sahilində bitən bir cüt cavan və möhkəm ağacın kölgəsini xatırladırdı, həm də bu kölgələr nədənsə qumun üzərinə düşmürdülər, havadan asılı vəziyyətdə idilər. Az sonra bunların ikisi də sanki kiminsə əmrinə tabe olaraq, hərəkətə gəldilər.

Yəqin ilk hərəkətə keçən Husto oldu: hələ bir-iki saniyə öncə dizlərindən tutmuş çiyinlərinə qədər onun bədəni xəfif ləngərlər vurmağa başlamışdı, Topal isə bir növ onu yamsılayarmış kimi, amma yerindən dəbərmədən öz bədənini gərməkdə idi. Duruşları bir-birindən fərqlənmirdi:dirsəkdən azca bükülən və önə uzanan sağ qollar bıçağın iti ucunu düppədüz düşmənə tuşlamışdı, bürüncəyin dolandığı o biçimsiz və nəhəng görünən sol qol isə, bir qalxan misalı, üzü zərbədən qorumaq üçün nisbətən yuxarıda tutulmuşdu. Əvvəl-əvvəl onların sadəcə gövdələri hərəkətə gəldi, başları, qolları və ayaqları isə durğun vəziyyət almaqda idi.

Sonra onların bədənləri hiss olunmadan əyilib-düzəlməyə, kürək qismləri isə uzanmağa başladı, ayaqları – eynilə suya tullanmağa hazırlaşan idmançılarınkı kimi – dizlərdən bükülməyi uyğun gördü. Əvvəlcə Topal hücuma keçdi: qəfildən irəli sıçradığı zaman onun silahlı əli havada bir qövs cızdı. Husto yerindən tərpənməyə macal tapanda onun bədənini sadəcə cızan, amma yaralamayan o əl özünün boşluqdakı uçuşunu hələlik bitirməmişdi. O, Topalın üstünə getmədi, qumun üstündə xəfifcə yana çəkilib, addımlarını da tədricən yeyinlətməklə, dairə üzrə hərəkətə üstünlük verdi.

Topal isə yerindəcə dövrə vurmağında idi. Beli həmişəkindən daha donqar şəkil almışdı, indi o, hipnoz altındakı kimi gözünü rəqibindən çəkmir, bədənini elə hey ona tərəf döndərirdi. Qəflətən

bu rəqs kəsildi: bütün gövdəsiylə Topalın üstünə çökən Husto elə həmin an da özünün az əvvəlki vəziyyətinə qayıtdı – sanki yaylı bir kukla idi o.

Brisenyo pıçıldadı:

– Hə, o, rəqibini cıza bildi.

Leonidas əlavə elədi:

–Amma çiynindən, həm də yüngülvari.

Ancaq Topalın heç cınqırı da çıxmadı, bayaqkı rəqsinə davam edən bu hərifin hərəkətlərində heç nə sezilmirdi, Husto isə artıq sadəcə dairəvi hərəkət eləmirdi: o, gah Topalın üstünə cumub, tez də geri çəkilir, gah sinəsini qabağa verir, gah da büzüşərək, yerində donub qalırdı, bir hədəf misalı öz önünü gah açır, gah qapayırdı: bu zaman o, aşiqinin içindəki ehtirası gah azaldıb, gah körükləyən, təcrübəli və işvəli bir məşuqəni xatırladırdı.

Görünür, o, Topalı taqətdən salmağa niyyətliydi, ancaq rəqibi də həm təcrübəli, həm də hövsələli davranırdı. O, yenə də çiyninə donqarlıq verərək, geri-geri çəkildi və beləcə, dairə açıldı.Bu səbəbdən Husto da öz rəqsinə ara verdi və rəqibin ardınca yönəldi. O, boynunu irəli uzadıb, üzünü sol əlinə doladığı bürüncəklə qapadı və xırda addımlarla irəliyə doğru getdi. Ayaqlarını yerlə güclə sürüyən Topal isə necə aşağı sinmişdisə, dizləri az qala yerə dəyirdi.

Husto iki kərə əliylə irəliyə qolaylandı, ancaq bu cəhdlərin ikisi də boşa çıxdı. Böyrümdə duran Leonidasın: "Ona hədsiz yaxın düşmə" – deyə qısıq səslə verdiyi tövsiyəni hər halda təkcə mən eşitdim.Həmin dəm Hustonun rəqibi bizimlə onun arasında dayanmışdı, özünün biçimsiz, şişman bədənini bu hərif hədsiz dərəcədə yığıb-kiçiltmiş, bir baramanınkı qədər büzüşdürmüşdü, ancaq sonra qəfildən böyüməyə və dümdüz şəkil almağa başlayan o bədən özünün əvvəlki şəklini aldı. Sonrakı iki, ya da uzağı üç saniyə boyu biz nəfəsimizi içimizə qısaraq, bu rəqiblərin qorxunc şəkildə bir-birinə sarmaşmasına tamaşa elədik: məhz o ara dalaşmanın ta əvvəlindən bəri ilk dəfə qəribə, hıçqırığa bənzər bir səs dəydi qulaqlarımıza.

Daha bir saniyə ötdü, biz bu nəhəng və sarmaş-dolaş olan kölgələrdən nisbətən zərif, çəlimsiz bir qaraltının ayrıldığını sezdik: o, cevikliklə iki addım atınca, rəqiblər arasında ta əvvəldən bəri mövcud olan gözəgörünməz divar təkrar bərpa olundu. Bu səfər Topal öz rəqsinə başladı: əvvəlcə sağ ayağını irəli atan bu hərif az sonra sol ayağını yerlə sürütməyə başladı. Gecənin zülmətində baxışlarımı Hustonun bədəninə zilləyib durmuşdum ki, bəlkə bayaq, yəni Husto ilə Topalın aşiq-məşuqlar kimi, canbir qəlbdə sarmaşdıqları o üç saniyə ərzində dostuma hansı xətərin toxuna

biləcəyini anlayım. O ara Leonidasın hədsiz pəsdən dediyi tövsiyəni eşitdim: “Aralan ondan. Niyə gedib hərifin əlinin altında durubsan axı?!”

Həmin an əsən xəfif meh qocanın bu sözlərini Hustonun qulağına çatdırdı və o da, eynilə Topal kimi, yerindəcə gərdişə başladı. Hər cür hiyləyə, sayıqlığa və nifrətə köklənən bu rəqiblər ildırım sürətiylə müdafiə taktikasından hücuma keçsələr də, qarşı tərəfin səhlənkarlığını yaxalamaq bunların heç birisinə nəsib olmurdu: bunlardan biri, daş atarmış kimi, sağ əlini irəliyə qolayladığı an əslində rəqibi tutmaqdan çox onu çaşdırmaq, ötəri də olsa, tarazlıqdan çıxarmaq, onun özünümüdafiəsində zəif bir nöqtə yaxalamaq niyyəti güdürdü, digər döyüşçü isə mütləq, həm də sırf avtomatik şəkildə ona özünün sol əliylə qarşılıq verirdi.

Onların üzlərini görəmmirdim, ancaq yanlarında olduğum vaxtla müqayisədə gözlərimi qapayınca, hər şeyi daha aşkar sezə bilirdim: hiddətdən dodaqları kilidlənən Topalı tər yuyub-aparır, yarıörtülü göz qapaqlarının altından baxan və donuzunkunu xatırladan o gözləri alışıb-yanır, üzünün dərisi xəfifcə səyriyir, burun pərələri və iri ağzı isə gərilmiş hal alırdı.Hustonun üzündə isə onun hər şeyə çılğın nifrət bəsləyən həmişəki maskası vardı, hazırkı qızğınlığı bu hiddət çalarını nisbətən artırırdı, gərginlikdən və yorğunluqdan isə dodaqları adama islaqmış kimi görünürdü. Bir də gözlərimi açanda Hustonun Topalın üstünə şığıdığına şahid oldum: bu, kor-koranə, düşüncəsiz, özünü rəqib üçün açıq və hazır hədəfə çevirməklə, yəni gözüqara bir həmlə idi.

İçində kükrəyən hiddət və səbrsizlik onun ayaqlarını sanki yerdən üzmüşdü, sərt cizgilərə malik silueti elə bil havadan asılmışdı. Az sonra o, öz şikarının üstünü aldı. Görünür, yırtıcı qəzəbdən xəbər verən bu həmlədən elə Topal da karıxdı: bir anlığa o, nə edəcəyini kəsdirə bilmədi, aşağı əyilib, sağ əlini bir nizə misalı önə uzatdığı vaxt sanki həm də işıldayan o tiyəni bizim acgöz baxışlarımızdan gizlətməyə çalışdı. Tiyənin hara yönəldiyini lal-mat izləyərkən, Hustonun az əvvəlki dəli-dolu həmləsinin əbəs olmadığını hamımız anladıq.

Ətrafımıza çökən gecə güclə sezilən, amma adama qorxu hissi aşılayan xırıltılarla doluydu və bunlar hansısa yanğının qığılcımları misalı gəlib, bizlərə çatırdı. Rəqiblərin bir-birinə çılğınca, qır-saqqız olub yapışmalarının nə qədər sürdüyünü nə onda, nə də sonralar biz anlaya bildik, çünki kimin kim olduğunu ayırd eləməkdə tamamilə aciz idik: növbəti zərbəni endirən kimin əlidir, dönə-dönə, həm də bir əks-səda kimi təkrarlanan o xırıltılar bunların hansının qırtlağından qopurdu axı? Gördüyümüz bircə o iti tiyələrin qaranlıq

səmanın fonunda, gah kölgədə, gah altda, gah da böyürdə bərq vurmasıydı – onlar bir sehrin diktəsiylə gah görünüb, gah qeyb olurdular, hərdən şığıyır, hərdən isə gecənin dibsiz qoynuna gömülürdülər.

O ara təlaş içində, nəfəsimizi içimizə qısaraq gözləyirdik, baxışlarımız isə alışıb-yanırdı: görünür, bu iki düşmənin bir-birinə sarmaşaraq əmələ gətirdiyi piramida hansınınsa endirdiyi o gözəgörünməz zərbə ilə içəridən tam dağılana qədər biz hələ əlaqəsiz sözlər də pıçıldayırmışıq: rəqiblər bir-birindən həm eyni vaxtda, həm də görünməmiş çevikliklə aralandılar – sanki hər ikisinin kürəyinə maqnit parçası yapışdırılmışdı. Nəfəsləri təngimişdi, aralarında isə cəmi bircə metr məsafə vardı. Leon dedi: "Onları ayırmaq lazımdır, bu qədəri də yetər". Ancaq biz irəliyə doğru addım atmağa macal tapmamış, Topal bir meteor sürətiylə önə sıçradı.

Husto hücumdan yayınmadığı üçün onlar qumluqda süpürləşməyə başladılar. Bir-birinə sarılmış halda yerdə dığırlanır, öz zərbələri və xırıltılı nəfəsləri ilə havanı yarırdılar. Tezliklə hər ikisi sakitləşdi, yuxulayıbmışlar kimi, qumluqda uzanıb qaldılar. Mən həmin tərəfə cummaq fikrinə düşdüyüm an onlardan biri, mənim niyyətimi sanki havada yaxalayıbmış kimi, cəld yerdən qalxdı və bir sərxoş kimi ləngər vuraraq, artıq yendiyi rəqibin böyrünü tezcənə kəsdirdi. Bu – Topal idi.

Dalaşma vaxtı onların hər ikisi öz bürüncəyini itirmişdi və indi bir kənarda düşüb-qalan bürüncəklər səthi saysız-hesabsız çatlarla örtülən qənbər daşı xatırladırdılar. Leon dedi: "Köməyə gedək". Ancaq Husto çətinliklə də olsa, düşdüyü yerdə dikəldiyi üçün biz yerimizdə qalası olduq. O, bütün bədəninin ağırlığını sağ əlinə salmışdı, sol əlini isə – dəhşətli bir kabusu özündən uzaqlaşdırarmış kimi – başının üstə sipər şəklində tutmuşdu.

Ən nəhayət, o, ayağa qalxdığı an Topal bir neçə addım geri çəkildi. Husto yerində ləngər vururdu və deyəsən, əlini üzündən ayırmağa heç tələsmirdi. Bizə son dərəcə tanış, amma indi tanınmaz hala düşən bir səs eşitdik. Topal idi:

– Xulian, ona de, təslim olsun!

Leonidasa tərəf qanrılsam da, baxışlarım Leonun üzünə dikildi, çünki hələ də dalaşanlara dikilən bu baxışlarda əsl dəhşət ifadəsi donmuşdu. O iki bədən təzədən bir-birinə dolandı. Görünür, geri qanrıldığım və diqqətim döyüşdən yayındığı an Topalın təklifindən lap cırnayan Husto əlini üzündən çəkməklə, öz rəqibinin üstünə şığıyıbmış: bundan ötrü o, qatlaşdığı ağrı-acıdan, daddığı yenilmişliyin gətirdiyi məyusluqdan güc alaraq, özünü sonuncu həmləyə səfərbər eləmişdi.Faciənin dərkindən doğan bu mənasız həmləni

Topal asanlıqla dəf eləyərək, təkrar geri sıçradı və yarıhiddət, yarıxahiş ifadə edən bir səslə bağırdı:

– Don Leonidas, buna deyin ki, təslim olsun!

Ancaq Leonidas ötkəm tərzdə ona çımxırdı:

– Ə, səsini kəsib, döyüşsənə!

Husto təkrar həmləyə keçdi, ancaq ömrü boyu bu cür saysız-hesabsız döyüşlərə şahid olan Leonidas da daxil, hamımız anlayırdıq ki, artıq hər şey geridə qalıb, çünki Hustonun əlində Topalın hətta dərisini cırmaqlamağa yetəcək qədər də güc-təpər qalmamışdı. Qəlbin dərinliyində yaranaraq, yuxarılara doğru qalxan, boğazı bürüyən, baxışları isə dumana bürüyən acı qəhərlə biz rəqiblərin ləng çəkilişdəkinə bənzər ağır hərəkətlərinə göz qoyurduq, bir qədər sonra onların şəkilləndirdiyi ortaq siluet təkrar iki qismə ayrıldı və o iki nəfərdən biri küt tappıltı qoparmaqla, qumluğa sərələndi.

Biz qaçıb, Hustoya yanaşdığımız zaman Topal da artıq öz dəstəsinin yanına dönmüşdü. Onlar hamılıqla, səssiz-səmirsiz döyüş yerini tərk eləyib, getdilər. Boynumun, çiynimin isti və nəmli bir şeylə sıx təmasına məhəl qoymadan mən üzümü Hustonun sinəsinə söykədim. Köynəyindəki kəsiklərin arasından onun qarın və kürəyi ilə təmasımı hiss edirdim, ara-sıra əlim onun tabsız və tərli bədəninə toxunanda qarşımda ağır qəzaya uğramış bir gəmi olduğunu sanırdım.

Brisenyo və Leon pencəklərini soyundular, əl-ayaqlarından tutub, yüngülvari qaldırmaqla, bu cansız bədəni həmin paltarlara bələdilər. Leonidasın bürüncəyini yerdən götürdüm, sifətinə nəzər salmadan, yəni qarasına onunla Hustonun üzünü qapadım. Sonra, eynilə tabut daşıyarmış kimi, hər üçümüz iki cinahda yerlərimizi tutub, cəsədi çiyinlərimizə aldıq və addımlarımızı bir-birinə uydurmaqla, çay sahilindən üzüyuxarıya doğru, yəni şəhərə aparan cığırla yola düzəldik.

Leon təskinlik verdi:

– Ağlamayın, ağsaqqal. Oğlunuz mənim indiyədək tanıdığım insanların ən cəsuru idi.

Leonidas cavab vermədi. O, mənim arxamca gəlirdi deyə, heç üzünü də görə bilmirdim.

Kastilyas prospektindəki ilk binaların yanına çatanda ondan soruşdum:

– Onu sizin evə aparaq, senyor Leonidas?

Qoca elə əlüstü: "Hə" dedi ki, sanardın bu cavabı mənim sözlərimi eşitmədən verib.



***Tərcümə etdi:***
***Azad YAŞAR***



*Ətraf SƏRRAF*

**MƏN KƏNDƏ ÇATANDA**

Mən kəndə çatanda gec idi daha,
Günəş şəfəqlərin yığıb gedirdi,
Sallana-sallana çıxıb gedirdi.
Kəndimiz düşmüşdü ayaqlarına.
Ağaclar sarıya boyanırdılar,
Günəşin ardınca boylanırdılar,
İntizar yağırdı yarpaqlarına.

...Mən qoca palıdı hüznlü gördüm,
Pərişan halında üzüntü gördüm.
Onu sarsıtmışdı şəhid xəbəri,
Özü boyda idi dərdi, kədəri.
Yavaşca, ustufca gəldim yanına.
Bilirdim onunçün necə ağırdı.
Bir gözü şəhidlər xiyabanına,
Bir gözü həsrətlə yola baxırdı.
O qoca palıdı hüznlü gördüm,
Pərişan halında üzüntü gördüm.

...Bir çox qayğılardan qurtarıb yaxa,
Dönüb baxa-baxa,
Mən qəlbiyuxa,

Arzumun dalınca getmişdim bir vaxt,
İndi bu yerləri gəzməyə gəldim.
Bir yuxu görmüşdüm neçə il qabaq,
Gördüyüm yuxunu yozmağa gəldim.
Olub-keçənləri xatırlayaraq,
Bu qəmli şeiri yazmağa gəldim.
Duyğular içində itib-batırdım.
Qarşıdan qaranlıq gecə gəlirdi,
Bir Allah bilirdi necə gəlirdi...

Mən kəndə çatanda gec idi daha.
Sözümü deməyə bir kəs tapmadım.
Mənim bu halımi anlayıb duyan,
Qeydimə qalacaq bir dost tapmadım.
Yenə də üzümə gülmədi ki baxt...
Deyirdim mən heç vaxt gecikəmmərəm.
Mən kənddə olanda bildim ki, ancaq
Tay-tuşlarım gedib, gecikən mənəm...
Ürəyim titrədi, dizlərim əsdi,
Arzular gecikdi,
Ömür tələsdi.

Mən kəndə çatanda gec idi daha,
Bir vaxt gördüklərim heç idi daha...

## DEYƏCƏKLƏRİM VARDI HƏLƏ

Sürüşdü –
Qəlbimdən istək,
Gözlərimdən nur,
Ömrümdən illər,
Ayağımdan yol,
Barmağımdan üzük,
Çiynimdən ömür adlı yük.
Niyəsini sora bilmədim.
Gözə düşməyən gözlükdən baxan kimi
baxdım dünyaya,
heç nə görə bilmədim.
... Sürüşdü
Dilimdən söz,
Qulağımdan səs,
Əlimdən qələm.
Eh!
Deyəcəklərim vardı hələ ...

## O GÜNLƏR ÖMRÜMDƏ QIZIL-ZƏR İDİ

O doğma yerlərə düşdü güzarım.
Baxmayıb yolların uzaqlığına,
Xəyalpərəstliyim – köhnə azarım,
Yenə çəkdi məni uşaqlığıma.

Xəyallar qoynunda üzüb gedərdim,
Hər dəfə dostlara qulaq asanda.
Uşaq oyunların mən çox sevərdim,
Böyük oyunların bacarmasam da...

Bilirdim uşaqlar gələcək həmən,
Yenə də bir yerə yığışacağıq.
Nə qədər böyüsək, dönüb təzədən
Biz həmin illərə sığışacağıq.

...Məhlə uşaqları görünmədilər.
Yoxsa gəldiyimi bilən olmadı.
Mənim görüşümə ərinməzdilər,
Niyə bəs, görəsən, gələn olmadı?

Bir az cilovladım əsəbimi də,
Soruşub öyrəndim səbəbini də, –
Birisi xəstədi, gələ bilməyib,
Biri yol üstədi, gələ bilməyib.

Biri Qarabağdan xəbər gözləyir,
Şəhid övladının qəbiri üstə.
Qisas xəbərinə ümid bəsləyir,
Gözləri yoldadır, qulağı səsdə.

Biri dünyasını dəyişib çoxdan,
Əcəl ona erkən ərk eləyibdir.
Biri də inciyib taledən, baxtdan,
Məndən sonra kəndi tərk eləyibdi.

Beləcə, uşaqlar dağılışıblar,
Uşaqlıq dünyamız dağılıb belə.
Gözümün önündə kədərlə bitdi
Sevdiyim uşaqlıq nağılım belə.

Əlimi uzatdım, əlim yetmədi,
Yadıma gətirdim olanı, əlbət.
O günlər gözümdən bir an getmədi,
Acısı şirindi, şirini şərbət.

Ömrün gözəl çağı o günlər idi,
Ətrini mən güldən, çiçəkdən aldım.
O günlər ömrümdə qızıl-zər idi,
İtirdim, axtara-axtara qaldım.

## DAĞ VÜQARLI OĞULLAR

Bir gün gerçək oldu
nağıllar.
Dağlara qalxdı
dağ vüqarlı oğullar.
Dağ çəkdilər düşmənə!
Dağıtdılar, darmadağın etdilər
onların 30 ilə qurduğu istehkamı.
Düşmənin
gözündə qaldı arzu-kamı.
Dolaşdı əl-ayağı.
Dağ boyda xəyalından yıxıldı yağı.
Dağlara çıxdı
Dağ oğullar.
Vətən yanında üzü
ağ oğullar.
Dağlara oxşadı igidlər eynən.
Durdular dağlarla çiyin-çiyinə.

## UŞAQLIQ XATİRƏLƏRİMDƏKİ KƏNDİMİZ

Dünyanın
ən uzaq yeri kimidi
uşaqlıq xatirələrimdəki kəndimiz.
Aramızdan pərdə çəkib illər qat-qat.
Tez-tez yadıma düşür ordakı həyat.
Yadıma düşür çətinliyimiz.
Bizi yarıac saxlayan yetımliyimiz.
Bir də anam, –
yetimliyindən yetim sahibi olmağı
öyrənən anam,

Bizə zəhmətlə, ləyaqətlə yaşamağı
öyrədən adam.
Eh...
Yaddaşımın o biri ucunda yurd salıb
dayanan kəndimiz.
Yaddaş xəritəmdə daha çox qara rənglə
boyanan kəndimiz.
Ömrümün ən kasıb bölgəsi.
Unudulmur xatirəsi,
Ötmür kölgəsi...

## BU PAYIZ NƏ GÖZƏL BİR PAYIZ OLDU

Sərin nəfəsinin hənirtisindən
Qələbə havası duyulan payız.
Nisgilli qəlblərə sevinc gətirən,
Baharın yerinə qoyulan payız,
Bu seçilən payız, sayılan payız!
Sevinc göz yaşlarıyla yuyulan payız!
Bu payız nə gözəl bir payız oldu!

Qəzəblə oyuldu düşmənin gözü,
Bitdi dilimizdə "Qələbə!" sözü.
Barıt qoxusu da gül ətri verdi.
İllərdi yazdığım qəmli şeirimə
Qələbə sevincli bu sətri verdi,
Bu payız nə gözəl bir payız oldu!

Alındı düşməndən şəhid qisası,
Silahla deyildi sözün qısası.
Hər cür söz-söhbəti bitirib gəldi.
Özüylə baharı götürüb gəldi.
Cana yığılmışdıq lap gözləməkdən,
Əzablı günləri ötürüb gəldi.
Bu payız nə gözəl bir payız oldu!

Ümidsiz bir "bəlkə" vardı dilimdə,
Dilimdən "ümidsiz bəlkəni" sildi.
Qəhrəman xalqımın məğrurluğunun
Üstünə salınan kölgəni sildi.
Xeyirxah, tərtəmiz, gözəl millətin
Adına yaxılan ləkəni sildi.
Bu payız nə gözəl bir payız oldu!

Vətən sevgisiylə yanan ürəklər,
Qaranlıq yollara nur çilədilər.
"Qarabağ bizimdir!" – deyən düşmənin,
O bəd niyyətini kül elədilər.
Dünyaya göstərib kimliyimizi,
Şuşa dağlarından əl elədilər.
Möhtəşəm səhnəni seyr eləyəndə
Mənim də sevincdən gözlərim doldu.
Bu payız nə gözəl bir payız oldu!

## BİR İÇİM SU İMİŞ, BİR UDUM HAVA

Elə tələsirəm o sözü deyim,
Elə tələsirəm bu sözü deyim.
Deyim,
deyilməmiş sözüm qalmasın.
Bir sözün ardınca gözüm qalmasın.
Mən gəzim aranı, yaylağı gəzim,
Hər kəndi, obanı, oylağı gəzim.
İçmək istədiyim bulaqdan içim,
Keçmək istədiyim yolaqdan keçim.
Dərəni adlayıb mən düzə gəlim.
Bəzən ilhamımla üz-üzə gəlim.
Təzə çiçəkləri tər söz yerinə
Bircə-bircə üzüm, düzüm şeirimə.
Bir gözəl gözündə azıb da qalım,
Məhəbbət şeirini yazıb da qalım.
Düşünüb axşamdan sabaha kimi,
Yol keçim günahdan savaba kimi...
Eh, bunlar sığmasa əgər ömrümə,
Yanından ötməyim olarmı rəva?!
Ömür deyilən də gör nə imiş, nə? –
Bir içim su imiş, bir udum hava.

# BİR ÖMRÜN AKKORDLARI

## *Kamran Məmmədov*



Azərbaycanımın gözəl, səfalı yerləri çoxdur və hər qarışı da mənə əzizdir. Lakin Şuşa şəhərinin həyatımda yeri bir başqadır. Həmin özəlliyin əsas səbəblərindən biri isə bu möcüzələr diyarının ata yurdum olmasıdır. Yadımdadır ki, uşaq olarkən ailəliklə hər ilin avqust ayını səbirsizliklə gözləyirdik. Bu səbirsizliyin tək səbəbi isə gözəllər gözəli Şuşamıza istirahətə yollanmağımız idi. Topxana meşəsi, Qala divarı, ilk dəfə səmasında qartal pərvazlandığını gördüyüm Cıdır düzü, İsa bulağı, Səkili bulağı, Rasta bazar, 17 qədim üslubda salınmış məhəllə, qaldığımız istirahət mərkəzi və bu şəhərin müxtəlif tarixi məkanları, insanı məst edən ecazkar təbiəti qayğısız, xoşbəxt uşaqlığımın şahidi idilər. Ömrüm boyu xatırlayacağım bu anları isə mənə bəxş edən, adını hər zaman qürurla andığım atam – Kamran Məmmədov idi.

Filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1954), müharibə veteranı (1941-1945) Kamran Dadaş oğlu Məmmədov 1922-ci il dekabr ayının 21-də Şuşa şəhərində, ziyalı ailəsində anadan olmuşdu. 1929-cu ildə Şuşada orta məktəbə gedib, 1932-ci ildə isə ailəsi ilə Bakıya köçüb.

Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsinə daxil olmuş, lakin Böyük Vətən müharibəsi (1941-1945) zamanı könüllü olaraq cəbhəyə yollanmışdır. Cəbhədə iki dəfə ağır yaralanıb, hərbi xəstəxanada müalicə olunmuş və 1943-cü ildə ordu sıralarından tərxis edilib vətənə qayıtmışdır. Təhsilini davam etdirmək üçün Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin IV kursuna daxil olmuşdur. Universitetdə oxuduğu illərdə Azərbaycan radiosunda, "Cənclik" nəşriyyatında çalışır, elmi-publisistik məqalələr və kiçik həcmli hekayələrlə mətbuatda, radioda çıxış edirdi.

1945-ci ildə Kamran Məmmədov Universiteti fərqlənmə diplomu ilə bitirib (Diplom işi: "Əbdürrəhimbəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" pyesi". Elmi rəhbər: professor Mir Cəlal Paşayev), bir müddət Radio

Verilişləri Komitəsində ədəbi redaktor, "Uşaqgəncnəşr"də şöbə müdiri vəzifələrində çalışmışdır.

Azərbaycan uşaq ədəbiyyatı məsələlərinə aid yazdığı ilk məqalələr ona tezliklə uğur qazandırdı, imzası ədəbi-elmi ictimaiyyət içərisində tanındı. Aspiranturanı bitirib, 1949-cu ildə "Əbdürrəhimbəy Haqverdiyevin bədii nəsri" adlı namizədlik dissertasiyasını müdafiə etdi (Elmi rəhbər: akademik Feyzulla Qasımzadə).

İlk dövrlərdə bədii fikrin müxtəlif sahələrinə baş vuran tədqiqatçı marağı az sonra sabitləşdi, XIX əsrin sonu və XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının müxtəlif aktual problemləri gənc alimin tədqiqat obyektinə çevrildi. XIX əsrin ortalarında Mirzə Fətəli Axundzadə ilə başlanan realist Azərbaycan dramaturgiyasının və bədii nəsrinin davamçılarından olan Əbdürrəhimbəy Haqverdiyevin bədii irsi, Qasımbəy Zakirin həyatı və ədəbi fəaliyyəti haqqında monoqrafiyalar onun elmi yaradıcılığının başlangıc dövrünün əsas məhsulları idi. O vaxta qədər həyat və yaradıcılıqları haqqında geniş məlumat verilməyən bu yazıçılar ilk dəfə Kamran Məmmədovun "Əbdürrəhimbəy Haqverdiyev" (1950,1955,1970) və "Qasımbəy Zakir" (1957,1984) kitablarında monoqrafik tədqiqatın mərkəzinə çəkildi.

Görkəmli dramaturq və publisist, ictimai xadim Nəcəfbəy Vəzirovun həyat və fəaliyyəti, zəngin yaradıcılıq yolu K.Məmmədovun tədqiqatında geniş elmi təhlilini tapdı. O, 1963-cü ildə çap etdirdiyi "Nəcəfbəy Vəzirov" monoqrafiyasında yazıçı haqqında elmi tədqiqatlarını ümumiləşdirmişdir. Kitabda Nəcəfbəyin həyat və yaradıcılığı, publisistikası xronoloji ardıcıllıqla işıqlandırılıb.

"Nəcəfbəy Vəzirov" monoqrafiyası Kamran Məmmədovun həm də doktorluq dissertasiyası olmuşdur. O, 1964-cü ildə filologiya elmləri doktoru alimlik dərəcəsini almışdır (Elmi məsləhətçisi: akademik Feyzulla Qasımzadə, rəsmi opponentlər: akademik Məmməd Arif Dadaşzadə, akademik Məmməd Cəfər Cəfərov, professor Mir Cəlal Paşayev).

Bir tədqiqatçı alim kimi onun Azərbaycan ədəbiyyatı tarixi problemlərinin tədqiqində, xüsusilə XIX-XX əsrlər ədəbiyyatının öyrənilməsində xidmətləri əvəzsizdir. O, "Əbdürrəhimbəy Haqverdiyev", "Qasımbəy Zakir", "Nəcəfbəy Vəzirov", "Yusif Vəzir Çəmənzəminli", "XIX əsr Azərbaycan şeirində satira", "XX əsr Azərbaycan gülüşü" monoqrafiyalarının və iki yüzdən artıq elmi, publisist məqalələrin müəllifidir. K.Məmmədov həm də üç cildlik "Azərbaycan ədəbiyyatı tarixi" fundamental tədqiqatın müəlliflərindən biridir. Onun əsərləri arxiv sənədlərinin zənginliyi, elmiliyi və müasirliyi ilə seçilir.

Kamran Məmmədov bədii yaradıcılıqla da ardıcıl məşğul olmuş və oxuculara "Kamran Dadaşoğlu" imzası ilə tanınmışdır. "Ömrün izi", "Dünyamız uşaq gözündə" adlı hekayələr kitabı və iki hissədən ibarət "Yuxusuz illər" xatirə povesti onun bədii fəaliyyətinin nümunələridir. Müəllifin "Görkəmli yazıçıların həyatından dəqiqələr" kitabı da oxucular tərəfindən maraqla qarşılanmışdır.

Görkəmli alim 1982-ci ildə anadan olmasının 60 illiyi münasibətilə "Şərəf nişanı" ordeni və müxtəlif medallarla təltif olunmuş, "Əməkdar elm xadimi" kimi fəxri ada layiq görülmüşdü. Görkəmli alim Azərbaycan və Türkiyə ensiklopediyalarının üzvü olub. O, 1989-cu il aprelin 6-da vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

* * *

2010-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda nəşr olunmuş kitaba ("Ruhum da Şuşadan nigaran qalıb". Toplayıb tərtib edən və ön sözün müəllifi: filologiya üzrə fəlsəfə doktoru Dilarə Mustafa qızı Məmmədova) yeni dövr Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı, professor Kamran Dadaş oğlu Məmmədovun yaradıcılıq yolu, bütöv, təkrarsız bir şəxsiyyəti haqqında elmi-publisist materiallar daxil edilmişdir.

* * *

Kamran Dadaşoğlunun bədii nəsrində "Ömrün izi" hekayələr kitabı özəlliklə seçilməkdədir. Buradakı mövzu zənginliyi, real həyat lövhələri, obrazların canlılığı və əhvalatların müasirliyi xüsusilə yaddaqalandır. Hekayələrdə müəllifin gənclik illəri, iştirak etdərək başından qəlpə yarası aldığı Böyük Vətən müharibəsi (1941-1945) və şöbə müdiri olduğu AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda gördüyü və şahidi olduğu real hadisələr əsasında qələmə alınmışdır. Bu hadisələr yazıçı təxəyyülü ilə qarışaraq uğurla bədiiləşdirilmişdir. Ədibin "Kəndimizin alması", "Cib saatı", "Bağlı qapı", "Kişi papağı", "Şəkil" və sairə hekayələrində bədii simvol əsərin məzmunu ilə uyğunlaşdırılaraq vəhdət təşkil edir.

Həyatın çox ani və eləcə də qəribəliklərlə zəngin olması heç kəsə sirr deyil.

Bəzən ilk baxışdan adi görünən, amma özündə bir ömür yolunu, tarixi anı əks etdirən əşyalar mövcuddur. Bu əşyalar içərisində şəkil xüsusilə seçilməkdədir. Hər çəkilən şəkil bir tarixdir, insan ömrünün bir anını ölümsüzləşdirən bir tarix. Səkkiz nəfərin gənclik, qanlı-qadalı müharibə illərindən söhbət açılan "Şəkil" hekayəsindəki şəkil də əsl simvol kimi bədiiləşdirilir.

Prototipi Kamran Dadaşoğlunun özü olduğu "Şəkil" hekayəsi qəhrəmanın ömrün acılı-şirinli günlərinin yadigarı, əziz tarixçələri özündə əbədiləşdirən şəkil albomunu vərəqləməsilə başlanır. Nədənsə köhnə, solğun şəkillərin arasında biri hekayə qəhrəmanının nəzərini cəlb edir. Diqqəti özünə çəkən, cib dəftəri ölçüsündə, rəngi saralmış şəkil 1942-ci ildə çəkilmişdir. Bakı leytenantlıq məktəbində, cəbhəyə yola düşməzdən cəmi-cümlətanı bir həftə əvvəl çəkilən şəkil özündə böyük bir məqamı əks etdirir. 19-20 yaşlı səkkiz nəfərin əks olunduğu bu şəkildə yeganə iki nəfər sağ

qalmış, qalanları isə əbədiyyətə qovuşmuşlar. Hekayə qəhrəmanının dililə şəkildə əksi olan səkkiz gəncin həyat yolu, arzu-istəkləri göz önünə gətirilir və yekun olaraq deyilir:

"Bəli, baxıram şəklə... Gözəl xasiyyətli, arzulu cavanlar yada gəlir. Heyifsilənirsən. Xatirələr də kasıbdır. Axı canlarını azadlıq yolunda fəda etmiş dostlar nə yaşamışlar ki, xatirələr də zəngin olsun. Dünyaya gəldilər, onuncu sinfə qədər oxudular, silaha sarıldılar, ana yurdu müdafiəyə getdilər və qayıtmadılar.

Öz-özümə deyirəm: yaxşı ki, şəkilləri qalmışdır...." [1, s.104].

Milli şüurumuzda bəzi elementlər vardır ki, namus, qeyrət anlamını verir. Belə məqamlar bədii əsərlərimizdə də dəfələrlə simvollaşdırılmışdır. Papaq bu elementlər içərisində xüsusilə seçilir və əsl kişilik simvolu kimi təqdim edilir. "Kişi papağı" hekayəsindəki papaq da əsl igidlik, cəsurluq kimi verilir. Hekayədə çox ibrətamiz bir əhvalat nəql olunur. Başında Buxara dərisindən çox gözəl bir papaq olan, xarici görünüşcə isə çox cılız birinin qəfil göstərdiyi şücaət hamını heylətləndirir. Həmin papağa gözü düşən dəliqanlı isə bu əhvalatdan əməlli-başlı dərs alır. Belə ki, mətləbi anlayan kişi böyürlərindən qaçan bir ceyrana işarə edərək onlara deyir:

– Cavansınız, atlarınız da sazdır, ceyranın dalınca qaçın, vurun kabab eyləyək.

Biz güldük. Dedim:

– Nə danışırsan, atla da ceyran qovmaq olarmı?!

Papaqlı kişi heç nə demədən, ciddi nəzərlə bizi süzüb, "ya Allah" deyib atının başını buraxdı. At götürüldü, nə götürüldü. Kişi az sonra ceyranı haxladı, belindəki xəncərlə ceyranın boynunu vurdu. At xeyli irəli getdi, sonra da tez geri döndü. Papaqlı kişi elə atın üstündə, əl atıb ceyranın qulaqlarından yapışdı, bizə tərəf çapdı.Üzünü tamahkar yoldaşıma tutdu:

– Qurban olasan yoldaşına, yoxsa başın bu ceyranın başı kimi üzüləcəkdi" [1, s.61-62].

Bu əhvalat hər iki gəncə böyük bir həyat dərsi olur. "Papaq altında necə oğullar yatıb" atalar sözü bu hekayədə bir daha təsdiqini tapır.

Ailə-məişət mövzusundan bəhs edən "Mən niyə xəstələndim?", "Hədiyyə", "Üzük qonaqlığı", "Qadın papağı", "Telefon dolması" və sairə hekayələrdə qohum-tanışda təsadüf edilən maraqlı hadisələr yer alır. Müəllifin bəhs etdiyi hadisələrin, obrazların canlılığı oxucunu həqiqətən də onların nə vaxtsa baş verdiyinə inandırır. Bu silsilə hekayələrdən biri olan "Mən niyə xəstələndim?", "Əziz" hekayəsinin müəllifi, ustad Yusif Vəzir Çəmənzəminlinin xatirəsinə ithaf edilimişdir. Hekayədə cərəyan edən hadisələr həqiqətən tam təfsilatı ilə müəllifin başına gəlmişdir. Deməli, qohum-əqrəbasını sınaqdan keçirmək istəyən baş qəhrəman özünü xəstəliyə vurmaq qərarına gəlir. Qərarını isə ancaq bacısına deyir. Lakin qəhrəmanın xəstəlik sevdası gerçək olur. Belə ki o, doğrudan xəstələnir. Hekayə boyu xəstəni yoluxmağa gələnlərin yerli-yersiz məsləhətləri, türkəçarə həkimliyi xəstəni və qonaqlara qulluq edən bacını lap əldən salır.

Maraqlısı odur ki, hekayənin sonunda qəhrəmanın hərəkətini hələ də zarafat hesab edən bacısı deyir:

– Qardaş, sən Allah, dur ayağa, artistliyin mənə baha başa gəlir. İstəyənin çoxdur. Gəlib-gedənə çay tökməkdən əldən düşdüm.

Mən də güldüm, bacıma güldüm. O hələ də inanmırdı ki, mən doğrudan-doğruya xəstələnmişəm [1, s.26].

"Mən niyə xəstələndim?"də müəllifin şəxsən başına gələn əhvalat nəql olunursa, "Hədiyyə"də modabaz, bir sözlə: "qınından çıxıb, qınını bəyənməyən" qadınlar tənqid edilir. Kamran Dadaşoğlunun yaratdığı mənfi qadın obrazları özgələrinin deyil, məhz öz sözləri ilə ifşa edilir. Məsələn, "Hədiyyə" hekayəsində həyat yoldaşını bəyənməyən, aldıqları məvacibə qane olmayan, necə deyərlər, "ayağını yorğanına görə uzat"mayan Zeynəb öz dililə xarakterini açır:

– Zeynal ağa, sənin yorğanın elə həmişə gödəkdir, elə həmişə də ayağımız yorğandan bayıra çıxacaq. Nə maaş alırsan a Zeynal ağa, yorğanın da uzun olsun?!... [1, s.43]

Hekayə maraqlı bir əhvalat üzərində qurulub. Belə ki, yerli istehsalı əcnəbi malı bilən və bundan da bəh-bəh ilə danışan Zeynəbin sevinci çox çəkmir. Həyat yoldaşının hədiyyəsi olan avtomat qələmin yerli mal olduğunu biləndə od püskürür, müəllifin sözü ilə desək, "bircə qudurmağı qalır". Səbəbini isə utanmadan belə izah edir ki, avtomat qələm cəhənnəm, kişi importnı malları gözümdən salıb.

"Üzük qonaqlığı", "Qadın papağı", "Telefon dolması" hekayələrində də Zeynəb kimi təkəbbürlü, özündənrazı qadınlar tənqid olunur. "Qadın papağı"nda cərəyan edən hadisə real həyatda da baş vermiş, hekayə müəllifinin çox istəkli dostunun başına gəlmişdir. Bir müddət dostlar arasında zarafata çevrilən bu əhvalata müəllif biganə qala bilməmiş, onu bədiiləşdirməyə qərar vermişdir. Yazıçı hekayə qəhrəmanlarının adlarını da prototiplərinin adına uyğun seçmiş və reallıqda olan bu əhvalata əməlli-başlı rəng qatmışdır.

Müxtəlif insan xarakterlərini özündə canlandıran hekayələr silsiləsindən olan "Ömrün izi", "Hekayə barədə hekayət", "Qarınotaran", "Ərizə", "Kişi papağı", "Sür təsbeh", "Meşə çaqqalsız olmaz", "İcazə", "Fotoaparatın kəşfi", "Həri balam, həri", "Prinsipiallıq", "Təzə romançı", "Təzə and" və sairədə də reallıqda baş verən hadisələri süjet xəttinə salmışdır. Hekayə qəhrəmanlarından bəziləri oxucuda müsbət, bəziləri isə mənfi rəy formalaşdırır. Sadalanan hekayələr arasında K.Dadaşoğlunun da çox sevdiyi və bu səbəbdən də kitabını adlandırdığı "Ömrün izi"dir. Hekayə qəhrəmanı Əbdüləli dayının həqiqətən də prototipi vaxtilə K.Məmmədovun canından artıq sevdiyi, bütün varlığı ilə bağlandığı AMEA Nizami Gəncəvi adlna Ədəbiyyat İnstitutunda çalışmışdır. Digər həmkarları kimi müəllif də hər zaman bu insanın hərəkətlərini zövqlə izləmişdir. Qeyri-adi xasiyyətə malik olan kassir, təsərrüfat üzrə müdir müavininin hərəkətlərinə biganə qala bilməyən K.Məmmədov həmkarlarından fərqli olaraq, onu hekayə

qəhrəmanına çevirərək ölümsüzləşdirmişdir. Hekayədə sözügedən Əbdüləli dayının bir çox xüsusiyyətləri, söylədiyi kəlmələr onu oxucuya yaxın edir, sevdirir:

– Allah ölənlərinizə rətmət eləsin, rətmətlik atam söylərdi ki, gözümü dünyaya açdığım vaxtdan iynə qabının asıldığı yer elə taxçanın böyrü olub. İndi də, inanın, evimizdə iynə qabı öz köhnə yerində baqidir. Nə üçün? Boş yerə vaxt itirməmək, axtarmamaq, əsəbiləşməmək üçün [1, s.14]

Hekayə boyu Əbdüləli dayının hərəkətləri, yeni işçiləri sınaqdan keçirməsi, ən əsası, həmkarlarını elmi dərəcəsinə və tutduğu vəsifəyə uyğun şəkildə tənbehləri olduqca təbii çalarlarla əks edilir:

"Kimin nə hünəri vardı yazı masasının üstünə salınmış təmiz kağızı didsin, qaralasın. Əgər kağızı qaralayan şöbə müdiridir, Əbdüləli dayı o qədər sərt olmayacaqdı.Yavaşca masaya yanaşıb, öz-özünə danışarmış kimi, əlini kağızın qaralanan, ya didilən yerinə sürtəcək, dodaqaltı deyinəcəkdi:

– İşləri qurtarıb, ha! Görəsən bunu kim eləyib?

Kağızı qaralayan baş elmi işçinin tənbehi başqa idi:

– A yoldaş, uşaq deyilsiniz, yumurta, inək şəkli çəkirsiniz!

O, bu sözləri dedikdə çox sevdiyi Cəlil Məmmədquluzadənin "Saqqallı uşaq" hekayəsini nəzərdə tuturdu.

Elə ki mizin üstündəki kağızı kiçik elmi işçi qaralamış olurdu, onda Əbdüləli dayı hövsələdən çıxırdı:

– A bala, hələ professor deyilsən belə qaralayırsan, bəs sonra nə edəcəyik? [1, s.16].

Bütün bu xüsusiyyətlərlə yanaşı, Əbdüləli dayı obrazı həm də yardımsevərliyi və gənc aspirantlara əl tutmağı ilə də seçilirdi. Əbdüləli dayının tam əksi olaraq digər hekayələrdəki baş qəhrəmanların bəziləri isə elə ilk məqamdan oxucusunda ikrah hissi yaradır. Belə obrazlardan ən sevilməyəni isə "Qarınotaran" hekayəsinin qəhrəmanı olan Ələmdar obrazıdır. Hələ hekayənin əvvəlində qarınotaran sözünün açıqlamasını müəllif aydın şəkildə şərh etmiş və bununla kifayətlənməyərək dahi Seyid Əzim Şirvanidən gətirdiyi nümunə ilə fikrini tamamlamağa müvəffəq olmuşdur:

Öz evində yeməyib, and içərəm, bir gecə aş,
Qarnın otarmaq üçün nəfsini heyvan elədi [1, s.35].

Hekayənin sözügedən qəhrəmanı Ələmdar fürsətçidir. O, tanıdığı və hətta tanımadığı insanlardan ilk fürsətdə istifadə edir. Bir sözlə, Ələmdar qarın otarmaq sahəsində əsl peşəkar kimi özünü göstərir. Hekayə boyu Ələmdaran hərəkətləri, söhbətləri və hətta saxta olan gülüşü göz önündə canlanır. Həmkarları tərəfindən nifrətlə qarşılanan bu tip sonda əsl cəzasına çatır. Yaxşıca əzişdirilib, insan arasına çıxılmaz hala gətirilir.

"İcazə", "Fotoaparatın kəşfi", "Prinsipiallıq", "Təzə and" və sairə hekayələrində isə yaltaqlıq, ikiüzlülük tənqid edilir. Belə ki, "Fotoaparatın kəşfi" hekayəsində cərəyan edən hadisələr real həyatda da olmuş, yazıçının yaxşı tanıdığı fotoqraf Əlinin başına gəlmişdir. Bu hadisəyə də müəllif biganə

qala bilməmiş, onu yazıçı təxəyyülü ilə cilalayaraq maraqlı bir hekayə ərsəyə gətirmişdir. Yeyib-içməyə gələn hekayə qəhrəmanını restoran əməkdaşları qəzetdə çalışan müxbir zənn edir və onları yoxlamağa gəldiklərindən şübhələnərək təşvişə düşürlər. Təcili müdirlərinə xəbər verirlər. Bir-birini izləyən maraqlı hadisələr hekayəyə ayrıca bir rəng qatır. Sonda əsl mətləbi bilən və əməlli-başlı xərcə düşən restoran müdirinin sözləri gülüş yaradır.

"Ömrün izi" hekayələr kitabında "Zaman nə tez keçir", "Sonrakı peşmançılıq", "Sarı köynək" və s. hekayələrdə isə ötüb keçmiş, nakam məhəbbətin tarixçələri canlanır. Burada vaxtilə bir-birilərinə saf məhbbətlə bağlı olan gənclərin anlaşılmazlıq, yersiz qürur, bəlkə də başqa səbəblərdən həyat yollarını ayırdıqları göstərilir. Hekayələrin dili sadə və təsirlidir. Burada təmtəraqlı ifadələrin əksinə, mənalı və təsirli təsvir səciyyəvidir. Müəllif şahidi olduğu və eşitdiyi hadisələri yazıçı qələmi ilə cilalayaraq əbədiləşdirməyi bacarmışdır.

1976-cı ildə "Gənclik" nəşriyyatında çap olunmuş "Ömrün izi" hekayələr kitabı 2022-ci ildə (Nəşrə hazırlayan və ön sözün müəllifi: filologiya elmləri doktoru, dosent Leyla Kamran qızı Məmmədova) Kamran Dadaş oğlu Məmmədovun 100 illiyi münasibətilə latın əlifbası ilə yenidən nəşr olunmuşdur.



**Ədəbiyyat:**


Kamran Məmmədov. Ömrün izi (hekayələr). Bakı, Gənclik,1976,118 s.

Kamran Məmmədov. Ömrün izi (hekayələr). Bakı, Elm və təhsil, 2022,134 s.

Ruhum da Şuşadan nigaran qalıb. Bakı, Elm, 2010, 292 s.


***Leyla KAMRANQIZI***



*Ramiz ORSƏR*

**BİZİM MEŞƏLƏRDƏN KÜSÜB TORAĞAY**

Çiçəyin çiçəktək, gülün gül kimi,
Quşun da quş kimi gözəlliyi var.
Baş qoyub yatasan bir quş səsinə,
Başın üstündə də gülümsəyə Ay,
Bizim meşələrdən küsüb torağay.

Kotanın ağzına verilən meşə,
Suları quruyub, düşüb təşvişə,
Qırxayaq paxıllıq girişib işə.
Fəsillər dolanıb, ötüşsə də ay,
Bizim meşələrdən küsüb torağay.

Yalanlar yol gedər hayana kimi,
Yeddi bacı kimi, bir ana kimi,
Meşələr özünü duyana kimi,
Nə çığır-bağır sal, nə də hay-haray,
Bizim meşələrdən küsüb torağay.

Kol-kos da boy vermir sarmaşıq üçün,
Ələ gəlməz bir quş yaraşıq üçün,
O küsən quşlarla barışıq üçün
Araya yaylıq at, ya da kəlağay,
Bizim meşələrdən küsüb torağay.

Ağzına su alıb, gəlməyir dilə,
Bülbül də susaraq naz edir gülə,
Gün günə bənzəyir, il də ki ilə.
Dərdləri yana qoy, sən sayını say,
Bizim meşələrdən küsüb torağay.

## SEVGİNİN ÇİÇƏK DÖVRÜ, SÜNBÜL VAXTI

Sevginin çiçək dövrü
şipşirindi, noğuldu,
içi dolu nağıldı.
Yel əssə yelə düşər.
Yeldən kiş, kiş!
Sel gəlsə, selə düşər,
Seldən kiş, kiş!
Sevginin sünbül vaxtı,
Xoşbəxtliyin şahlıq taxtı.
Hamı, hamı əzizləyər
o gül gəlini,
sünbül gəlini.
Təkcə sevdalarda yox,
əllər üstdə gəzdirərlər
o çiçək gəlini,
sünbül gəlini.
Dünyanın ən gözəl çağı
bir bülbülün gülə baxdığı,
sevginin çiçək dövrü,
bir də
sevginin sünbül vaxtıdı.

## QOCALAN ANAM

Gözlərim anamın əllərində
bənd alanda
burnuma isti çörək ətri gəlir.
Doğma səsi yaddaşımın yol yoldaşı
Süzülür qulağımdan içimə
lay-lay.
Həmənki laylay!
İşığı gözümə dolub.
İndi qocalan anam

gözümün işığında
payız kimi saralır, solub.
Saralan çiçək, solan çiçək
boylanır üzümə,
boylanır mələk-mələk,
Tökülür əllərimdən,
tökülür lələk-lələk.

## SEVGİ BOSTAN ÜSTÜDÜ

Sevgi bostan üstüdü,
İçi çal-çağır, od-alov,
üstü gömgöy tüstüdü.
Bəy paltarın, gəlinlik donun
yırtılsın əynində, əynində.
Könülsüz bostan əkənin
Tağı çiynində, çiynində.
"Bostan tökər vaxtında",
bər-bəhrə varsa baxtında
ev-ev, süfrə-süfrə
artar, uzanar boyu.
Ayağında, qolunda rəqs edər
oğul toyu, qız toyu.
Hər kəsin boylandığı,
ancaq azın yetdiyi yerdi
ucalıq.
Bir də gördün çiyinlərindən
sallayıb yellədir ayaqlarını
qocalıq.
Ürəyim, söz ilə güləşmə daha,
Qocalıq hər kəsin öz baxtıdı.
Sevgi bostan üstü,
Qocalıq bostanın ura vaxtıdı.

## RƏSUL RZA, ƏLİ KƏRİM

Biri pirim, biri şirim –
Rəsul Rza, Əli Kərim...

Söz bazarında tünlükdü,
Nəfəs dərməyə yer yox,
tutulub hər yer,
hərə öz səsinin həşirindədi.

Sevgi ünvanlı pənah yerim,
Rəsul Rza, Əli Kərim.

Əlіnib ələkdən keçənlərdi,
Düzü əyridən,
yaxşını pisdən seçənlərdi,
Sözün yolunda
canlarından keçənlərdi,
uman yerim –
Rəsul Rza, Əli Kərim.

Bağım, bağçam
çiçək içində, gül içində,
Oxuyur bülbül içində.
Gül-çiçəkdən çələng hörüm,
hara göndərim,
Rəsul Rza, Əli Kərim?

Xəbər gətirdi qasid,
Əkində, biçindədi,
Şeirin içindədi – iş başında
Həm pirim, həm şirim –
Rəsul Rza, Əli Kərim.

## ÜRƏYİ ÇATLAQ-ÇATLAQ

Şirinliyindən deyil,
sənin həsrətindəndi
şeirlərimin dodaqları
partlaq-partlaq.

Qarğı-qarğı saçlarımın
bəyazıması, ayazıması
əllərinin yetmədiyindəndi
pırtlaq-pırtlaq.

Sənə tərəf mənim kimi
suya dönüb axan,
quşa dönüb uçan
baş olub başa çıxan varmı
ürəyi çatlaq-çatlaq?

## BİLMƏDİM

Sənə sevgi, sevinc gətirəcəkdim
Yanına gəlsəydim, gələ bilmədim.
Kim yazıb qolladı bu ayrılığı?
Tanıya bilmədim, bilə bilmədim.

Bir kövrək ürəklə, xəlvət baxışla,
İstəsən könülsüz, istərsən xoşla,
Bağışla sən məni, məni bağışla,
Yolların dilini hələ bilmədim.

Nə eynim açıldı, nə dərddən başım,
İçimdən yol saldı gözümdə yaşım.
Ayrılıqlar mənim könül sirdaşım,
Vüsaldan bac alıb gülə bilmədim.

Qədərim bu imiş, qismətim belə,
Özüm oda döndüm, sevincim külə.
Verilən hər söz də gəlməyir ələ,
Dedim sənsiz ölləm, ölə bilmədim.

## HƏR PAYIZ GƏLƏNDƏ

Hər payız gələndə ümidlənirəm,
Sənli xatirələr dil açır yenə.
Həsrət göy qurşağı, min rəngə çalır,
Yollar da əl açıb uzanır sənə.

Hər payız gələndə ümidlənirəm,
Limon çiçəyinə dönür gözlərim.
Halıma yansa da, baş aça bilmir,
Nə tanış-bilişim, nə əzizlərim.

Hər payız gələndə ilahi eşqlə
Günəşin rəngində gülümsəyirəm.
İllərin üstündən adlayıb keçib,
Adını, özünü əzizləyirəm.

Hər payız gələndə ümidlənərək
Gül-çiçək ətrinə qarışıram mən.
Payız çıxan kimi yağmura dönüb
Qış gecələriylə barışıram mən.

***Şəki***

# YÜZ İLİN BİRİNCİLƏRİ

"Azərbaycan" jurnalı böyük bir Epoxanı başa vurdu!

Təkcə Azərbaycanda deyil, Yaxın Şərq ölkələrində ən qalın və davamlı dövriliyi olan yeganə ədəbi-bədii jurnalın neçə oxucu nəslinin ədəbi zövqünün formalaşmasında, inkişafında xidmətlərini qeyd etməklə,100 illik yolun yekunu kimi bircə söz demək qalır: XX əsrin (və XXI əsrin 20 ildən çoxunun da) ədəbiyyatı və ədəbi nəsilləri bu jurnaldan çıxıb. Buna görə də jurnalın yubileyi yalnız parlaq nəşr faktı, Sözün və Sözü Yaşadanların bayramı deyil, ümumən Azərbaycan ədəbiyyatının, milli mədəniyyətimizin, bədii-estetik düşüncə tariximizin möhtəşəm təntənəsidir.

"Molla Nəsrəddin"in yaradıcıları jurnalın nəşrini zəmanənin tələbi, cəmiyyətin ehtiyacı kimi qiymətləndirərkən nə qədər haqlı idilərsə, "Azərbaycan"ın sələfi "Maarif və Mədəniyyət" jurnalını da uzaqgörən milli düşüncə sahiblərinin tarixi dəyərləndirmək fürsətindən düzgün yararlanmaq cəhdləri yaratdı. Çünki, hansı ictimai münasibətlər sistemində yaşamasından asılı olmayaraq, işıqlı zəka sahibi olan millət fədailəri yaxşı bilirdilər ki, istənilən cəmiyyətin mənəvi-mədəni balansı hansı aktiv amillərin üstün olmasına bağlıdır və üstəlik, hər bir millətin əsasında ideyalar dayanır. İdeyaların rəmzə çevrilməsi, elmi-siyasi-ictimai təfəkkürdə formalaşması, lokomotivə çevrilməsi bədii düşüncədən qaynaqlanır. Onların bədii düşüncə müstəvisindən əməli fəaliyyətə, gerçək əmələ yönəldilməsi fürsəti tarixin müəyyən məqamlarında ələ düşür. Bu yanaşma yeni ədəbiyyatın xüsusi ədəbi orqana ehtiyacını aktuallaşdırırdı. Sovet hakimiyyətinin ilk illərində nəşr olunan "Füqəra füyuzatı" (1920-1922), "Xalq maarifi" (1920), "Yeni yıldız" (1921-1922), "Azərbaycan Ali İqtisadi Şurasının əxbarı" (1921-1924), "Kooperativ işi" (1921-1925), "Gələcək" (1922)

**jurnallarının profili ədəbi-bədii, elmi, tərbiyəvi-əxlaqi istiqaməti əhatə etmirdi. Nəriman Nərimanov başda olmaqla, bir qrup ziyalının, yazıçının Şərqdə ilk ədəbiyyat jurnalı yaratmaq təşəbbüsü Xalq Komissarlığının iclasında (14 oktyabr 1922-ci il) müzakirə olunaraq təsdiqləndi. Ədəbiyyatın, elmin, incəsənətin inkişafına kömək edəcək "Maarif" adlı aylıq jurnalın Əsasnaməsi nəşrin profilini aydın ifadə edən şöbələri belə təsnifləndirirdi: maarif və mədəniyyət, elm və fənn, tənqid və biblioqrafiya, təlim və tərbiyə, məlumat və xəbərlər. Sonralar şöbələrdən birinin adı dəyişdirildi; "təlim və tərbiyə" ictimai və siyasi şöbə adlandırıldı ki, bu da xüsusi şöbənin funksiyasını daşıyırdı. Redaksiya Maarif Evində yerləşirdi. Bütün bu işlərin həyata keçirilməsinə rəhbərlik edəcək şəxs Xalq maarif komissarının müavini, yazıçı Tağı Şahbazi Simürğ idi... Jurnalın ilk illərdə fəaliyyət istiqamətinin əsas səciyyəsi üslub, tərz, meyillərin rəngarəngliyinin gözlənilməsi idi. Ən müxtəlif təmayüllərə, nəsillərə və ictimai görüşlərə mənsub ziyalıları bir araya gətirməklə, milli ədəbiyyatın inkişafının düzgün əsasını qoya bilmişdi. Elə ilk nömrədə dərc olunmuş materiallar və müəlliflərin siyahısını xatırlamaq kifayətdir: Hüseyn Cavid ("Peyğəmbər" pyesindən parça), Mirzə Cəlil ("Zırrama"), Salman Mümtaz ("Nəsimi" oçerki), Abbas Səhhət (fransız şairi Alfred Müssedən tərcümə etdiyi "Mais gecəsi" şeiri), professor Presman (qeydləri), Hənəfi Zeynallı ("Şeyda" əsəri haqqında), Mustafa Quliyev ("Bir-iki söz"), Tağı Şahbazi ("Aldanmış ümid")...**

**Ən müxtəlif adlar, ideoloji təlimatı nə dərəcədə doğrultmasından asılı olmayaraq, ədəbi tribuna kimi ziyalıların bu jurnalı öz jurnalları hesab etməsinə mane olmayıb. Jurnalın Azərbaycan ədəbi dilinin, ədəbiyyatı və mədəniyyətinin, milli-mənəvi dəyərlərin qorunması, inkişafı və zənginləşməsi yolunda fəaliyyəti, əlbəttə, kollektiv fəaliyyətdir. Bununla belə, necə deyərlər, hər binanın bir ustadı... Ətrafında yüksək ədəbi zövqə, yazı və düşüncə mədəniyyətinə, istedadlı, səriştəli qələmə malik kadrları yığa bilmək, bütövlükdə jurnalın adı, nüfuzu, ədəbi siyasəti ona rəhbərlik edən naşirin məziyyətidir. Birinci şəxs həm də nəşrin simasıdır. Bu mənada "Azərbaycan"ın 100 illik yolunun sərgisində 20 portret Ön Plandadır. 20 Baş redaktor. Onların hər birinin adı, xatirəsi, neçə il işləməsindən, hansı şəraitdə hansı şərtlər daxilində, necə işləməsindən asılı olmayaraq, bu 100 illik yolda ehtiramla anılmağa layiqdir. İl boyu davam edəcək "YÜZ İLİN BİRİNCİLƏRİ" layihəsi də "Azərbaycan"ın Baş redaktorlarını – ədəbiyyat tariximizin bu əbədi ədəbi simalarını jurnalın oxucuları ilə birlikdə anmağı planlaşdırır.**

# *Tağı Abbas oğlu ŞAHBAZİ (SİMÜRĞ)*



*(02.07.1892 - 02.01.1937)*

**Dosye:**

**Bakının Fatmayı kəndindəndir. İlk təhsilini mollaxanada alıb, 1902-1905-ci illərdə İçərişəhərdə 9 saylı məktəbdə, sonra Həbib bəy Mahmudbəyovun müdir olduğu birinci rus-tatar məktəbində oxuyub.**

**1913-cü ildə Bakıda Üçüncü Gimnaziyada latın dilindən imtahan verib aldığı şəhadətnamə əsasında həmin il Xarkov Darülfününun Fizika və riyaziyyat fakültəsinin Təbiyyat şöbəsinə daxil olub. 1914-cü ildə Darülfünun Tibb şöbəsinə keçib. 1915-ci ildə "Sosial-Demokrat Bolşevik Firqəsi"nin tələbə fraksiyasına daxil olub. 1917-ci ildə Bakıda "Hümmət" təşkilatında, 1918-ci ildə Xarkovda "Cənub türk-tatar işçisi" hərəkatında fəal çalışıb.1919-cu ildə Ukrayna K(b)P MK yanında "Hümmət" müsəlman bürosunun sədri, RSFSR Xalq Milli İşlər Komissarlığı Zaqafqaziya müsəlmanları şöbəsinin katibi, Şərq Xalqları Kommunist Təşkilatları Bürosunda məlumat şöbəsinin müdiri olub.**

**1922-1923-cü illərdə Azərbaycan xalq maarif komissarının müavini, 1923-cü ildə “Maarif və mədəniyyət” jurnalının redaktoru, 1923-1926-cı illərdə Azərbaycan MİK katibi, 1925-ci ildə Ali Pedaqoji İnstitutun direktoru,1926-1929-cu illərdə ADU-nun (sayca dördüncü, ilk azərbaycanlı) rektoru, 1930-1937-ci illərdə Azərbaycan xalq səhiyyə komissarının müavini vəzifələrində çalışıb.**

**1937-ci martın 4-də “Gizli milli təmayülçülər” (milliyyətçi nərimanovçuluq meyilləri) qrupuna üzvlükdə, əksinqilabi millətçi çıxışlar etməkdə günahlandırılaraq, partiya sıralarından xaric edilib, XDİK-in təhlükəsizlik kapitanı Çinmanın təqdimatı ilə 11 iyun 1937-ci ildə həbs olunması üçün order yazılıb.11 iyul 1937-ci ildə isə əksinqilabçı, burjua-millətçi kimi həbs edilir.**

**İstintaqın sonunadək (13 noyabr 1937-ci il) Tağı Şahbazidən “özünü ifşa edən”, “günahlarını səmimi etiraf edən” heç bir ifadə ala bilməyiblər.**

**1938-ci il yanvarın 2-də SSRİ Ali Hərbi Kollegiyasının Səyyar Sessiyasının N.T.Nikiteçenko, B.İ.İevleva, P.E.İşenkonun sədrliyi ilə keçən qapalı məhkəmənin protokolunda göstərilir ki, Tağı Şahbazinin 15.30-da başlanan məhkəməsi saat 15.45-də bitib. 15 dəqiqəlik məhkəmə T.Şahbaziyə ölüm hökmü kəsib.**

**Yazıçının həyat yoldaşı Şahbazi – Paşina Mariya Kirilovnanı 31 noyabr 1937-ci ildə SSRİ MİK-in 4 iyul 1934-cü il tarixli qərarına əsasən, vətən xaininin həyat yoldaşı kimi həbs ediblər. SSRİ XDİK-in yanında Xüsusi Müşavirənin 9 aprel 1938-ci il qərarı ilə, müddəti 5 noyabr 1937-ci ildən hesablanmaqla, 8 illik həbs cəzası alıb. Qadın uzun sürən yazışmalardan sonra (25 sentyabr 1956-cı il) bəraət almağa nail olub.**

Bu, başda Nəriman Nərimanov olmaqla, milli kommunistlərin faciəvi aqibətinin saysız nümunələrindən biridir. Tarix bu faciənin səbəblərini də, nəticələrini də qiymətləndirsə də, milli yaddaşın qətliamı cəhdləri olan bu amansızlıqların sözün qətlinə gücü çatmayıb. Bunu aldanışları, yanlışları ilə bərabər, xalqa, millətə xidmət etmiş ziyalıların illərin sınağından çıxmış ədəbi taleyi, ədəbi irsi sübut edir. Tağı Şahbazinin 1935-ci ildə Əsərlərinin I cildi (Azərnəşr, 289 səh. 3000 nüsxə) çıxanadək ayrı-ayrı hekayələri bu günlə müqayisə edildikdə kifayət qədər ciddi tirajla nəşr olunmuşdu. Kommunist Partiyasının repressiya siyasətilə bağlı "Bağışlayın, səhv olub!" "üzrxahlığından" sonra Simürğün ədəbi irsi də "amnistiyaya düşüb"; 1960-cı ildə yazıçının Seçilmiş əsərləri (Azərnəşr, 244 səh. 15 000 tiraj) çap olunub. Ayrı-ayrı əsərləri təkrar nəşr edilib.1983-cü ildə "Tağı Şahbazi Simürğ. Seçilmiş əsərləri" yenidən oxucuların ixtiyarına verilib. Azərbaycan müstəqillik əldə etdikdən sonra Tağı Şahbazi Simürğ. Seçilmiş əsərləri (tərtib edəni və öv sözün müəllifi Tehran Əlişanoğlu) 25 000 nüsxə həcmində nəşr edilib. Yazıçının ədəbi irsinin yenidən dövriyyəyə qaytarılması "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli 56 nömrəli sərəncamına əsasən, "Şərq-Qərb" nəşriyyatında 2006-cı ildə baş tutub. Sonuncu cild 1983-cü il nəşri əsasında tərtib olunub.

1979-cu ildə 194 səhifəlik "Simürğün yaradıcılıq yolu" (müəllif: Ə.Nazim. 194 səh.), 1997-ci ildə 118 səhifə həcmində "Tağı Şahbazi Simürğ" (müəllif Ş.Zeynalova) tədqiqat əsərləri "Yazıçı" nəşriyyatında çap olunub. Yazıçının yaradıcılığı rusdilli tədqiqatların da diqqətində olub. 1958-ci ildə hekayələri rus dilində nəşr olunduqdan sonra onun yaradıcılığı "Tvorçeskiy put Taqi Şaxbazi Simurqa" (Tağı Şahbazinin yaradıcılıq yolu; A.İsmayılov, 1964) və "Xudojestvennaya proza i publisistika Taqi Şaxbazi Simurqa" (Tağı Şahbazi Simürğün bədii nəsri və publisistikası; B.A.Musayev, 1966) əsərlərində tədqiq olunub.

* * *

Zahiri səliqəsi, təmkinli çöhrəsi, uzaqlara dikilmiş dalğın baxışları, işıqlı çöhrəsi, qısası, klassik ziyalı obrazı ilə bir az Cavidi, bir az Nərimanovu, bir az da Şaiqi andıran Simürğün siyasi-ictimai-pedaqoji bioqrafiyasının gərgin, rəngarəng, işgüzar ahəngi fonunda diqqəti cəlb edən bir etiraf – yaradıcı ruhun nigaranlığı – bir partiya funksionerinin ritorikasında özünü sahilə çırpan dəniz dalğasının susqunluğunda qəfil bir pıçıltı kimi adamı diksindirir. Bu pıçıltı Tağı Şahbazinin ""Məarif və mədəniyyət" jurnalına təyin olunmuş təsadüfi məmur" yarğılarının tələsik (və laqeyd!), trafaret yanaşmamızdakı haqsızlığı qınayır:

*"...lakin hər hansı bir işdə oldumsa da, mətbuatda iştirak etməklə bərabər, uyqu saatlarından istifadə edərək, sevdiyim ədəbiyyatla da az-çox məşğul olmağa başladım. Fəqət işin çoxluğundan bədii ədəbiyyata istədiyim qədər vaxt sərf edə bilmədiyimə görə, bir taqım yazılarımın hələ indi də natamam qalmasına təəssüf edirəm."(Keçdiyim yol", 1933-cü il).*

Şahbazinin "Azərbaycan" jurnalının sələfi olan "Məarif və mədəniyyət" jurnalında fəaliyyəti təkcə ona rəhbərlik etməklə qalmayıb. Redaktor dövrün – günün aktual mövzuları ilə bağlı məqalələrdən başqa abədi yaradıcılıq nümunələri ilə də bir müəllif kimi çıxış edib. Məcmuənin redaktorunun nömrədə İbrahim Əbilovun vəfatı ilə bağlı vida yazısı , "İbtidai məktəb vəzifələri", 2-3-cü saylarda "Yeni dövr maarif sahəsində yeni mərhələ", "Sabirin xatirəsi" (7-ci

nömrə), “Cocuq evləri”, “III qurultay” (11-ci nömrə), ilin son sayında “Məcmuəmizin 1 illiyi” , “Yüksək musiqi kulturası uğrunda” (1935, №5) və s. yazılar bir ziyalının fəal vətəndaş və ictimai xadim kimi mövqeyini ifadə edir, bəzi məqamlarda proqram səciyyəli istiqaməti şərh edirdisə, xalq həyatının ən müxtəlif təbəqələrinin həyatı, qadın azadlığı və digər mövzularla bağlı bədii nümunələrin bir çoxu da “Maarif və mədəniyyət”in səhifələrində yer alıb. Jurnala rəhbərlik etdiyi qısa dövrdən sonra da yazıçı jurnalla əlaqəni kəsmir, müxtəlif məsul vəzifələrdə işləsə də, özünün dediyi kimi, “Vaxt darlığında” bədii yaradıcılığa yer ayıra bilirdi. “Aldanmış ümid” (№1), “Əzab qorxusu” (№6), “Zərifə”, Hacı Salman”, “Gözlənilməyən bir nəticə” (1928), “Mirzə Badımcan” (1930), “Siyasət adamı” (1932), “Səməd kişi” (1933), “Fitnə”, “Axtarış” (1935) hekayələri və jurnalla əməkdaşlığının son nişanəsi: “Bahar gecəsi” hekayələri Tağı Şahbazinin “Azərbaycan” jurnalının biblioqtafik yaddaşında yer almış bədii nəsr nümunələridir.

*“Ümumən ədəbiyyatla realni məktəbdə maraqlanmağa başladım. Bunun da dil və ədəbiyyat müəllimlərinin təsiri sayəsində olduğunu tərəddüdsüz etiraf edə bilərəm. Türk dili və ədəbiyyatına olan həvəsim tamamilə Mirzə Abdulla Şaiqin əməyinə aiddir. Şaiq realni məktəbin türk lisanı müəllimi idi. Türk dilinin dərs cədvəlində altıncı saata qoyulmasına baxmayaraq,bizim sinifdəki türklər tamamilə dərsə qalır və həvəslə türkcəni oxuyurdular. Lakin şagirdlərin savadı müxtəlif idi. Aramızda əsla savadı olmayanlar da var idi. Ona görə də müəllimimiz savadsızlara əlifba, savadlılara isə ədəbiyyat dərsləri keçirdi. Heç xatirimdən çıxmaz. Bir gün dərs zamanı dərslərimizin gedişini yoxlamaq üçün Tiflisdən məktəbə nəzarət etməyə gəlmiş Qafqaz Maarif Dairəsi baş inspektoru Slavinski sinfə daxil oldu. Biz Şaiqin “Uçdu mələkim, ah, mənə qaldı məlalı” şeirini dəftərə yazıb təhlil edirdik. Dəftərlərimiz də qarşımızda idi. Slavinski bizə müraciətlə: “Kitablarınız hanı?” – deyə soruşdu. Biz dedik ki, türkcə ədəbiyyat kitabı olmadığından, ədəbiyyatı kitabsız keçirik. Slavinski təəccüb edərək, kitabsız nə sayaq oxuduğumuzu soruşdu. Biz anlatdıq ki, müəllimimiz mənsur və mənzum parçalar yazdırır, sonra da onu təhlil edirik. İnspektor bu məsələ ilə maraqlanaraq, yazdığımız şeirlər və nəsrlərdən dinləmək istədi. Biz yazdığımız parçaları oxuyub tərcümə etdik. Nəhayət, “Uçdu mələkim” şeiri oxundu. İnspektor onun tərcüməsini tələb etdikdə, yoldaşımız Haşım Əliyev tərcümə etməyə izn istəyib qalxdı və şeirin nə münasibətlə yazılmış olduğu haqqında bir az əvvəl Şaiqin vermiş olduğu məlumatı söyləməyə başladı. Şeir İkinci Dövlət Dumasının qovulması münasibətilə yazılmışdı. Bunu inspektor eşidincə dönüb rəngi qaçmış Şaiqə acıqlı-acıqlı baxdı.*

*– Çoxmu belə şeirlər oxuyursunuz?*

*Biz düşünürdük ki, yoldaşımız Haşım sadəlövhlük edərək inspektorun bilməsi lazım olmayan sirrimizi açmışdır. Abdulla Şaiq irəli yeriyib, bilmirəm nə demək istəyirdi. Mən vəziyyəti belə gördükdə tez ayağa qalxdım və:*

*– Bu şeir Lermontovun “Mələk” sərlövhəli mənzuməsinə nəzirədir, – dedim.*

*İnspektor gedəndən sonra yerbəyerdən yoldaşımız Haşımı danlamağa başladıq.Yazıq Haşım heyrətlə:*

*– Dumanın qovulmasından müfəttiş özü dilgir deyilmi?Mən elə bildim ki, o, bu şeirdən razı qalar, – dedi.*

*Mirzə Abdulla bizi sakit edib:*

*– Mən özüm gərək sizi irəlicədən başa salaydım. Mütləqiyyət tərəfdarı rus məmurları bu kimi şeirlərin məktəbdə oxudulmasına razı olmazlar, – dedi.*

*Biz müəllimimizdən çox xəcalət çəkdik”. (Keçdiyim yol. 1933)*

“Vaxt darlığında çatdırıb yazdıqlarını” “yaşadığı dövrün bədii sənədləri” kimi səciyyələndirən ədəbiyyatşünas Tehran Əlişanoğlu Simürğün ədəbi irsini belə dəyərləndirir: *“Tağı Şahbazi ədəbiyyat tariximizdə kiçik, realist hekayələri ilə tanınır. Bədii yaradıcılığı həcmcə geniş olmasa da, özündə Azərbaycan həyatının ziddiyyətlərlə dolu bir dövrünü, bütöv, rəngarəng mənzərələrini əks etdirir. Onun hekayələrində milli keçmişimizin bu gün bizə məlum olmayan bir sıra acı səhifələri, səciyyəsi və ibrətamiz hissələri ilə tanış oluruq... Əsərləri milli tariximizin bir parçası olub, bizə Azərbaycan həqiqətlərindən söz açır”.*

* * *

XX əsrin 20-ci ili. Noyabrın son günü. Bakı. Millətlərin öz milli müqəddəratını təyinetmə hüququ vədi ilə hakimiyyətə gəlmiş bolşevik idarəçiliyi Azərbaycanın tarixi torpaqlarının bölünməsi siyasətinin növbəti səhifəsini yazır. Zəngəzur bölgəsi ikiyə bölünür... Zəngəzurun Azərbaycanda qalan hissəsində inzibati idarəçilik mərkəzi yaradılması müzakirə olunur. Bugünkü Laçın və Abdallar kəndləri arasındakı ərazidə rayon mərkəzinin yaradılması təklifi qəbul olunur. Mürəkkəb coğrafiya, çətin landşaft bir yana, əhalinin müstəsna xarakteri də bir yana, yeni vahidin adlandırılması da bir cür həssaslıq tələb edir. Bu həssaslığı ən çox da yaradıcı natura hiss edə, dərk edə, duya-düşünə bilərdi. Beləcə, həmin o məşum iclasda Laçın adını O təklif edir. Yazıçı Simürğ. Tağı Şahbazi.

* * *



Əfsanəvi Simürğ dara düşənlərə lələyindən verərdi, köməyə çatardı... Azərbaycan mifoloji düşüncəsi Simürğ adını xeyirxahlığın, yeni həyatın, dirçəlişin rəmzi kimi mənalandırır. O da ədəbi-bədii yaradıcılığında bu adı təxəllüs seçmişdi. Bir milli ziyalının, maarif, səhiyyə xadiminin ictimai-siyasi fəaliyyətinin, həyatının hər səhifəsi xalqının mədəni dirçəlişi naminə “yandırılmış simürğ lələyi” misalındadır.

***Südabə AĞABALAYEVA***

---

***Tağı Şahbazi SİMÜRĞ***

# QUŞLAR KİMİ AZADƏ

***Yaşamaq, onda da quşlar kimi azadə***

*Ancaq belə yaşamaq insan üçün istəməli və arzu edilməlidir. Hər bir tərəfə, hər bir yerə, hər saatda uça bilən quşlar bu nöqteyi-nəzərdən böyük azadəliyə malik isələr də, fəqət bu azadəlikləri də qorxusuz deyildir.*

*Quşlar – bir-birlərindən, həmcinslərindən qorxmazlar. Onlarda qorxu insanları görəndə müşahidə olunur...*

*İnsan olmayan yerdə ki, qorxu yoxdur. Nə üçün qorxsunlar?*

*Gedək ormanlara, çəmənlərə, dağlara, oradakı quşlar necə azadədirlər. Azadə...*

*Biz deyirik biz də azad yaşamaq istəyiriz. Fəqət nə kimi azadə?*

*– Quşlar kimi azadə?*

***1912***

*Cəlil MƏMMƏDQULUZADƏ*

# Zırrama



Günortadan üç saat yarım keçmişdi, gəlirdim mənzilimə. Yorulmuşdum və acımışdım. Az qalırdım evə yetişəm, küçənin ortasında bir nəfər kişi mənə yavıq gəlib salam verdi və yapışdı sağ əlimdən:

– Molla əmi, yəqin ki, məni tanımırsan?

Doğrudan da tanımadım və kişinin üzünə baxa-baxa qaldım və bilmədim nə deyim.

– Buy, buna bax ey, niyə tanımırsan? Mən sənin həmşərinəm də! Niyə, hacı Novruz ağanı tanımırsan? Mən hacı Novruz ağanın qardaşı oğluyam da! Öz həmşərini tanımırsan? – Dedim:

– Bağışla, vallah tanımıram! – Kişi bir az da ucadan başladı:

– Niyə? Qala məhəlləli hacı Novruz ağanı tanımırsan? Niyə, sən özün neçə dəfə uşaqlıqda bizə gəlmisən; biz ki, bir məhəllənin uşağıyıq. – Dedim:

– Vallah, əzizim, bağışla, tanımırdım; indi ki, deyirsən bir məhəllənin uşağıyıq, xub, xoş gördük, buyur gedək qonağımız ol!

Təzə həmşərim o biri əlimi də aldı əlinə və dedi:

– Yox, əmoğlu, mən sizə getmənəm, əvvəl sən bizə gərək gələsən, sonra mən sizə gedəm; yoxsa, canın üçün getmənəm. Mənzilim bu yavıqdadır.

Və bu sözləri deyə-deyə əllərimdən yapışıb başladı məni çəkməyə. – Dedim:

– Sağ ol, iltifatın artıq olsun, indi gedə bilmərəm; çünki çox yorğunam. İnşallah bir özgə vaxt gələrəm.

Həmşərim bu sözləri eşitcək, guya ki, cuşə gəldi:

– Sən öləsən qoymanam. Gərək gedək bizə. Bu saat samavarım dəmdədi. Sən öləsən, gərək gedəsən. Qasım ağa da bizdədi. Mirzə Abbas da bizdədi. Onları evdə qoydum, gəldim səni də aparam. Çox da səni görmək arzusundadırlar. Deyiblər Mollanı gətirməmiş evə gəlməyəsən.

Mən bilmirdim Qasım ağa kimdir, hansı Mirzə Abbasdır; onların da kim olmaqlarını soruşsa idim, dostum başlayacaqdı onların da atalarından və əmilərindən bit yekə tarix açmağa. Ancaq onu elədim ki, əllərimi bir təhərlə

həmşərimin əlindən qopartdım və özümü soxdum küçə qapımızdan içəri və geri çönüb bir dəfə üzr istədim. Pilləkənləri yuxarı qalxanda küçədən rəfiqimin uca səsini hələ eşidirdim; daha bilmirdim nə deyir…

Girdim evə və başladım bir tikə çörək yeməyə. Bizim balaca qız boşqabları stolun üstünə qoyanda dedi ki, bir adam gəlmişdi, səni qonaq çağırırdı. Mən dinmədim (çörək ağzımda idi). Qızım duzu stolun üstünə qoyanda da dedi ki:

– Gələn adam deyirdi ki, mənim adım Qurbanqulu bəydir. Novruz ağanın qardaşı oğluyam. Deyirdi Molla Nəsrəddin bizim həmşərimizdi. Səni də küçədə gözləyirdi. Bax, budu, indi də genə küçənin ortasında var-gəl eləyir.

Axşam vaxtı çay içdiyim yerdə küçədən bir adam məni çağırdı. Başımı qalxızıb gördüm ki, Qurbanqulu bəy əllərini belinə qoyub, başını da bir az dikəldib, bizim akoşkaya tərəf boylanır. Mən cavab vermədim.

– Molla əmi, salamünəleyküm. Buyur bizə, çay içək. – Dedim:

– Bəy, hazır çayımız stolun üstündə. Sən qabaqca özün buyur bizə. – Və uşağı göndərdim küçə qapısını açsın.

– Molla əmi, and olsun sənin canına, gəlmənəm; sən qabaqca bizə təşrif gətirməsən, mən sizə gəlmənəm.

Mən genə haman təklifi elədim. Amma rəfiqimin halətindən elə başa düşdüm ki, heç vəchlə bizə gəlməyəcək. Papağımı qoyub yendim küçəyə və nə qədər həmşərim təkid elədi, mən onlara gedə bilmədim və üzr istədim. Amma bununla bərabər, dostum məni xeyli yordu; çünki beş dəqiqənin içində bəlkə min beş yüz söz danışdı. Qabaqca genə haman müqəddimədən başladı ki, Novruz ağanın qardaşı oğludur, əmisini atlı sultanı eləyiblər, özünü qubernat öz yanında baş sekretar eləyib, böyük qardaşı Xəlil ağa teleqraf naçalniki olub, kiçik qardaşı Məmmədhüseyn bəy əfsər olub, İrəvandan Məşədi Cəfər gəlib gedir Moskvaya, Məşədi Qurbanəli gəlib Tiflisə, özünə diş qayıtdırsın, Sarvanlardan çox zəvvar gəlib Xorasana gedir, Hacı Həsən ağanın oğlu Möhsün naxoş olub, həkimə gətiriblər, Rus ilə Osmanlının Kars üstə danışıqları var və araları sərinləyib, qaçaq Pirverdiyə 8 il Sibir kəsiblər, Naxçıvanda pendir bir az bahalanıb və daha da belə-belə xəbərləri barmaqları ilə saymaqda idi.

Mən xudahafiz elədim və istədim uzaqlaşam. Qurbanqulu bəy istədi yapışa əlimdən və məni saxlaya, dartındım və özümü qurtardım. O, mənim dalımca genə danışırdı; amma daha uzaq idi.

Haman gecənin səhəri elə bildim yuxuda mənə bu sözləri deyirlər: "Əmim Novruz ağanı atlı sultanı eləyiblər, qardaşım teleqraf naçalniki olub, Məşədi Qurbanəli gəlib diş qayırtdırmağa…"

Gözlərimi açdım, gördüm hava təzə işıqlanır. Bir az da o tərəfə-bu tərəfə baxdım və bildim ki, küçədə danışan var. Rəfiqim Qurbanqulu bəyin səsini haman saat tanıdım və bir az da təəccüb elədim; onun üçün də köynəkçək durdum, gəldim akoşkanın qabağına və gördüm ki, Qurbanqulu bəy genə əlləri belində durub küçənin ortasında və mənim kimi bir üzüyola allah bəndəsi ilə qarın-qarına verib ucadan deyir:

– Rus ilə Osmanlının arası sərindi. Qaçaq Pirverdiyə 8 il Sibir kəsiblər. Hacı Həsən ağanın oğlu Möhsünü gətiriblər həkimə…

Uşaqlara yavaşca dedim ki, akoşkaya tərəf gəlməsinlər və məni soruşan olsa, desinlər gedib idarəyə. Yavaşca bir stəkan çay içib, bir tikə çörək yeyib hazırlaşdım evdən çıxmağa. Amma necə çıxım? Necə çıxım ki, bu zalım oğlu məni görməsin? Özgə yol da yox idi.

Allah rast saldı, həmşərim nə təhər oldusa, küçədən yox oldu. Çıxdım küçəyə və ehtiyatlı keçib getdim.

Aradan bir gün keçdi. Həmşərimi daha küçədə görmədim; bilmədim başı nəyə qarışıb, ya bəlkə şəhərdən köçüb gedib.

O biri gün genə günortadan 3-4 saat keçdikdə ac və yorğun gəlirim evə. Bir az da fikirli idim; amma yadımda deyil nə fikirdə idim.

Küçəmizə yetişən kimi ürəyim qırp düşdü; Qurbanqulu bəy genə əlləri belində küçənin ortasında var-gəl eləyirdi və yoldan keçən bir rusla uzaq-dan-uzağa bilmədim nə danışırdı. Dedim ki, bəlkə xəlvətcə özümü soxam evə; amma olmadı: zalım oğlu, deyəsən ov tulası kimi hiss eləyirdi. Uzaq-dan məni görcək çığırdı:

– Salaməleyküm, Molla əmoğlu! Əmoğlu, çoxdandır görsənmirsən? Deyəsən bizdən iltifatını kəsibsən? Heç demirsən, vilayətimizdən gələn kim, gedən kim? Əmim Novruz ağanı atlı sultanı eləyiblər, özüm də indi qubernat yanında baş sekretaram. Xəlil ağa teleqraf naçalniki olub. İrəvandan Məşədi Cəfər gəlib Moskvaya gedir. Məşədi Qurbanəli gəlib Tiflisə, özünə diş qayıtdırmağa. Sarvanlardan da çox zəvvar gəlib. Hacı Həsən oğlu Möhsün naxoş olub, həkimə gətiriblər. Rus ilə Osmanlının araları pozulubdu. Qaçaq Pirverdiyə 8 il Sibir kəsiblər…

Mən doğrudan da çox ac idim və çox da yorulmuşdum və bunu da bilirəm ki, insan necə çətinliyə düşsə, gərək tab gətirsin və nə eləyir eləsin, amma gərək ədəbi və nazikliyi əlindən qoymasın. Bunu mən bilə-bilə, val-lah, genə tab gətirə bilmədim və dinməz-söyləməz özümü soxdum dalana, qalxdım evimizə və çörək istədim.

İnsafımın və vicdanımın yanında məsul olaram əgər yalan desəm ki, təqribən yarım saat mənim təamım çəkdi və yarım saat da çay içib, uşaqlarla söhbətim çəkdi. Bu bir saat müddətində rəfiqim Qurbanqulu bəy genə haman küçənin ortasında əlləri belində durub, gahdan bir yol ilə gəlib-gedənlərdən bəzi üzüyolaların qabağını kəsib, birinə deyirdi ki, əmim Novruz ağanı atlı sultanı eləyiblər, birinə deyirdi ki, Məşədi Qurbanəli gəlib Tiflisə, özünə diş qayıtdırmağa, birinə də deyirdi ki, qardaşım Məmmədhüseyn bəy qoşun böyüyü olub.

Dünən mən idarədə qeyri həmşərilərimin birinə rast gəldim və bu keyfiyyət yadıma düşdü. Ona dedim:

– Gözün aydın olsun, bizim gözəl vilayətdən buraya bir həmşərimiz də gəlib. – Dedi:

– Kimi deyirsən? – Dedim:

– Novruz ağanın qardaşı oğlu Qurbanqulu bəyi.

Mənim bu sözümün cavabında indiki həmşərim Qurbanqulu bəy barəsində tək bir söz buraxdı; amma bilmirəm bu nə sirrdir ki, o söz mənim yadımdan heç çıxmır.

Dedi:

– Ay Molla əmi, hələ o zırrama haradan gəlib səni tapıb? – Dedim:

– Zırrama nəyə deyirsən? – Dedi:

– Zırrama haman adama deyirəm ki, onun adı Qurbanqulu bəydir, özü də Novruz ağanın qardaşı oğludur və özü də bizim gözəl vətənimizin meyvəsidir. – Dedim:

– Bir də de! – Dedi:

– Zırrama!

Amma heç yadımdan çıxmır.

*Hacı Firudin QURBANSOY*



# HƏKİM ATA SÜLEYMAN BAĞIRĞAANİ

***(1091 – 1186)***

İrfan yönlü divan ədəbiyyatında elə yığcam beytlər var ki, təlqin etdiyi ruhani fikrin siqləti ayrıca bir kitaba sığar. Günümüzdə də mərifətli adamın postulatı kimi səslənən

***"Hər xocanı***
***Xızır bil,***
***Hər gecəni***
***Qədr bil."***

beyti insanı özündən yaşlıyla rastlaşanda, Xızır Peyğəmbəri görürmüş kimi, ehtiram göstərməyə, hər bir gecədən Qurani-Kərimin nazil olduğu Qədrdən alınan feyz kimi istifadə etməyə çağırır. Beyt çağdaş dilimizə uyğunlaşdırılıb, türkicə olan əsli isə belədir:

***"Hər kim görsən***
***Xızır bil,***
***Hər tün görsən***
***Qədr bil."***

Bu hikmətin müəllifi, zamanında "əz kübare-məşayixe-Türk" (Türk şeyxlərinin böyüklərindən), "Qutb ul-aqtub" (Qütblərin qütbü) kimi son dərəcə böyük ayamalarla anılan, Həkim Xoca Süleyman Ata kimi tanınmış böyük Türk övliyası Süleyman Bağırğaanidir. O, 1091-ci ildə Yassı şəhərində (Qazaxıstanın indiki Türküstan şəhəri) dünyaya gəlib, İshaq Babın nəslindən olan Səid Atanın oğludur.

Mövlanə Kəmal əd-Din Vaiz Kaşifinin oğlu oğlu Fəxr əd-Din Əli bin Hüseyn Vaiz Kaşifi (1463-1531) 1503-cü ildə yazdığı "Rəşahat ayn əl-həyat" (Əbədi həyat çeşməsindən damlalar) təzkirəsində belə məlumat verir ki, Süleyman 15 yaşında ikən Xoca Əhməd Yəsəvinin müridi olur.

İrfan – mövcudatla qeyb aləmini ayıran pərdəni aradan qaldırmağı bacaran böyük ruhlu kəramət sahiblərinin məşğulluq sahəsidir. Onlar müxtəlif sakral təmrin və rituallarla ilk növbədə, öz ruhlarını möhkəmləndirib böyüdür, sonra görünməyənləri görməyi, eşidilməyənləri eşitmək bacarıqlarına

malik olur, açılmış bəsirət gözlərilə müxtəlif ünvanlı, missiyalı ruhlarla rabitə qurub nağılvari söylənən inanılmaz hadisələri reallaşdıra bilirlər. Sakral rituallar musiqinin və ritmik sözlərin, hikmət və nəfəslərin (sonralar buna qoşma deyilməyə başladı) vasitəsilə tətbiq olunur. Bu ənənə, fəlsəfədə həyat və yaradıcılığı "manihəyizm" kimi öyrənilən Azərbaycanlı peyğəmbər Mani Həyyin (216-277) gətirdiyi "Ər təng" kitabından dördlük şeir mətnlərinin musiqi ilə oxumasından qalıb.

Xoca Əhməd irfani görüşlərini "Divani-Hikmət"dəki şeirləri və divanına dibaçə kimi yazdığı, sonradan "Fəqirnamə" adlandırılaraq müstəqil əsər kimi öyrənilən nəsrində bəyan edib. Zamanının bütün ziyalıları kimi, ərəb və farscanı ana dili kimi mükəmməl bilən Xoca poetik nümunələrin az olduğu türkicədə yazmağın çətinliyindən söz açmır.

***Miskin, zəif Xoca Əhməd, yetti petişkinka rəhmət***
***Farsi tilini biliban xub aytadur Türkini.***

deməklə, poetik farscanı bilsə belə, türki dilində yaxşı yazmaqla özünün yeddi nəslinə rəhmət oxutdurur.

Xoca Əhməd Yəsəvinin, başqa Yəsəfi xəlifələrinin hikmətləri irfan məclislərində zikrlər kimi söylənib. Belə sakral rituallar kişilər məclisində olduğu kimi, ayrıca qadınlar tərəfindən də təşkil edilirdi. Oğlan uşaqlarının belə buraxılmadığı "Çiltan" adlanan belə yığıncaqlara dəstəmazlı 40 qadın toplaşır, "Hikmətxan" (Hikmət oxuyan) adlandırılan qadın Yəsəvinin şeirlərini xüsusi ritmik musiqinin müşayiətilə avazla oxuyur, qadınlar toplumu zikr edirdi. Bu vaxt bayılmalar, ruhun ruhlar aləmiylə təmasından yaranan həzz duyğusu yaşantılarının sədaları çıxa bildiyindən, hətta oğlan uşaqlarını belə həmin mənzərələri görməmək üçün içəri buraxmırdılar.

Xocasının hikmətlərinin irfani açımını mükəmməl mənimsəmiş gənc Süleyman biliyini və ruhi səviyyəsini anbaan artırmaqla məşğuldu. Savadı, ruhi cazibəsi, kəramətiylə diqqət çəkən bu gənc, xocasının bütün imtahanlarından böyük ruhla çıxırdı. Bir gecə yuxusunda bütün ariflərin mürşidi Xızır Peyğəmbərin onu "Həkim Süleyman" adlandırdığını görür, bu adla tanınacağı xəbərini alır. O andan etibarən, ustadı Xoca Əhməd Yəsəvi kimi hikmətlər yazmağa başlayır.

***Hər kim qılsa Təriqətin davasını,***
***Əvvəl bəri Şəriətni bilmək gərək.***
***Şəriətin işlərini idda qılıb,***
***Ondan sonra bu duanı qılmaq gərək.***

***Şəriətsiz dəm urmazlar Təriqətdə,***
***Təriqətsiz dəm urmazlar Həqiqətdə.***
***Uşbu işlər barçə bilnur Şəriətdə,***
***Cümləsini Şəriətdin sormaq gərək.***

***Ondan sonra birir gərək iradətlik,***
***Bulmuş bulsa, ol birirdən icazətlik,***

***Şəriətdə rast müvafiq kəramətlik,***
***Uşal irnin itakini tutmaq gərək.***

***Kəm bilməyin bu işlərni Şeyx mən desə,***
***Kəramətdən, Vilayətdən xəbər versə,***
***Batil irər əgər Ruh ul-Əmin irsə,***
***Özün əndağ batillərdən seçmək gərək.***

***İradətsiz, İcadətsiz mürşid bulmas,***
***Təriqətnin nişanəsin hərgiz bilmas,***
***Mübtədadır iradətnə layiq irmas***
***Əndağlardan iraq, iraq turmaq gərək.***

***İradətni birib əhli-icazətğə,***
***Qaim bulqıl tüni güni riyazətğə,***
***Satıb onun xizmətini ibadətğə***
***Qulluğunda bilən bağlab turmaq gərək.***

***Ondan sonra mücahidə tonun geyib,***
***Riyazətin putəsində ərib axıb,***
***Mənlik, qurur dəftərindən basıb, ötüb,***
***Üzzət rəxtin satıb xarlıq almaq gərək.***

***Hər kim irsə uşu yolğa girər bulsa,***
***Tövbə qılıb həzrətinə qədəm ursa,***
***Cəmali-Zülcəlalını görər bulsa,***
***Xoca Əhməd nəfəsini tutmaq gərək.***

Xocasının təkidilə Süleyman Bağırğaani əvvəl Səmərqənd, Buxara, Xarəzm, daha sonra Dəməşq şəhərlərində mükəmməl təhsil alıb, Yəsəviyyə təriqətinin IV xəlifi kimi İslamın Türküstanda, Xarəzmşahlar dövlətində (Orta Asiyada), Sibir tatarları arasında yayılmasında öz imanı və irfanı ilə böyük işlər görüb.

Əslən Azərbaycan türkü olan Yusif Həmədaninin müridi, 1093-cü ildə Qazaxstanın Sayram vilayətində dünyaya gələn Xoca Əhməd Yəsəvi, Məhəmməd Peyğəmbər s.ə.s. yaşına çatanda, gün işığını özünə haram bilib 63 yaşından başlayaraq, Yassı şəhərindəki hücrəsində hicri-qəməri tarixlə 562-ci (1166) ildə vəfat edənə qədər qaranlığa, inzivaya çəkilir. Süleyman Bağırğaani xocasının bu fövqəladə əməlini doğru saymır:

***Xacə Əhməd məziyyət birlə həyatin qılmağıl zayə,***
***Bulursan layiqi-Həzrət əgər taət səhər qılsan.***

Allah-Təalanın insana bu dünyada verdiyi müvəqqəti həyatın vaxtını, neçə dəfə nəfəs alıb verəcəyini yalnız O bilir. Buna görə də, həyatı zay etmədən, əgər sabahın açılmasını gözləməyə dözüm olarsa, məramına yetərsən – deyir. Şeyxinin vəfatından 20 il sonra dünyasını dəyişən Həkim Süleyman həyatın müəyyən missiyaya görə verildiyini və bu öhdəliyi tamam-kamal yerinə yetirmək üçün durmadan çalışmağı məsləhət görür.

Süleyman Bağırğaani bir neçə dəfə Həcc ziyarətində olub. Bir qəzəl – musəmətində (daxili qafiyələri olan) bu barədə yazıb:

*Bağırğaandan səfər qılsam təvaf qılqali Kəbəni,*
*Barıb rüknə yüzüm sürsəm vurub Hannani, Mənnani.*

*Həcəri-əsvədə əl sunsam, Hətim divarını görsəm,*
*Şükür həmd-səna isəm səhər vəqtindən sübhani.*

*Səfadan Mərvəyə varsam, mübarək Zəmzəmi içsəm,*
*Zəbih ruhinə xətm etsəm, birər əşr ilə Qurani.*

*Ərafat dağına çıxsam, əcayib sənəənə baxsam,*
*Qəriblər hücrəsin yapsam bulub künc ilə mehmani.*

*Mədinə şəhrinə varsam, Rəsulun rövzəsin görsəm,*
*Yusuf Misrdən ah ursam, təlab Yəğubi-Kənani.*

*Gah əlimə əsa alsam, gah boynumə rədə salasam,*
*Gəh Sina dağına çıxsam, tələb Musayi-İmrani.*

*Fərat Dəclə suyun içsəm, gəh Ceyhundan keçib getsəm,*
*Xəlayiqdən özüm seçsəm gəzib bəhr ilə ümmüni.*

*Hacılar sanığə girsəm, inayət şərbətin içsəm,*
*Həsudlar sözündən qaçsam, basıb nəfsimi ruhani.*

*Fəqir halini sorsalar, mənə Həcc namə versələr,*
*Mənim adımı sorsalar: Süleymani-Bağırğaani.*

"Bağırğaan" mürəkkəb sözünün ikinci hissəsindəki "ğaan" indi əsasən, "xan" kimi yazılır. XIII yüzildə monqol dilindəki bu sözü ərəb əlifbası ilə qeyd edəndə "xan" şəklinə düşüb. "Kaağaan" sözü də bu səbəbdən "xaqan" şəklində dilimizdə qalıb. Kitabının nəşrlərində ərəb əlifbasıyla "xa" ilə deyil, "ğayn" hərfilə yazıldığından, biz də "ğaan" kimi qeydi daha doğru hesab etdik. Süleyman Bağırğaaninin nisbəsi (coğrafi əraziyə mənsubluğu) indiki Qaraqalpakstandakı məkana görədir. Ürgənc, Künrad və bütün Xarəzmin də tabe olduğu Bağırğaan şəhəri bir vaxtlar Qaraxanilər dövlətinin pataxtı olub. Xoca Əhməd Yəsəvinin tapşırığıyla onun müridləri dinin təməllərini yaymaq üçün müxtəlif məkanlara göndərirdi. Süleyman kəramət sahibi olduğundan, Peyğəmbərimizin hərəkətini təkrarlayaraq, məkan seçmək üçün dəvəsinin duracaq yerini tərcih edir. Mindiyi dəvə onu Xarəzm (Ürgənc) şəhərindən qərb tərəfdəki Qaraxani dövlətinin hökmdarı II İbrahim Boqraxanın Binəva-Arkası adlı qoruq çəmənzarına gətirib çıxarır. Əhməd Yəsəvi müridinin gəlişinə şadlanan xan, Süleymana öz qızı Əmbər-Ananı nigahlandırır. (Bu ad bir neçə variantda yazılır; Anbar-Ana, Qanbar, Ambar-Ana, Anvar-Ana) Xan qızına cehiz kimi, Süleymana torpaq sahəsi, mal-qara verməklə bərabər, özü əyan-əşrəfiylə onun müridinə çevrilir. Bu izdivacdan üç oğlu – Muhəmməd, Əsgər, Xubbi və bir qızı – Aişə Bibi dünyaya gəlir. Mənqəbələrin yazdığına görə, onun həm də gözəl şair kimi tanınan Xubbi Xoca və ya Sultan-əpə adlanan oğlu daha böyük kəramət göstərir; Kəbənin virtual, fantom görünüşünü qısa

bir müddətə Bağırğaana gətirə bilir. Atası oğlunun bu hərəkətini günah sayıb qəzəblənir, Xubbi inciyib ata evini həmişəlik tərk edir. Kaşifi göstərdiyimiz əsərində atanın öz oğluna paxıllığından doğan qısqanclıqla qəzəbi izah edir. Əlbəttə ki, bu səhv yozumdur, çünki, ən pak irfan mərtəbəsindəki şeyxlərə paxıllıq nəfsi haramdır, onlar hələ ilkin Şəriət mərhələsində başqa nəfsi-əmmarələr kimi qibtə hisslərini də ruhlarından təmizləyirdilər. Həm də kim öz oğluna paxıllıq edər ki?

Yəsəviliyin V xəlifəsi 1258-ci ildə vəfat edən Həzrət Ay Xoca ibn Tac Xoca ibn Mənsur Zəngi Ata kimi Süleyman Bağırğaaninin müridi onun işini davam edib. Zəngi – ərəbcə qara, zənci deməkdir, görünür, dərisinin rənginə görə belə adlanıb. Süleyman 95 yaşında 1186-cı ildə dünyasını dəyişib.Onun dul zövcəsi Zəngi Ataya ərə gedib. Yeni ailə sərt iqlimli Sibirdən daha sıcaq coğrafiyaya qayıdır. Daşkənd əhatəsindəki Zəngi Atanın məqbərəsinin cənub-qərbində Ənbər Ananın məqbərəsi yerləşir. Süleymanın qızı Aişə Bibinin məqbərəsi isə Taraz yaxınlığındadır.

Həkim Ata Süleymanın əsərləri "Bağırğaani kitabı" adı ilə 1847-ci ildən başlayaraq, Kazanda dəfələrlə nəşr olunub, kitab mədrəsələrdə tədris olunan dil və irfan ədəbiyyatı dərsliyi kimi istifadə olunub. Bağırğaaninin "Bağırğaan kitabı"ndakı əsərləri içində "Axırzaman kitabı", "Meracnamə", "İsmayıl qissəsi", "Bibi Məryəm", "Yarım alma" adlı məsnəviləri də var. "Türki" deyilən, XIII əsrdən başlayaraq "Çəğatay" adlandırılacaq qıpçaqca – qədim özbəkcə yazdığından, Süleyman Bağırğaani tatar, özbək, qazax və qırğız xalqlarının ortaq şairi kimi öyrənilir. Azərbaycan poeziyasına, xüsusilə Yunus Əmrə (1238-1328), Qazi Bürhan əd-Din (1344-1398) və Seyid Əli İmad əd-Din Nəsimi Şirvani (1369-1417) yaradıcılığına, həmçinin irfani aşıq ədəbiyyatımıza onun nəfəslərinin böyük təsiri danılmazdır. Bu baxımdan, şairin ümumtürk yaradıcılıq bağlarının tarixini müəyyənləşdirmək üçün ölkəmizdə də öyrənilməsi vacibdir.

Maddi cəhətcə inkişafdan geri salınmış ölkələrdə İslamın gücünü lap zəiflətmək üçün daha böyük inadla imperialist siyasətinin tərkib hissəsi kimi XVIII yüzillikdən başlayaraq, Avropadan, konkret olaraq İngiltərədən və sion toplumlarından olan maddi dəstəklə, sünni-şiə təriqət bölümləri arasındakı nazik çatlar böyüdülərək keçilməz yarğanlara çevrildi. İrfan böyükləri bu təhlükəni əsrlər öncəsi hiss edib və qarşılıq tədbirlər görməyə çalışıb. Həkim Süleyman Bağırğaani nəfəslərində ümumislam birliyi əks olunurdu:

***Ğani ol Əbubəkrü Ömərü Osman,***
***Ğani ol Əsədullah Əli arslan?***
***Ğani ol əmrulah Həsən, Hüseyn***
***Kərbəla şəhidinə bağmazmısan?***

İrfan toplumlarında müxtəlif məramlarlı sakral ritualların icrasında "ya Allah, ya Hu" – nidaları xüsusi vurğu ilə səslənir. "Hu" – ərəbcə kişiləri bildirmək üçün istifadə edilən, "Huvə" – O şəxs əvəzliyinin qısaldılmasıdır, Allaha işarədir.

***Həqqə aşiq bul sənsin, təni-can birlə Hu Hudu***
***Didarı arzu qılsan, təni-can birlə Hu Hudu.***

İnsan sutkanın 24 saatı ərzində biləkdən, ya da qəflətindən günahlar edir və bağışlanması üçün dualarında niyyətini dilə gətirir. Bağırğaani insanların bu ibadətini öz şeiri ilə asanlaşdırır:

*Xudaya, tutdu aləmi günahim,*
*Keçürgil, yazığam, istiğfar, Allah!*
*Sənuğsən Əvvəl ol Axir pənahim,*
*Keçürgil, yazığam, istiğfar, Allah!*
***
*Səni hazır gör bən yandım imdi,*
*Nə kim qılmışlar idin tatdım imdi.*
*Sığınıb həzrətinə gəldim imdi,*
*Keçirgil, yazığam, istiğfar, Allah!*
***
*Neçə yıllar Hu əbrilə yürüdüm,*
*Zəlalət birlə ömrimni keçürdim,*
*Hidayət yol asarın yetürdim,*
*Keçirgil, yazığam, istiğfar, Allah!*
***
*Be həqqi hörməti-zati-Mühəmməd,*
*Be həqqi nuri-mirati-Mühəmməd,*
*Be həqqi fəzli-ayati Mühəmməd*
*Keçirgil, yazığam, istiğfar, Allah!..*

16 iyun 2019-cu ildə «Татар-информ»un verdiyi məlumata görə, Rusiyanın Asiya hissəsi müsəlmanlarının Ruhani İdarəsi (ДУМ АЧР) Tümen şöbəsinin rəisi Nurikamal xanım Xuçaşeva Kazanda Tatar din xadimlərinin X Ümumrusiya forumundakı "Tatar aləmi ilə bağlı islam məkanlarının qorunması və bərpası" adlı diskussiyada bunları söyləyib: "İslamı bizim vilayətlərdə yaymaq üçün gələn 300 nəfər həmişəlik burada qaldı. Onlardan biri də Həkim Ata Süleyman Bağırğaani Sibirin ən qutsal məkanında – Baişevo məzarlığında bizim kənddə dəfn edilib. Baişevdəki astana (qıpçaq dillərində "pir", "məqbərə" deməkdir) İrtış çayının sağ sahilində Baişevo köyü yaxınlığındadır. Bu ziyarətgaha hər gün çoxsaylı müsəlman zəvvarlar təşrif gətirir".

Həkim Atanın məzarının yeri ilə bağlı Daşkənddə 1902-ci ildə rusca çıxan qəzetdə P.A.Komarov (Комаров П.А. "Ходжа Хаким Сулейман Бакыргани", «Туркестанские ведомости» 1902. № 9 (31 января (13 февраля)) maraqlı mülahizələr söyləyir. Yerli ahıllardan aldığı ənənəvi məlumatda deyilir ki, bütün İrfan təriqətlərinin şeyxi və yolgöstəricisi, İslamın IV Xəlifəsi İmam Əli hakimiyyətindən öncə bu yerlərdə olub. Özbəkistanda Xocənddən 16 verstdən cənubda yerləşən Şixan (şeyxlər deməkdir) kəndinə yaxın üfüqi qaya parçasında ibadəti düzgün öyrədən imamın əllərinin və alnının izləri qalmaqdadır. Bu daşdan üç sajen aralıda Bağırğaaninin məzarı yerləşir. Burada uyuyan şeyxlərin şəcərəsi İmam Bağır Zeyn əl-abidin İmam Hüseyn oğlu, İmam Murtuza Əliyə çatır. Məqalə çıxan kimi böyük şərqşünas V.V.Bartold yubatmadan kiçik bir məqalə yazıb (Бартольд В.В. "К вопросу о родине Хаким-Ата". Бартольд В.В. Сочинения. Т. 2, ч. 2. М: «Наука», 1964, с. 361) həmin

qəzetə göndərir və birinci səhifədə də çap olunur. Məqalədə Kaşifinin təzkirəsinə istinadən söylənir ki, məzar Xarəzmdə Afak-kurqan (Ap ağ Kurqan – yəni, Ağappaq qala) deyilən yerdədir.

İmam Əlinin xəlifə olanadək 20 il müddətində qeybə çəkilib hansı işlərlə məşğul olduğu haqqında islam istoqrafiyasında məlumat yoxdur. Bu illərdə onun Azərbaycana gəlib Gəncənin paytaxtı olduğu Aranşahlıqda (Albaniya) bir müddət yaşaması, şahın qızı ilə izdivac etməsi və oğlunun dünyaya gəlməsi faktı var. Abşeronda "Əli ayağı" adlandırılan məkanlardan əlavə, Gəncədə "Əli dostu qəssab" məqbərəsi və Çuxur Qəbələ şəhərinin olduğu məkanda Komurad ibn Əli ibn Əbu Talibin məzarı üstündə ucalan IX yüzilliyə aid məqbərə var. Güman etmək olar ki, İmam Əli islamın gələcəkdə daha böyük coğrafiyada qan-qadasız yayılması üçün ruhani təşviqat və təbliğatdan ötrü Azərbaycandan Orta Asiyaya gedib.

Bağırğaaninin ədəbi irsini tədqiq etməklə ümumtürk poeziyasının ilkin yaradıcılıq sərçeşməsini təyin etmiş oluruq. Araşdırmadan ötrü kitabxanamdakı 27 yanvar 1858-ci ildə icazəsi alınan, Möhsün Saleh oğlunun xərcilə Kazan şəhərindəki Kövkəbin mətbəəsində "mənfəəti-müslimin" üçün 1858-ci ildə nəşr olunan, çap xətaları ilə dolu "Bağırğaani" kitabından istifadə etdim. «Советское востоквeдение» (изд.АН СССР М.-Л.1948 стр.220-250) elmi dərgisində (А.К.Боровков. «Очерки по истории Узбекского языка (Определение языка хикметов Ахмеда Ясеви)» maraqlı məqaləsində "Bağırğaani kitabı"nın Kazan nəşrlərinə etibar etmədiyini, burada Əhməd Yəsəvi, Nəsimi, Fakiri, Qul Şərif, Übeydi, İkani, Xubbi, Məşrəb, Tac Əhməd, Şəmsəddin Uzqandi kimi orta yüzilliklərdə yazıb-yaratmış bir sıra başqa şairlərin də şeirlərinin yer aldığını yazır (səh.236). Kitabdakı şeirləri oxuduqca, bu etibarsızlığa bəraət qazandırmaq olar.

***Əgərçi Şəmsəddin asi qulundur,***
***Əgər asi, əgər cafi sənindir.***
***Səhərlərdə bu istiğfar onundur:***
***Keçirgil, yazığam, istiğfar, Allah!*** (səh.14-15)

***Yarəb, özün bilirsən, səndin özgə kimim bar?***
***Bərü barım irərsən, səndin özgə kimim bar?***

beyti ilə başlayan qəzəlin məqtə beytində Şəmsi-Asi təxəllüsü göstərilir:

***Şəmsi-Asi yanıb mən, nəfs həvadən keçib mən,***
***Dərgahına gəlib mən, səndən özgə kimim bar?***

***Ol həzrəti-əflak üçün ya həzrəti-şeyxim, mədəd!***
***Ol xaceyi-ləvlak üçün ya həzrəti-şeyxim, mədəd!.***
***Bu Şəmsi-Asi nə qılur, rah dərvişini nə qılur***
***Hər nə desə səndən yetür, ya həzrəti-şeyxim, mədəd!***

***Xudaya, Şəmsi-Asini bağışlağıl xətasını,***
***Tutub tövbə yaxasını sənə sığınurmən, ey Allah!***

Nümunələrdən göründüyü kimi, Şəmsi-Asi təxəllüsü ilə möhürlənmiş şeirləri Bağırğaaniyə aid etmək olmaz. Kitabda yer alan Tac Əhməd imzalı başqa bir nümunə də maraqlıdır.

*Eşqin qıldı şeyda məni,*
*Cümlə aləm bildi səni*
*Qayğum sənsən tüni-güni*
*Mənə sənuq gərəksən.*

*Təalillah zəhi məni,*
*Sən yaratdın cismü cani,*
*Qulam qıllam tüni-güni*
*Mənə sənuq gərəksən.*

*Sözləsəm mən, dilimdəsən,*
*Gözlimsəm mən, gözümdəsən,*
*Könlümdə həm canımdasan,*
*Mənə sənuq gərəksən.*

*Fəda bulsun sana canım,*
*Tökər bulsan mənim qanım,*
*Mən qulun mən, sən Sultanım*
*Mənə sənuq gərəksən.*

*Qaqıllarqa dünya gərək,*
*Ağillarğa üqba gərək,*
*Məcnunlarğa Leyla gərək*
*Mənə sənuq gərəksən.*

*Alimlərqa kitab gərək,*
*Sufilərqa məscid gərək,*
*Vaizlərqa minbər gərək*
*Mənə sənuq gərəksən.*

*Aləm barı uçmaq bulsa,*
*Cümlə hürlər qarşu gəlsə,*
*Allah mana ruzi qılsə,*
*Mənə sənuq gərəksən.*

*Tac Əhməddir mənim adım,*
*Tüni-güni yanar odum,*
*İkki cəhanda ümmidim*
*Mənə sənuq gərəksən.*

Atüstü nəzər salmaqla görmək olar ki, kitabda yer alan Tac Əhmədin bu nəfəsi Yunis Əmrəyə təsirsiz keçməyib:

*Eşqin aldı məndən məni,*
*Mənə səni gərək səni.*
*Mən yanarım dün ü günü,*
*Mənə səni gərək səni...*

*Nə varlığa sevinirim,*
*Nə yoxluğa yerinirim;*
*Eşqin ilə avunurum,*
*Mənə səni gərək səni...*

*Eşqin, aşiqlər öldürür,*
*Eşq dənizinə daldırır.*
*Təcəlli ilə doldurur,*
*Mənə səni gərək səni...*

*Sofilərə söhbət gərək,*
*Ahilərə ahrət gərək;*
*Məcnunlara Leyla gərək,*
*Mənə səni gərək səni...*

*Yunus durur mənim adım,*
*Gün keçdikcə artar odum.*
*İki cihanda maksudum,*
*Mənə səni gərək səni...*

Xoca Əhməd Yəsəvi və müridi Süleyman Həkim Atanın çevrəsində hikmətlər yazan 29 şair-arifin adına müxtəlif mənbələrdə rast gəlinir: 1.Əzim, 2.Əsəd, 3.Bəyza, 4.Behbudi, 5.Gədayi, 6.Qərib, 7.Qizali, 8.İkani, 9.Qasım, 10.Cani, 11.Maçin, 12.Məşrəb, 13.Molla Bazar, 14.Nadiri, 15.Nəsimi, 16.Səbri, 17.Seyfəddin, 18.Tac, 19.Tafi, 20.Temuri, 21.Übeydi, 22.Fəqiri, 23.Həkim Ata, 24.Xubbi, 25.Xudaydad, 26.Şəmsəddin, 27.Şərafi, 28.Şərəf, 29.Şühudi.

Orta yüzilliklərdəki bəyazlarda, cünglərdə türk, fars, ərəb dillərində müxtəlif şairlərin irfan məclislərində spritik rituallar zamanı oxunan eyni ruhla yazılmış şeirlərin güldəstəsinə rast gəlmək adi haldır. Görünür, köhnə əlyazmalardan toplanmış bu şeirlər də saf-çürük edilmədən bir kitabda yer alıb.

Həkim Süleyman Bağırğaani sözünü cilalamağı bacaran mükəmməl şairdir. Onun yaradıcılığına xas əsas cəhət budur ki, heca vəznindəki İrfani aşiq (aşıq) nəfəslərilə bahəm, əruz vəznində məsnəvi və qəzəlləri də var. Onun yaradıcılığı bizim üçün bir də ona görə qiymətlidir ki, ümumtürk ədəbiyyatında ilk qəzələ Bağırğaani yaradıcılığında rast gəlirik.

***Sənin eşqindən ey dilbər, cahanda heç dəva barmu?***
***Yetibdür xülqimə canım, sənindən pürciğa barmu?***

***Sənin eşqindən mən axir bu ömrimni təmam etsəm,***
***Yürək parə, gözüm yaşluq, sənindən bivəfa barmu?***

***Əgər məhşər güni çıxsam sənin eşğində "Hu" eylab,***
***Qiyamət qazisi bulsa, sənindən padişah barmu?***

***Otubdur Leyli və Məcnun eşit əldindən bu qissə,***
***Fərağından əda bulqan mənindən rusiyəh barmu?***



*Ümid etgil, əya müşrib, Xudanın "La yəzal" ermiş,*
*Yığar məhşər güni elini rəhimlin Mustafa barmu?*

Bağırğaani 118, 245, 325 beytlik irihəcmli məsnəvilərində dini-mənqəbəvi mövzuların poetik şərhini böyük ustalıqla verməyə müvəffəq olub.

*Əvvəl Allah yadını yad etəlüm,*
*Bir sözüm həm sonra bünyad etəlüm*
*Həm Əhəd, həm Saməd zati-sifat,*
*"Ləm yəlid"dir həm "və ləm yuləd" həyat.*
*Əvvəl Axır onu bilgil kirdikar*
*Zahirü Batin həm ol Pərvərdigar.*
*Yox yerdin ol qılur peyda bəşər,*
*Əvvəl ki ömri axırı gər kub yaşar...*

beytləri ilə başlayan məsnəvisində Həkim Süleyman Bağırğaani Fatihə surəsindəki Allah-Təalanın sifatlarını sadalayandan sonra İslam Peyğəmbərinin həyatından önəmli detallar üzərində durur, ondan öncəki zamanlarda gəlmiş nəbi və rəsullarla paralel müqayisələr apatır. Məsnəvinin qəsidədən şair üçün daha asan yazılması qafiyə quruluşuna görədir. Qəsidənin ümumu qafiyəsinə uyğun lazımi söz tapmaq, misraları qoşa qafiyələnən məsnəvi beytinə nəzərən çox çətindir. Elə buna görə də, Yusif Xas Hacib Balasaquni (1019-1077) "Qudatğu biliq" (Xoşbəxtlik haqqında bilik) poemasını, Şeyx Nizami Gəncəvi (1141-1209) "Xəmsə"sini, Mövlanə Cəlaləddin Mühəmməd Bəlxi Rumi (1207-1273) "Məsnəviyi-Mənəvi"sini məsnəvi poetik janrında yazıb.

Süleyman Bağırğaaninin ədəbi yaradıcılığına Qazaxıstanda geniş maraq danılmazdır. Filologiya elmləri namizədi adını almaq üçün 31 may 2005-ci ildə Nursulu Matbek xanım Kurmanbek qızı "Süleyman Bağırğaani Həkim Atanın ədəbi irsi" mövzusunda dissertasiya müdafiə edib (qeydiyyat nömrəsi 0405PK00193). 2008-ci ildə Alma-Atada qazax və rusca 7 cildlik "Ədəbi abidələr" nəşrində şair-arifin qismən daha mükəmməl əsərləri öz layiqli yerini alıb.

Həkim Süleyman Bağırğaaninin məmduhu olduğu Yəsəviliyin Azərbaycan irfan təfəkkürünə və ədəbiyyatına təsiri son onilliklərdə yaxşı öyrənilib. Böyük alimlərimizdən Əziz Mirəhmədov, Azadə xanım Rüstəmova, Füzuli Bayat bu sahədə böyük tədqiqat işləri aparıblar. 21-23 noyabr 2008-ci ildə "Keçmişdən günümüzə Xoca Əhməd Yəsəvi" adlı Beynəlxalq simpozium keçirilib. Çox təəssüf olsun ki, dilimizdə Bağırğaaninin adı keçən birinci məqaləni on illər əvvəl yox, indi oxuyursunuz. Qismən az öyrənilmiş XIII-XIV yüzil türkcə yazan Azərbaycan şairlərindən Möhnəti Bakuvi, Nəsir Bakuvi, Ənbəroğlu, Həsənoğlu, Qazi Bürhanəddin, Seyid Əli İmadəddin Nəsimi Şirvani yaradıcılığına daha dəruni təmas etmək üçün Həkim Ata Süleyman Bağırğaaninin ədəbi irsini öyrənmək yeni-yeni elmi qənaətlərə gəlmək yönündə faydalı olardı.

*Paşa ƏLİOĞLU*

# Nəş’ə Təbrizi



XVIII əsrdə anadilli Azərbaycan poeziyası daha da çiçəklənməsi, dünyəvi münasibətlərin əksinə daha artıq yer verməsi, şifahi xalq ədəbiyyatına yaxınlaşması, dilinin sadələşməsi və bir sıra digər xüsusiyyətləri ilə diqqəti cəlb edir. Təəssüf ki, bu əsrdə Şimali Azərbaycanda yaşayıb-yaratmış Nişat Şirvani, Ağa Məsih Şirvani, Şəkili Nəbi, Məhcur Şirvani, Molla Vəli Vidadi, Molla Pənah Vaqif və s. kimi görkəmli şairlərin əsərləri nəşr və tədqiq edilsə də, həmin dövrün çox az saylı Cənubi Azərbaycan şairi barədə məlumatımız vardır. Fikrimizcə, dünya kitabxanalarında saxlanan əlyazmalarımız üzə çıxarılaraq araşdırıldıqca, bu sahədəki boşluqları da doldurmaq mümkün olacaqdır. Bu yaxınlarda Tehranın Məclis Kitabxanasından əldə etdiyimiz əlyazma surətini araşdıraraq elmi mətbuatda XVIII əsrdə yaşamış Mir Fəttah Marağayi adlı şairimiz və onun anadilli əsərləri barədə məlumat vermişik. Dövrün başqa Cənubi Azərbaycan şairi Nəş’ə Təbrizi İran ədəbiyyatşünaslığında tanınsa da, Şimali Azərbaycan tədqiqatçıları onun haqqında müəyyən məlumat versələr də, şairin anadilli əsərlərinin böyük əksəriyyəti diqqətdən kənarda qalmışdır. Bunun əsas səbəbi Nəş’ənin anadilli şeirlərinin əlyazma nüsxələrinin əlimizdə olmamasından ibarət idi. Şairin lirik şeirlər toplusu – divanının İstanbulun Topqapı Sarayı Muzeyində saxlanan əlyazması onun poetik irsi, xüsusilə də anadilli yaradıcılığı barədə fikir söyləməyə imkan verir.

XVII əsrin sonları-XVIII əsrdə yaşamış Azərbaycan şairi və alimi Əbdürrəzzaq Nəş’ə Təbrizi yaradıcılığında Saib Təbrizinin davamçısı, “hind üslubu”nun nümayəndəsi olmuşdur. Təsadüfi deyildir ki, o, farsca şeirlərindən birində “Peyrəvi kon, Nəş’ə, Saibra dər ayine-soxən” (“Nəş’ə, sözdə Saibin ardınca get”) demişdir. Məlum olduğu kimi, XVI əsrin ikinci yarısı-XVII əsrin əvvəllərində farsdilli poeziyada poetik üslubun dəyişməsi prosesi gedirdi.“Hind üslubu” (“səbki-hindi”) adlanan üslub öncə İranda, sonra Hindistan, Əfqanıstan, Orta Asiya və Türkiyədə yayılmağa başladı. Ürfi Şirazi, Nəziri Nişapuri, Zühuri Turşizi, Talib Amuli, Kəlim Kaşani kimi şairlərin yaradıcılığında inkişaf edən bu üslub böyük Azərbaycan şairi Saib Təbrzinin əsərlərində kamillik səviyyəsinə çatmışdır. Savadlı şəhər təbəqələri mühitində yeni ideya-bədii istiqamətlərin nəticəsi olan bu üslubda yazan şairlər qəzəlin mövzu dairəsini elə genişləndirmişdilər ki, bu janr bir çox cəhətləri ilə artıq əsrlərdən bəri

müəyyən edilmiş normalara uyğun gəlmirdi. Qəzəl mürəkkəb fəlsəfi, ictimai, əxlaqi, hətta məişət məsələlərini əks etdirirdi. Tədqiqatçılar göstərirlər ki, yaradıcılığında fəlsəfi, sosial, didaktik fikirlərin üstün yer tutduğu bu şairlər (xüsusilə Saib Təbrizi) poeziyaya yeni ideya, motiv və obrazlar gətirmişlər. Hər cür məhdudiyyətə, təəssüb və fanatizmə yad olan "hind üslubu" nümayəndələrinin dünyagörüşlərində həmin dövrdə bəziləri üçün qəribə görünə bilən genişlik, universallıq müşahidə edilirdi ki, bunu onların özləri "vos'ate-məşrəb" ("xarakter genişliyi") adlandırmışdılar. Bu şairlər poeziyaya "məniyi-biganə" adlandırdıqları qeyri-adi motivlər, obrazlar gətirdilər. XVIII əsrin ortalarından farsdilli poeziyada "bazgəşt" ("qayıtma"), yəni əvvəlki üsluba qayıdış hərəkatı meydana çıxdı, "hind üslubu" İranda dəbdən düşməyə başladı. Nəş'ə İranda farsdilli poeziyada həmin üslubun son nümayəndələrindən olmuşdur.

Lütfəli bəy Azər, Məhəmməd Kazım Mərvi, Məhəmmədəli Həzin, Səlim Behupali, Mirzə Mahmud Qacar, Şəmsəddin Sami, Dehxuda, Ağa Bozorg Tehrani, Gülçine-Məani, Salman Mümtaz kimi müəlliflər Nəş'ənin həyat və yaradıcılığı barədə fikir söyləmişlər. Mirzə Mahmud Qacar "Səfinətül-Mahmud" adlı təzkirəsində onun haqqında belə bir məlumat verir: "Boya-başa çatdıqdan sonra Təbriz darüssəltənəsindən İsfahana köçmüş və təhsilini orada təkmilləşdirmişdir. Bütün elmlərə sahib idi, xüsusilə də riyaziyyat elmində mükəmməl idi. Hicri 1125-ci ildə (1713) ömrünün ulduzu endi və həyatının şərabı əcəl tiryəki ilə nəşəsiz oldu. Mirzə Saib Təbrizi üslubuna bələd idi".

Salman Mümtaz ilk dəfə "Füqəra füyuzatı" jurnalının 1920-ci ilin birinci nömrəsində nəşr edilmiş "Nəş'ə" adlı məqaləsində şairin Azərbaycanın ən görkəmli sənətkarlarından biri olduğunu, İranın, Hindistanın ədibləri tərəfindən yüksək dəyərləndirildiyini göstərmişdir. Tədqiqatçı şairin adının Zeynəlabdin, künyəsinin Əbdürrəzzaq, şeirdə işlətdiyi təxəllüsünün isə Nəş'ə olduğunu bildirir. Qeyd edək ki, şairin müasirləri Lütfəli bəy Azər "Atəşkədə", Məhəmməd Kazım Mərvi "Aləmarayi-Nadiri", Məhəmmədəli Həzin "Təzkireyi-Həzin" əsərlərində ancaq onun adının Əbdürrəzzaq olduğunu göstərmişlər. Səlim Behupalinin – "sübhi-gülşən", Lütfəli bəy Azərin "Atəşkədə", Şəmsəddin Saminin "Qamusi-elam" əsərlərinə istinad edən S.Mümtazın şair barədə bildirdiklərini qısa şəkildə belə çatdırmaq olar: Nəş'ənin iki min beytdən ibarət gözəl nəstəliq xətti ilə köçürülmüş avtoqraf nüsxəsini tədqiqatçı İran tarixçisi Seyid Əli xanın kitabxanasında görmüşdür. Salman Mümtazın kitabxanasında saxlanan Nəş'ə divanında şairin Azərbaycan türkcəsində də şeirləri olmuşdur. Bu şeirlərdən biri, "Deyil qəm, gər tənəzzül etmişəm zahirdə rif'ətdən" misrasıyla başlanan 6 beytlik qəzəl məqalədə təqdim olunur. N.Təbrizinin tərcümeyi-halında belə bir məqam vardır ki, o, İranın bir çox yerlərini gəzdikdən sonra Azərbaycana qayıtmış, Təbrizdə yaşamış və burada vəfat etmişdir. Tədqiqatçı həm də onu bildirir ki, şairin yaxın dostu olmuş Lütfəli bəy Azər nədənsə təzkirəsində Saib Təbrizi kimi Nəş'ə barədə də cəmi 3-4 sətir yazmaqla kifayətlənmişdir". L.Azərin təzkirəsində Saib və Nəş'ə barədə cəmi bir neçə sətir yazdığını, fikrimizcə, izah etmək çətin deyil. Məsələ orasındadır ki, Lütfəli bəy "Atəşkədə" təzkirəsini yazdığı zaman bu iki sənətkarın nümayəndəsi olduğu "hind üslubu" artıq İranda dəbdən düşməyə

başlamışdı. L.Azər bu üslubu tənqid, əvvəlki üsluba qayıtmağı təbliğ edən ədəbiyyatşünaslardan idi.

Qulam Məmmədli təzkirəsində Nəş'ənin əvvəl Mazandaranda vergi məmuru vəzifəsində işlədiyini, sonra isə Nadir şahın sarayına dəvət edildiyini, Şəmsəddin Saminin "Qamusi-elam" əsərinə istinadən hicri 1180-ci ildə (m.1767) vəfat etdiyini bildirir. Q.Məmmədli yazır: "Nəş'ə riyaziyyat elmində məlumatlı, eyni zamanda, mahir xəttat imiş. İki min beytdən ibarət Azərbaycan və fars dillərində şeirlərinin əlyazması Təbrizdə Hacı Məhəmməd Naxçıvaninin şəxsi kitabxanasında saxlanılır. Nadir şahın göstərişi ilə Azərbaycan dilində qəsidəsi Nəcəf şəhərində Həzrət Əlinin məzarının baş qapısında həkk edilmişdir. Hal-hazırda da həmin qəsidə oradadır". Tədqiqatçı Məhəmmədəli Hüseyni 2002-ci ildə çap etdirdiyi "Nəş'ə Təbrizi" adlı məqaləsində müxtəlif müəlliflərin Nəş'ənin ölüm tarixi barədə yazdıqlarını müqayisə edir və düzgün nəticəyə gəlir: Mahmud Mirzə Qacarın göstərdiyi ölüm tarixi ilə razılaşmayan tədqiqatçı yazır: "Lakin "Riyazül-cənnə" əsərinin müəllifi Məhəmməd Əmin Riyahi Nəş'ənin h.1128-ci ildə (m.1774/75) vəfat etdiyini göstərir. Bu tarix Məhəmməd Həzin, Mirzə Mahmud Qacar kimi təzkirəçilərin yazdıqlarına rəğmən həqiqətə daha uyğundur. Qeyd etmək lazımdır ki, görkəmli alimlərdən Şəmsəddin Sami, Salman Mümtaz və Dehxuda Nəş'ə haqqında yazdıqları zaman Səlim Behupalinin "Sübhi-gülşən" təzkirəsinə əsaslandıqlarından orada gedən səhvləri təkrar etmişlər. Ağa Bozorg Tehrani "Əz-Zəriə ila təsanifiş-şiə" əsərində yazır: "Sübhi-gülşən" müəllifi Behupali Mirzə Zelnalabdin Nişat Məşhədi ilə Mirzə Əbdürrəzzaq Nəş'ə Təbrizinin tərcümeyi-hallarını qarışdırmış və ikisinə bir tərcümeyi-hal yazmışdır" M.Hüseyni məqaləsində Nəş'ənin "Şəhi-Cəm həşməti-Dara dirayət Nadiri-dövran" misrasıyla başlanan Azərbaycan türkcəsində qəsidəsindən kiçik bir parça, həmin şeir haqqında məlumat vermiş, bundan başqa, iki anadilli qəzəlini də təqdim etmişdir. Tədqiqatçı bir sıra mənbələrin verdiyi məlumata əsasən yazır: "Nadir Nəcəf şəhərində Həzrət Əlinin məzar qübbəsini qızıla tutduğu zaman Nəş'ədən türkcə bir maddeyi-tarix yazmasını tələb etmişdi. Qəsidənin sərlövhəsindən Nadir şah tərəfindən verilmiş sifarişin məqsədi aydın olur". Sərlövhənin dilimizə tərcüməsi belədir: "Cənabi-Əlinin mütəbərrik (müqəddəs) rövzəsinin qızıla tutdurması münasibəti ilə tarixdir ki, türkcə yazılması əmr edilmişdir". Həmin yazı qızıl suyu və zəncərf (civə və kükürd qarışığından hazırlanan, rəssamların istifadə etdiyi boya tozu, qırmızı və ya qəhvəyi rəngdə olur. Rəssamlar və katiblər əlyazma kitablarında başlıqların yazılmasında, cədvəllərin çəkilməsində işlədirlər). Nəş'ənin həmin qəsidəsini və anadilli bütün digər şeirlərini müasir əlifbaya transliterasiya etdikdən sonra bu əsərlər barədə bəzi qənaətlərimizi çatdırmaq istərdik. İlk öncə XVIII əsrdə, İranda Azərbaycan şairlərinin əsərlərini daha çox fars dilində yazdıqları bir zamanda Əfşar dövləti hökmdarının şairdən Həzrət Əli məqbərəsində həkk ediləcək şeiri türkcə yazmasını tələb etməsi (və şairin əsərinin başlığında bunu xüsusi olaraq vurğulaması) böyük maraq doğurur. Sənədlər göstərir ki, Avropa tarixçilərinin "Şərqin Napoleonu" adlandırdıqları Nadir şah türklüyünü dərk edən, müxtəlif türk dövlətləri (əsasən Osmanlı, Hindistanda türklərin yaratdığı Böyük Moğol imperatorluğu və özbək xanlıqları) ilə dostluq, qardaşlıq münasibətlərini yaratma-

ğa çalışan bir dövlət xadimi olmuşdur. O, Osmanlı hökmdarı I Sultan Mahmuda (1730-1754) məktublarından birində əvvəllər yol verilmiş səhvləri unudub iki qardaş türk dövləti arasında sülh və dostluğun bərqərar edilməsini istədiyini bildirir, müharibə nəticəsində Osmanlı dövləti ərzisinə qatılmış Azərbaycan torpaqlarının qaytarılmasını xahiş edir. Nadir şah Osmanlı dövləti ilə Səfəvilər dövləti arasında baş vermiş müharibələrə ibrət gözü ilə baxıb iki qardaş ölkə arasında yalnız mehriban dostluq və qonşuluq əlaqələrinin yaranmasına çalışmaq lazım gəldiyindən danışır: "Şərt odur ki, bundan sonra fitnə yatmış və xəncər yuxulu olsun, iki tərəfin şəninə layiq və iki dövlətin mənafeyinə müvafiq işlər həyata keçirilib, küdurətdən bəhrələnən və sülh ilə xoş münasibətlərə zidd olan əməllərdən imtina edilsin. İnşaallah-təala bu iki əzəmətli dövlət və bu iki böyük ailənin övladları arasında dostluq və məhəbbət qiyamət gününə qədər davam edəcək".

Tarixdən məlumdur ki, Nadir şah Əfşar 1738-ci ildə Hindistan türklərinin dövləti – Böyük Moğollar imperatorluğuna hücum edir, Şahcahanabada – Dehliyə daxil olur. 1739-cu ildə Karmalda Məhəmməd şah Əbülmüzəffər Nəsrəddin Gürganinin (1719-1748) başçılıq etdiyi Moğol ordusuna tam qələbə çalır. Lakin dövlətin türk dövləti, Məhəmməd şahın isə türk olduğuna görə ona qarşı hörmətlə davranır və taxt-tacını əlində saxlayır. Əfşar dövlətinin qalib hökmdarı bu əhvalatı başqa bir türk dövləti – Osmanlı imperatorluğunun hökmdarı I Sultan Mahmuda yazdığı məktubda belə təsvir edir: "İlahi dərgahına möhtac olanın türkman və adı çəkilən padşahın da Türkmaniyyə ümmətinin və cəlalətli Gürganiyyə (Teymur – P.Ə.) sülaləsinin nümayəndəsi olduqlarını nəzərə alaraq, bundan əvvəl olduğu kimi, el və birlik qaydası ilə Hindistan padşahlığını adı zikr olunmuş o ali məqama həvalə etdik və xütbə ilə sikkəni onun adına düzəltdik". Nadir şah Osmanlı imperatoruna və bu dövlətin yüksək vəzifəli şəxslərinə məktublarında aydın şəkildə bildirir ki, Səfəvilər dövründə məzhəb ayrılığına, sünni-şiə məsələsinə görə türk məmləkətləri arasında baş verən ixtilaflara bundan sonra yol verməк olmaz. O, I Sultan Mahmuda yazdığı məktublarından birində türk dövlətləri arasında ixlilaflara son qoyulması məqsədi ilə məzhəblər arasındakı fərqlərin aradan götürülməsi zərurətini xüsusi olaraq qeyd etmişdir. Nəş'ənin haqqında danışdığımız, Nadir şahın əmri ilə qələmə aldığı qəsidəsi təntənəli bir dillə yazılmışdır, burada ərəb-fars söz və ifadələri kifayət qədərdir. Şeirdə müəllif Həzrət Əli məqbərəsinin qübbəsini qızıla tutmağı, üzərində türkcə maddeyi-tarix qəsidəsi yazmağı əmr etmiş hökmdarın mədhinə xüsusi yer verilmişdir. Qəsidədə şair həmin vaxt baş vermiş başqa bir tarixi hadisəyə də işarə etmişdir. Məsələ orasındadır ki, həmin dövrdə Nəcəf şəhəri Osmanlı dövlətinin ərazisinə daxil idi. Əfşarlar dövlətinin hökmdarı oraya yalnız Həzrət Əlinin məqbərəsini abadlaşdırmağa gəlməmişdi. 1743-cü ildə Nadir şahın təşəbbüsü ilə Nəcəfdə İran, Osmanlı dövləti, Orta Asiya və Əfqanıstandan gəlmiş sünni və şiə din xadimlərinin toplantısı keçirildi. Tədbirdə İran tərəfdən 70 nəfər, Osmanlı tərəfdən Bağdad valisi Əhməd Paşa, Bağdad müftisi və başqaları iştirak edirdi. Burada Nadir şahın istədiyi məsələ – sünni məzhəbləri ilə bərabər, şiə-cəfəri məzhəbinin qanuniliyi bütün din xadimləri tərəfindən qəbul edilməsə də sünni və şiə dindarlarının imzaladığı vəsiqənamə adlı xoş məram sənədi yaxınlaşmağa meylin artdığından xəbər verirdi. İran

tərəfinin din xadimləri Həzrət Əlidən başqa üç raşidi xəlifə – Əbu Bəkr, Ömər, Osman barədə yalnız hörmətlə danışacaqlarına söz verirdilər. Osmanlı imperatoru qonşu dövlətin başçısının öz ərazisində Həzrət Əli məqbərəsini abadlaşdırmasını razılıqla qarşılayırdı. İki dövlətin yaxınlaşmasında və tədbirlərdə Nadir şahla dostluq münasibətləri olan Bağdad valisi Əhməd Paşa fəal iştirak etmişdi. Nəş'ənin qəsidəsində Nadir şahın təşəbbüsünə I Sultan Mahmudun müsbət münasibəti, hadisələrdə Əhməd Paşanın iştirakı da qeyd edilmişdir:

***Riza verdi ona sultani-Rum, İskəndəri-sani***
***Ki, vacibdir duayi-dövləti islamiyan üzrə...***
***Səlahi-dövlətini istəyən Bağdad valisi***
***Çalub itmam içün səy ilə damanın miyan üzrə***

Müəllif şeirində Nadir şahın dövlət başçısı və sərkərdə kimi mədhinə xüsusi yer ayırmışdır:

***Sən ol kamil bahadırsam, giramisən ki, həqqində***
***Demiş hər cövhəri bir qiyməti-xalis kəman üzrə.***
***Şəha, biixtiyarəm mədhi-şahənşahi-dövranə,***
***Bu yüzdəndir mükərrər eylərəm cari zəban üzrə..***
***Qəsidənin son beyti belədir:***

***Cəvabım, Nəş'ə, oldu misreyi-tarixi-itmamə,***
***"Ədəb-bil, mehr sakindir mütafi insü can üzrə"***

Beytin ikinci misrası maddeyi-tarixdir. Əbcəd hesabı ilə oxunduqda günbəzin qızıla tutulması tarixinin h.1156-cı il (m.1743) olduğunu görürük.

Nəş'ənin divanına daxil edilmiş digər anadilli qəsidəsi belə bir sərlövhə altında verilmişdir: "Degər tarix be cəhəte-məzargahe-Nadiri həsbül-əmr qofte şod" ("Nadirin məqbərəsi üçün yazılması əmr edilmiş digər tarix"). Adından göründüyü kimi, bu şeir Əfşarlar dövləti hökmdarının məqbərəsində həkk olunmuş maddeyi-tarix qəsidəsidir. Məlum olduğu kimi, 1747-ci ildə düşərgəsində olduğu zaman Nadir şah saray əyanlarının sui-qəsdi nəticəsində qətlə yetirilmişdi. Nəş'ə bu şeirində yalnız hökmdarın ölümü münasibəti ilə kədərini ifadə etməklə kifayətlənməmişdir.

***Şəhi-şahani-fələk rütbeyi-Nadiri-dövran***
***Ki, oldu əmrinə tabe cahanda hər nə ki, var***

- beyti ilə başlanan qəsidədə müəllif Nadir şahın İran tarixində, bütün Yaxın və Orta Şərq xalqları tarixində oynadığı rolu, hökmdar kimi qüdrətini xüsusi olaraq diqqətə çatdırmışdır. Şair göstərir ki, ölkənin çətin vaxtlarında, İraq (İran mənasında işlədilmişdir – P.Ə.) əfqan tayfalarının əlinə keçdiyi, Xorasanın itirildiyi, Təbriz osmanlılar tərəfindən işğal edildiyi zamanda Nadir şah qaranlığı – düşmənləri yaran Günəş kimi meydana çıxdı və ölkəni xilas etdi. Burada Nadir şahı Günəşə, düşmənləri qaranlığa bənzədən şair təzad poetik fiqurundan məharətlə istifadə etmişdir:

***O gün ki, məmləkəti-binəziri-İrandan***
***İraq zümreyi-əfğan əlində idi düçar.***
***Müsəllət mülki-məmləkət Xorasanda,***
***Əsiri Rum idi Təbrizü sair əmsar.***

***Günəş tək etdi vücudi zühur məşriqdən,***
***Siyah şam tək əda fərarə verdi qərar.***
***Fərar etməsəydilər əsakiri-zülmət,***
***Siyah əncüm ola, aftab ola salar***

Bundan sonra müəllif Nadir şahın xarici ölkələrə yürüşlərindən bəhs edir. 1739-cu ildə Nadir şahın Böyük Moğol imperatorluğu qoşunlarına qələbə çalaraq Hindistanı fəth etməsi barədə danışan şair Əfşarlar dövlətinin hökmdarının Moğol hakimi Məhəmməd şahı azad etməsini xüsusi olaraq nəzərə çatdırır:

***Mürüvvətindən onun rayi hindray oldu,***
***Himayəti əlinə verdi xatəmi-zinhar.***
***Cahanda olmaz idi şahi-Hind azadə,***
***Gər etməsəydi bu dərgahə bəndəlik izhar***

Hindistanı fəth edən Nadir şahın 1740-cı ildə Mavərənnəhr və Xarəzmə yürüş etməsi Mərkəzi Asiyanın yeni tarixində mühüm hadisələrdən hesab olunur. Əfşar qoşunları Xivə və Xarəzmi, Bəlxi, Buxaranı və digər yerləri tuturlar. Bir sıra yerli hakimlər Nadir şahın yazılı müraciətinə cavab olaraq onu qarşıladılar. Bəlx hakimi Niyaz Məhəmməd Quşbəyi, Turan hakimi Rəhim xan Nadiri hökmdar kimi qəbul etdilər. Yerli hakimlərdən Əbülfeyz xan əvvəlcə tabe olmayıb müqavimət göstərsə də, sonra təslim oldu, barışıq əlaməti olaraq Teymurun qılınc və dəbilqəsini, Çingiz xanın dəbilqə və baş örtüyünü ona bağışladı. Buxaradan Səmərqəndə qədər Əfşar qoşununa qarşı çıxan tayfalar yatırıldı. Nadir şah elçilərini öldürüb ona hərbi müqavimət göstərən Xivə xanı İlbarsı qətlə yetirdi. Digər yerli xanlarla razılıq əldə edildi. Bu hadisələrdən bəziləri qəsidədə əksini tapmışdır:

***Məzaqi-Bəlx olub təlx zəhri-tiğindən,***
***Tutuşdu mülki-Buxara, yer üzrə oldu buxar.***
***Olub nəhibdən Ürgənc gənci viranə,***
***Təmam ləşkəri-Xarəzm rəzmi eylədi xar.***
***Qəza əlində səlatini-türki qıldı əsir,***
***Qədər həm eylədi əfnalərində çox israr.***
***Vəli bu dövlətə dəstudur ki, əfvə qərin,***
***Olub günahına hər kim ki, eyləsün iqrar,***
***Tərəhhüm eylədi Bülfeyz xanə feyzrəsa.***
***Kim öz yerində buldu feyz istiqrar.***
***Həzar şükr ki, var şahbazi-dövlətin,***
***Əsiri pəncəsi əfğanü özləkü tatar***

Nəş'ə Nadir hakimiyyətə gəldikdən sonra rusların I Pyotr vaxtında tutduqları Xəzəryanı torpaqlardan, Dağıstandan çəkilməsini xatırladır. Şeirin sonunda müəllif Nadir şahın məqbərəsinin möhtəşəmliyini vəsf edir, hökmdara müraciətən deyir ki, sənin bu dünyadakı əməllərin o dünyada cənnətə düşəcəyinə səbəb olmuşdur. Burada şair maraqlı bir aforizm işlədir: bahar yaxşı olarsa, o ilin sonrası da yaxşı olur. Eləcə də insan ömrü ləyaqətli olarsa, həmin adam o biri dünyada ilahi mərhəmətə layiq olar:

***Edər zühur bu dünyadə rifə'əti üqba,***
***Təmam sal olur yaxşı, yaxşı olsa bahar.***

***Həmişə aqibəti-kar xeyr olur bişək,***
***O müşkil işdə ki, düşsün kərim ilə sərükar***

Qəsidənin sonunda müəllif bu əsərini qeybdən gələn bir ilhamın köməyi ilə yazdığını, Nadirin cənnətə düşdüyünü göstərir:

***Bu büqə surəti-itmanə çün qərin oldu,***
***Nidayi-hatifi-qeyb eylədi bana əş'ar.***
***Behiştdən bir əsərdür bu, Nəş'ə, dünyadə,***
***Gərək ki, yazıla tarixi: "Cənnətasar".***

"Cənnətasar" sözləri əbcəd hesabı ilə Nadir şahın ölüm tarixini bildirir.

Nəş'ə Təbrizinin divanına daxil edilmiş türkcə altı qəzəl ümumi bir "Qəzəliyyat dər zəbane-türki" ("Türk dilində qəzəliyyat") başlığı altında verilmişdir. Bu qəzəllərdən dördü yeddi, ikisi altı beytdən ibarətdir. Həmin şeirlərdə Nəş'ənin təmsilçisi olduğu "hind üslubu"nun bir sıra səciyyəvi xüsusiyyətləri əksini tapmışdır. Son dövrlərə qədər belə hesab edilirdi ki, adı çəkilən üslub özünü yalnız farsdilli poeziyada göstərmişdir. Lakin apardığımız araşdırmalar nəticəsində məlum oldu ki, XVII əsr Azərbaycan şairlərindən Saib Təbrizi, Vaiz Qəzvini, Mürtəzaqulu Sultan Şamlu və Vəhid Qəzvininin anadilli əsərlərində bu üslub özünü göstərmişdir. Şeirdə xəyala güc verilməsi, oxucunun alışmadığı, ona qəribə gələ bilən obrazlar yaradılması, poetik fiqurlardan, xüsusilə də təmsil bədii ifadə vasitəsindən geniş istifadə edilməsi "hind üslubu" şairlərinin əsərləri üçün səciyyəvi idi. Nəş'ənin əlimizdə olan türkdilli şeirlərində bu xüsusiyyətləri görə bilərik. Nadir şahı vəsf edərkən şair deyir: "Binayi-dövləti sabit, ədaləti səyyar". Yəni, hökmdarın qurduğu dövlətdə sabitlik var, onun ədaləti isə səyyardır, ölkənin hər bir yerinə aiddir. Müəllifin "sabit" və "səyyar" sözlərinin köməyi ilə yaratdığı təzad ölkədə sabitlik və ədalətin hökm sürdüyü poetik bir şəkildə əks etdirir. Məlum olduğu kimi, Nadir şahın hakimiyyətə gəlməsi İranda qarışıqlığın, qeyri-sabitliyin qarşısını aldı və onun 1747-ci ildə qətlindən sonra ölkədə yenidən qarışıqlıq baş alıb getməyə başladı.

Nəş'ənin qəzəllərindən biri "hind üslubu" şairlərinin xüsusi fikir verdikləri təmsil poetik fiqurundan (beytin bir misrasında söylənən fikir digər misrada həyatdan bir nümunə ilə təsdiq edilir) istifadənin çoxluğu ilə diqqəti cəlb edir. Birinci mətlə beytində deyir ki, əgər insan, sənətkar daxilindən, mənəvi dünyasından təsirlənməsə, onun çəkdiyi nalənin, ifadə etdiyi iztirabların heç bir əhəmiyyəti olmaz. Necə ki, iksirdən istifadə edilməsə mis qızıla çevrilməz (orta əsr əlkimyaçıları belə hesab edirdilər ki, iksirin köməyi ilə misi qızıla çevirmək mümkündür – P.Ə.):

***Nalə bicadur, gər ehsan görməsə təsirdən,***
***Mis təla olmaz gər imdad olmasa iksirdən***

İkinci beytdə müəllif onun sənətini, istedadını qəbul etməyənlərə cavab verir, bu bəyənməzliyi korun dünyanı işıqlara qərq edən Günəşi görməməsinə bənzədir:

***Baisi-hirmanümüz nöqsani-istedaddur,***
***Dideyi-əma nə görsün mehri-aləmgirdən***

Üçüncü beytdə "hind üslubu" şairləri üçün səciyyəvi bir cəhət diqqəti cəlb edir. Adətən klassik şeirdə aşiqin könlünün məşuqənin zülfünü xatırlamasından söhbət gedir. Burada isə, gözəlin zülfünə bənzəyən zəncir aşiqin könlünü yad edir. Gözəlin zülfü zəncirə bənzədilir. Şairin bədii məntiqinə görə, eşqindən dəli olub zəncirlənən aşiqi məhz zülfə bənzəyən zəncir yad edə bilər:

***Könlümi zəncirdən ayrı hiç kimsə etməz xəyal,***
***Yad edən əhli-cünuni yad edər zəncirdən***

Sonuncu beytdə müəllif eşqində özünü pərvanə ilə müqayisə edir. Şam pərvanəyə aşiq olduğundan, onun ətrafında fırlanır, onun oduna yanır, bununla da eşqini ifadə edir. Nəş'ə isə əsl aşiqdir, o, eşqində pərvanətək yansa da dərdini heç kimə deməməlidir:

***Şamtək yan, Nəş'ə əmma sözün izhar eyləmə,***
***Haləti-pərvanə müstəğni olur təqrirdən***

Şairin "Olmaz" rədifli qəzəlində də təmsil poetik fiqurundan uğurlu istifadənin nümunələrinə rast gəlmək olar. Əgər Günəş zəvala uğramasa, günorta vaxtı zenit nöqtəsindən qüruba doğru getməsə, dünyada kölgə meydana çıxa bilməz. Eləcə də ürəyi mehr, məhəbbət tərk etməyincə, orada kin-küdürət özünə yer tuta bilməz:

***Zəvali-mehrdəndir sayə aləmgir olur, ey məh,***
***Könüldən mehr zail olmayınca rəngi-kin olmaz***

Qəzəlin sonuncu beytində "hind üslubu" şairlərinin şeirə gətirdikləri daha bir cəhətə, duyğu üzvlərinin funksiyalarının qarışdırılmasına (sinesteziya) rast gələ bilərik. Müəllif burada süxəngu (danışan) gözlər obrazını yaratmışdır. Beytin mənası belədir: Şair sevgilisinin danışan, fikrini sözsüz ifadə edən gözləri ilə ünsiyyətdə olmuşdur. O, iddia edir ki, bu cür ünsiyyətin sehrini (təsirini, feyzini) heç cür danışmağın sehri (təsiri, feyzi) ilə müqayisə etmək olmaz:

***Süxərgu gözlərindən Nəş'əyə olmuş nəzər guya,***
***Tilismi-göftgudə böylə bir sehrafərin olmaz***

"Hind üslubu" nümayəndəsi kimi Nəş'ə obraz yaratmaq üçün şeirlərində həyatın ən müxtəlif, gözlənilməz tərəflərindən, o cümlədən, riyazi anlayışlardan da məharətlə istifadə etmişdir. Həm də riyaziyyatçı olan şair "Gərək" rədifli qəzəlində "ceyb" ("sinus") terminini mənalandırmışdır. Məlum olduğu kimi, sinus anlayışı tarixən triqonometriyada düzbucaqlı üçbucağı nəzərdən keçirərkən meydana çıxmışdır və üçbucağın tərəflərinin uzunluğunun onun iti bucaqlarından asılı olduğunu ifadə edən elementar funksiyadır. Düzbucaqlı üçbucağın iti bucaqlarının sinusu onun qarşısında duran tərəfin – katedin düz bucaq qarşısında duran tərəfə – hipotenuza nisbətinə bərabərdir. Göründüyü kimi, burada üçbucağın bucaqlarının onların qarşısında duran tərəflə qarşılıqlı asılılığı vardır. Nəş'ə

***Ceybində sübh mehri demişdir sana qərin,***
***Sadiq isə, müarizəsi rubəru gərək***

- beytində sevgilisinə üz tutaraq deyir ki, sübh Günəşi ceybində (sinusunda) sənə yaxın olduğundan danışır. Əgər eşqində sadiqdirsə, səninlə müarizədə, üzbəüz olmalıdır. Burada Günəş üçbucaqlının bucağına, məşuqə isə birbaşa onun qarşısında duran, "üz tutduğu" tərəfə bənzədilir. Beləliklə, Günəşin işi ancaq gözələ baxmaqdan ibarət olmalıdır ki, bu da onun sədaqətini göstərir. Qeyd edək ki, ədəbiyyatımızda poetik obrazların yaradılmasında elmi terminlərin işlədilməsinə rast gəlmək mümkündür. Klassik poeziyamızda riyazi terminlərdən nadir hallarda istifadə edilmişdir. Bir sıra digər "hind üslubu" təmsilçiləri kimi Nəş'ənin özünəməxsus, orijinal deyim tərzi vardır. Dildə "dünyadan əl götürmək" ifadəsi

olduğu halda o, tərki-dünyalığı tərk etməmək tələbi ilə çıxış edir, “əl götürmə tərki-dünyadən” deyir. Başqa şairlər məşuqəsindən qarşılıq umduğu halda, eşqi yolunda hər cəfaya hazır olan, əslində eşqin mənasını bu cəfada görən Nəş’ə möhnətdən, əzabdan məhəbbət gözlədiyini bildirir:

***Əgər ülfət görə səyyaddən, seyd eyləməz vəhşət,***
***Könül etməz cüdalıq gər məhəbbət görsə möhnətdən***

Odu su ilə söndürürlər. Nəş’ənin lirik qəhrəmanının gözlərindən axan yaşlar isə onun evini yandırıb kül edir. Çünki bu göz yaşları aşiqin odlu-alovlu qəlbinin dərinliklərindən axıb gəlir:

***Yaxdıvü yıxdı könlümüzü əşki-atəşin,***
***Bərq oldu seyli-xarü xəsi-aşiyanəmiz***

Nəş’ə Təbrizi şeirlərində həqiqi (ilahi) eşqlə məcazi (dünyəvi) eşq arasında fərq görmədiyini bildirir, onların yalnız adında fərq olduğunu deyir, bununla da bir daha vəhdəti-vücud nəzəriyyəsini təsdiqləmiş olur. Tanrı hər bir şeydə, təbiətdə təcəlli edir, məcazi eşq əslində həqiqi eşqin birinci mərhələsidir:

***Həqiqətlən məcazın fərq edən mənini nə anlar***
***Ki, yox mənidə fərq kamili ismin müsəmmadən***

Şairin yalnız məcazi, dünyəvi-eşqi tərənnüm etdiyi şeirləri də vardır:

***Bənimlə vədeyi-vəsl eyləmə, etsən vəfa eylə,***
***Nə hacət laləgun olsun yüzün daği-xəcalətdən***

Şair sevgilisinə deyir ki, mənə vüsal vəd etmə, əgər əhdinə vəfasız çıxarsansa, üzün lalə kimi qırmızı rəngə boyanacaqdır. Göründüyü kimi, burada söhbət dünyəvi eşqdən gedir.

Lirik şeirlər toplusu – divanı əlimizdə olmadığından, son vaxtlara qədər XVIII əsr Azərbaycan şairi Nəş’ə Təbrizinin ədəbi irsi barədə ətraflı fikir söyləmək imkanımız yox idi. Şairin İstanbulun Topqapı Sarayı Muzeyindən surətini əldə etdiyimiz divanında onun farsca şeirləri ilə bərabər köçürülmüş Azərbaycan türkcəsindəki şeirləri – üç qəsidə və altı qəzəli həmin dövrdə Cənubi Azərbaycanda anadilli poeziyamızın inkişafı barədə təsəvvürlərimizi genişləndirməyə imkan verir. Türklüyünü dərk edən, digər türk ölkələrinin hökmdarlarına qardaşlıq məktubları göndərən Nadir şahın saray şairi Nəş’ənin ana dilində yazdığı üç qəsidəsində onun şəxsən şahidi olduğu bir sıra tarixi hadisələr əksini tapmışdır. Şairin anadilli qəzəllərində böyük Azərbaycan şairi Saib Təbrizinin ən qüdrətli nümayəndəsi olduğu “hind üslubu”nun güclü təsiri özünü göstərməkdədir. Məlum olur ki, əsərlərinin çoxunu fars dilində yazmış sənətkarın ana dilində dərin mənalı, yüksək poetik xüsusiyyətləri ilə seçilən şeirləri vardır. Ədəbi irsini diqqətlə nəzərdən keçirdikdən sonra şairi XVIII əsrdə Saib Təbrizi ədəbi məktəbinin ən görkəmli azərbaycanlı nümayəndəsi adlandıra bilərik. Nəş’ə Təbrizinin həyat və yaradıcılığını, ədəbi irsini ətraflı nəzərdən keçirərək onun XVIII yüzillik Azərbaycan ədəbiyyatındakı mövqeyini daha dəqiq müəyyənləşdirməyə ehtiyac vardır.



*Vaqif YUSİFLİ*

# ORXAN PAŞA, NƏ DİLƏRSƏN?

Mən filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlını müasir folklorşünaslıq elmimizdə, sözün həqiqi mənasında liderlərdən biri sayıram və ozan-aşıq sənəti ilə bağlı araşdırmaları, Dədə Qorquddan müasir dövrümüzə qədər folklorumuzun müxtəlif problemləri ilə bağlı apardığı tədqiqatlar onun nəinki Azərbaycanda, türk dünyasında və xarici ölkələrdə də tanındığını, etiraf olunduğunu təsdiq edir. Elə bilirəm ki, folklor elmimizin patriarxı Məmmədhüseyn Təhmasibdən sonra onun yolunu davam etdirənlərdən biri də Məhərrəm Qasımlıdır. Lakin bu yazıda mən Məhərrəmin elmi fəaliyyətindən, folklorşünaslığa gətirdiyi yeniliklərdən və xüsusilə onun «Folklor və ədəbiyyat araşdırmalırı» kitabından deyil, şeirlərindən söz açmaq istəyirəm.

Onda Məhərrəmin 15 yaşı vardı, Tovuz rayonunun Alakol orta məktəbində oxuyurdu, orta məktəbdə onu «şair» deyə çağırırdılar və günlərin bir günündə Tovuz rayon qəzeti «Həqiqət»də Məhərrəmin ilk şeiri dərc edildi. «Məktəb şairi» oldu kənd şairi, sonra rayon şairi, sonra tələbəlik illəri – Məhərrəmin şeirləri dövri mətbuatda, müxtəlif gənclik almanaxlarında göründü, amma ilk şeirlər kitabı yalnız 90-cı illərdə işıq üzü gördü. Amma Məhərrəm Qasımlı Nizami adına Ədəbiyyat İnstitutunda aspiranturaya daxil olandan sonra sanki şairliyi arxa plana keçdi. İndi kimsə Məhərrəmi şair yox, elmin yollarında pillə-pillə irəliləyən bir alim-folklor tədqiqatçısı kimi tanımağa başladı. «Şah İsmayıl Xətainin poeziyası» (namizədlik), «Aşıq sənəti qaynaqları: təşəkkülü və mühitləri» (doktorluq) dissertasiyaları və onlarla elmi məqalələri, həm də 25 ildən artıq Ədəbiyyat İnstitutunda direktor müavini... Görəsən harda qaldı şair Məhərrəm Qasımlı?

Günlərin bir günü mətbuatda Məhərrəm Qasımlının yeni şeirlərinin dərc edildiyini gördüm. Şəkil onunku idi, amma Məhərrəm Qasımlı yox, Orxan Paşa imzasıyla… Kimdir bu Orxan Paşa və Məhərrəmin gül kimi adı-soyadı ola-ola, Orxan Paşa ləqəbinə sığınmaq nə deməkdir? Məhərrəmdən

öyrəndim ki, anası ona Orxan adını fikirləşirmiş, amma məhərrəmlik ayında doğulduğu üçün atası deyib ki, adı Məhərrəm olsun. Paşa isə Məhərrəmin atasının adıdır. Deməli, Orxan Paşa ləqəbi Məhərrəmin atası ilə anasını «birləşdirir». Orxan Paşa Məhərrəm Qasımlı saz-söz mühiti-məkanı kimi tanınan Tovuz diyarındandır və təbii ki, o mühitin qoşmalı-gəraylılı şeir havası onun şeirlərində də duyulmalıydı. Və duyulur da. Amma necə? Məsələ burasındadır ki, Məhərrəmin qoşma və gəraylıları müasir bədii təfəkkürün – XXI əsr şairinin məzmun yeniliyilə seçilir.

***Sərin-sərin ləpələnər***
***Sazın ürək pıçıltısı.***
***Yağmur olub səpələnər***
***Yazın ürək pıçıltısı.***

***Quzu kimi hürkək olar,***
***Həzin olar, kövrək olar,***
***Gül şehindən titrək olar***
***Qızın ürək pıçıltısı.***

İlk baxışda adi gəraylı təsiri bağışlayır bu şeir. Gəraylı şeir şəklinin əlamətləri yerli-yerində, amma mən nə klassik, nə də müasir gəraylılarda «ürək pıçıltısı» ifadəsinə rast gəlməmişəm. Bu ifadə – söz birləşməsi təşbih və metaforalarla canlanır və doğrudan da, şeirdə sözün və sazın ürək pıçıltısını eşitmiş oluruq. Hiss olunur ki, Orxan Paşa sözün məcazi mənalarını şeirdə poetik mənalara çevirir. Xalq yazıçısı Elçin məqalələrinin birində yazırdı ki, təyyarədə hansı ölkəyəsə uçurdum. Özümlə «Azərbaycan» jurnalının bir neçə sayını götürmüşdüm ki, oxuyum, yeni çıxan əsərlərlə tanış olum. Məhərrəm Qasımlının şeirlərini oxudum və bu şeirlər məni heyrətləndirdi. Onun şeirlərini əvvəllər də oxumuşdum, amma bu şeirlər doğrudan da həqiqi poeziya nümunələri idi.

Məhərrəm Qasımlının elmi tədqiqatlarında Saz –Aşıq sənəti mühüm yer tutur və təsadüfi deyil ki, o, Azərbaycan Aşıqlar Birliyinin sədri kimi də fəaliyyət göstərir. Bəs şeirlərində necə? Mən iki şairin – Hüseyn Arifin və Məstan Günərin şeirlərində Sazın varlığını, adi musiqi alətindən qeyri-adi canlı, əfsanəvi sənət lirasına çevrildiyini hiss etmişəm. Orxan Paşa da onlarlı bir sıradadır. O, «Sazın səsi – haqqın səsidi» deyir. «Sazım» şeirində isə saza aid olunan təşbih və metaforalar təptəzədir.

***Qəriblərdən xəbər gəlsə,***
***Axşam ötüb səhər gəlsə...***
***Durnalardan nəmər gəlsə–***
***Bəsindi bir lələk, sazım.***

***Öyüd aldın göz açanda,***
***İgid oldun iz açanda,***
***Gözəllərdən söz açanda***
***Kəlmələri yüyrək sazım.***

Orxan Paşanın Aşıq Əkbər Cəfərovun «Göyçəgölü» havasına, bənzərsiz saz xanəndəsi İsmayıl Bozalqanlının kövrək və həzin səsinə həsr etdiyi şeirlərdə isə Sazın insan qəlbində yaratdığı, insan ruhuna kökləndiyi ehtizazları dilə gətirir. «Sən elə oxudun Yanıq Kərəmdən, Kərəmi yandıran tilsim göynədi». «Durnalar duruxdu göyün üzündə, Lələk salıb həzin-həzin göynədi». «Leysanı kəsərmi bulud gözlərin, Selin bitəcəkmi, a «Göyçəgölü»?!.

Azərbaycan aşıq poeziyasında çox geniş yayılmış lirik şeir növlərindən biri də gözəlləmədir. İki il öncə məhz M.Qasımlının tərtibi ilə klassik və müasir şairlərin gözəlləmələrinin cəm olduğu «Aşıq gözəlləmələri» adlı 430 səhifəlik bir toplu nəşr edilib. Əksərən qoşma və müxəmməs formalı gözəlləmələrdə qadın və qızların zahiri gözəlliyi, ağıl və mərifəti tərənnüm edilir. Elə bircə Aşıq Ələsgərin toyda-düyündə, məclislərdə gördüyü gözəllərə həsr etdiyi şeirləri xatırlamaq kifayətdir. Amma həmin topluda Məhrəmin gözəlləməsinə rast gəlmədik. Onun gözəlləmələrində konkret olaraq gözəllərin adı çəkilmir. Amma nə fərqi, kiməsə söylənilib:

***Mələk qanadında enibdi göydən,***
***Bu gözəl – dünyanın, ərzin gözəli.***
***Kim qurtula bilsə heyrətdən, heydən,***
***Göstərib nişana versin gözəli.***

Orxan Paşanı təkcə sazın və gözəllərin şairi kimi təqdim etmək istəməzdim. O, müasir dövrün, yaşadığımız əsrin və bu əsrin ictimai-siyasi hadisələri – Azərbaycanın, müstəqilliyimizin varlığı ilə bağlı bir şairdir. Ordumuza, bayrağımıza, əsgərimizə, şəhidlərimizə həsr etdiyi şeirlərində – son illərin bu ənənəvi mövzularında yüzə-yüz şablondan qaçır, çalışır ki, təzə söz desin. Təzə söz isə onda yaranır ki, fikrin poetik ifadəsi ilə rastlaşaq. Məsələn, son illərdə Azərbaycan əsgərinə həsr olunan yüzlərlə şeir oxumuşuq. Əksəriyyətində bir-biri ilə həmahəng onlarla sözlər, ifadələr diqqəti cəlb edir. Orxan Paşa çox sevdiyi Məstan Günərin bir misrasını epiqraf verir: "«Son damla qanına söykən». Və bu bir misradan Orxan Paşanın öz şeiri yaranır: «Meydan Vətən meydanıdı, Dayan, meydanına söykən!... Vuran qolun yorulmasın, Oğuzun şanına söykən!» və s.

Orxan Paşanın «Əllərini uzat mənə» (Bakı, 2021) şeirlər kitabında elə şeirlər var ki, onların heç bir təhlilə, heç bir şərhə ehtiyacı yox, amma elə şeirlər də var ki, üstündən keçmək olmaz, çünki bu şeirlərdə səni düşünməyə vadar edən nəsə var. «Durnaların Bağdad eli» – vaxtilə Vaqifin, Vidadinin, Zakirin şeirlərində «qaqqıldaşa-qaqqıldaşa» uçan durnaların Bağdad elindən lənətə gəlmiş neft üzündən indi qan tökülür, «Füzuli ahıyla, Kərbəla fəryadıyla hönkürürdü durnaların Bağdad eli», «qan tökülürdü kəndindən, bazarından, şəhərindən, yaralı durna lələklərindən». Böyük rəssam Səttar Bəhlulzadəyə aid onlarla şeirlər yazılıb, amma Orxan Paşa da onun çəkdiyi tabloları, bu tablolardan alınan təəssüratları şeirində cizgiləndirə bilir: «Gəzib-gəlib Göyçayın nar bağlarında tapmışdı axtardığı

günəşi. Qubanın qızıl almasından bərq vururdu ürəyinin atəşi». Orxan Paşanın «Kasıbın oğlu» şeiri isə kimlərəsə bir ittiham kimi səslənir:

***Təkcə sənə gələcək***
***əsgər çağrışı,***
***Təkcə sən getməlisən***
***Bu ağır yolu:***
***sən qorumalısan***
***evlərin, ocaqların odunu,***
***ayaq basdığın torpağın***
***vətən olmaq,***
***yurd olmaq umudunu.***

Onun sevgi şeirlərinə gəldikdə isə… bu şeirləri halal, təmiz məhəbbətdən doğan və süni, qondarma hisslərdən uzaq olan şeirlər kimi qəbul edirik. Əgər sevən bir insan deyirsə ki: «Getdiyin yolların ayağındayam, Gəldiyin yolların başında hər gün», əgər deyirsə ki: «Gedirsən, heç olmasa ürəyinin bahara bənzər yaz nağılını qoy get – yağışın yağmurun qalsın mənimlə»... Bu səmimi hisslərə inanmamaq olarmı? Sevgi şeirlərimizdə «Bəri gəl», «Başına döndüyüm», «Ay zalım», «Gedirsən», «Səndən küsmüşəm» kimi dönə-dönə işlənən, çox zaman urvatsız şeirlərin yaranması hallarını az görməmişik. Orxan Paşa isə bu məlum rədiflərə təzəlik bəxş edir, daha doğrusu, «köhnə havalarda» yeni notlar səsləndirir:

***Göyün o üzünə yetişib halım,***
***Mələklər də bilir, səndən küsmüşəm.***
***Durna olub köks ötürür əhvalım,***
***Lələklər də bilir, səndən küsmüşəm.***

***Qısılıb qalmışam küncə, gəzmirəm,***
***Təbriz axtarmıram, Gəncə gəzmirəm.***
***Heç sənə bənzəyən qönçə gəzmirəm,***
***Çiçəklər də bilir, səndən küsmüşəm.***

Bu yazını buradaca bitirə bilərdim. Alim-təlqiqatçı Məhərrəm Qasımlının Şair Orxan Paşaya «keçidi» heç də pis alınmayıb və onun şeirlərindən həmişə ürəklə söz açmaq olar. Təbii ki, Orxan Paşa aşıq poeziyasından çox bəhrələnib və şeirlərində də əsrlərin sınağından keçən o ruhu yaşadır. Amma Orxan Paşanın bir müasir ustadı vardı ki, onu unutmaq olmaz. Məstan Günər idi o ustad və Orxan Paşa onun haqqında yazdığı məqalələrdə dönə-dönə qeyd edir ki, uşaqlıqdan, ilk gəncliyindən Məstan Günərin şeirlərinin dəli-divanəsi olub. «Səni durnalardan xəbər alıram, Bağdad olub qürbətinə döndüyüm», «Bircə kirpiyini qoyub kənara Tək onun başına dolanmaq olar» – Məstanın bu gül qoxuyan misralarından Orxan Paşa neçə şeirində təsirlənib, amma təsir təqlidə çevrilməyib. Məstan Günərin ruhu şad olsun, Orxan Paşaya isə uğurlar arzulayıram!



# Ərafda bir yazıçı – Etimad Başkeçid: dünya ilə vətən arasında

Qədim Borçalı torpağının Azərbaycan ədəbiyyatına bəxş etdiyi istedad sahiblərindən biri olan Etimad Başkeçid ədəbi mühitə şair kimi gəlib. Onun 2006-cı ildə çap olunmuş "Broy & panoptikum" kitabında toplanmış şeirləri müasir oxucuya yeni və fərqli bir şairin ədəbi mühitimizə qədəm basdığının müjdəsini verdi. Etimad Başkeçidin bütün yaradıcılığında olduğu kimi peziyasında da əsas, aparıcı xətt milli-etnoqrafik yaddaşın əksidir.Yazıçının dünya ədəbi və fəlsəfi fikri ilə yaxından tanışlığı bu xəttin yeni çalarlarla əksini və özünəməxsus ifadəsini təmin edir. Etimad Başkeçidin mükalimə şəklində qələmə aldığı "Yol" şeirində dialoqun tərəfləri göstərilməsə də, şeiri oxuduqca dialoqun insanın ruhu ilə cismi arasında olduğu qənaəti yaranır. Dünya üzünə yeni bədəndə səyahətə gələn ruh yeni bədəninin təcrübəsi ilə keçmişdən gələn biliklərinin növbəti dönəminə qədəm qoyur. Əslində yol, yəni həyat, şairin də dediyi kimi, insanın "bir gün geriyə dönmək üçün sallandığı nəsnə"dən başqa bir şey deyil:

Sən getdikcə uzanan yolda, nə gördün?
– Üfüqlər genişləndikcə dünya daralır...
– Mən isə bir yedim, beş də götürdüm.
– Halal xoşun olsun.
– Yaxşı, nə öyrəndin, nə bildin?
– Bu gözü tutursan, o biri gözə xeyri dəyməz.
– Bunu mən sənsiz də bilirdim.
Məhəbbət varmı bu dünyada, sən bilərsən.
– Hər halda olmamış olmaz.
– Day belə olmaz dostum, billah olmaz,
ama hünərdən gəlmiş kimi görünürsən,
– Əğstəfürullah.
– Yəni tarixə də qazanmadın adını?
– Yox.
– Vardığın mənaya çatdınmı barı?
– Yox. Hər dəfə

sal divar kimi
bir sonsuzluq çıxdı önümə.
– Oralar buralardan nəylə seçilir?
heç olmasa bunu de.
– Nə deyim?
Orayla bura tam tarazıdı.
Çünki canım-qardaşım, hər şey
bu fanidə bir-birinin məcazıdır.
– Bəs onda nəymiş bu yol dediyin?
– Yol bilirsənmi nədir, dostum.
– Nə?
– Hamının sürü-sürü daşlandığı
və bir gün geriyə dönmək üçün
sallandığı nəsnə...

Etimad Başkeçidin yaradıcılığında hekayə janrı aparıcı mövqeyə malikdir. Onun "Devri-aləm və bir gün", "Veyil dərəsi", "Velosiped", "Tüklücə", "Günəş topla mənim üçün" hekayələrində müasir realilərlə mifik, dini realilərin sintezi, mətnin alt qatının dinamikliyi yazıçının özünəməxsus üslubunun təzahürü kimi önə çıxır. Cavanşir Yusiflinin də qeyd etdiyi kimi, "Etimadın istənilən hekayəsində (romanından fərqli olaraq – !), hadisələrin inkişafının konkret məqamında mistik bir aura yaranır, daha sonra bir-birinin dalınca gələn reallığı bəlkə də göz deşən olaylar baş verir." Etimad Başkeçidin hekayələri yazıçının roman texnikasının təkmilləşməsində mühüm rol oynamışdır. Beləliklə, poeziyadan başlanan yol nəsrə doğru yönələrək yazıçının yaradıcılığında yeni etapın başlanğıcını qoymuş və "Min yol mənə söylər…" kimi sinkretik, polifonik bir romanın yaranmasına gətirib çıxarmışdır.

Etimad Başkeçidin "Min yol mənə söylər..." romanı 80-ci illərin sonunda baş verən ictimai-siyasi hadisələri bir tələbənin baxış bucağında oxucuya təqdim edir. Romanın əsas qəhrəmanı Moskvada Ədəbiyyat İnstitutunda oxuyan azərbaycanlı tələbədir. Romanda Moskva mühiti ilə qəhrəmanın doğulduğu Borçalı torpağının koloritli mühiti zaman-zaman çulğalaşır. Xüsusilə tələbənin atası ilə mükalimələri və xatirələr fonunda etnoqrafik cizgilər qabarıq şəkildə meydana çıxaraq dövrün abu-havası fonunda mətnə ekzotik aura gətirir. Romanın yazıçının prototipi olan qəhrəmanı iki fərqli mühit arasında ərafdakı kimi yaşayır. Bir tərəfdə qədim Borçalı, digər tərəfdə yad amma enerjili, şirnikləndirici Moskva. Lakin qəhrəmanı bu təlatümlü, şirnikləndirici mühitdən qoruyan, özümlülüyünü itirməsinə imkan verməyən əsas səbəb onun milli köklərdən qidalanan uşaqlığına bağlı xatirələri, onun qanına yerimiş, əsrlərdən gələn ənənələrdir. Etimad Başkeçid insanın özəyini təşkil edən və romanın da əsas alt xəttinin qidalandığı uşaqlıq dövrünə maraqlı bir tərif verərək onu bəşəriyyətin ilkin dövrü, mifik təfəkkürü ilə əlaqələndirir, bununla insanın mahiyyətcə ilkin etapda eyni olan təbiətinin mühitin təsiri ilə formalaşdığını vurğulayır: "Onda mənim dörd, ya beş yaşım olardı. Onda elə dünyanın özü də təxminən həmin yaşlardaydı. Dünyada nə oğru vardı, nə quldur, nə əzən vardı, nə əzilən, nə acından ölən vardı, nə də ki, artıq çəkidən əziyyət çəkən. İnsanlar da ağac, ot, daş, rüzgar və ya bax, bu payız yağmuru kimi təbiət hadisəsi idilər. "

"Min yol mənə söylər..." romanında zəmanəsinin qəhrəmanı olan bir sıra obrazlarla tanış oluruq. MDU-nun Fizika və riyaziyyat fakültəsinin tələbəsi Ziyəddin, Moskva Bauman Universitetində oxuyan Rüs¬təm, Mahmud, əsərin qəhrəmanının tələbə yoldaşları latış Yanis Eşots və koreyalı Çen Mun onun yenicə öyrəşdiyi beynəlmiləl tələbə dünyasının üzvləridir. Romanın ən koloritli qəhrəmanı isə, Xıdır İlyaslıdır. Etimad Başkeçidin bu obraza verdiyi ad mifik personaj olan Xıdır İlyas obrazı ilə səsləşir. Maraqlıdır ki, Xıdır İlyaslı adı ilə səsləşən mifoloji obraz kimi tələbə Rəsulovu möcüzəli bir şəkildə dəfələrlə dardan qurtarır. Lakin Xıdır İlyaslı qaranlıq işlərlə məşğul olan, yenicə yaranmaqda olan kriminal aləmə keçid etmiş şəxs kimi bu yolun qurbanı olur.

Roman yenidənqurma hərəkatı, siyasi təlatümlərlə, maddi çətinliklərlə, mitinqlərlə xarakterizə olunan, stereotiplərin yıxıldığı, yeninin başlamadığı, köhnənin isə dağılmaqda olduğu unikal bir dövrün xülasəsidir. Etimad Başkeçid yeni dövrün ilkin işartılarını, sovet mifinin dağılmasını bir gəncin dili ilə deyil, həmin mühitin yetirməsi olan atanın sözləri ilə bədii mətnə həkk edir. Ata ilə oğulun mükaliməsində sovet rejiminin əsl mahiyyəti bu şəkildə xülasələndirilir: " – Bu bina əvvələr bu kişinin evi olub, – Gertsenin heykəlinə işarəylə dedim. – Bu sağ tərəfimizdəki tikili isə onun at tövləsiymiş, indi kitabxanadır.

– Belə de… – Atam qanrılıb diqqətlə Gertsenin qranitdən yonulmuş sifətinə baxdı, – adamı malından-mülkündən eləyirlər, sonra da özünə heykəl qoyurlar, yaxşı işdi, vallah!". Etimad Başkeçidin bu romanda təqdim etdiyi maraqlı səhnələrdən biri Şuşanın işğalı ilə bağlı ermənilərin Moskvada şadyanalıq etməsinin təsviridir. "Ermənisən?" sualına "Allah eləməsin" deyə cavab verən azərbaycanlı tələbə azğınların hücumuna məruz qalır. Lakin bir dəstə düşmən qarşısında qorxub geri çəkilməyən azərbaycanlı balası o çətin dönəmdə bugünkü qələbəmizin müjdəsini ermənilərin başına ildırım kimi endirir: "– Elə danışırsan ki, elə bil, sən mənim şəhərimi yox, mən sənin şəhərini tutmuşam, o ermənilərin hökmdarı, – dram janrının qaydalarına uyğun olaraq pafosla və bərkdən səsləndim, sonra barmağımı Puşkinin heykəlinə tuşlayıb davam elədim, – sənin barəndə efiop üləması Puşkin çox düz buyurubmuş: sən qorxaqsan, sən qulsan, sən ermənisən. Sən başqasının şeyinin üstündə cənnətə girmək istəyirsən, o bilmirəm neçənci Tiqran Ovanes Xaçatur. Amma bil və agah ol ki, ovuclayıb içdiyin qanların hamısını burnundan gətirəcəyəm..."

"Min yol mənə söylər..." romanının mətni üç qatdan ibarətdir. İlkin qat yenidənqurma dövrünün inikasıdır. İkinci qat Konfutsi fəlsəfəsi ilə bağlı məqamları ehtiva edir. Üçüncü, ən önəmli qatın məğzini isə milli təfəkkürdən gələn elementlər təşkil edir. Təsadüfi deyil ki, romanın epiqraflarından biri "Kitabi-Dədə Qorqud"dan götürülmüş "Altun başlı ban ev vergil…" ifadəsidir. Roman boyu uşaqlıq xatirələrindəki epiqrafik elementlərlə yanaşı, "Kitabi Dədə Qorqud" üslubu da özünü göstərir.

Etimad Başkeçid yaradıcılığı dünyəvi və milli, bədii və fəlsəfi, real və magik elementlərin çulğalaşmasından doğan və yazıçının özünəməxsus bədii dili ilə reallaşdırılan fərqli ədəbi mətnlərin təzahürü ilə müstəqillik dövrü ədəbiyyatımızın əsas fondunda özünə yer etmişdir.



*Elnarə QARAGÖZOVA*

# “Qaraqaşlı”: dirçələn qürurumuzun romanı




Ötən çağlarda – otuz il əvvəl sevincdən başqa hər şey vardı: ağrı-acı, üzüntü, kədər. Haqqın bərqərar olacağı gün hələ yetişməmişdi. Düşmən tapdağında qalan yurd yerlərimiz əsl sahibləri, doğmaları üçün qəribsəyirdi. Gül-çiçək bitirən münbit torpaqlarımız yağı tanklarının tırtılları altında cadar-cadar olmuş, sanki hər şeydən küsmüşdü. Yamyaşıl bağ-bağatın büsatı, növrağı pozulmuşdu.

Birinci Qarabağ savaşı tüğyan etməkdəydi. Cəbhə-cəbhə genişlənən qanlı savaşın başımıza açdığı müsibətlər saysız-hesabsızdı. Gözəlliklər məskəni Qarabağımız kənd-kənd, şəhər-şəhər azğın düşmənin caynağına keçdikcə, evlər qarət olunur, yandırılıb külü göyə sovrulurdu. Sərhədyanı bölgələrin əhalisi isti ev-eşiyini tərk edib qaçqın-köçkünə çevrilirdi.

Doğma ocağından didərgin düşənlər arasında 12 yaşlı Vüsalın da ailəsi vardı. Çağdaş ədəbiyyatımızda artıq imzasını təsdiqləmiş, əvvəlcə şeirlərində, daha sonralar nəsr əsərlərində hələ erkən yaşlarından taleyində dərin şırımlar açmış Qarabağ faciələrini, qanlı müharibənin vurduğu yaraları əks etdirən gənc, istedadlı qələm sahibi, tanınmış yazıçı-publisist, ssenarist Vüsal Nurunu deyirəm. Əslən qarabağlı olan, 1981-ci ildə Ağdamda doğulmuş Vüsal dünyaya göz açdığı şəhərin müsibətlərinin şahidi olmuşdu. Qarabağın dayağı sayılan Ağdam kökündən baltalanır, növbəti nişangaha çevrilmiş şəhər qan girdabında boğulurdu. Neçə müddətdən bəri döyüşən Ağdamın artıq nəfəsi təngiyirdi. Adamlar yurd yerlərindən quştək perikmişdi, düşmənlə üz-üzə qalan Ağdamın dərd içini yandırırdı. Bütün bunlar Vüsalın uşaqlıq və yeniyetməlik çağlarının ağrılı gerçəkliyi, acı xatirələri idi. Bəlkə elə bu üzdən onun Qarabağ

mövzusunda yazdığı bədii nümunələr çox təbii və inandırıcıdır. Yazıçının "Qaraqaşlı" romanı kimi. Müəllif bu əsəri ilə Qarabağ hadisələrini, qanlı savaşın gətirdiyi fəlakətləri ürək ağrısı ilə təsvir etməyi bacarıb. Roman, ilk növbədə, əks etdirdiyi dövrün ovqatı, haləti ilə səsləşməsi, milli kimliyimizə güzgü tutması ilə yadda qalır.

Roman sənətinin tarixi inkişaf yolunu, təkamülünü tədqiq edən tanınmış tənqidçi, filologiya elmləri doktoru İradə Musayeva bu ədəbi janrı epik təfəkkürün təzahürü hesab edir. Onun fikrincə, "roman janrı ictimai-siyasi, sosial ziddiyyətlərin kəskinləşdiyi dövrdə, müharibələr, inqilablar... zamanında, hadisələrin fərdi, şəxsi sferadan çıxıb milli və qlobal problemlərlə əlaqələndiyi məqamlarda aktuallaşır". Vüsal Nurunun "rəsmini çəkdiyi" zaman kəsiyinin xarakterik cəhətlərini çatdırmaq üçün bu gün çoxlarının müraciət etdiyi, çox oxunan, daim inkişafda olan roman janrına müraciət etməsi bu baxımdan daha məqbuldur. Epik təfəkkür sərgiləyən yazıçının üzləşdiyimiz münaqişəni, hərb qovğasını cəmiyyət kontekstində təhlil etmək səyləri, müqayisə aparmaq bacarığı diqqəti cəlb edir. Müəllifin öz baxış bucağı, yanaşma tərzi də istisna deyil.

Əsərin əvvəlində bəhs olunan qollu-qamətli Dağdağan ağacı isə kənd camaatının iman yeri, güman yeriydi. Ağbirçək analar, qız-gəlinlər bu müqəddəs ağacın budaqlarına rəngli parçalar, baş örtüklərini bağlayır, arzu-diləklərinin nə vaxtsa gerçək olacağına inanırdılar. Romanın ilk səhifəsində oxuyuruq: "O tərəfin də, bu tərəfin də qadınları Dağdağana inanırdı. Onların Dağdağanı Tanrının elçisi idi... Hamının anasıydı Dağdağan ağacı, bircə ana dualarını bilirdi. Yalvarırdı ki, araya qan düşməsin".

Heyhat... Az keçmədi ki, ara qarışdı, məzhəb itdi, naxələf qonşunun başladığı qanlı müharibə ilə üz-üzə qaldıq.

Əsəri oxuduqca 90-cı illər Qarabağ insanının yaşam tərzi, erməni quldurların hücumlarına məruz qalan dinc əhalinin ağır həyatı göz önündə canlanır. Müəllif vaxtilə şahidi olduğu vaqeələri, dədə-baba yurdundan didərgin düşmüş insanların mənəvi-psixoloji durumunu real lövhələrlə təsvir edib. Əsərdə bitkin obrazlar qalereyası, bütövlükdə aid olduğu cəmiyyətin səciyyəvi cəhətlərini ifadə edən ayrı-ayrı tiplər, xarakterlərlə qarşılaşırıq. Hadisələrin məğzi həm dialoqlar, həm də müəllifin özünəməxsus zəngin təhkiyəsi ilə çatdırılır. Güc-bəla ilə silah-sursat tapan yurd müdafiəçilərinin erməni vandallarına qarşı ölüm-dirim savaşını izlədikcə yazıçının bu mücadiləni əsl xalq mübarizəsi kimi nəzərə çatdırmasını təqdir edirik. Müəllif əzəli torpaqlarımızın işğalı ilə barışmayan insanların etirazının, yağılara qarşı mübarizəsinin dolğun mənzərəsini yaratmağa nail olub.

Hələ Milli Ordumuzun formalaşmadığı bir dövr idi. Xalq mübarizəsinin önündə gedən cəsur İbad fərasətli, yurdcanlı oğulları başına cəm edib, könüllülərdən ibarət dəstə yaradır. Bu dəstələrdə birləşən, elin-

obanın yağmalanmasına dözməyən igidlər düşmən üzərinə şimşəktək şığıyır, ermənilərin döyüş nöqtələrini, canlı qüvvəsini məhv edir, silah-sursatını, texnikasını qənimət götürürlər. Əsərin baş qəhrəmanı İbadın və silahdaşlarının biri digərinə bənzəməyən döyüş əhvalatları maraqla oxunur. Müəllif sanki bu odlu savaşı, bu vuruşları seyr edir və hadisə yerindən reportaj yayımlayır. Xüsusən İbadın gecəyarısı düşmənin təmas xəttini keçib, postları adlayaraq, dağın döşündəki hərbi hissəni dağıtması, həmçinin, apardığı digər partizan döyüşlərinin dinamik təsvirləri fikrimizə sübutdur.

Vüsal Nurunun yaradıcılığında ictimai notlar bütöv bir baxış, hadisə kimi üzə çıxdığından, oxucu özünü baş verən dəhşətli olayların içində hiss edir.Yazıçı baş qəhrəmanının və onun çiyindaşlarının yurdun hər qarışı uğrunda qətiyyətli mübarizəsinin quduz düşmənlə göz-gözə qalan insanlara xoş ümid, inam bəxş etdiyini canlı, rəvan dillə nəql edir.

Əsərdə Qarabağ savaşının alovlandığı ilk dövrdə Mərkəzdən ermənipərəst rəhbərlərin verdiyi göstərişə əsasən, azərbaycanlı əhalidən dədə-babadan qalmış ov tüfənglərinin zor gücünə yığılması səbəbindən yaranan əndişə, etiraz göz önündə canlandırılır. Haqsızlıq baş alıb gedir: qoluzorlu havadarları ermənilərə silah-sursat ötürür, bizimkilərin isə olan-qalan yarağını belə əllərindən alırlar. Mövsüm kişi əsərdə ən çox diqqətçəkən surətlərdəndir. Kişilik simvolu olan, özü kimi mərd oğullar – yurd müdafiəçiləri böyüdən, ən çətin vaxtlarda kənd camaatına həmişə əl uzadan dəyirmançı Mövsümün göz bəbəyitək qoruyub saxladığı, "Qaraqaşlı" adlandırdığı tüfəngin vaxtilə dost saydığı Arakelin evindən tapılması xəbis erməni xislətini bizə bir daha xatırladır. "Əmanətini gətirdim" deyən İbad "Qaraqaşlı"nı atasına verəndə Mövsüm kişinin əlləri həyəcandan titrəmiş, övladları bu məğrur, heç kəsə baş əyməyən insanın ilk dəfə gözlərinin yaşardığını sezmişdi. Amma bu, sevinc göz yaşları idi. Əsərdən belə bir qənaət hasil olur ki, "Qaraqaşlı" tapılıb doğma ocağa qayıtdısa, qürurumuz, heysiyyətimiz qayıdacaq, Azərbaycan kişisi işğal illərindəki xəcalət sindromundan qurtulacaq. Tanınmış ədəbiyyatşünas alim, tənqidçi Nərgiz Cabbarlının təbirincə desək, "Gerçək hadisələrin gerçək təsviri içərisində, hər şeydən əvvəl, əsərin adına çevrilmiş "Qaraqaşlı" tüfəngi simvolik məna yükü ilə obrazlaşır. Əvvəlcə itirilən, daha dəqiq desək, əldən alınan, daha sonra – İbad öz vətənini qorumağa başlayanda isə, geri qaytarılan gücün, qüvvənin, şərəfin simvolu kimi görünür".

İbadın başçılığı ilə Qaradağlı könüllülərinin Amaras monastrında əsir saxlanan, işgəncə verilən qız-gəlinlərimizi azad edib Ağdam və Ağcabədidəki hospitallara göndərməsi səhnələrini həyəcansız oxumaq olmur. Bədnam, işğalçı ermənilərin – Monte, Levon, Tatos, Mxitar və Arakellərin, azğın düşmənə havadarlıq edən Qarçakovların iç üzünü açan bu əsər insani, milli və bəşəri ağrıların, üzüntülərin, dərd-kədərin və bu

kimi nəsnələrin bədii təzahürüdür. İşğala "yox" deyən İbadın söylədiyi: "Bu torpağı kim qorumalıdır... Orda bizim uşaqlığımız yanır, ən gözəl günlərimiz yanır. Bizim yorulmağa haqqımız yoxdur. Ermənilərin qarşısında, öz torpağımızda gözükölgəli yaşamaqdansa, ölmək yaxşıdır..." fikri əsərin ana xəttini təşkil edir. Qeyd etmək yerinə düşər ki, müəllifin bu romandakı azərbaycançılığı onun yurdsevərliyi ilə üzvü surətdə qovuşub. Bu əsər həm də böyük tərbiyəvi gücə malikdir, düşmənə nifrət hissi aşılayır, yeni nəslin vətənpərvərlik ruhunu, mübarizə əzmini artırır. "Qaraqaşlı" xalqın tarixi taleyi ilə bağlı önəm kəsb edən siyasi hadisələri, unudulmayan mənəvi dəyərlərimizi, qan yaddaşımıza yazılmış faciələrimizi vətəndaşlıq yanğısı ilə çatdıran sanballı əsərdir.

Qarışıq nikahlı ailələrin hərb qovğası, etnik münaqişəylə üzləşdikləri illərdə miskin, əlacsız durumu, iztirabları, yaşadığı gərgin günlər Sabir müəllimin, onun arvadı – erməni qızı Mayranuşun, övladları Azər və Azərinin timsalında nəzərə çatdırılır. Müəllif bu qəbildən olan ailələrin faciəsini eyni kənddə yaşayan erməni və azərbaycanlı qonşuların bir-birilə əsəbi dialoqları, səs-küyü az qala ərşə bülənd olan dava-dalaşı fonunda nəql edir. Yaxınlaşan düşmənin əlinə keçməmək üçün elatı köç edən kəndlərin sakinləri, gözünün yaşı qurumayan şəhid anaları, dul gəlinlər körpə qızını qucağına almış Mayranuşu öz aralarında görərkən onu didib-parçalamaq istəsələr də, rəhmə gəlib əl saxlayır, "şeytana lənət" – deyirlər.

Ayağı çat-çat olan yollar-rizlər intizarla əsl sahiblərini gözləyirdi. Üzümüz gülmür, könlümüz açılmırdı. Yurd nisgilli qəlbimizə qaranlıq çökmüş, dərd gətirən zülmət gecə qapqara donunun ətəkləriylə sanki bəxtimizi, ömrümüzü-günümüzü çulğalamışdı. Amma hardasa yol üstə, nə vaxtsa taleyimizə düşəcək bir Zəfər vardı. Bu Qələbəni yaxınlaşdırmaq üçün eniş-yoxuş bilmədən yollar qət edib, mənzil başına yetişməliydi igidlərimiz.

Nəhayət, həmin gün gəlib çatdı. Erməni silahlı birləşmələrinin ardı-arası kəsilməyən təxribatlarından cana doymuş oğullarımız öz müdrik Sərkərdəsinin – Ali Baş Komandanın rəhbərliyi ilə əks-hücum əməliyyatlarına başladılar. Cəmi 44 gün çəkən haqq-ədalət savaşımız Azərbaycan Ordusunun rəşadətli əsgər və zabitlərinin hünəri ilə bizə Zəfər sevincini yaşatdı. İşğaldan azad edilən Qarabağımız indi əsl sahiblərinin nəfəsi, qayıdışı ilə canlanır, xoşbəxt günlərini salamlayır. Qarabağ həqiqətlərini illər boyu bütün ağrı-acısıyla qələmə alan söz adamları, o cümlədən doğma Ağdamı işğaldan qurtulmuş gənc nasir Vüsal Nuru da indi Qələbəmizi tərənnüm edən əsərlər yazır.



***Zemfira MƏHƏRRƏMLİ***







**MAHMUD ƏHMƏD**
**DÜNYANI BƏLADAN**
**TÜRK QURTARACAQ**
**BAKI, "YAZIÇI" NƏŞRİYYATI, 2022**

Bu kitabda şairin son illərdə yazdığı şeirləri, "Türk oğluyuq, hünərliyik" adlı lirik poeması yer alıb. Şeirlər və poemada Türkiyə ilə Azarbaycanın əbədi qardaşlığından, xalqlarımızın eyni soy-kökdən gəlməsindən, 44 günlük Vətən müharibəsində qələbəmizdən bəhs olunur.




**ESMİRA FUAD**
**"44 GÜNLÜK VƏTƏN MÜHAİBƏSİ**
**GÜNEY AZƏRBAYCAN ƏDƏBİYYATINDA"**
**"QARABAĞ ZƏFƏRİ GÜNEY VƏ QUZEY**
**AZƏRBAYCAN YAZARLARININ GÖZÜNDƏ"**
**BAKI, "ELM VƏ TƏHSİL" NƏŞRİYYATI, 2022**

Tərtibçi müəllif Esmira Fuadın təqdim etdiyi birinci kitabda Cənubi Azərbaycandan olan müəlliflərin Qarabağa, Qarabağın işğal illərinə və 44 günlük zəfərinə həsr edilmiş şeirləri toplanmışdır. Şeirlərdə otaylı soydaşlarımız illərlə işğalda qalan torpaqlarımızın harayını, xalqımızın ağrı-acısını poetik dillə ifadə ediblər. Şeirlərdən otaylı soydaşlarımızın Bütöv Azərbaycan sevgisi, soya, kökə bağlılıq aydın görünür.

İkinci kitabda Bütöv Azərbaycan şairlərinin Qarabağ, Vətən müharibəsi haqqında yazılmış şeirləri toplanıb, otaylı-butaylı şairlər oxuculara təqdim olunub.

Kitablar Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə çap olunub.




**ƏLİ RZA XƏLƏFLİ**
**DAĞLARDA DUMAN QALDI**
**BAKI, "GƏNCLİK", 2022**

Əli Rza Xələflinin "Dağlarda duman qaldı" adlı kitabına son illərdə qələmə aldığı poemaları daxil edilib. Kitabın birinci hissəsində yer alan silsilə poemalarda XVIII əsrdən üzü bəri baş verən tarixi hadisələr liro-epik üslubda təsvir olunur. Bu əsərlərdə tarix və şəxsiyyət, insanın mənəvi azadlığı problemi qoyulur. Kitabın ikinci hissəsindəki iki xatirə-poemada XX əsrdə cərəyan etmiş hadisələr, xüsusilə, Qarabağın faciəli hadisələri qələmə alınıb.




**ELNARƏ QARAGÖZOVA**
**"YUNUS OĞUZ, HƏYATI VƏ YARADICILIĞI"**
**BAKI, "ELM VƏ TƏHSİL" NƏŞRİYYATI, 2022**

Monoqrafiya Yunus Oğuzun həyat və yaradıcılığına həsr edilib. "Giriş", "Həyatı", "Yunus Oğuzun poetik dünyası", "Nəsr yaradıcılığı", "Müstəqillik dövrü tarixi romanının yaradıcısı" və "Nəticə" hissələrindən ibarət olan araşdırmada Yunus Oğuzun yaradıcılığı geniş aspektdə ilə araşdırılıb, onun yazıçı kimliyi və Azərbaycan ədəbiyyatında mövqeyi işıqlandırılıb. "İstifadə edilmiş ədəbiyyat"da Yunus Oğuzun əsərləri və haqqında yazılmış yazılar sistemləşdirilib.

Kitabın elmi redaktoru akademik İsa Həbibbəyli, rəyçiləri filologiya elmləri doktoru Vaqif Yusifli və filologiya üzrə fəlsəfə doktoru Lalə Həsənovadır.

***REDAKSİYA HEYƏTİ:***
**Ağasəfa, Afaq Məsud, Azad Yaşar, Asim Yadigar, Elçin, Emin Piri, Elşad Barat, Əli Əmirli, Firuzə Məmmədli, Firuz Mustafa, Firudin Qurbansoy, Məmməd Oruc, Mustafa Çəmənli, Nərgiz Cabbarlı, Novruz Nəcəfoğlu, Paşa Əlioğlu, Paşa Qəlbinur, Rəfael Hüseynov, Rəfail Tağızadə, Rəhilə Qeybullayeva, Rüstəm Kamal, Seyran Səxavət, Südabə Ağabalayeva, Vahid Əziz, Vaqif Yusifli, Vaqif Bəhmənli, Vilayət Quliyev, Vüsal Nuru**